**BAKI BİZNES UNİVERSİTETİ**

# Bakı Biznes Universiteti

# İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında

# H E S A B A T

**Hesabat Bakı Biznes Universitetinin Elmi Şurasının 11.12.2023-cü il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.**

**Tarix: 11.12.2023-cü il**

**İmza:** ____________

**Rektor: i.e.d., prof. İ.M.Abbasov**

**M.Y.**

AZƏRBAYCAN RESPUBLİKASI BAKI BİZNES UNİVERSİTETİ

**2023-cü il**

**Mündəricat**

**I. Giriş** 3

1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar 3

2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki 4

3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair 5

**II. Təhsil müəssisəsinin özünütəhlili** 7

4. Özünütəhlil qiymətləndirilməsinin icmalı 7

5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri 133

6. Təşkilat komissiyasının gəldiyi nəticələr və qeydlər 135

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər** 152

# I. Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| **Təhsil müəssisəsinin adı** | **Bakı Biznes Universiteti** |
|---|---|
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Verilmə tarixi: 07.08.2017<br>Müddəti: 01.05.2021-dək |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | Verilmə tarixi: 19.01.2016<br>Müddətsiz |
| Təhsil müəssisəsinin rəhbəri | i.e.d., prof., İbad Musa oğlu Abbasov |
| Fakültələrin sayı | 2 (iki) |
| Kafedraların sayı | 9 (doqquz) |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 11 (on bir) |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 9 ixtisas<br>17 ixtisaslaşma |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 3: 5309.01 – Ümumi iqtisadiyyat<br>5312.01 – Sahə iqtisadiyyatı<br>5303.01 – Mühasibat uçotu |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalanların sayı<br>Bakalavriat: 3192<br>Magistratura: 247<br>Doktorantura: 25<br>Elmlər doktorluğu proqramı üzrə: |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 118 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 70 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | e-mail: info@bbu.edu.az<br>(012) 431-79-17, (012) 431-91-18 |
| Müəssisənin hüquqi ünvanı | AZ 1122, Bakı, H.Zərdabi pr. 88a |
| Müəssisənin faktiki ünvanı | AZ 1122, Bakı, H.Zərdabi pr. 88ª |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

### Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| 1. | p.e.n., prof. Əmirxanov Sabir Abuzər oğlu | sədr | sabir.amirkhanov@bbu.edu.az |
| 2. | i.e.d., prof. Abbasov İbad Musa oğlu - rektor | üzv | rektor@bbu.edu.az |
| 3. | Heydarov Cavidan Rəsul oğlu – prorektor (təlim-tərbiyə işləri üzrə) | sədr müavini | heydarov.cavidan@bbu.edu.az |
| 4. | i.e.n., dos. Əzizova Xatirə Cinayiddin qızı – prorektor (tədris işləri üzrə) | üzv | azizova.khatira@bbu.edu.az |
| 5. | h.ü.f.d. Abbasova Məleykə Nazim qızı – prorektor (elmi işlər üzrə) | üzv | abbasova.maleyka@bbu.edu.az |
| 6. | i.ü.f.d. Bayramov Eşqin Əli oğlu – prorektor (beynəlxalq əlaqələr üzrə) | üzv | eshgin.bayramov@bbu.edu.az |
| 7. | i.e.n., dos. Sadıqov Rahim Fərahim oğlu – «Menecment və marketinq» kafedrasının müdiri | üzv | rahim.sadigov@bbu.edu.az |
| 8. | i.ü.f.d. Musayev Şahin Tofiq oğlu – «Biznes və menecment» fakültəsinin dekanı | üzv | shahin.moussayev@bbu.edu.az |

### Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1. | p.e.n., prof. Əmirxanov Sabir Abuzər oğlu | Ümumi rəhbərlik |
| 2. | i.e.d., prof. Abbasov İbad Musa oğlu - rektor | Strateji inkişaf istiqaməti üzrə |
| 3. | Heydarov Cavidan Rəsul oğlu –prorektor (təlim-tərbiyə işləri üzrə) | Keyfiyyət təminatı istiqaməti üzrə |
| 4. | i.e.n., dos. Əzizova Xatirə Cinayiddin qızı – prorektor (tədris işləri üzrə) | Təlim və tədris istiqaməti üzrə |
| 5. | h.ü.f.d. Abbasova Məleykə Nazim qızı – prorektor (elmi işlər üzrə) | Elmi – tədqiqat istiqaməti üzrə |
| 6. | i.ü.f.d. Bayramov Eşqin Əli oğlu –prorektor (beynəlxalq əlaqələr üzrə) | Beynəlmiləlləşmə istiqaməti üzrə |
| 7. | i.e.n., dos. Sadıqov Rahim Fərahim oğlu – «Menecment və marketinq» kafedrasının müdiri | İdarəetmə sistemi istiqaməti üzrə |
| 8. | i.ü.f.d. Musayev Şahin Tofiq oğlu – «Biznes və menecment» fakültəsinin dekanı | İnfrastruktur istiqaməti üzrə |

### 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

Azərbaycan Respublikası Təhsil Nazirinin 26 may 2017-ci il tarixli 75 nömrəli Əmrinin 4-cü bəndinin icrası ilə bağlı Akkreditasiya Komissiyasının yekun arayışında qeyd olunan iradların aradan qaldırılması və verilmiş tövsiyələrlə əlaqədar Bakı Biznes Universitetində görülmüş işlər barədə məlumat Bakı Biznes Universitetinin 19 iyul 2017-ci il tarixli 916 saylı məktubu ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinə təqdim edilmişdir.

| № | İradlar | Görülmüş işlər |
|---|---|---|
| 1. | Universitetdə kargüzarlıq işinin təşkili «Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat»a, Azərbaycan Respublikası Prezidenti tərəfindən 14.07.2015-ci il tarixli 569 nömrəli Fərmanla təsdiq edilmiş təlimata uyğun deyil. Universitetdə rəhbərlik əmrlərinin qeydiyyatı və paylanması kitabı Universitet Ümumi Şöbəsində deyil kadrlar şöbəsində hazırlanır və saxlanılır. | Akkreditasiya Komissiyasının araşdırması əsnasında BBU-nun idarə edilməsində ali təhsil müəssisələrinin dövlət standartlarına uyğunluğuna qoyulan tələbləri təmin etmək məqsədilə Universitetin kargüzarlıq işinin daha da yaxşılaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilmiş, çatışmazlıqlar aradan qaldırılmışdır. Belə ki, «Ümumi şöbə»yə müdir təyin edilmiş, Universitetdə kargüzarlıq işinin təşkili «Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat»a, Azərbaycan Respublikası Prezidenti tərəfindən 14.07. 2015-ci il tarixli 569 nömrəli Fərmanla təsdiq edilmiş təlimata uyğun aparılır. Universitetdə rəhbərlik əmrlərinin qeydiyyatı və paylanması kitabı BBU-nun «Ümumi şöbə»sində hazırlanır və saxlanılır. |
| 2. | Bakı Biznes Universitetində dekan və kafedra müdiri vəzifələrinin tutulması zamanı Azərbaycan Respublikası Təhsil Nazirinin 09.03.2011-ci il tarixli 400 nömrəli əmri ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları»na riayət olunmayıb. Universitet rəhbərliyinin təyinatı ilə kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması həyata keçirilib. | Bakı Biznes Universitetində dekan və kafedra müdiri vəzifələrinin tutulması prosesində Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.03.2011-ci il tarixli 400 nömrəli əmri ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları»na riayət olunmuşdur. Belə ki, Universitet Elmi Şurasının müvafiq qərarı ilə Universitetdə kafedra müdiri və fakültə dekanı vəzifələrinə seçki yolu ilə təyinolunmanın şəffaf və obyektiv aparılması məqsədi ilə yaradılan Komissiyanın fəaliyyəti və təqdimatları əsasında kafedra müdiri və dekan vəzifələrinin tutulması seçkili yolla həyata keçirilmişdir. |
| 3. | Azərbaycan Respublikası Təhsil Nazirinin 11.10.1994-cü il tarixli 595 nömrəli əmri ilə təsdiq olunmuş «Ali məktəblərin kafedraları haqqında» müvəqqəti Əsasnamənin 7-ci maddəsinə əsasən kafedra ən azı 3000 saat dərs yükünün mövcudluğunda yaradılır normasına zidd olaraq 2014/2015-ci tədris ilində Bakı Biznes Universitetində «Sənayenin təşkili və bələdiyyə idarəetməsi\| kafedrası 2628 saat dərs yükü ilə fəaliyyət göstərib. | Azərbaycan Respublikası Təhsil Nazirinin 11.10. 1994-cü il tarixli 595 nömrəli əmri ilə təsdiq edilmiş «Ali məktəblərin kafedraları haqqında» müvəqqəti Əsasnamənin 7-ci maddəsinə əsasən artıq Universitetin bütün kafedralarında dərs yükü 3000 saatdan çox bölüşdürülmüşdür və gələcək tədris illərində də bu normaya əməl ediləcəkdir. |

| | | |
|---|---|---|
| 4. | Fakültə Elmi Şura protokollarında səsvermə nəticələri əks olunmur. | BBU-nun hər iki - «İqtisadiyyat və idarəetmə» və «Biznes və menecment» fakültələrinin Elmi Şuralarının protokollarında səsvermə nəticələri əks edilmişdir. |
| 5. | - Tələbələr arasında dekanlıq, kafedra, ayrı-ayrı müəllimlər barədə fikirlərinin öyrənilməsi ilə bağlı sorğular keçirilsin.<br>- Tyutorlar tələbələrin peşə hazırlığında nəzarətçi kimi yox, yardımçı kimi iş aparsınlar. | BBU-da tədris prosesinin təşkilində Akkreditasiya Komissiyasının tövsiyəsinə əməl edilmişdir:<br>- Tələbələr arasında dekanlıq, kafedra, ayrı-ayrı müəllimlər barədə fikirlərin öyrənilməsi məqsədilə hər semestrdə sorğular keçirilmişdir.<br>- Universitetdə fəaliyyət göstərən tyutorlar tələbələrin peşə hazırlığında yardımçı kimi iş aparırlar. Belə ki, tyutorların belə fəaliyyətlərinin gedişi və hesabatları müvafiq olaraq fakültə elmi şuralarında dinlənilmiş, müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir. |
| 6. | Aşağı göstəricilərin qeydə alındığı ixtisaslarda problemin haradan irəli gəldiyini araşdıraraq keyfiyyətin yüksəldilməsi üçün müvafiq tədbirlərin görülməsi. | BBU-da təhsil proqramları üzrə hazırlığın keyfiyyətinin daha da artırılması istiqamətində mütəmadi tədbirlər həyata keçirilməkdədir. Belə ki, tədrisdə keyfiyyətə nəzarəti gücləndirmək məqsədilə BBU Elmi Şurasında mütəmadi keçirilən müzakirələr və qəbul edilən qərarların yerinə yetirilməsinə ciddi nəzarət olunur. |
| 7. | BBU-da kadrlar işinin təşkili ilə bağlı müəyyən edilmiş çatışmazlıqlar:<br>- Əməkdaşların əsasən yarısı (47 nəfəri) 51 yaşdan yuxarı mütəxəssislərdir.<br>- Bakı Biznes Universitetinin İnsan resursları şöbəsində işə qəbul əmrlərinin bəziləri Azərbaycan Respublikası Əmək Məcəlləsinə, 29.09.1997-ci il tarixli Təhsil işçilərinin qulluqçu vəzifələrinin vahid tarif-ixtisas sorğu kitabçasına və Azərbaycan Respublikası Prezidenti tərəfindən 27.09.2003-cü il tarixli Fərmanla təsdiq edilmiş «Dövlət idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat»a uyğun tərtib edilməmişdir.<br>- 4 nəfər professor-müəllimin əsas iş yeri başqa müəssisələrdir. Həmin professor-müəllimlər Bakı Biznes Universitetində əsas iş yerindən iş icazələri olmadan 0,5 ştat işləyirlər. | BBU-da kadr təminatı işinin daha da təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər görülmüşdür:<br>- Əməkdaşların gəncləşdirilməsi işi Universitet tərəfindən hazırlanan kadrlar hesabına yerinə yetirilir.<br>- Bakı Biznes Universitetinin «Kadrlar şöbəsi»ndə işə qəbul əmrləri Azərbaycan Respublikası Əmək Məcəlləsinə, 29.09.1997-ci il tarixli Təhsil işçilərinin qulluqçu vəzifələrinin vahid tarif-ixtisas sorğu kitabçasına və Azərbaycan Respublikası Prezidenti tərəfindən 27.09.2003-cü il tarixli Fərmanla təsdiq edilmiş «Dövlət idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat»a uyğun tərtibi təmin edilmişdir.<br>- Əsas iş yerindən dəvət olunan və BBU-da 0.5 ştatda çalışan professor-müəllim heyətinin əsas iş yerlərindən iş icazələri alınmışdır. |
| 8. | BBU əməkdaşları daha çox beynəlxalq jurnallarda (xüsusən Thomson reuters, Scopus kimi bazalarda yer alan jurnallarda) məqalə çap etdirsinlər. Bu həm universitetin həm də ölkəmizin elmi mühitdə reytinqinə müsbət təsir göstərəcəkdir. | Bakı Biznes Universitetinin professor-müəllim heyəti tərəfindən həm Universitetin, həm ölkəmizin elmi mühitində reytinqinə müsbət təsir göstərən beynəlxalq səviyyədə reytinqli jurnallarda məqalələrin çapına ciddi nəzarət edilir. Bu işin daha səmərəli həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin vasitəsilə «Thomson Reuters» agentliyinə daxil nəşrlərə Bakı Biznes Universitetinin giriş imkanı yaradılmışdır. Hal-hazırda Universitetin mətbu orqanı olan «Audit» jurnalının da bu Agentliyə daxil edilməsi istiqamətində tədbirlər həyata keçirilir. |

| | | |
|---|---|---|
| 9. | - Mübadilə üçün gedən müəllim və tələbə sayı qənaətbəxş hesab edilməklə yanaşı BBU-nun mübadilə ilə xarici universitetlərdən qəbul elədiyi tələbə mövcud deyil. Mübadilə ilə gələn tələbələr üçün şərait və imkanlar yaradılmalıdır.<br>- Daha çox xarici tələbə cəlb etmək üçün fəaliyyətlərin təşkili (Təhsil sərgilərində iştirak). | BBU-da tələbə və müəllim mübadiləsi məqsədilə müvafiq şərait və imkanlar yaradılmış, daha çox xarici ölkədən tələbə cəlb etmək üçün beynəlxalq sərgilərdə iştirak edilmişdir. Bir sıra nüfuzlu xarici universitetlərlə əməkdaşlıq müqavilələri bağlanmış, o cümlədən, Çexiya Respublikasının Tomas Bata Universiteti ilə magistr səviyyəsində ikili diplom barədə imzalanmış müqavilələrin icrasına başlanmışdır. |
| 10. | Bakı Biznes Universitetinin professor-müəllim heyətinə və tələbə kontingentinə tibbi xidmət (həkim məsləhəti, ambulator müayinə, müalicə və s.) M.Ə.Mirqasımov adına Respublika Klinik xəstəxanası tərəfindən göstərilir. Bu xidmət tərəflər arasında qarşılıqlı razılaşma əsasında bağlanılmış 2013-2018-ci illər üçün müqavilənin şərtlərinə əsasən icra edilir. | Bakı Biznes Universitetinin professor-müəllim heyətinə və tələbə kontingentinə tibbi xidmət (həkim məsləhəti, müayinə, müalicə və s.) Universitetin özündə yaradılmış, tibbi avadanlıqlarla təmin edilmiş tibb məntəqəsi vasitəsilə həyata keçirilir. |
| 11. | Tələbə sosial aktivliyini artıracaq dərnək və klub fəaliyyətlərinin gücləndirilməsi gənclərin boş vaxtlarını daha da səmərəli keçirməsinə şərait yarada bilər. | Bakı Biznes Universitetində tələbələrin sosial aktivliyini artırmaq məqsədilə fəaliyyət göstərən şahmat, dama, futbol, «Vinqçun», voleybol və özfəaliyyət dərnəkləri, «Gənc biznesmenlər» şən və hazırcavablar klubu komandası və rəqs kollektivi vasitəsilə gənclərin asudə vaxtlarının daha da səmərəli keçirilməsinə şərait yaradılmışdır. |

## II. Təhsil müəssisəsinin özünütəhlili

### 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Bakı Biznes Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) F-181 nömrəli 14.11.2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Bakı Biznes Universitetinin özünütəhlili Elmi Şuranın 13.09.2023-cü il tarixli iclasının qərarı ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

**1. Strateji inkişaf**

**1.1. Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri.**

**1.1.1. ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti.**

Bakı Biznes Universiteti 2009-cu ildən başlayaraq, Strateji İnkişaf Planlarını qəbul etmişdir. Hazırki dövrə qədər Bakı Biznes Universitetində 4 Strateji İnkişaf Planı qəbul edilmişdir. Onlar müvafiq olaraq 2009-2013, 2014-2018, 2019-2023, 2024-2028-ci illəri əhatə edir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akkreditasiya edəcəyi dövrlər üzrə isə Universitetin 2014-2018 və 2019-2023-cü illəri əhatə edən 2 strateji inkişaf planı mövcuddur. Strateji inkişaf planları "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasında təhsilin İnkişafı üzrə Dövlət Strategiyasına, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"a, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin müvafiq normativ-hüquqi aktlarına uyğundur.

Strateji inkişaf planlarında Universitet özünün Ali məqsədini (missiya), Gələcəyə baxışını (vizyon), strateji istiqamətlərini, hədəflərini, prioritetlərini müəyyən etmişdir. Bütün strateji inkişaf planlarında Universitetin mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilmiş və gələcək perspektivləri müəyyən olunmuşdur.

Bakı Biznes Universitetinin 2014-2018-cü illər üzrə strateji inkişaf planı aşağıdakı istiqamətləri əhatə edir:

1. Tədrisdə məzmun-keyfiyyət dəyişikliyi;
2. Professor-müəllim heyətinin potensialının yüksəldilməsi;
3. Maddi-texniki bazanın müasir standartlara uyğun yenidən qurulması və təkmilləşdirilməsi;
4. Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi;
5. Tələbə kontingentinin formalaşdırılması və məzunlarla iş;
6. Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi.

2019-2023-cü illər üçün strateji inkişaf planı aşağıdakı qeyd edilən istiqamətləri özündə ehtiva edir:

1. Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması.
2. Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı.
3. Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi tədbirləri.
4. Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi.
5. Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri).
6. Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət.
7. Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq.

2024-2028-ci illəri əhatə edən strateji inkişaf planının əsas istiqamətləri isə aşağıdakılardır:

1. Universitetin rəqəmsallaşdırılması tədbirlərinin həyata keçirilməsi.
2. Sahibkar universitetə çevrilməsi istiqamətində tədbirlər.
3. Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi
4. Elmi-tədqiqat işlərinin beynəlxalq standartlarda həyata keçirilməsi, beynəlxalq xülasələndirmə bazalarında nəşr olunması (SCOPUS, Web of Science) istiqamətində tədbirlər.
5. Tələbə kontingentinin formalaşdırılması, tələbə-məzunların peşə bacarıqlarının sertifikatlaşdırılması və onların karyera inkişafı.
6. Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsi tədbirləri.
7. Professor-müəllim heyətinin sertifikatlaşdırılması, pedaqoji kadr hazırlığı.
8. Ölkənin aparıcı universitetinə çevrilməsi istiqamətində tədbirlərin hazırlanması və icrası.

Strateji inkişaf planlarının əsasında müvafiq orta və qısamüddətli icra planları tərtib olunmuş, müvafiq strukturlar üçün plan müddəalarının icrası təmin edilmişdir.

**1.1.2. ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu.**

Bakı Biznes Universitetinin hər bir Strateji inkişaf planında onun əsas məqsədi (missiyası) müəyyən olunmuşdur. Strateji inkişaf planlarında müəyyən edilmiş missiyalar Universitetin fəaliyyətinin əsas məqsədlərinə və hədəflərinə tam uyğundur.

Strateji inkişaf planı təhsildə keyfiyyətin təmin edilməsi, elmi-tədqiqat fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsi, maddi-texniki bazanın zənginləşdirilməsi və rəqəmsal texnologiyalardan istifadə və universitetin beynəlmiləlləşməsi istiqamətlərində uğurlu addımların atılmasına dair strateji məqsədləri özündə əks etdirir. Belə ki, bütün strateji inkişaf planlarında missiyalar universitetin strateji məqsəd və hədəfləri ilə uyğunluq təşkil etməklə əmək bazarlarının, dövlət orqanlarının və biznes strukturlarının kadr sahəsində müasir tələbatlarının lazımi səviyyədə ödənilməsinə yönəldilmişdir.

**1.1.3. SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu.**

Strateji inkişaf planlarında müəyyən edilmiş gələcəyə strateji baxış (vizyon) beynəlxalq standartlara uyğunlaşmaqla, əmək bazarında Universitetin mövqeyinin güclənməsinə, ölkəmizdə və regionda iqtisadi inkişafa töhfələr verilməsinə hədəflənmişdir. Bütün planlarda strateji baxışlar Bakı Biznes Universitetinin ölkəmizdə fəaliyyət göstərən ali təhsil müəssisələri arasında, habelə əmək bazarında mövqeyinin güclənməsinə xidmət edir.

Strateji planlarda müəyyən edilmiş strateji məqsəd və hədəflər Universitetin vizyonunun reallaşmasına yönəlmişdir.

**1.1.4. SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu.**

Strateji inkişaf planlarında prioritetlərlə qarşıya qoyulan məqsəd və hədəflər bir-birinə uyğun olmaqla, Universitetin kompleks inkişafına imkan yaradır.

**1.1.5. SİP - də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi.**

Strateji inkişaf planlarında strateji baxışda qoyulmuş əsas strateji istiqamətlər Universitetin müvafiq sahələrinin inkişafına yönəlir. Bu məqsədlə də Strateji inkişaf planında keyfiyyət təminatı strategiyası, tədrisdə məzmun keyfiyyətinin yaxşılaşdırılması, professor-müəllim heyətinin potensialının yüksəldilməsi, maddi-texniki bazanın inkişafı, müasir rəqəmsal tədris texnologiyalardan istifadə olunması, tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması, beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsi və sair bu kimi zəruri məsələlər strateji hədəf kimi qarşıya qoyulmuşdur.

**1.1.6. SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması**

Strateji inkişaf planlarının reallaşdırılması məqsədilə qısa, ortamüddətli dövrlər ərzində görüləcək tədbirləri özündə əks etdirən taktiki və icra planları tərtib edilmişdir. Taktiki icra planı strateji planda nəzərdə tutulmuş strateji istiqamət və hədəflərin həyata keçirilməsinin konkret dövrlərini və mərhələlərini nəzərdə tutmuşdur. Taktiki icra planı strateji məqsədlərə nail olunmasının aralıq məqsədlərini özündə əks etdirir.

**1.1.7. SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi.**

Strateji inkişaf planlarında kəmiyyət və keyfiyyət göstəriciləri müəyyən olunmuşdur. Həmin göstəricilər müvafiq dövrlər üzrə tədris, elmi-tədqiqat fəaliyyəti, beynəlxalq əlaqələr, maddi-texniki baza, rəqəmsallaşmaya aid fəaliyyətlərin kəmiyyət, habelə keyfiyyət baxımından icrasını nəzərdə tutur.

**1.1.8. SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti**

Strateji inkişaf planlarında nəzərdə tutulmuş fəaliyyətlərin icrası məqsədyönlü formada həyata keçirilmişdir. Belə ki, planın icrası üçün insan resursları arasında əmək bölgüsü aparılmış, müvafiq əmək müqavilələri və xidməti müqavilələr bağlanmaqla, onların qarşısında müvafiq öhdəlikləri yaradılmışdır. Strateji planların icrası ilə əlaqədar maliyyə resurslarının bölgüsü smeta-xərc sənədlərində öz əksini tapmışdır.

**1.1.9. SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti.**

Strateji İnkişaf Planı Universitetin strateji fəaliyyət planı olduğu üçün həmin planda nəzərdə tutulmuş tədbirlərin icrası Universitetin cari fəaliyyət sisteminin və prosesinin tərkibi kimi qəbul edilir. Bu baxımdan Strateji inkişaf planında icrası tələb olunan tədbirlərin maliyyələşdirilməsi Universitetin ümumi xərc-smeta sənədlərində nəzərdə tutulur.

**1.1.10. SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti**

Strateji inkişaf planlarında sosial məsuliyyət və elmi yeniliklərin cəmiyyətə transferi bir neçə istiqamətlərdə nəzərdə tutulmuşdur. Universitet özünün elmi-tədqiqat istiqamətlərini strateji dövr üçün müəyyən edir. Elmi-tədqiqat istiqamətlərində elmi-praktik konfranslar keçirilir, elmi nəşrlər həmin istiqamətdə yerinə yetirilir. Bakı Biznes Universiteti elmi məqalələrin, elmi tədqiqatların əqli mülkiyyətinin və müəlliflik hüquqlarının qorunmasını təmin edir.

**1.1.11. Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması.**

Cari il üçün Strateji inkişaf planı hazırlanarkən əvvəlki illərdə icra vəziyyətləri nəzərə alınmışdır. Bu məqsədlə strateji inkişaf planları tərtib edilərkən əvvəlki strateji inkişaf planlarının icrası vəziyyəti araşdırılmış və təhlil edilmişdir. Habelə, Strateji inkişaf planları tərtib edilərkən mövcud vəziyyətin GZİT təhlili aparılmış, Universitetin daxili imkanları araşdırılmış, mövcud vəziyyətlərdən istifadə etmək imkanları müəyyən olunmuş, problemli vəziyyətlər öyrənilmiş və gələcəyə perspektiv nöqteyi-nəzərindən baxılmışdır.

**1.1.12. SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması**

Strateji inkişaf planlarında Universitetin güclü və zəif tərəfləri araşdırılmış, zəif tərəflərin gücləndirilməsi, güclü tərəflərin isə daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi tədbirləri planlaşdırılmışdır.

Sözügedən planlarda Universitetin ətraf mühitində mövcud olan imkanlar öyrənilmiş, onlardan istifadənin səmərəliliyinin artırılması yolları araşdırılmış, mövcud və ya baş verə biləcək təhdidlərin və risklərin qarşısının alınması və ya onların neqativ təsirlərinin aradan qaldırılması yolları müəyyən olunmuşdur.

**1.1.13. SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

Strateji inkişaf planlarının hazırlanmasında maraqlı tərəflərin iştirakı təmin olunmuş, onların rəy və təklifləri nəzərə alınmışdır. Belə ki, Strateji inkişaf planının hazırlanmasında Universitetin strateji tərəfdaşı olan əmək bazarının nümayəndələrinin, tələbə və magistrantların,

habelə məzunların iştirakı təmin olunur və həmin şəxslər plan müddəalarının hazırlanmasında rol oynamaqla, müzakirələrində iştirak edirlər.

**1.1.14. SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi**

Strateji inkişaf planının tərtib və icra olunması Universitetin struktur bölmələri tərəfindən həyata keçirilir. Yəni 2019-2023-cü illərə dair 5 illik Strateji İnkişaf Planının tərtib olunması və fəaliyyət istiqamətləri üzrə icrasında aşağıdakı struktur vahidləri və şəxslər məsuliyyət daşımışlar.

| | **Fəaliyyət istiqamətləri və starteri məqsədlər** | **Məsul şəxslər** |
|---|---|---|
| 1. | Tədrisdə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması. | X.Əzizova, kafedra müdirləri, İKT mühəndisi, E.Bayramov, G.Bayramova |
| 2. | Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı. | İ.Abbasov, X.Əzizova, M.Abbasova, E.Bayramov |
| 3. | Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi tədbirləri | Rektorluq |
| 4. | Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi. | M.Abbasova |
| 5. | Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri) | S.Əmirxanov, Dekanlar, Karyera mərkəzi |
| 6. | Beynəlxalq əlaqələr və beynəlmiləlləşmə istiqamətində innovativ fəaliyyət. | İ.Abbasov, E.Bayramov, G.Bayramova |
| 7. | Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq | İ.Abbasov S.Əmirxanov, E.Bayramov, G.Bayramova |

## 1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi

### 1.2.1. SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövri (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti

Strateji inkişaf planlarının icrası üzrə Universitetin struktur bölmələrinin dövri (illik, yarımillik) hesabatları tərtib olunur. Həmin hesabatlar strateji dövr üzrə aralıq mərhələlərin nəticələri hesab olunur. Hesabatlar semestrin və tədris ilinin sonunda müvafiq struktur vahidlərinin iştirakı ilə Universitetin Elmi Şurasında müzakirə edilir.

### 1.2.2. SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövri (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

Bakı Biznes Universitetində strateji inkişaf planı müvafiq dövrlər üzrə icra olunur. Hər bir struktur vahidi strateji inkişaf planının ona aid hissəsinin icra vəziyyəti ilə əlaqədar hesabat tərtib edir, həmin hesabatlar Elmi Şuraya təqdim olunur. Strateji inkişaf planlarının icrası üzrə

Universitetin struktur bölmələrinin dövri (yarımillik, illik) hesabatları Universitetin Elmi Şurasında müzakirə olunur.

**1.2.3. SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti**

Strateji inkişaf planının monitorinqi dövrü olaraq ildə bir dəfə rektorluq qarşısında hesabatla dinlənilir və müvafiq nəticələr üzrə qərar qəbul olunur.

**1.2.4. SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti**

Strateji inkişaf planlarının monitorinqinin nəticələri Universitetin Elmi Şurasında müzakirə edilir. Müzakirə zamanı Strateji inkişaf planının icrasının vəziyyəti barədə hesabat Elmi Şurada məruzə olunur. Daha sonra isə müzakirələr aparılmaqla sözügedən planın qiymətləndirilməsi həyata keçirilir.

**1.2.5. SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti**

Strateji inkişaf planlarının monitorinqinin nəticələrinə görə müvafiq tədbirlər həyata keçirilir. Belə ki, planın icrası zamanı aşkarlanmış nöqsan və kənarlaşmaların həlli yolları müəyyənləşdirilir, onların aradan qaldırılması növbəti tədris ilinin iş planına daxil edilir. Strateji inkişaf planlarının monitorinqinin nəticələri, maraqlı tərəflər üçün əlçatanlığı təmin edilir. Qərarlardan çıxarış Universitetin elan lövhələrində, Universitetin saytında işıqlandırılır.

## 2. Keyfiyyət təminatı

### 2.1. Keyfiyyət təminatı siyasəti

**2.1.1. ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı**

Bakı Biznes Universiteti 2016-cı ildən hazırki dövrə qədər Avropa Komissiyasının həyata keçirdiyi Erasmus+ proqramı çərçivəsində Ali təhsildə Potensialın Gücləndirilməsi profilinə uyğun olaraq Azərbaycan ali təhsil müəssisələri tərəfindən qazanılmış 5 islahat xarakterli beynəlxalq qrant layihəsindən üçünün qalibi və koordinatoru olmuşdur. Bu layihələrdən biri də məhz təhsildə keyfiyyət təminatıdır. Belə ki, Bakı Biznes Universiteti 2017-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyi, Respublikamızın 11 ali təhsil müəssisəsi və Avropanın 4 nüfuzlu universitetinin üzv olduğu «Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi» adlı Erasmus+ layihəsini uğurla icra etmişdir. Layihə çərçivəsində Universitetdə Keyfiyyət Təminatı Mərkəzi yaradılmış, Əsasnaməsi təsdiq edilmiş və təhsildə keyfiyyət siyasətinin əsas hədəfləri müəyyən olunmuşdur. Keyfiyyət istiqamətində aparılan mühüm fəaliyyətlərdən biri də Universitetin davamlı daxili keyfiyyət təminatı siyasətinin hazırlanması olmuşdur. Keyfiyyət təminatı siyasətinin hazırlanması məqsədilə Universitetdə rektorun 11.09.2018-ci il tarixli 161 nömrəli əmri ilə Komissiya yaradılmışdır. Sözügedən Komissiyada rektor, tədris işləri üzrə prorektor, elmi işlər prorektor,

təlim-tərbiyə işləri üzrə prorektor, beynəlxalq əlaqələr üzrə prorektor, keyfiyyət təminatı mərkəzinin direktoru və layihələr şöbəsinin müdiri təmsil olunmuşdur. Siyasət Universitetin Elmi Şurasının 27 dekabr 2018-ci il tarixli qərarı (Protokol № 4) ilə təsdiq edilmişdir.

Universitetin keyfiyyət təminatı siyasətinin müzakirəsi məqsədilə Komissiya tərəfindən keçirilən iclasda Universitetin daxili və xarici maraqlı tərəflərinin iştirakı təmin edilmişdir (26.11.2018 ci il, protokol №1). Belə ki, siyasətin müzakirəsi və təsdiqi proseslərində daxili maraqlı tərəflər qismində, həmçinin Universitetin rektoru, müvafiq sahələr üzrə prorektorlar, keyfiyyət təminatı mərkəzinin direktoru, mərkəzin əməkdaşları, fakültə dekanları, kafedra müdirləri, müvafiq şöbə müdirləri, professor-müəllim heyəti və hər bir fakültədən tələbə nümayəndələri iştirak etmişlər. Xarici maraqlı tərəflər kimi isə Bakı Biznes Universitetinin sıx əməkdaşlıq etdiyi əmək bazarı nümayəndələri və məzunları təmsil edən nümayəndə iştirak etmişdir. Bununla yanaşı Bakı Biznes Universitetinin koordinatoru olduğu, «Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi» adlı Erasmus+ layihəsi çərçivəsində həyata keçirilən təlimlər və görüşlər zamanı keyfiyyət təminatı üzrə təcrübəli xarici ekspertlərlə keyfiyyət siyasətinə dair geniş fikir mübadilələri aparılmışdır.

Bakı Biznes Universitetinin keyfiyyət təminatı siyasəti sənəddə qeyd edildiyi kimi Universitetin Strateji İnkişaf Planının hədəflərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. Keyfiyyət təminatı siyasəti «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Boloniya təhsil prosesinin müddəalarına, «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»na, «Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi»nə, «Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar»a , «Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»na, «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»ə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinə əsaslanır. Sənədin müvafiq müddəasına uyğun olaraq Keyfiyyət siyasəti dünyada baş verən qlobal proseslər, çağırışlar və əmək bazarının daim dəyişən tələblərinə uyğun olaraq nəzərdən keçirilir və zərurət olduqda dəyişikliklər aparılır.

Bakı Biznes Universitetinin Keyfiyyət siyasəti müvafiq Komissiya tərəfindən dünyada gedən qlobal proseslər, sürətli texnoloji inkişaf, əmək bazarının dəyişən tələbləri və beləliklə təhsilin qarşısında duran beynəlxalq və milli çağırışlar nəzərə alınmaqla 2023-cü ildə yenidən tərtib edilmişdir. Komissiya tərəfindən yenilənmiş siyasət sənədi 13.09.2023-cü il tarixində Universitet Elmi Şuranın müzakirəsinə təqdim edilmiş və təsdiqlənmişdir (Protokol№ 01) (https://bbu.edu.az/az/news/23/338, https://bbu.edu.az/az/news/23/335). Sənəd yeniləndikdən sonra universitetin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

**2.1.2. ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti**

Keyfiyyət təminatı siyasəti dəqiq əsaslandırılmış, keyfiyyət məqsədləri aydın müəyyən

edilmiş və ümumilikdə sənəd anlaşılan üslubda yazılmışdır. Belə ki, Siyasət sənədi «Giriş», «Keyfiyyət məqsədləri», «Siyasətin nəzərdən keçirilməsi və monitorinqi», «Siyasətin paylaşılması», «Nəticə» hissələrindən ibarətdir. Sənədin «Giriş» hissəsində siyasətin yekun məqsədi ifadə edilərək siyasətin əsaslandığı müvafiq qanunverici-normativ aktlar, dövlət proqramları, təlimatlar əks etdirilmişdir. «Keyfiyyət məqsədlərin»də isə universitetin strateji inkişaf planının hədəfləri və xüsusilə «Avropa ali təhsil məkanında daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar»ın daxili keyfiyyət təminatı üzrə 10 standartına uyğun olaraq universitetin qarşıya qoyduğu əsas keyfiyyət istiqamətləri dəqiq, eyni zamanda icra mexanizmləri göstərilməklə müəyyən edilmişdir. «Siyasətin nəzərdən keçirilməsi və monitorinqi» hissəsində sənədin icrası, monitorinqi və mütəmadi olaraq yenilənməsinin vacibliyi öz əksini tapıb. «Siyasətin paylaşılması» bölməsində sənədin bütün maraqlı tərəflərə ötürülməsi aydın şəkildə ifadə edilir. Sənədin «Nəticə» hissəsi isə Bakı Biznes Universitetinin keyfiyyət mədəniyyətinə nail olmaq üçün əsas öhdəliyini özündə əks etdirir.

### 2.1.3. ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

Keyfiyyət təminatı siyasətinin əlçatan olması və universitetin bütün struktur vahidləri, eləcə də professor-müəllim heyətinin keyfiyyət siyasəti barədə məlumatlılığının təmin olunması məqsədilə Universitetdə bir sıra tədbirlər görülmüşdür. Keyfiyyət siyasəti çap edilərək Keyfiyyət Təminatı Mərkəzi tərəfindən universitetin bütün struktur vahidlərinin hər birinə (kafedralara, dekanlıqlara, şöbələrə) təqdim edilmişdir. Keyfiyyət Təminatı Mərkəzinin iş planına uyğun olaraq dekanlıqlarda, kafedralarda, şöbələrdə Keyfiyyət siyasəti barədə məlumatlandırma sessiyaları keçirilmiş və Universitetin keyfiyyət məqsədləri geniş şəkildə şərh edilmişdir. Siyasət sənədi kafedralarda, dekanlıqlarda və digər iş kabinetlərində müvafiq məlumat lövhələrinə də yerləşdirilmişdir. Eyni zamanda, siyasət sənədinin bütün maraqlı tərəflər, o cümlədən professor-müəllim heyəti üçün əlçatanlıq səviyyəsinin yüksəldilməsi məqsədilə sənədin elektron versiyası Bakı Biznes Universitetinin rəsmi internet səhifəsində «Tədris» - «Keyfiyyət təminatı» bölməsində elektron qaydada bütün istifadəçilər üçün açıq şəkildə yerləşdirilmişdir.https://bbu.edu.az/uploads/files/Keyfiyyet%20teminati/Keyfiyy%23U0259t%20t%23U0259minat%23U0131%20siyas%23U0259ti.pdf

2019-cu ilin oktyabr ayında Bakı Biznes Universitetinin bütün administrativ və akademik heyətinin Universitetin keyfiyyət siyasəti barəsində məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə qiymətləndirmə prosesi də həyata keçirilmişdir. Rektorun 16 sentyabr 2019-cu il tarixli 203 nömrəli əmri ilə komissiya yaradılmış, komissiya tərəfindən inzibati və professor-müəllim heyətinin qiymətləndirilməsi aparılmışdır. Qiymətləndirmənin nəticəsi «yaxşı» olaraq müəyyənləşdirilmişdir.

Bununla yanaşı, siyasət sənədinin müvafiq müddəasına əsasən universitetdə yeni işə

qəbul olmuş professor-müəllim heyətinə, o cümlədən rəhbər vəzifəli şəxslərə siyasət barədə müvafiq struktur vahidlərində məlumatlandırma sessiyaları keçirilir və Keyfiyyət siyasəti təqdim olunur.

**2.1.4. Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarə-etmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)**

Bakı Biznes Universitetinin keyfiyyət təminatı siyasətinin yekun məqsədi sənəddə göstərildiyi kimi dövlətin təhsil siyasəti, cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyinin artırılması ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, müasir düşüncəli, rəqəmsal səriştələrə malik yüksək ixtisaslı kadr-mütəxəssislərin hazırlanmasından ibarətdir.

Bakı Biznes Universitetinin Keyfiyyət təminatı siyasəti sənədi aşağıdakı mühüm istiqamətləri əhatə etməklə keyfiyyətin yüksək səviyyədə təmin edilməsinə yönəldilmişdir:

1. İxtisaslar üzrə təhsil proqramlarının müasir tələblər nəzərə alınmaqla hazırlanması və proqramların optimallığının, mobilliyinin təmin olunması üçün davamlı qiymətləndirmələrin aparılması, ixtisaslar üzrə təhsil proqramlarında peşə bacarıqlarının ön plana çəkilməsi;
2. Bacarıqlara yönəlmiş tələbəyönümlü tədris sisteminin formalaşdırılması, təhsilalanların keyfiyyət göstəricilərinin müəyyən edilməsi;
3. Tələbə qəbulu kampaniyasının səmərəli təşkili, tələbə mobilliyinin təmin edilməsi və onların peşə bacarıqları üzrə sertifikatlaşdırılması;
4. İnfrastrukturun müasirləşdirilməsi, təhsilalanların yüksək keyfiyyətli təhsil resursları ilə təmin edilməsi və resursların beynəlxalq standartlara çatdırılması;
5. Universitetin tələbə dəstək sisteminin mövcud vəziyyətinin təkmilləşdirilməsi;
6. Professor-müəllim heyətinin peşə bilik və bacarıqlarının yüksəldilməsi ilə yanaşı, yeni təlim metodlarının daim təkmilləşdirilməsi, professor-müəllim heyətinin fəaliyyətinin attestasiya qaydalarının təkmilləşdirilməsi;
7. Maraqlı tərəflərin şəffaf, dəqiq, dürüst məlumatlarla təmin edilməsi üçün informasiya sisteminin mövcudluğu və ictimaiyyət üçün informasiya əlçatanlığının təmin olunması;
8. İdarəetmənin təkmilləşdirilməsi, «Özünütəhlil və qiymətləndirmə» hesabatının hazırlanması.

Bakı Biznes Universitetinin Keyfiyyət təminatı siyasəti keyfiyyət məqsədlərindən göründüyü kimi təhsil proqramlarından başlayaraq dövri özünütəhlil və qiymətləndirməyə qədər geniş əhatə dairəsinə malikdir.

### 2.2. Daxili keyfiyyət təminatı mexanizmləri

**2.2.1. ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)**

Bakı Biznes Universitetində daxili keyfiyyət təminatı sisteminin səmərəli təşkili və idarə edilməsi məqsədilə Keyfiyyət təminatı mərkəzi fəaliyyət göstərməkdədir. Bakı Biznes Universitetinin Elmi Şurasının 14 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə (Protokol № 01) Keyfiyyətə nəzarət mərkəzinin yaradılması barəsində qərar verilmişdir. 15 sentyabr 2017-ci il tarixində isə rektorun 210 nömrəli əmri ilə Keyfiyyətə nəzarət mərkəzi yaradılmışdır. Bakı Biznes Universiteti rektorunun 17 sentyabr 2018-ci tarixli 181 nömrəli əmri ilə direktor və 4 əməkdaşdan ibarət olmaqla Mərkəzin struktur tərkibi müəyyən edilmişdir. 28 dekabr 2022-ci il tarixində isə rektorun 306 nömrəli əmri ilə Keyfiyyət təminatı mərkəzinin tərkibi yenilənmişdir. Mərkəzin fəaliyyətinin təşkili məqsədilə Bakı Biznes Universitetinin Elmi şurasının 17.11.2017-ci il tarixli 03 nömrəli qərarı ilə Keyfiyyət nəzarət mərkəzinin əsasnaməsi təsdiq edilmişdir. Əsasnamədə müvafiq olaraq keyfiyyət təminatı mərkəzinin hüquq və vəzifələri, eyni zamanda mərkəz direktoru və əməkdaşlarının vəzifə öhdəlikləri, təlimatları müəyyən edilmişdir. Keyfiyyət təminatı mərkəzinin 2017-ci ildən cari dövrə qədər hər tədris ili üzrə görüləcək işlər üzrə məsul şəxslər təyin edilməklə tərtib edilmiş illik fəaliyyət planları və hesabatları mövcuddur.

### 2.2.2. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

Bakı Biznes Univeristetində, yeni təhsil proqramlarının hazırlanması və tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə rektorun 08 sentyabr 2020-ci tarixli 109 nömrəli əmri ilə "Mühasibat", "Maliyyə", "Menecment", "Marketinq", "Biznesin idarə edilməsi", "Dövlət və bələdiyyə idarəetməsi", "İqtisadiyyat", "Sosial iş", "Tərcümə", "Beynəlxalq ticarət" ixtisasları üzrə ayrı-ayrılıqda komissiyalar yaradılmışdır. Universitetdə həyata keçirilən kadr dəyişiklikləri və yeni ixtisasın mövcudluğu nəzərə alınaraq, rektorun 01 dekabr 2022-ci il tarixli 279 nömrəli əmri ilə "Mühasibat", "Maliyyə", "Menecment", "Marketinq", "Biznesin idarə edilməsi", "Dövlət və bələdiyyə idarəetməsi", "İqtisadiyyat", "Sosial iş", "Tərcümə", "Beynəlxalq ticarət və logistika" və "İnformasiya texnologiyaları" ixtisasları üzrə komissiyalar yeni tərkibdə müəyyən edilmişdir. Sözügedən komissiyalarda təhsil proqramı üzrə proqram rəhbərlərinin, təhsilalanların, akademik heyət üzvlərinin, ixtisas profilinə uyğun olaraq əmək bazarı nümayəndələrinin təmsil olunması da təmin edilmişdir.

### 2.2.3. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

Bakı Biznes Universitetində ixtisaslar üzrə keyfiyyətin yüksəldilməsi üzrə fəaliyyət göstərən komissiyaların fəaliyyət planları universitetin strateji inkişaf planı ilə uyğunluq təşkil edir. Belə ki, komissiyalar Universitetin strateji inkişaf planının tədrisin keyfiyyətinin yüksəldilməsi, professor-müəllim heyətinin potensialının artırılması, elmi-tədqiqat işlərinin keyfiyyətinin yaxşılaşdırılması, əmək bazarı və məzunlarla iş və digər hədəflərini nəzərə almaqla fəaliyyət planlarını tərtib edir və ona uyğun fəaliyyətlərini həyata keçirirlər.

**2.2.4. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması**

Bakı Biznes Universitetində 2017-ci ildən fəaliyyətə başlamış Keyfiyyət Təminatı Mərkəzi keyfiyyət üzrə fəaliyyətlərin icrasına nəzarətə görə məsuliyyət daşıyır. Mərkəz tərəfindən sorğuların təşkili, illik hesabatların hazırlanması, hesabatlar əsasında təkmilləşdirmə tədbirlərinin müəyyənləşdirilməsi istiqamətində fəaliyyətlər icra edilmişdir. Universitetdə keyfiyyətin idarəedilməsi sistemi "PDCA" modelinə uyğun olaraq planla, icra et, yoxla, fəaliyyətə keç mexanizmlərinə əsaslanır. Universitetin Keyfiyyət Təminatı Mərkəzi tərəfindən fəaliyyətlərin sistemli həyata keçirilməsinə dəstək məqsədilə «Daxili keyfiyyət təminatı prosesləri üzrə fəaliyyət mexanizmi» adlı təlimat hazırlanmışdır.

**2.2.5. ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması**

Bakı Biznes Universitetinin Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşlarının vəzifə səlahiyyətləri müəyyən edilmişdir. Sözügedən məsələlər müvafiq olaraq Keyfiyyət Təminatı Mərkəzinin əsasnaməsində mərkəzin direktorunun və əməkdaşlarının «vəzifə təlimatı» vasitəsilə tənzimlənir. Keyfiyyət Təminatı Mərkəzinin direktoru və əməkdaşlarının «Vəzifə təlimatı»na əsasən proseslər, tədbirlər və addımlar üzrə məsuliyyətlərin və səlahiyyətlərin bölgüsü:

Mərkəzin direktoru:

- Mərkəzin fəaliyyətini təşkil edir və səlahiyyətləri çərçivəsində mərkəzin tabeliyində olan şöbələrin fəaliyyətinə dair icrası məcburi olan göstərişlər verir və onların icrasına nəzarət edir;
- Tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra intizamına riayət etmələrinə nəzarət edir;
- Mərkəz üzrə Universitetin Elmi Şurasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini rektorluğa təqdim edir;
- Mərkəzin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Universitet rəhbərliyinə təqdimatlar verir;
- Mərkəzin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Universitetin struktur bölmələrindən və digər qurumlarından zəruri məlumatları alır;
- Universitet rektorunun tapşırığı ilə dövlət orqanlarında və təşkilatlarda keçirilən tədbirlərdə Mərkəzi təmsil edir;
- Öz səlahiyyətləri daxilində bu Əsasnamə ilə müəyyən edilmiş qaydada beynəlxalq əməkdaşlığa dair danışıqlar aparır və beynəlxalq tədbirlərdə iştirak edir;
- Mərkəzin fəaliyyəti barədə Universitet rektoruna mütəmadi olaraq hesabatlar və

məlumatlar verir;

- Mərkəzin fəaliyyət istiqamətinə müvafiq işlərin təşkili vəziyyətini öyrənir, təhlil edir və bu işin yaxşılaşdırılması üçün təkliflər hazırlayıb Universitet rəhbərliyinə təqdim edir.

- Mərkəzin hazırladığı bütün sənədlərin elmiliyi, aktuallığı, keyfiyyəti, həmçinin əməkdaşların əmək və icra intizamının təmin edilməsi üçün məsuliyyət daşıyır.

Bilməlidir:

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nı, «Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi»ni, «Ömürboyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsi», «Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar»ı, təhsillə bağlı digər normativ-hüquqi aktların və hüquqi sənədlərdən irəli gələn məsələləri, tədris-metodik sənədlərin, hesabatların hazırlanması qaydasını.

Mərkəzin əməkdaşları

Vəzifə öhdəlikləri:

- Mərkəz əməkdaşları tapşırılan sahə üzrə Mərkəzin iş planını, lazımi materialları toplayır, sənədləri hazırlayır, nəzərdə tutulan işlərin tələb olunan səviyyədə həyata keçirilməsini təşkil edir.

- Mərkəzin fəaliyyət istiqaməti üzrə işin təşkili vəziyyətini öyrənir, onu təhlil edir, tədrisin səmərəliliyinin yüksəldilməsinə kömək göstərir və təkliflər verir. Əməkdaş tapşırılan sahə üzrə vəziyyəti öyrənib, ümumiləşdirilməsini təşkil edir. Bu işə aid arayış və sənədləri Universitetin Elmi Şurasında müzakirəyə çıxarır.

- Təlim məşğələlərinin və təcrübələrin keyfiyyəti, tədris planı və proqramlarının yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir.

Bilməlidir:

«Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununu, «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nı, «Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi»ni, «Ömürboyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsi», «Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar»ı, təhsillə bağlı digər normativ-hüquqi aktların və hüquqi sənədlərdən irəli gələn məsələləri, tədris-metodik sənədlərin, hesabatların hazırlanması qaydasını.

### 2.2.6. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Bakı Biznes Universitetinin daxili keyfiyyət təminatı sistemi üzrə fəaliyyət planı təhsil proqramlarının keyfiyyəti, fakültələrdə tələbələrlə iş, akademik heyətin dəstəklənməsi, inzibati

heyətin məmnunluğu, işəgötürənlərlə əməkdaşlıq, təhsilalanların məmnunluğu və onlara dəstək xidmətlərini özündə ehtiva etməklə geniş əhatə dairəsinə malikdir.

**2.2.7. ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

Bakı Biznes Universitetinin koordinatorluğu ilə icra edilən «Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi» adlı Erasmus+ layihəsinin xüsusi məqsədlərindən biri də məhz ali təhsil müəssisələrində keyfiyyət təminatı sisteminin inkişaf etdirilməsi məqsədilə daxili keyfiyyət təminatı üzrə metodik tövsiyənin hazırlanması olmuşdur. Belə ki, Bakı Biznes Universitetinin rəhbərliyinin, layihə konsorsiumunun üzvü olan Avropa universitetlərinin ekspertlərinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və bəzi yerli ali təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə 2022-ci ildə «Ali təhsildə daxili keyfiyyət təminatı» adlı metodik tövsiyə hazırlanmış və nəşr edilmişdir. Sözügedən Metodik tövsiyə barədə təhsil ictimaiyyətinin məlumatlılığını təmin etmək məqsədilə təqdimat mərasimi keçirilmiş, çap olunmuş şəkildə nüsxələri ali təhsil müəssisələrinə təqdim edilmiş və əlçatanlığını yüksəltmək üçün elektron variantı layihənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

**2.2.8. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

Bakı Biznes Universitetində struktur bölmələrin daxili keyfiyyət təminatı sistemi üzrə (fakültə, şöbə və mərkəzlər) icrası yekunlaşmış və hazırda icra olunan fəaliyyətlərinin aralıq və illik hesabatları aparılır. Eyni zamanda aşağıda qeyd edilən istiqamətlərdə təhlil və qiymətləndirmələr həyata keçirilmişdir:

• Təhsil proqramlarının keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması;

• Tələbələrin məmnunluq sorğusunun aparılması;

• Professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi;

• Elmi tədqiqata dair akademik heyət arasında sorğular;

• Karyera xidmətlərinin keyfiyyəti barəsində sorğu;

• Əmək bazarı nümayəndələrinin məmnunluğuna dair təhlil;

• Elmi-tədqiqat fəaliyyətinin təhlili və illər üzrə hesabatlar;

• Universitetin SWOT analizi;

• Maraqlı tərəflərin xəritəsinin müəyyən edilməsi;

• Tələbə qəbulunun səmərəli təşkili üzrə təhlillər.

**2.2.9. Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti**

Bakı Biznes Universiteti koordinatoru olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən Azərbaycan Respublikası Təhsil Nazirliyi, Respublikamızın 11 ali təhsil müəssisəsi və Avropanın 4 nüfuzlu universitetinin üzv olduğu «Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi» adlı Erasmus+ layihəsi çərçivəsində keyfiyyət təminatı üzrə Özünütəhlil Hesabatı hazırlanmış və layihənin xarici ekspertləri tərəfindən qiymətləndirilmişdir.

**2.2.10. Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26 may 2017-ci il tarixli 75 nömrəli Əmrinin 4-cü bəndinin icrası ilə bağlı Akkreditasiya Komissiyasının yekun arayışında qeyd olunan iradların aradan qaldırılması və verilmiş tövsiyələrlə əlaqədar Bakı Biznes Universitetində görülmüş işlər barədə müvafiq hesabat 19 iyul 2017-ci il tarixli məktubla Azərbaycan Respublikası Təhsil Nazirliyinə təqdim edilmişdir. Qeyd olunmuş irad və tövsiyələr universitetin növbəti illər üzrə fəaliyyət planlarında nəzərə alınmış və bu istiqamətdə ciddi uğurlar əldə edilmişdir.

**2.2.11. ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

Bakı Biznes Universitetində maraqlı tərəflərin rəyləri və məmnunluq səviyyəsinin öyrənilməsi məqsədilə akademik heyət, inzibati heyət, təhsilalanlar, məzunlar və əmək bazarının nümayəndələri arasında sorğular keçirilir. Sorğular Keyfiyyət Təminatı Mərkəzi və müvafiq struktur bölmələr tərəfindən illik fəaliyyət planına uyğun olaraq təşkil olunur. Universitetdə son 5 il ərzində professor-müəllim heyəti və inzibati heyət, tələbələr, məzunlar və işəgötürənlər arasında çox sayda sorğular təşkil olunmuşdur. Keçirilmiş sorğuların təhlilindən sonra müvafiq olaraq nəticələr Keyfiyyət Təminatı Mərkəzinin iclaslarında müzakirə olunur, zərurət olduqda təklif və tövsiyələr hazırlanaraq Elmi Şuranın gündəliyinə təqdim olunur. Təhsilalanlar və məzunlar arasında keçirilən sorğuların əsas məqsədi Universitetin ümumi fəaliyyətinin qiymətləndirilməsi, fənlər və karyera xidmətinin təşkili üzrə məmnunluq səviyyəsinin ölçülməsi, o cümlədən qazanılmış kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğunun müəyyən edilməsidir. Qeyd etmək lazımdır ki, sorğu anketləri ilə yanaşı Bakı Biznes Universitetində fokus qruplar formatında məzunlar və işəgötürənlərlə mütəmadi görüşlər də təşkil olunur.

### 2.3. Keyfiyyət təminatı mədəniyyəti

#### 2.3.1. ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Keyfiyyətin təmin olunması başda Bakı Biznes Universitetinin rəhbərliyi olmaqla, bu prosesləri bilavasitə icra edən məsul şəxslərin marağındadır və gündəlik iş fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Belə ki, universitetin rektoru, prorektorları və digər rəhbər şəxslər bütün keyfiyyət prosesləri və tədbirlərində yaxından iştirak etməklə öz töhfələrini verirlər. Təsadüfi deyil ki, universitetin Keyfiyyət Təminatı Mərkəzi bilavasitə rektora tabedir və Elmi Şura qarşısında hesabatlıdır. Həmçinin rəhbərliyin keyfiyyət məsələlərinə nəzarət və proseslərdə iştirakçının yüksək səviyyəsini təmin etmək məqsədilə Mərkəzə rəhbərlik prorektor tərəfindən həyata keçirilir, əməkdaş qismində isə şöbə müdirləri təmsil olunurlar. Eyni zamanda keyfiyyətin yüksəldilməsi məqsədilə Universitetdə fəaliyyət göstərən komissiya və işçi qruplarının tərkibində rektor, prorektorlar, dekanlar, kafedra və şöbə müdirlərinin təmsil olunması məhz keyfiyyət yönümlü proseslərdə və nəzarət tədbirlərində rəhbərliyin iştirak səviyyəsinin yüksəldilməsi məqsədinə xidmət etməkdədir.

Universitetdə akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə kommunikasiya Keyfiyyət Təminatı Mərkəzi tərəfindən tənzimlənir. Mərkəz keyfiyyət təminatı məsələləri ilə əlaqədar struktur vahidləri arasında kommunikasiya yaradır, onları əlaqələndirir, iclaslarında iştirak edir, həmçinin keyfiyyət təminatı üzrə məlumatları, xəbərləri, elanları nəzərdən keçirir, elektron və ya kağız formatında maraqlı tərəflərə təqdim etməklə məlumat mübadiləsini təmin edir. Keyfiyyət təminatı üzrə kommunikasiya şəbəkəsinin sistemli idarə edilməsi məqsədilə Mərkəz tərəfindən «Bakı Biznes Universitetində İnformasiya idarəetməsinə dair təlimat» da hazırlanmışdır. (https://bbu.edu.az/uploads/files/Keyfiyyet%20teminati/M%-23U0259lumatlar%23U0131n%20idar%23U0259%20edilm%23U0259si.pdf). Həmçinin fakültə elmi şuraları, universitetin böyük elmi şurası, rektorluq tərəfindən keçirilən yarımillik və illik hesabat iclasları da strukturlararası kommunikasiyasının təmin edilməsində mühüm rol oynayır.

Qeyd edilənlərlə yanaşı, kommunikasiya şəbəkəsinin səmərəliliyinin yüksəldilməsi məqsədilə elektron sənəd-məlumat dövriyyəsinin təmin edilməsi sisteminin qurulması Universitetin yeni 2024-2028-ci illər üzrə Strateji İnkişaf Planında nəzərdə tutulmuş əsas strateji hədəflərdən biridir.

#### 2.3.2. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

Bakı Biznes Universitetində keyfiyyət təminatı sahəsində əks-əlaqənin qurulması, keyfiy-

yətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması sahəsində bir sıra müvafiq addımlar atılmışdır. Bu addımlara aşağıdakıları aid etmək olar:

• Rəhbərliyin hər tədris ilində təhsilalanlarla mütəmadi görüşləri;

• Yeni qəbul olan tələbələr üçün "Açıq qapı" günlərinin keçirilməsi;

• Professor-müəllim heyətinin fəaliyyətinin müşahidəsi və qiymətləndirilməsi;

• Administrativ heyətin fəaliyyətinin vəzifə təlimatları, fəaliyyət planları üzrə müşahidəsi;

• İşə götürənlərlə görüşlər, tədbirlər və sorğuların keçirilməsi;

• Universitetdə tələbələr, məzunlar, akademik heyət və inzibati heyət arasında məmnunluq və məlumatlılıq sorğularının həyata keçirilməsi;

• Universitetin rəsmi elektron poçt adresi vasitəsilə əks-əlaqənin təmin edilməsi;

• Müraciət, təklif və tövsiyələr üçün açıq qutuların mövcudluğu;

• Tələbələrlə administrativ və akademik heyət arasında əks-əlaqənin təmin edilməsi məqsədilə tətbiq edilən EMPRO - tədrisin elektron idarə edilməsi sisteminin tətbiqi;

• Hər gün prorektorlar tərəfindən sərbəst qəbul qrafiki;

• Audit yoxlamasının aparılması;

• Keyfiyyət mədəniyyətinin müşahidəsi üzrə akademik və inzibati heyət arasında akkreditasiyanın aparılması;

• Təlimlərin yekununda əks-əlaqə hesabatlarının hazırlanması.

**2.3.3. Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər**

Universitet rəhbərliyinin və keyfiyyət təminatı üzrə məsul şəxslərin keyfiyyət barəsində məlumatlılığı yüksək səviyyədə olmaqla ciddi töhfələr verməkdədir. Belə ki, Bakı Biznes Universitetinin koordinatorluğu ilə icra edilən «Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi» adlı Erasmus+ layihəsi çərçivəsində 2017-ci ildən etibarən Avropanın İsveç, İngiltərə, İspaniya, Litva kimi ölkələrinin aparıcı universitetlərində, o cümlədən Bakı Biznes Universitetində təcrübəli Avropa ekspertləri tərəfindən keyfiyyət təminatının bütün sahələri üzrə çoxsaylı təlimlər, seminarlar və tədbirlər keçirilmişdir. Sözügedən fəaliyyətlərdə Bakı Biznes Universitetinin bütün rəhbər heyəti yaxından iştirak etmişdir. Rektorun və prorektorların bilavasitə iştirakı ilə keyfiyyət təminatı üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi, keyfiyyət mədəniyyətinin daha da artırılması məqsədilə hər bir xarici səfərdən sonra universitetdə inzibati və akademik heyətin iştirakı ilə informasiya sessiyaları keçirilmiş və əldə edilən məlumatlar, fayda və nəticələr bölüşülmüşdür. Bununla yanaşı, rektorun müvafiq əmrinə (29.12.2019-cu il, Əmr №274) əsasən 6 yanvar 2020-ci il tarixində tədrisin keyfiyyətinin yüksəldilməsi və yeni təlim metodlarının mənimsənilməsinə dair avropalı peşəkar ekspert Dr. İnga Juknite Petreikiene tərəfindən Bakı Biznes Univeriste-

tində bütün administrativ və akademik heyətin iştirakı ilə keçirilən təlim sessiyası xüsusilə vurğulanmalıdır. Bakı Biznes Universiteti rəhbərliyinin keyfiyyət təminatı üzrə töhfələri sadəcə layihə çərçivəsindəki fəaliyyətlərlə məhdudlaşmamışdır. Belə ki, 06-10 sentyabr 2021-ci il tarixlərində universitetin əməkdaşı Gülşən Bayramova tərəfindən «Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə» sisteminin tətbiqi mövzusunda 20 saatlıq təlim proqramı Bakı Biznes Universitetinin bütün professor-müəllim heyətinin iştirakı ilə keçirilmişdir. Bu məqsədlə G.Bayramova ilə ödənişli əsaslarla 06 sentyabr 2021-ci il tarixli xidməti müqavilə imzalanmışdır.

Eyni zamanda Azərbaycanda ilk dəfə olaraq Bakı Biznes Universiteti tərəfindən Erasmus+ proqramı çərçivəsində 21-25 noyabr 2022-ci il tarixində «Ali Təhsildə Keyfiyyət Təminatı» üzrə «Beynəlxalq həftə» keçirilmişdir. Tədbirin məqsədi Bakı Biznes Universitetinin tərəfdaşı olan xarici ölkələrin ali təhsil müəssisələrinin, o cümlədən İngiltərə, İsveç, İspaniya, İtaliya, Türkiyə və Polşa universitetlərində keyfiyyət təminatında mövcud olan təcrübələrin Azərbaycanın ali təhsil müəssisələrinə ötürülməsi olmuşdur. Tədbir çərçivəsində universitetin rəhbərliyi və professor-müəllim heyəti təlim və seminarlarda fəal iştirak etmişlər.

Universitetdə keyfiyyət təminatı üzrə institusional dayanıqlılıq istiqamətində təqdirəlayiq iş və fəaliyyətlər yerinə yetirilmişdir. Bununla əlaqədar olar ilk növbədə keyfiyyətin yüksəldilməsinə xidmət edən genişmiqyaslı və iribüdcəli beynəlxalq layihələrin qazanılmasını və uğurla icrasını qeyd etmək olar. Qeyd edilən layihə ilə yanaşı Bakı Biznes Universitetinin koordinatoruluğu ilə hazırda icrası davam edən «Azərbaycan Rektorlar Konfransının yaradılması» layihəsi və BBU-nun həmmüəllifi olduğu «Azərbaycan ali təhsil sistemində sahibkarlıq ekosisteminin inkişaf etdirilməsi» adlı Erasmus+ layihələri də keyfiyyətin yüksəldilməsi istiqamətində institutsional fəaliyyətlərin bariz nümunəsidir. Xüsusilə qeyd edilməlidir ki, həm «Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi» (https://eqac.az/), həm də «Azərbaycan Rektorlar Konfransı yaradılması» layihəsinin (https://ecar.net.az/veb) səhifələri keyfiyyət fəaliyyətləri və məlumatlarının daim əlçatanlığını təmin etmək məqsədilə fəaliyyət göstərməkdədir.

İnstitusional istiqamətdə Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə Bakı Biznes Universiteti arasında təlim xidmətlərinin göstərilməsinə dair imzalanmış müqaviləni (16 nömrəli 18.08.2021ci il tarixli) də misal çəkmək olar. Müqaviləyə əsasən TKTA-nın peşəkar ekspertləri tərəfindən Bakı Biznes Universiteti əməkdaşlarına Xarici Keyfiyyət Təminatına dair təlimlər həyata keçirilmişdir. Təlimlərin əsas məqsədi Bakı Biznes Universitetinin akademik və inzibati heyətinə yeni redaksiyada təsdiq olunmuş «Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları»na, akkreditasiya qiymətləndirilməsi üçün özünütəhlilin aparılması və hesabatın yazılmasına dair geniş məlumat verməkdən ibarət olmuşdur. Bütün bunlarla yanaşı idarə-

etmənin səmərəliliyinin yüksəldilməsi məqsədilə struktur vahidlərin əsasnamələrinin (https://bbu.edu.az/az/ training/67), inzibati və akademik heyətin vəzifə öhdəlikləri üzrə təlimatın, o cümlədən təlim-tədris proseslərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə «Ali təhsilə keyfiyyət təminatı üzrə Avropa standartları və təlimatları»na uyğun təlimat və qaydaların hazırlanmasını (https://bbu.edu.az/az/ training/69) və yeni struktur vahidlərinin, eyni zamanda kafedraların nəzdində tədqiqat mərkəzlərinin yaradılmasını bu istiqamətdə atılan mühüm addımlar hesab etmək olar. İnstitusional dayanıqlılıq istiqamətində Keyfiyyət Təminatı Mərkəzinin yaradılması, Mərkəzin bütün növ resurslarla (insan resursu, ofis, texniki vəsaitlər və s.) təmin edilməsi də xüsusilə qeyd edilməlidir. Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşları daxil olmaqla universitetin 6 əməkdaşının Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən keyfiyyət təminatının qiymətləndirilməsi üzrə həyata keçirilən ekspert təliminin 3 modulunu da uğurla başa vuraraq sertifikat əldə etmələri institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər sırasına daxildir.

**2.3.4. Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətin koordinasiyası vəziyyəti**

Keyfiyyət təminatı üzrə Bakı Biznes Universitetinin strukturları arasında fəaliyyətin koordinasiyası Keyfiyyət Təminatı Mərkəzi və Rektorluq tərəfindən həyata keçirilir. Mərkəz və rektorluq keyfiyyət təminatı sisteminin Universitetdə bütün prosesləri əhatə etməsini təmin edir, müvafiq struktur bölmələr arasında keyfiyyət yönümlü fəaliyyətləri – qarşılıqlı fikir mübadilələrini, təklifləri, tövsiyələri, tədbirləri, təhlil və qiymətləndirmələrin nəticələrini müvafiq formalarda (əyani və onlayn görüşlər, iclaslar, təqdimatlar və s. formada) həyata keçirilməklə strukturlararası fəaliyyəti operativ şəkildə koordinasiya edir.

## 3. Təlim və tədris

### 3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

**3.1.1. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti**

Bakı Biznes Universitetində kadr hazırlığı 3 (üç) səviyyə üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 nömrəli «Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı», 14 iyun 2011-ci il tarixli 95 nömrəli «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı» və 15 mart 2012-ci il tarixli 65 nömrəli «Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı» qərarları ilə təsdiq edilmiş təsnifatlara əsasən aparılır:

1. Bakalavriat səviyyəsi;

2. Magistratura səviyyəsi;

3. Doktorantura səviyyəsi.

Bakalavriat səviyyəsi üzrə tələbə qəbulu aşağıdakı 11 ixtisas üzrə aparılır:

1. 050401 - Beynəlxalq ticarət və logistika;

2. 050402 - Biznesin idarə edilməsi;

3. 050404 - Dövlət və bələdiyyə idarəetməsi;

4. 050405 – İqtisadiyyat;

5. 050406 - Maliyyə;

6. 050407 – Marketinq;

7. 050408 – Menecment;

8. 050409 – Mühasibat;

9. 050807 - Sosial iş;

10. 050215 - Tərcümə (ingilis dili);

11. 050616 - İnformasiya texnologiyaları.

Magistratura səviyyəsi üzrə tələbə qəbulu aşağıdakı 9 ixtisas və 17 ixtisaslaşma üzrə aparılır:

1. 060401 - Dünya iqtisadiyyatı;
   - Beynəlxalq iqtisadi münasibətlər;
   - Azərbaycanın xarici iqtisadi əlaqələri.

2. 060402 - Mühasibat uçotu və audit;
   - İstehsal sferasında mühasibat uçotu və audit;
   - Xidmət sferasında mühasibat uçotu və audit.

3. 060403 - Maliyyə;
   - Bank işi;
   - Vergi və vergiqoyma;
   - Maliyyə nəzarəti və audit.

4. 050405 – İqtisadiyyat;
   - İqtisadiyyatın tənzimlənməsi;
   - Turizmin iqtisadiyyatı.

5. 060407 – Menecment;
   - Heyətin idarə edilməsi;
   - Menecment (istehsal sahəsi üzrə).

6. 060408 – Marketinq;
   - Marketinq (istehsal sahəsi üzrə).

7. 060410 - Dövlət və bələdiyyə idarəetməsi;

- Dövlət strukturlarında menecment.

8. 060805 - Sosial iş;

- Əhalinin sosial müdafiəsi;
- Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş.

9. 060409 - Biznesin idarə edilməsi (MBA) proqramı üzrə;

- Biznesin təşkili və idarə edilməsi (Marketinq üzrə);
- Biznesin təşkili və idarə edilməsi (Menecment üzrə).

Doktoranturaya (fəlsəfə doktoru proqramı üzrə hazırlıq) qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş «Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları»na əsasən aşağıdakı ixtisaslar üzrə aparılır:

1. 530801 - Ümumi iqtisadiyyat;
2. 531201 - Sahə iqtisadiyyatı;
3. 530301 - Mühasibat uçotu.

Bakı Biznes Universitetində müvafiq ixtisasların təhsil proqramlarında və tədris planlarında nəzərdə tutulan fənlərin tədrisinin aparılması üçün ağıllı lövhələrlə təchiz olunmuş auditoriyalar, laboratoriyalar, ixtisas kabinetləri, kompüter otaqları, linqafon otaqları, tədris-metodik təminat və s. ilə təmin olunmuş maddi-texniki bazası vardır. Eyni zamanda kadr hazırlığının aparılması üçün yüksək ixtisaslı peşəkar pedaqoji kadr heyəti cəlb olunmuşdur.

### 3.1.2. ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Bakı Biznes Universitetində tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında müvafiq ixtisasların plan yerlərinin təyin olunmasında əmək bazarının ehtiyacları təhlil edilərək qərar qəbul edilir. Universitetə tələbə qəbulu planı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə razılaşdırılaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi plan üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır.

2017/2018-ci tədris ilindən 2023/2024-cü tədris ilinədək olan dövr ərzində Bakı Biznes Universitetinin bakalavriat və magistratura səviyyələri üzrə tələbə qəbulu yerlərinin layihəsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilən məktublar əsasında tərtib olunmuşdur.

Bakı Biznes Universitetinin bakalavriat və magistratura səviyyələri üzrə tələbə qəbulu yerlərinin layihəsi barədə məlumat (illər üzrə):

| № | İxtisasın adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **2017-2018** | **2018-2019** | **2019-2020** | **2020-2021** | **2021-2022** | **2022-2023** | **2023-2024** |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** |
| **Bakalavriat** | | | | | | | | |
| 1. | Tərcümə (ingilis dili) | 30 | 40 | 60 | 75 | 90 | 75 | 75 |
| 2. | Beynəlxalq ticarət və logistika | - | - | - | 25 | 25 | 25 | 25 |
| 3. | Biznesin idarə edilməsi | 50 | 50 | 75 | 130 | 150 | 135 | 165 |
| 4. | Davamlı inkişafın idarə edilməsi | - | - | - | 25 | - | - | - |
| 5. | Dövlət və bələdiyyə idarəetməsi | 50 | 50 | 25 | 25 | 40 | 45 | 40 |
| 6. | İqtisadiyyat | 80 | 65 | 50 | 40 | 65 | 65 | 65 |
| 7. | İqtisadiyyat (tədris ingilis dilində) | 20 | - | 15 | 15 | 15 | 15 | 15 |
| 8. | Maliyyə | 95 | 75 | 90 | 120 | 115 | 115 | 125 |
| 9. | Marketinq | 50 | 100 | 140 | 115 | 115 | 115 | 165 |
| 10. | Menecment | 50 | 50 | 25 | 25 | 40 | 25 | 40 |
| 11. | Mühasibat | 100 | 90 | 90 | 120 | 115 | 115 | 125 |
| 12. | İnformasiya texnologiyaları | - | - | - | 50 | 70 | 50 | 50 |
| 13. | Sosial iş | - | - | 50 | 150 | 150 | 150 | 165 |
| 14. | Sənayenin təşkili və idarə olunması | 50 | 50 | 25 | - | - | - | - |
| 15. | Dünya iqtisadiyyatı | 50 | 50 | 25 | - | - | - | - |
| **Cəmi** | | **625** | **620** | **670** | **915** | **990** | **930** | **1055** |
| **Magistratura** | | | | | | | | |
| **1.** | **Dünya iqtisadiyyatı** | **8** | **7** | **7** | **4** | **4** | **5** | **7** |
| | Beynəlxalq iqtisadi münasibətlər | 4 | 4 | 4 | 2 | 2 | 3 | 5 |
| | Azərbaycanın xarici iqtisadi əlaqələri | - | 3 | 3 | 2 | 2 | | 2 |
| | Gömrük işi | 4 | | - | - | - | - | - |
| **2.** | **Mühasibat uçotu** | **10** | **15** | **20** | **30** | **40** | **30** | **24** |
| | İstehsal sferasında mühasibat uçotu və audit | 5 | 8 | 10 | 15 | 20 | 15 | 12 |
| | Xidmət sferasında mühasibat uçotu və audit | 5 | 7 | 10 | 15 | 20 | 15 | 12 |
| **3.** | **Maliyyə** | **10** | **15** | **20** | **40** | **45** | **45** | **35** |
| | Bank işi | 5 | 8 | 10 | 15 | 15 | 1 | 10 |
| | Vergi və vergiqoyma | 5 | 7 | 10 | 15 | 15 | 15 | 10 |
| | Maliyyə nəzarəti və audit | - | - | - | 10 | 15 | 15 | 15 |
| **4.** | **İqtisadiyyat** | **8** | **8** | **13** | **10** | **10** | **10** | **8** |
| | Ekonometriya | 8 | - | - | - | - | - | - |
| | İqtisadiyyatın tənzimlənməsi | - | 4 | 5 | 6 | 6 | 6 | 4 |
| | Turizm iqtisadiyyatı | - | 4 | 8 | 4 | 4 | 4 | 4 |
| **5.** | **Menecment** | **10** | **12** | **12** | **10** | **10** | **10** | **8** |
| | Heyətin idarə edilməsi | 5 | 6 | 6 | 4 | 4 | 4 | 3 |
| | Menecment (istehsal sahəsi üzrə) | 5 | 6 | 6 | 6 | 6 | 6 | 5 |
| **6.** | **Marketinq** | **3** | **6** | **3** | **3** | **2** | **5** | **3** |
| | Marketinq (sahələr üzrə) | 3 | 6 | 3 | 3 | 2 | 5 | 3 |
| **7.** | **Dövlət və bələdiyyə idarəetməsi** | **4** | **8** | **8** | **4** | **4** | **5** | **5** |
| | Dövlət strukturlarında menecment | 2 | 4 | 4 | - | 4 | 5 | 5 |
| | Regional idarəetmə | 2 | 4 | 4 | - | - | - | - |
| **8.** | **Sosial iş** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **10** |
| | Əhalinin sosial müdafiəsi | - | - | - | - | - | - | 5 |
| | Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş | - | - | - | - | - | - | 5 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| **9.** | **Biznesin təşkili və idarə edilməsi** | **30** | **25** | **40** | **45** | **45** | **45** | **35** |
| | Biznesin təşkili və idarə edilməsi (marketinq üzrə) | - | - | - | - | - | - | - |
| | Biznesin təşkili və idarə edilməsi (menecment üzrə) | - | - | - | - | - | - | - |
| | **Cəmi:** | **83** | **96** | **123** | **146** | **160** | **155** | **135** |

Bakı Biznes Universitetinin bakalavriat və magistratura səviyyələri üzrə tələbə qəbulu yerlərinin təsdiqi barədə məlumat (illər üzrə):

| **№** | **İxtisasın adı** | **İllər** | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **2017-2018** | **2018-2019** | **2019-2020** | **2020-2021** | **2021-2022** | **2022-2023** | **2023-2024** |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** |
| | **Bakalavriat** | | | | | | | |
| 1. | Tərcümə (ingilis dili) | 20 | 30 | 40 | 75 | 75 | 75 | 75 |
| 2. | Beynəlxalq ticarət və logistika | - | - | - | 40 | 30 | 25 | 25 |
| 3. | Biznesin idarə edilməsi | 50 | 50 | 100 | 115 | 130 | 140 | 160 |
| 4. | Dövlət və bələdiyyə idarəetməsi | 50 | 40 | 25 | 25 | 40 | 40 | 40 |
| 5. | İqtisadiyyat | 55 | 50 | 40 | 50 | 60 | 60 | 65 |
| 6. | İqtisadiyyat (tədris ingilis dilində) | 20 | - | 15 | 15 | 15 | 15 | 15 |
| 7. | Maliyyə | 80 | 75 | 75 | 95 | 110 | 110 | 125 |
| 8. | Marketinq | 50 | 90 | 130 | 110 | 110 | 120 | 165 |
| 9. | Menecment | 50 | 50 | 25 | 25 | 30 | 25 | 40 |
| 10. | Mühasibat (Mühasibat uçotu və audit) | 85 | 90 | 70 | 90 | 110 | 120 | 125 |
| 11. | İnformasiya texnologiyaları | - | - | - | 25 | 50 | 50 | 50 |
| 12. | Sosial iş | - | - | 50 | 130 | 145 | 145 | 165 |
| 13. | Sənayenin təşkili və idarə olunması | 50 | 40 | 25 | - | - | - | - |
| 14. | Dünya iqtisadiyyatı | 50 | 50 | 25 | - | - | - | - |
| | **Cəmi:** | **560** | **565** | **620** | **795** | **905** | **925** | **1050** |
| | **Magistratura** | | | | | | | |
| 1. | Dünya iqtisadiyyatı | 8 | 14 | 7 | 4 | 4 | 5 | 7 |
| | Beynəlxalq iqtisadi münasibətlər | 4 | 8 | 4 | 2 | 2 | 3 | 5 |
| | Azərbaycanın xarici iqtisadi əlaqələri | - | 6 | 3 | 2 | 2 | 2 | 2 |
| | Gömrük işi | 4 | - | - | - | - | - | - |
| 2. | Mühasibat uçotu | 10 | 15 | 16 | 20 | 40 | 30 | 24 |
| | İstehsal sferasında mühasibat uçotu və audit | 5 | 8 | 8 | 10 | 20 | 15 | 12 |
| | Xidmət sferasında mühasibat uçotu və audit | 5 | 7 | 8 | 10 | 20 | 15 | 12 |
| 3. | Maliyyə | 10 | 15 | 16 | 40 | 45 | 45 | 35 |
| | Bank işi | 5 | 8 | 8 | 15 | 15 | 15 | 10 |
| | Vergi və vergiqoyma | 5 | 7 | 8 | 15 | 15 | 15 | 10 |
| | Maliyyə nəzarəti və audit | - | - | - | 10 | 15 | 15 | 15 |
| 4. | İqtisadiyyat | 8 | 8 | 11 | 10 | 10 | 10 | 8 |
| | Ekonometriya | 8 | - | - | - | - | - | - |
| | İqtisadiyyatın tənzimlənməsi | - | 4 | 4 | 6 | 6 | 6 | 4 |
| | Turizm iqtisadiyyatı | - | 4 | 7 | 4 | 4 | 4 | 4 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| 5. | Menecment | 10 | 12 | 8 | 10 | 10 | 10 | 8 |
| | Heyətin idarə edilməsi | 5 | 6 | 4 | 4 | 4 | 4 | 3 |
| | Menecment (istehsal sahəsi üzrə) | 5 | 6 | 4 | 6 | 6 | 6 | 5 |
| 6. | Marketinq | 3 | 6 | 3 | 3 | 2 | 5 | 3 |
| | Marketinq (sahələr üzrə) | 3 | 6 | 3 | 3 | 2 | 5 | 3 |
| 7. | Dövlət və bələdiyyə idarəetməsi | 4 | 8 | 8 | 4 | 4 | 5 | 5 |
| | Dövlət strukturlarında menecment | 2 | 4 | 4 | 4 | 4 | 5 | 5 |
| | Regional idarəetmə | 2 | 4 | 4 | - | - | - | - |
| 8. | Sosial iş | - | - | - | - | - | - | 10 |
| | Əhalinin sosial müdafiəsi | - | - | - | - | - | - | 5 |
| | Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş | - | - | - | - | - | - | 5 |
| 9. | Biznesin təşkili və idarə edilməsi | 30 | 25 | 45 | 45 | 45 | 50 | 50 |
| | Biznesin təşkili və idarə edilməsi (mar etinq üzrə) | - | - | - | - | - | - | 25 |
| | Biznesin təşkili və idarə edilməsi (menecment üzrə) | - | - | - | - | - | - | 25 |
| **Cəmi:** | | **83** | **103** | **114** | **136** | **160** | **160** | **150** |

2017/2018–2023/2024-cü illər üzrə Bakı Biznes Universitetinin bakalavriat və magistratura səviyyələrinə tələbə qəbulu üzrə planın yerinə yetirilməsi barədə məlumat:

| № | İxtisasın adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **2017-2018** | **2018-2019** | **2019-2020** | **2020-2021** | **2021-2022** | **2022-2023** | **2023-2024** |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** |
| **Bakalavriat** | | | | | | | | |
| 1. | Tərcümə (ingilis dili) | 20 | 30 | 40 | 75 | 75 | 75 | 75 |
| 2. | Beynəlxalq ticarət və logistika | - | - | - | 18 | 11 | 25 | 25 |
| 3. | Biznesin idarə edilməsi | 5 | 50 | 100 | 115 | 130 | 140 | 160 |
| 4. | Dövlət və bələdiyyə idarəetməsi | 4 | 5 | 25 | 25 | 40 | 40 | 40 |
| 5. | İqtisadiyyat | 18 | 9 | 40 | 50 | 60 | 60 | 65 |
| 6. | İqtisadiyyat (tədris ingilis dilində) | 5 | - | 15 | 15 | 15 | 15 | 15 |
| 7. | Maliyyə | 50 | 19 | 75 | 95 | 110 | 110 | 125 |
| 8. | Marketinq | 50 | 90 | 130 | 110 | 110 | 120 | 165 |
| 9. | Menecment | 4 | 2 | 25 | 25 | 30 | 25 | 40 |
| 10. | Mühasibat (Mühasibat uçotu və audit) | 85 | 33 | 70 | 90 | 110 | 120 | 125 |
| 11. | İnformasiya texnologiyaları | - | - | - | 25 | 50 | 50 | 50 |
| 12. | Sosial iş | - | - | 50 | 130 | 145 | 145 | 165 |
| 13. | Sənayenin təşkili və idarə olunması | 4 | 6 | 25 | - | - | - | - |
| 14. | Dünya iqtisadiyyatı | 2 | 8 | 25 | - | - | - | - |
| **Cəmi:** | | **247** | **252** | **620** | **773** | **886** | **925** | **1050** |
| **Magistratura** | | | | | | | | |
| **1.** | **Dünya iqtisadiyyatı** | **4** | **7** | **7** | **4** | **4** | **2** | **7** |
| | Beynəlxalq iqtisadi münasibətlər | 3 | 5 | 4 | 2 | 2 | 2 | 5 |
| | Azərbaycanın xarici iqtisadi əlaqələri | - | - | 3 | 2 | 2 | - | 2 |
| | Gömrük işi | 1 | - | - | - | - | - | - |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| **2.** | **Mühasibat uçotu və audit** | **10** | **14** | **16** | **20** | **40** | **24** | **24** |
| | İstehsal sferasında mühasibat uçotu və audit | 5 | 7 | 8 | 10 | 20 | 12 | 12 |
| | Xidmət sferasında mühasibat uçotu və audit | 5 | 7 | 8 | 10 | 20 | 12 | 12 |
| **3.** | **Maliyyə** | **10** | **14** | **16** | **40** | **45** | **33** | **35** |
| | Bank işi | 5 | 7 | 8 | 15 | 15 | 12 | 10 |
| | Vergi və vergiqoyma | 5 | 7 | 8 | 15 | 15 | 7 | 10 |
| | Maliyyə nəzarəti və audit | - | - | - | 10 | 15 | 14 | 15 |
| **4.** | **İqtisadiyyat** | **1** | **8** | **11** | **10** | **10** | **5** | **8** |
| | Ekonometriya | 1 | - | - | - | - | - | - |
| | İqtisadiyyatın tənzimlən-məsi | - | 4 | 4 | 6 | 6 | 3 | 4 |
| | Turizm iqtisadiyyatı | - | 4 | 7 | 4 | 4 | 2 | 4 |
| **5.** | **Menecment** | **10** | **12** | **8** | **10** | **10** | **6** | **8** |
| | Heyətin idarə edilməsi | 5 | 6 | 4 | 4 | 4 | 1 | 3 |
| | Menecment (istehsal sahəsi üzrə) | 5 | 6 | 4 | 6 | 6 | 5 | 5 |
| **6.** | **Marketinq** | **3** | **2** | **3** | **2** | **2** | **2** | **3** |
| | Marketinq (sahələr üzrə) | 3 | 2 | 3 | 2 | 2 | 2 | 3 |
| **7.** | **Dövlət və bələdiyyə idarəetməsi** | **4** | **8** | **8** | **4** | **4** | **4** | **5** |
| | Dövlət strukturlarında menecment | 2 | 4 | 4 | 4 | 4 | 4 | 5 |
| | Regional idarəetmə | 2 | 4 | 4 | - | - | - | - |
| **8.** | **Sosial iş** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **10** |
| | Əhalinin sosial müdafiəsi | - | - | - | - | - | - | 5 |
| | Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş | - | - | - | - | - | - | 5 |
| | Biznesin idarə edilməsi (MBA) | 15 | 25 | 45 | 45 | 45 | 50 | 49 |
| **9.** | **Biznesin təşkili və idarə edilməsi** | **15** | **25** | **45** | **45** | **45** | **50** | **50** |
| | Biznesin təşkili və idarə edilməsi (marketinq üzrə) | - | - | - | - | - | - | 25 |
| | Biznesin təşkili və idarə edilməsi (menecment üzrə) | - | - | - | - | - | - | 25 |
| **Cəmi:** | | **57** | **90** | **114** | **135** | **160** | **126** | **150** |

Hesabat dövründə Bakı Biznes Universiteti üzrə bakalavriat səviyyəsində tələbə qəbulu plan yerləri son beş ildə orta hesabla 98-100 faiz, magistratura səviyyəsində isə 2021/2022-ci tədris ili istisna olmaqla 100 faiz yerinə yetirilmişdir.

Hesabat dövründə bakalavriat və magistratura səviyyələrinə dövlət sifarişi əsasında 132 nəfər (bakalavr səviyyəsində 121 nəfər, magistratura səviyyəsində isə 11 nəfər) qəbul olunmuşdur.

**Bakı Biznes Universitetinin doktorantura səviyyəsinə qəbul yerlərinin layihəsi barədə məlumat (illər üzrə):**

| **№** | **İxtisasın adı** | **İllər** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **2024** |
| 1. | Mühasibat uçotu | 2 | 3 | 3 | 2 | 3 | 4 | 2 | 3 |
| 2. | Ümumi iqtisadiyyat | 2 | 2 | 3 | 3 | 3 | 2 | 2 | 2 |
| 3. | Sahə iqtisadiyyatı | 2 | 2 | 4 | 4 | 3 | 3 | 3 | 2 |
| | **Cəmi:** | **6** | **7** | **10** | **9** | **9** | **9** | **7** | **7** |

**Bakı Biznes Universitetinin doktorantura səviyyəsinə faktiki qəbul barədə məlumat (illər üzrə):**

| № | İxtisasın adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
| 1. | Mühasibat uçotu | 2 | 3 | 1 | 2 | 1 | 4 | 2 |
| 2. | Ümumi iqtisadiyyat | 2 | 2 | - | 1 | 1 | 2 | 2 |
| 3. | Sahə iqtisadiyyatı | 2 | 2 | 2 | 2 | - | 3 | 3 |
| | **Cəmi** | **6** | **7** | **3** | **5** | **2** | **9** | **7** |

**3.1.3. Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işə götürənlərin iştirakı vəziyyəti**

Universitetdə tələbə qəbulu üzrə sifarişlərin formalaşmasında müvafiq ixtisasların proqram komissiyalarının tərkibində olan əmək bazarının nümayəndələri proqram komisiyasının iştirakçısı qismində çıxış edirlər. Eyni zamanda Universitetdə hər il keçirilən Əmək yarmarkalarında iştirak edən işəgötürənlərin və təcrübə müəssisələrinin təklif və tövsiyələri tələbə qəbulu sifarişlərində nəzərə alınır.

**3.1.4. Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti**

Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması aşağıda qeyd olunan normativ sənədlərə əsasən aparılır:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»nın 3.2.15, 3.2.16 və 6.1 maddələrinə;

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli 163 nömrəli «Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası»nın 5-ci bəndinin 5.2.4. «Əvvəl aldığı ixtisasın təhsil proqramında öyrənilmiş fənlərin məzmunu yeni almaq istədiyi əlavə ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa uyğun olduqda, tələbə həmin fənlər üzrə məşğələlərdən və attestasiyadan azad olunur» maddəsinə;

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 20 may 2019-cu il tarixli 230 nömrəli «Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriat (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları»nın 5-ci bəndinin 5.1. maddəsinə.

Universitetə qəbul olmuş subbakalavrların və digər təhsil müəssisələrindən transfer olunmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Bakı Biznes Universitetinin Elmi Şurası tərəfindən təsdiq edilmiş «Tədrisin təşkili, kreditlərin tanınması və tələbələrin attestasiyasına dair Qaydalar»ın tələblərinə uyğun həyata keçirilir.

### 3.2. Təhsil proqramları

### 3.2.1. ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

Bakı Biznes Universitetində kadr hazırlığı bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə aparılır. Hazırda Universitetdə bakalavriat səviyyəsində kadr hazırlığı aşağıdakı ixtisas qrupları üzrə aparılır:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.07.2020-ci il tarixli F-343 nömrəli «İqtisadiyyat və idarəetmə ixtisasları qrupu»na daxil olan ixtisaslar üzrə təhsil proqramlarının təsdiqi barədə Əmrə əsasən adları aşağıda qeyd olunan ixtisaslar üzrə:

1. 050401 - Beynəlxalq ticarət və logistika;
2. 050402 - Biznesin idarə edilməsi;
3. 050404 - Dövlət və bələdiyyə idarəetməsi;
4. 050405 - İqtisadiyyat;
5. 050406 - Maliyyə;
6. 050407 - Marketinq;
7. 050408 - Menecment;
8. 050409 - Mühasibat.

2. 07.08.2020-ci il tarixli F–363 nömrəli «Humanitar və sosial ixtisaslar qrupu»na daxil olan ixtisaslar üzrə təhsil proqramlarının təsdiqi barədə Əmrə əsasən 050215 – "Tərcümə (ingilis dili)" ixtisası üzrə;

3. 13.08.2020-ci il tarixli F-370 nömrəli «Texniki və texnoloji ixtisaslar qrupu»na daxil olan ixtisaslar üzrə təhsil proqramlarının təsdiqi barədə Əmrə əsasən 050616 – "İnformasiya texnologiyaları" ixtisası üzrə;

4. 28.08.2020-ci il tarixli F-386 nömrəli «Səhiyyə, rifah və xidmət, ixtisas qrupu»na daxil olan ixtisaslar üzrə təhsil proqramlarının təsdiqi barədə Əmrə əsasən 050807 – "Sosial iş" ixtisası üzrə aparılır.

Magistratura səviyyəsi üzrə isə «İqtisadiyyat və İdarəetmə ixtisaslar qrupu»na daxil olan ixtisaslar üzrə (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30 sentyabr 2016-cı il tarixli 640 saylı əmri):

1. 060401 - Dünya iqtisadiyyatı;
2. 060402 - Mühasibat uçotu və audit;
3. 060403 - Maliyyə;
4. 050404 - İqtisadiyyat;
5. 060407 - Menecment;
6. 060408 - Marketinq;
7. 060410 - Dövlət və bələdiyyə idarəetməsi;
8. Biznesin idarə edilməsi (MBA) proqramı üzrə.

2. «Səhiyyə, rifah və xidmət, ixtisas qrupu»na daxil olan 060805 – «Sosial iş» ixtisası üzrə (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 31 avqust 2012-ci il tarixli 1463 nömrəli Əmri).

3. Doktoranturada kadr hazırlığı Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə» və Bakı Biznes Universitetinin (13.09.2023-cü il tarixli Elmi Şuranın qərarı) «Doktorantura səviyyəsində tədrisin təşkili Qaydaları»na əsasən aşağıdakı istiqamətlər üzrə aparılır:

1. 5308.01- Ümumi iqtisadiyyat;
2. 5312.01- Sahə iqtisadiyyatı;
3. 5303.01- Mühasibat uçotu.

**3.2.2. ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti**

Qeyd olunan Təhsil proqramları əsasında Universitetin Proqram Komissiyaları müvafiq ixtisasların Təhsil proqramlarını hazırlayarkən əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu nəzərə alınmışdır. Belə ki, işçi komissiyasının tərkibində olan əmək bazarının nümayəndələri (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu, Sosial Xidmətlər Agentliyi, Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyası, Biznes İnsight MMC, İcraçı Kredit Agentliyi BOKT MMC, Şəms Tərcümə Xidmətləri Mərkəzi), Bakı Biznes Universiteti ilə əməkdaşlıq edən müəssisələrin aparıcı mütəxəssisləri iştirak etmiş və öz təkliflərini vermişlər. Eyni zamanda xarici ölkələrin aparıcı universitetlərinin təcrübəsi proqram komissiyaları tərəfindən araşdırılmış və proqramların hazırlanmasında nəzərə alınmışdır.

**3.2.3. ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti**

Bakı Biznes Universitetində peşə hazırlığı aparılan ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 dekabr tarixli 474 nömrəli «Peşə və kvalifikasiya standartının hazırlanması, yenidən hazırlanması, təsdiq edilməsi, qeydiyyatın aparılması və müddətin uzadılması Qaydaları»nda qeyd olunan təsnifata tam uyğundur.

**3.2.4. Təhsil proqramlarının «Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi»nin tələblərinə uyğunluğu**

Bakı Biznes Universitetində Təhsil proqramları və onların tətbiqi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2018-ci il tarixli 311 nömrəli «Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi»nə uyğun hazırlanmış və təsdiq edilmişdir.

**3.2.5. Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu**

Yuxarıda qeyd etdiyimiz kimi Universitetin 08.09.2020-ci il tarixli 109 nömrəli əmri ilə təsdiq edilmiş işçi komissiyası tərəfindən müvafiq ixtisaslar üzrə təhsil proqramları hazırlanmışdır. Təhsil proqramları tərtib edilərkən «Məzunun kompetensiyaları» (ümumi və peşə) sistemləşdirilmiş, fənlərlə əlaqələndirilmişdir. İxtisasın təhsil proqramı və fənlər üzrə təlim nəticələri müəyyən edilmişdir. Müvafıq ixtisas üzrə Təhsil Proqramının təlim nəticələri fənnin təlim nəticələri ilə əlaqələndirilmişdir. Eyni zamanda fənlərin təlim nəticələri mövzular ilə əlaqələndirilmişdir (müvafiq matrislər qurulmuşdur).

**3.2.6. Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu**

Universitetdə tədris prosesi Avropa Kredit Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil olunur. Bir tədris ili 60 AKTTS (1500-1800 tədris saatı) kreditinə bərabərdir.

Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Tələbənin auditoriya saatlarının həcmi fənnin spesifikası nəzərə alınmaqla 10 (on) saatdan az, 15 (on beş saatdan) çox olmamaqla müəyyənləşdirilmişdir (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01.12.2014-cü il tarixli 46-11-8008/17 nömrəli məktubu).

**3.2.7. Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu**

Müvafiq ixtisaslar üzrə Təhsil proqramlarında olan fənn bölümləri (Ümumi, İxtisas və Universitet tərəfindən müəyyən edilən fənlər (Seçmə)) ixtisasların təhsil proqramına uyğundur. Universitet tərəfindən müəyyən edilən fənlər ixtisasın təhsil proqramına və məzmununa uyğun müəyyənləşdirilmiş və təhsil proqramının təlim nəticələri ilə əlaqələndirilmişdir.

**3.2.8. Həftəlik auditoriya və auditoriyadankənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu**

Bakı Biznes Universitetində bakalavriat səviyyəsində hər bir ixtisas üzrə Təhsil proqramı 240, magistratura səviyyəsi üzrə isə 120 AKTS kreditindən ibarətdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.2010-cu il tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı»nın 8.7.1-ci maddəsinə əsasən həftəlik auditoriya dərsləri bakalavriat səviyyəsində 30, magistratura səviyyəsində isə 16 saatdan çox olmamaqla müəyyən edilmişdir.

**3.2.9. Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı**

Təhsil proqramının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyətə əlçatanlığı Universitetin rəsmi saytı (www.bbu.edu.az) və elektron sistemi (EMPRO) vasitəsilə təmin edilmişdir.

**3.2.10. Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti.**

İxtisas üzrə Təhsil proqramlarının hazırlanması və təsdiq olunması Bakı Biznes Universitetinin Elmi Şurası tərəfindən təsdiq edilmiş «Təhsil proqramlarının tərtibi, təsdiq olunması haqqında Qaydalar»ı əsasında aparılır və işəgötürənlər bu prosesdə (İxtisasın təhsil proqramının və məcburi fənn blokunda olan fənlərin təlim nəticələrinin, həmçinin ixtisasın seçmə fənn blokuna daxil olan fənlərin müəyyən edilməsində) maraqlı tərəf kimi iştirak edir.

**3.3. Tədrisin təşkili**

**3.3.1. Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilməsi vəziyyəti**

Bakı Biznes Universitetində tədrisin təşkili Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»nın tələblərinə uyğun həyata keçirilir. Tədris planları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq Əmrləri ilə təsdiq edilmiş Təhsil proqramlar əsasında BBU tərəfindən hazırlanan Təhsil Proqramlarına uyğun hazırlanmışdır. Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilmişdir.

**3.3.2. İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin illər və semestrlər üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti**

İxtisasların (ixtisaslaşmaların) tədris planlarında göstərilmiş fənlərin illər və semestrlər üzrə bölgüsünü əks etdirən tədris qrafikləri həm ixtisasların (ixtisaslaşmaların) tədris planlarının II bölməsində (tədris prosesinin planı), həm də «Forma 2»də öz əksini tapmışdır.

**3.3.3. Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti**

Bakalavriat səviyyəsi üçün tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü Təhsil proqramlarının 3-cü bölməsinə (Təhsil proqramının strukturu) uyğun aşağıdakı formada aparılmışdır:

- ümumi fənlərin tədrisinə - 30 kredit;
- peşə hazırlığını təmin edən fənlərin tədrisinə - 120 kredit;
- peşə hazırlığını təmin edən seçmə fənlərin tədrisinə - 60 kredit;
- təcrübəyə - 30 kredit ayrılmışdır.

Magistratura səviyyəsi üzrə tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü müvafiq ixtisasların (ixtisaslaşmaların) təhsil proqramlarının 4.2-ci bəndinə – «Təhsilin məzmununa qoyulan minimum tələblər»ə əsasən aparılımışdır.

**3.3.4. Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti**

Ümumi və ixtisas fənləri arasında balans Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 23.04.2010-cu il tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ali təhsil pilləsinin Dövlət Standartı və Proqramı»nın 8.4-cü bəndindən irəli gələn tələblərə uyğun olaraq aparılmışdır. Belə ki, Tədris planında bakalavriat səviyyəsi üçün:

• ümumi auditoriya saatlarının 15-20 faizini ümumi fənlər (30 kredit) təşkil edir;

• 80-85 faizi isə (180 kredit) peşə hazırlığını təmin edən fənlərin tədrisi təşkil edir;

• Bakalavriat və magistratura səviyyələri üzrə təhsil proqramlarında seçmə fənlərə ayrılan saatların həcmi ümumi saatların miqdarının 25-30%-ni təşkil edir.

**3.3.5. Fənnin təlim nəticələrinin ixtisasın təlim nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

Müvafiq ixtisaslar üzrə Təhsil proqramlarında fənlərin təlim nəticələri ixtisasın təlim nəticələri ilə əlaqələndirilmişdir (ixtisasın təhsil proqramlarının təlim nəticələri (PTN) ilə fənlərin təlim nəticələrinin (FTN) əlaqələndirildiyi matrislər Universitet tərəfindən hazırlanmış müvafiq təhsil proqramlarında öz əksini tapmışdır) və kompetensiya əsaslıdır. Fənlər üzrə təlim nəticələrinin qiymətləndirilməsi prosesi ixtisasların proqram komissiyaları tərəfindən mütəmadi olaraq aparılır.

**3.3.6. Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması, buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

Fənlərin təlim nəticələri fənn sillabuslarında öz əksini tapmışdır. Eyni zamanda təlim nəticələri mövzular ilə əlaqələndirilmişdir. Buna nəzarət ixtisas kafedraları və Keyfiyyət təminatı mərkəzi tərəfindən aparılır.

**3.3.7. Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

Universitetdə Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verir, belə ki, ümumi yükün 60 faizini auditoriyadankənar fəaliyyət təşkil edir. Bu da təhsilalanların dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan yaradır.

**3.3.8. Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planlarının mövcudluğu vəziyyəti**

Universitetin bütün tələbələrinin fərdi tədris planları mövcuddur və fakültə dekanlıqlarının müvafiq tyutorları tərəfindən nəzarət olunur.

**3.3.9. İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərslərin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planının mövcud olma vəziyyəti**

İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərslərin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planları (forma 3) mövcuddur və təsdiq olunmuşdur.

**3.3.10. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planının mövcud olması vəziyyəti**

Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planı (forma 5) mövcuddur.

**3.3.11. Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi, praktik məşğələlərin təşkili vəziyyəti)**

Universitetdə tədris növləri üzrə tədrisin təşkili ixtisasların (ixtisaslaşmaların) təhsil proqramları əsasında tərtib edilmiş tədris planlarına uyğun olaraq təşkil edilir. Mühazirələr əsasən birləşdirilmiş qruplarda, məşğələlər isə hər qrup üzrə ayrılıqda, «İKT-baza kompüter bilikləri» və «Xarici dildə işgüzar və akademik kommunikasiya» fənləri üzrə dərslər yarım-qruplarda təşkil edilir.

**3.3.12. Məsləhət xidmətinin təşkili vəziyyəti**

Universitetdə professor-müəllim heyəti tərəfindən semestr ərzində auditoryadankənar və semestr imtahanları öncəsi məsləhət xidməti təşkil edilir. Həmçinin, tələbələrə kömək göstəril-məsi məqsədilə fakültələrin tərkibində akademik məsləhətçi (tyutorlar) xidməti fəaliyyət göstərir.

**3.3.13. Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti**

Sərbəst iş tapşırıqları müvafiq fənləri tədris edən professor-müəllim heyəti tərəfindən ev tapşırıqları paketi formasında kompetensiya əsaslı və təlim nəticələrinə uyğun olaraq tərtib edilir və tələbələrə çatdırılır. Sərbəst iş tapşırıqlarının keyfiyyətinə monitorinq Keyfiyyət təminatı mərkəzi, ixtisas üzrə proqram komissiyaları və kafedralar tərəfindən aparılır.

**3.3.14. Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin vəziyyəti**

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 2014-cü ildə təsdiq edilmiş ixtisaslar üzrə müvafiq Təhsil proqramlarının tələblərinə əsasən 21 kredit olmaqla, 14 həftəlik istehsalat təcrübəsi, 2020-ci tədris ilində təsdiq edilmiş Təhsil proqramlarına əsasən isə (ixtisasın xüsusiyyətindən asılı olaraq) təcrübə 4 mərhələdə:

• karyera planlaması - 5 kredit;

• ümumi (yumşaq) peşə bacarıqları – 9 kredit;

• xüsusi (sərt) peşə bacarıqları – 10 kredit;

• layihə/müəssisə – 6 kredit təşkil edilir.

Təcrübənin təşkili və keçirilməsinə müvafiq şöbə tərəfindən nəzarət həyata keçirilir.

**3.3.15. Stajkeçmənin təşkili vəziyyəti**

Universitetdə stajkeçmənin təşkili əsasən 3 istiqamətdə həyata keçirilir:

• Universitetin inzibati heyətinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqamətində həyata keçirilən stajkeçmə tədbirləri;

• Universitetin akademik heyətinin peşə bacarıqlarının və əməyinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən stajkeçmə tədbirləri;

• Kənar təşkilatların müraciəti əsasında müəyyən edilmiş heyəti üçün təşkil edilmiş stajkeçmə tədbirləri.

**3.3.16. Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti**

Universitetdə referat mövzuları professor-müəllim heyəti tərəfindən müvafiq fənnin kompetensiyasını və təlim nəticələrini özündə tam əks etdirməklə hazırlanır. Referatların keyfiyyətinə monitorinq Keyfiyyət təminatı mərkəzi və ixtisas üzrə proqram komissiyaları, kafedralar tərəfindən aparılır. Mövzular tələbələr tərəfindən müstəqil formada seçilir. Həmçinin, referatların hazırlanması və müdafiəsi işinin təşkili Universitetin Elmi Şurası tərəfindən təsdiq edilən «Bakalavriat və magistratura səviyyələrində tələbənin semestr ərzində auditoriyada və auditoriyadankənar fəaliyyətinin təşkili və qiymətləndirilməsinə dair qaydalar»ın tələblərinə əsasən aparılır.

**3.3.17. Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili**

Bakalavriat səviyyəsində təhsil alan tələbələr yekunda yekun buraxılış imtahanı verirlər. Bakalavriat səviyyəsində 2020-ci ildə təsdiq olunmuş Təhsil proqramlarına əsasən təhsilalanların yekun buraxılış imtahanının verməsi nəzərdə tutulmamışdır. Magistratura səviyyəsində isə magistr dissertasiya işinin hazırlanması və müdafiəsinin təşkili normativ-hüquqi sənədlərə əsasən təşkil edilir.

**3.3.18. İmtahan sessiyasının təşkili**

Universitetdə aralıq imtahan sessiyaları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq əmrlərinə, Bakı Biznes Universitetinin rektorunun imtahan sessiyalarının təşkili, keçirilməsi barədə əmrlərinə və ixtisasın (ixtisaslaşmanın) tədris planları əsasında 5 həftə olmaqla aparılır. İmtahan sessiyası fənnin spesifikliyindən asılı olaraq yazılı və şifahi formada təşkil edilir. Sessiyanın nəticələrinə dair yekun hesabat Universitet Elmi Şurasında müzakirə olunur və qiymətləndirilir.

**3.3.19. Yay semestrinin təşkili vəziyyəti**

Yay semestri hər tədris ilinin sonunda 6 (altı) həftədən ibarət olmaqla təhsilalanların müraciətləri (ərizə) əsasında 10 kreditdən çox olmamaqla təşkil olunur.

**3.3.20. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası**

Universitetdə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası aşağıdakı kimidir:

**Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası**

| Fakültələr | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| İqtisadiyyat və idarəetmə | 188 | 134 | 132 | 86 | 149 | 270 |
| Biznes və menecment | 238 | 232 | 249 | 161 | 358 | 513 |
| Magistratura səviyyəsi üzrə | 12 | 14 | 21 | 8 | 47 | 39 |

**3.3.21. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası**

Universitetdə kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası aşağıdakı cədvəldə verilmişdir:

**Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası**

| Fakültələr | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| İqtisadiyyat və idarəetmə | 58 | 43 | 62 | 26 | 78 | 102 |
| Biznes və menecment | 63 | 66 | 66 | 72 | 61 | 94 |
| Magistratura səviyyəsi üzrə | 13 | 7 | 6 | 10 | 30 | 13 |

**3.3.22. Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyi müvafiq fakültə dekanlıqları, ixtisas kafedraları, ixtisasın proqram komissiyaları və Keyfiyyət təminatı mərkəzi tərəfindən izlənilir, təkmillədirilməsi ilə bağlı müvafiq tədbirlər görülür.

### 3.4. Tədris metodları və üsulları

#### 3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı, və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

Təlim nəticələrinin əldə olunmasını təmin etmək üçün EQAC layihəsi çərçivəsində Universitetin professor-müəllim heyətinə Avropadan olan mütəxəssislər tərəfindən mütəmadi təlimlər keçirilmişdir. Bunun nəticəsində müəllimlər fənn sillabuslarında hər bir mövzunun spesifik xüsusiyyətini nəzərə alaraq, tədris prosesində hansı təlim metodlarını tətbiq edəcəyini əks etdirmişdir.

Təlim nəticələrinin əldə olunmasını təmin etmək üçün professor-müəllim heyəti Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş «Tədris metodu və üsullarının tətbiqinə dair metodiki tövsiyələr» əsasında: mühazirə dərslərində passiv və aktiv (mövzuların qabaqcadan sərbəst öyrənilməsi, beyin həmləsi, sual-cavab, diskussiya), məşğələ dərslərində isə aktiv və interaktiv təlim metodlar və üsullardan (layihə əsaslı öyrənmə, simulyasiya oyunları, konkret halların təhlili, problemin öyrənilməsi və s.) istifadə edir. Auditoriyaların ağıllı lövhələrlə təchiz edilməsi tədris prosesində müasir təlim metodlarının tətbiqinə əlverişli şərait yaradır.

#### 3.4.2. Tədris metodlarında tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Universitetdə tədris metodlarında tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edilir. İxtisasın və fənnin xüsusiyyəti nəzərə alınaraq tədris prosesində qeyd olunan metodların tətbiqinin məqsədi tələbələrin öz-özünə öyrənmə bacarıqlarının inkişaf etdirilməsi, onların daha aktiv öyrənmə prosesinə cəlb edilməsi, tənqidi düşüncə, problem həlletmə və tətbiqetmə bacarıqlarının inkişaf etdirilməsidir.

İxtisasın və fənnin spesifikasından asılı olaraq mühazirə və seminar dərslərində tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsinə imkan verən praktik yönümlü tapşırıqlar əsasən müəssisələrin timsalında faktiki hesabat məlumatlarına, real həyatdan götürülmüş nümunələrə və keyslərə əsaslanır.

Universitetdə müxtəlif tədris yanaşmalarından istifadənin əsas hədəfləri bilikli, bacarıqlı və səriştəli intellektual kapital formalaşdırmaqdır. Yuxarıda qeyd olunan xüsusiyyətlərin əldə edilməsi üçün müəyyən fənlər üzrə tədrisin təşkilində proqram təminatlarının tətbiqi aktualaşır. Bu məqsədlə kompüter laboratoriyaları ixtisasların profilinə uyğun olaraq proqram təminatları ilə təmin edilmişdir (nümunə üçün qeyd edə bilərik ki, «Mühasibat» ixtisası üzrə təhsil alan tələbələr üçün «İnformasiya texnologiyaları (ixtisas üzrə)» fənni əsasən 1C proqram təminatı ilə təchiz olunmuş laboratoriyalarda təşkil edilir).

**3.4.3. Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**

Universitetdə təhsilin bütün formaları üzrə tədris metodlarının tətbiqi üçün müvafıq maddi-texniki baza mövcuddur və tədris metodlarının müvafiq olaraq tətbiqinin mümkünlüyü təmin edilmişdir.

**3.4.4. Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti**

Tədris prosesində müxtəlif metodların tətbiqi tələbələrin dərindən öyrənməsinə, ixtisaslarına maraqlarının artırılmasına, motivasiya olunmasına və öhdəlik götürmələrinə şərait yaradır. Dərindən öyrənmə üçün müəllimlər tərəfindən tədqiqat layihələri və tənqidi düşüncəni tələb edən tapşırıqlar (referat-təqdimat, layihə xarakterli mövzular və ev tapşırıqları) təhsilalanlara verilir. Müəllimlər tələbələrin işinə və səylərinə müsbət və yaradıcı geri bildiriş verməklə onların öz-özünə inamı və qiymətləndirməsinə stimul verir. Tələbələrə tapşırıqlar verməklə onlara məsuliyyət və öhdəlik hissi aşılanır.

**3.4.5. Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti**

Bakalavriat səviyyəsində tədris metod və üsullarının tətbiqi tələbələrdə bilik və bacarıqların, magistratura səviyyəsində isə tədqiqat bacarıqlarının formalaşmasına yönəldilmişdir. Tədrisin bütün səviyyələri üzrə tələbəyönümlü tədris metodlarından istifadə tələbələrin fərdi xüsusiyyətlərini nəzərə almağa imkan verir. Tələbələrə akademik və digər xüsusiyyətlərinə görə fərdi yanaşma tətbiq edilir. Məsələn, tələbənin nitq (kəkələmə və s.) və ya sosial (sosiofobiya və s.) çətinliyi varsa, o, müzakirələrdə iştirak etmək əvəzinə fikrini yazılı formada bildirir. Tələbə çox utancaq olduğunu və ya panik atakın olduğunu səbəb gətirərək, auditoriya qarşısında təqdimat etməkdən çəkinirsə, müəllim tənəffüs zamanı auditoriyada və ya kafedrada təklikdə həmin tələbənin təqdimatını dinləyir.

**3.4.6. Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti**

Tədris prosesində aktiv öyrənməni təşviq edən texnoloji imkanlara elektron kitabxananı, ağıllı lövhələrlə (bəzi auditoriyaların isə həmçinin linqafonlar və müvafiq proqram təminatlı kompüterlərlə) və sürətli internetlə təchiz olunmuş bütün auditoriyaları göstərmək olar.

**3.4.7. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti**

Univeristetin professor-müəllim heyəti tədrisdə yeni təlim və tədris metodlarının mənimsənilməsi, həmçinin, ineraktiv öyrənməni təşviq etmə ilə əlaqədar bir sıra ölkədaxili və beynəlxalq təlimlərdə iştirak edirlər. Məsələn, EQAC layihəsi çərçivəsində, 06-09 yanvar 2020-ci

il tarixlərində Universitetdə bütün professor-müəllim heyətinin iştirakı ilə tələbəyönümlü təhsil sistemi və tədrisin təşkili ilə əlaqədar təlimlər keçirilmişdir. Bu təlimlərdə tələbəmərkəzli tədrisin, öyrənmənin və qiymətləndirmənin konsepsiyasına dair yanaşmaların Azərbaycan universitetlərində necə həyata keçirildiyi üzərində dərinləşdirilmiş müzakirələr aparılmışdır. Tədris və fənn proqramlarının tədris nəticələrinin təsviri, onlar arasında olan əlaqələrin nəzəriyyə və praktikada necə istifadə olunması da təlimin əsas mövzularından biri olmuşdur. Təlimin son günündə isə tədris, öyrənmə və qiymətləndirmə metodlarına dair nəzəri və praktiki tapşırıqlar arasında olan əlaqələr müzakirə edilmişdir. Bundan əlavə Universitetin rektorunun xüsusi təşəbbüsü ilə 6 yanvar 2020-ci il tarixində BBU-nun akademik heyət üzvlərinə yeni təlim və tədris metodları üzrə master class keçirilmişdir.

Bu təlimlər Bakı Biznes Universitetində tələbəyönümlü təhsil sisteminin və tədris metodlarının daha da inkişaf etdirilməsi üçün mühüm bir addım olmuşdur. Eyni zamanda EMPRO - tədrisin elektron idarəetmə sisteminin tətbiqi ilə əlaqədar SİNAM Məhdud Məsuliyyətli Cəmiyyətin əməkdaşları tərəfindən professor-müəllim heyətinə müvafiq təlimlər keçirilmişdir.

**3.4.8. Tədris metod və üsullarının dövri monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Universitetdə tədris metod və üsullarının dövri monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi Keyfiyyət təminatı mərkəzi tərəfindən Universitetin rəhbərliyi və müvafiq kafedra müdirləri ilə koordinasiyalı formada həyata keçirilir. Monitorinqin nəticələri müzakirə olunaraq ehtiyacların təmin edilməsi məqsədilə müvafiq təlimlər keçirilir, gənc və təcrübəli müəllimlərlə təcrübə mübadiləsi aparılır.

**3.5. Təlim və tədris resursları**

**3.5.1. ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti**

2015/2016-cı tədris ilindən başlayaraq, Bakı Biznes Universitetində daxili proqram təminatı olan «Elektron universitet» adlı tədrisin elektron idarəetmə sistemi tətbiq edilmişdir. Bu sistem aşağıdakı modullardan: Ümumi şöbə, Kadrlar şöbəsi, Tələbə şöbəsi, Arxiv, Fakültə və Kafedralardan ibarət idi.

2022/2023-cü tədris ilindən başlayaraq isə Universitetdə təlim və tədris prosesinin bütün mərhələlərini əhatə edən EMPRO elektron idarəetmə sistemi tətbiq edilir və mütəmadi olaraq ehtiyaclara uyğun təkmilləşdirilir. EMPRO sistemində müxtəlif modullar tətbiq olunur – təhsilin idarəetmə modulu, imtahan modulu, apelyasiya sistemi, tələbə kabineti, müəllim kabineti,

elektron kitabxana və s. Sözügedən modul və sistemlər elektron dərs cədvəli, fənn kataloqu, akademik təqvim, elektron jurnal, elektron tədris materialları, hesabatlar, tədris planı, elanlar və bildirişlər, istifadəçilərin yaradılması, tələbə kabineti, müəllim kabineti, apelyasiya və digər məsələləri əhatə edir.

**3.5.2. ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s.) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti**

Universitetdə müasir təlim prosesini aparmaq üçün 4 korpus, 89 auditoriya mövcuddur. 2016-cı ildən başlayaraq universitetdə bütün auditoriyalar proyektorlarla təchiz edilmişdir. Eyni zamanda bir neçə xüsusi auditoriyalarda MİMİO sistemli ağıllı lövhələrdən istifadə edilirdi. 2022-ci ildən etibarən isə bütün auditoriyalar daha müasir tələblərə cavab verən ağıllı lövhələr ilə təmin edilmişdir. Həmçinin, 6 kompüter - laboratoriya, xarici dilin öyrənilməsi üçün linqafon avadanlıqları ilə təchiz olunmuş 11 xüsusi linqafon kabinetlərindən istifadə olunur. Universitetdə tədrisin keyfiyyətinə daim nəzarət etmək məqsədilə auditoriyalarda müşahidə sistemi quraşdırılmış və mərkəzləşdirilmiş qaydada nəzarət edilir.

**3.5.3. Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti**

Professor-müəllim heyəti təlim prosesində tələbənin iştirakını və aktivliyini EMPRO sistemi üzərindən həyata keçirir.

**3.5.4. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu**

Universitetdə EMPRO sistemi üzərindən tədrisin təşkili ixtisaslar üzrə Təhsil proqramları əsasında tərtib edilmiş Tədris planlarına uyğun olaraq həyata keçirilir.

**3.5.5. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti**

Universitetdə 106 kompüterlə təchiz olunmuş 6 laboratoriya otağı mövcuddur. Auditoriyalar, ixtisas kabinetləri və kompüter laboratoriyalarında internetə qoşulmuş 286 kompüter və ağıllı lövhələr (202 ədəd kompüter, 84 ədəd ağıllı lövhə) mövcuddur. Cari tədris ilində 48 ədəd müasir kompüterlə təchiz edilmiş əlavə 2 kompüter otağının da yaradılması nəzərdə tutulmuşdur.

**3.5.6. ATM-in auditoriya fondunun (kv.m) onun tələbə sayına uyğunluğu**

Universitetdə ümumilikdə 89 (3346 kv.m) auditoriya mövcuddur ki, onlar 15 mühazirə, 60 məşğələ, 14 laboratoriya və kabinetlərdən ibarətdir. Bakalavriat səviyyəsində, əyani təhsilalma forması üzrə dərslər 2 növbədə, qiyabi təhsilalma forması üzrə isə dərslər əyani təhsil formasının imtahan sessiyası dövründə təşkil edilir. Magistratura səviyyəsi üzrə isə dərslər III növbədə təşkil edilir. Auditoriya fondunun tələbə sayına uyğunluğu vəziyyəti aşağıdakı qrafikdə verilmişdir:

**Auditoriya fondunun tələbə sayına uyğunluğu vəziyyəti**




**3.5.7. Akademik və inzibatı heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamıkası**

Akademik heyətin fəaliyyəti üçün əvvəlki illər 8 otaq (294,2 kv.m), 2023-cü ilin payız semestrindən etibarən isə 9 otaq (337,4 kv.m) mövcuddur. Hazırda universitetdə inzibati heyətin fəaliyyəti üçün 24 otaq (953,4 kv.m) ayrılmışdır.

**3.5.8. Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası**

Kitabxana 253526 kitab fondu və 36 kompüter ilə təchiz edilmiş oxu zalından ibarətdir. 2022-ci ilə qədər elektron kitabxana lib.bbu.edu.az saytı üzərindən fəaliyyət göstərirdi. 2022-ci ildən etibarən isə EMPRO - tədrisin elektron idarəetmə sisteminə inteqrasiya olunmuş, resurslardan tələbələrin fasiləsiz istifadəsi təmin edilmişdir. Oxucuların ümumi sayı 2548 nəfər, onlardan 178 nəfəri akademik heyət, 2370 nəfəri isə təhsilalanlardır. Bakı Biznes Universitetinin 2024-2028-ci illəri əhatə edən Strateji İnkişaf Planına əsasən Universitetin I korpusunun mansard hissəsində ümumi sahəsi 714 kv.m. olan yeni «kitab-kafe» tipli oxu zalının yaradılması layihələndirilir. Kitabxanadan istifadə imkanları aşağıdakı cədvəldə verilmişdir:

**Kitabxana imkanlarından istifadə imkanları (illər üzrə)**

| İllər | Kitabxananın ümumi sahəsi | Hər təhsilalana düşən faydalı sahə (kv.m) | İnternetə qoşulmuş kompüterlərin sayı | Ümumi kitab sayı |
|---|---|---|---|---|
| **2017** | 432 kv.m | 0,7 | 22 | 228676 |
| **2018** | 432 kv.m | 0,8 | 22 | 233658 |
| **2019** | 432 kv.m | 0,7 | 22 | 237309 |
| **2020** | 432 kv.m | 0,5 | 36 | 238975 |
| **2021** | 432 kv.m | 0,4 | 36 | 242849 |
| **2022** | 432 kv.m | 0,4 | 36 | 247542 |
| **2023** | 432 kv.m | 0,3 | 36 | 253526 |

**3.5.9. ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası**

Son illərdə universitetin kitabxana fonduna daxil olan dərslik və dərs vəsaitlərinin sayında (son beş ildə nəşr olunmuş) dinamik artım müşahidə olunur. Belə ki, son 7 il ərzində çap şəklində Universitetin kitabxana fonduna daxil olan və son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin sayı 23974 ədəddir. Həmçinin, bu tərkibə daxil olan və elektron şəkildə universitetə daxil olan elektron formada dərslik və dərs vəsaitlərinin sayı isə 3289-dur.

Son 5 ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) universitetin kitabxana fonduna daxilolmaların illər üzrə dinamikası aşağıdakı cədvəldə verilmişdir:

| İllər | Çap şəklində | | Cəmi | O cümlədən, elektron şəklində | | Cəmi |
|---|---|---|---|---|---|---|
| | Dərslik | Dərs vəsaiti | | Dərslik | Dərs vəsaiti | |
| 2017 | 1696 | 3060 | 4756 | 823 | 277 | 1100 |
| 2018 | 1725 | 2118 | 3848 | 304 | 197 | 501 |
| 2019 | 1057 | 1713 | 2770 | 183 | 115 | 298 |
| 2020 | 528 | 661 | 1189 | 37 | 24 | 61 |
| 2021 | 1863 | 1424 | 3287 | 26 | 33 | 59 |
| 2022 | 1371 | 1608 | 2979 | 168 | 515 | 983 |
| 2023 | 2525 | 2625 | 5150 | 191 | 96 | 287 |
| **Cəmi:** | **10765** | **13209** | **23974** | **2032** | **1257** | **3289** |

**3.5.10. Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası**

Kitabxanada kitab fondunun (dərslik və dərs vəsaiti) tərkibi tədris dillərinə uyğun aşağıdakı kimidir:

**Kitabxana fondunun dillər üzrə bölgü təsnifatı**

| Dillər üzrə | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan dilində | 227916 | 232538 | 235005 | 235522 | 237739 | 240732 | 245180 |
| İngilis dilində | 382 | 598 | 1357 | 2128 | 3197 | 4033 | 4778 |
| Rus və digər dillərdə | 378 | 522 | 947 | 1325 | 1913 | 2777 | 3568 |

**3.5.11. ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində artım dinamikası**

Universitetin mətbəəsində çap xidmətlərinin mövcudluğu nəşrlərə çəkilən məsrəflərin azalmasına təsir göstərir. Həmçinin, müəlliflər tərəfindən dərsliklər və elmi ədəbiyyatlar universitetə hədiyyə edilir ki, bu da Universitet tərəfindən simvolik olaraq (bazar qiymətindən daha aşağı dəyərlə) qiymətləndirilir. Yuxarıda qeyd olunan amillər Universitet tərəfindən dərsliklər və elmi ədəbiyyatlara ayrılan vəsaitlərin həcminə əsaslı təsir göstərir. Bunu aşağıdakı cədvəldə görmək olar:

| İllər üzrə | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| **Xərclənən məbləğ (manatla)** | 20838 | 19106 | 8078 | 350 | 13555 | 10219 | 10175 |

**3.5.12. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti**

Universitetdə təlim və tədris resurslarının yenilənməsi vəziyyətinə nəzarət mütəmadi olaraq Keyfiyyət Təminatı Mərkəzi, ixtisaslar üzrə proqram komissiyaları, kafedralar və müvafiq monitorinq komissiyaları tərəfindən aparılır. Təlim və tədris resurslarının mövcud vəziyyəti təhlil edilir və təkmilləşdirilməsinə dair müvafiq tövsiyələr verilir. Monitorinqin nəticələrinə uyğun olaraq fənlərin tədrisi üçün nəzərdə tutulan fənn sillabusları, fənn proqramları, mühazirə materialı və slaydların uyğunluğu, həmçinin dərslik və dərs vəsaitlərinin professor-müəllim heyəti tərəfindən yenilənməsi həyata keçirilir.

**3.5.13. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti**

Hər semestrin əvvəli və tədris ilinin sonu elmi işlər üzrə prorektorun birbaşa rəhbərliyi ilə kitabxana və kafedralarda tədris olunan fənlər üzrə tədris vəsaitlərinin mövcudluğu və yenilənməsi vəziyyəti monitorinq edilir. Təlim və tədris resurslarının keyfiyyətinin təmin olunması məqsədilə proqram komissiyaları və kafedralar fənnin kompetensiyasının fənnin təlim nəticələrinə uyğunluğu səviyyəsinə nəzarət edərək, təlim metodlarının yenilənməsini təmin edir. Tədris olunan fənlər üzrə tədris materialları (sillabus, mühazirə materialları, təqdimatlar və s.) müəllimlər tərəfindən elektronlaşdırılaraq, elektron tədris sisteminə (EMPRO) yerləşdirilir.

**3.5.14. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti**

Universitetdə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının təmin edilməsi məqsədilə müvafiq işlər görülmüşdür. Belə ki, fiziki əlilliyi olan tələbələrin universitetə maneəsiz daxil olması üçün xüsusi avadanlıq quraşdırılmış, görmə əlilliyi olan tələbələrə auditoriyada mühazirə dərsini aparan müəllimin səsinin yazılmasına şərait yaratmışdır. Ümumiyyətlə sağlamlıq imkanları məhdud şəxslər üçün tədris resurslarının uyğunlaşdırılması prioritet istiqamətlərdən biridir, bu işlərin davamlı olaraq aparılması cari Strateji İnkişaf Planına da nəzərdə tutulmuşdur.

**3.5.15. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti**

Universitetdə fənn proqramları və sillabusları, həmçinin mühazirə materialları müasir dövrün tələbləri nəzərə alınaraq və yeni nəşr olunmuş ədəbiyyatlara uyğun olaraq davamlı şəkildə təkmilləşdirilir. Qeyd edək ki, 2017-2023-cü illər ərzində 364 fənn proqramı təkmilləşdirilərək yenidən nəşr olunmuşdur.

**3.5.16. Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resursları), dəstək planlarının mövcudluğu**

Bakı Biznes Universitetində tələbələrin sosial inkişafının gücləndirilməsi, onların mədəni fəaliyyətlərə cəlb edilməsi, asudə vaxtlarının səmərəli təşkili, o cümlədən fiziki sağlamlığının təmin edilməsi məqsədilə Tələbə Gənclər Təşkilatı, Mədəniyyət Mərkəzi, fakültativ idman seksiyaları və dərnəkləri (futbol, boks, voleybol, özünümüdafiə, basketbol və s.) fəaliyyət göstərir. Qeyd edilən struktur vahidlərinin fəaliyyətinin səmərəli təşkili üçün bütün lazımi resurslar (insan resursu - təşkilat sədri, mərkəz direktoru, idman müəllimləri, həmçinin, kabinet, məşq zalları, texniki təchizatlar, büdcə resursları və s.) təmin edilmişdir.

**3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti**

Universitetdə psixoloji məsləhət xidməti 2017-2022-ci illərdə «Tibb məntəqəsi»nin əməkdaşları tərəfindən həyata keçirilmişdir. Bu dövr ərzində tələbələrin müraciətlərinə əsasən onlarla  müxtəlif mövzularda söhbətlər aparılmışdır. 2022-ci ildən etibarən isə Universitetdə xüsusi psixoloq otağı ayrılmış, psixoloq ştatı yaradılmış və bu vəzifə dos. İ.Soltanova tərəfindən icra olunur. Burada məqsəd Universitetdə əməkdaşların və təhsilalanların mənəvi-psixoloji sağlamlığının dəstəklənməsidir.

**3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi**

**3.6.1. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə  bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti**

Bakı Biznes Universitetində təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.2010-cu il tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı»nın 7-ci bəndinə, 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»nın tələblərinə uyğun olaraq həyata keçirilir. Eyni zamanda Universitetdə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsinə dair Universitetin Elmi Şurasının müvafiq qərarları ilə təsdiq edilmiş «Bakalavriat və magistratura pillələrində tələbənin semestr ərzində auditoriya və auditoriyadankənar fəaliyyətinin təşkili və qiymətləndirilməsinə dair qaydalar», «Bakalavriat və magistratura səviyyələrində tələbələrin fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsinə dair Qaydalar», «Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirməyə dair təlimat» və «İmtahanların təşkili və keçirilməsi haqqında Qaydalar» mövcuddur.

**3.6.2. Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti**

Bakı Biznes Universitetində tətbiq edilən bilik və bacarıqların qiymətləndirilməsi meyarları fənnin təlim nəticələrinin və imtahan yazı işlərinin qiymətləndirməsinə imkan verir.

**3.6.3. Qiymətləndirmədə müxtəlif formalardan (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti**

Təlim nəticələrinin imtahan prosesində qiymətləndirilməsi yazılı formada həyata keçirilir. Tərcümə ixtisasında təhsil alan tələbələr bəzi fənlərdən və digər ixtisaslarda təhsil alan tələbələr isə «Xarici dildə işgüzar və akademik kommunikasiya» fənnindən imtahan prosesində üz-üzə (şifahi-dinləmə) metodundan istifadə edirlər.

**3.6.4. Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti**

Universitetdə tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsində ədalətliliyi, obyektivliyi və şəffaflığı təmin etmək üçün imtahan prosesində müvafiq komissiya fəaliyyət göstərir. Belə ki, yazı işləri komissiya tərəfindən kodlaşdırılır və yoxlanılması üçün müəllimlərə təqdim edilir. Bu da qiymətləndirmədə obyektivlik və şəffaflığın təmin olunmasına imkan yaradır. İmtahanların keçirilməsi ilə əlaqədar verilən əmrlərdə qiymətləndirmənin obyektiv və şəffaflığının təmin edilməsi məqsədi ilə xüsusi komissiya fəaliyyət göstərir.

**3.6.5. Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti**

Tələbəyönümlü təhsil sisteminin tətbiqi öyrənmə prosesində tələbələrə müstəqillik və məsuliyyətli olmaqla yanaşı, onlarda özünüqiymətləndirmə bacarığının formalaşmasına imkan verir. Qiymətləndirmə professor-müəllim heyəti, tələbə yoldaşları və tələbənin özü tərəfindən aparılır ki, bu da qeyd olunan amillərin nəzərə alınmasına imkan verir.

**3.6.6. Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti**

Universitetdə tələbələrin cari və aralıq qiymətləndirilməsi, elan edilməsi EMPRO elektron sistemi üzərində aparılır.

**3.6.7. Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti**

Sağlamlıq imkanları məhdud tələbələrin imtahanlarının keçirilmə forması onların ərizəsi ilə müraciətləri əsasında müəyyən edilir.

**3.6.8. Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti**

Tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi zamanı fənlərin spesifik xüsusiy-

yətləri nəzərə alınır. Belə ki, tələbələrdə bilik və bacarıqların formalaşmasını müəyyən etmək üçün nəzəri suallarla yanaşı praktik yönümlü suallar və tapşırıqlar verilir. Tələbələrin İKT bacarıqlarının formalaşma səviyyəsini yoxlamaq üçün imtahanlar kompüter laboratoriyalarında keçirilir. Dil bacarıqları isə «Dinləmə», «Oxu», «Yazı» və «Danışıq» bacarıqları üzrə qiymətləndirilir. Bütün bunlar şəffaflıq, ədalətlilik və reqlamentlilik prinsipləri əsasında aparılır.

**3.6.9. Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)**

Yekun Dövlət Qiymətləndirilməsi bakalavriat səviyyəsi üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.06.2010-cu il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş «Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları»na, magistratura səviyyəsi üzrə isə 12.05.2010-cu il tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»na əsasən təşkil olunur. Bakalavriat səviyyəsində buraxılış yekun Dövlət imtahanı, magistratura səviyyəsində isə dissertasiya işlərinin müdafiəsinin təşkili müvafiq olaraq «Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavriat səviyyəsində dövlət attestasiyası haqqında Əsasnamə» və «Magistr dissertasiyalarının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqında Əsasnamə»nin tələblərinə uyğun təşkil edilir.

2022-2023-cü tədris ilindən etibarən Universitetdə müvafiq ixtisaslar üzrə Təhsil proqramlarının kompetensiyalarına istiqamətləndirilmiş sertifikatlaşma tədbirləri (fənlər üzrə) həyata keçirilir. Qeyd edək ki, 2022-2023-cü tədris ilinin sonunda məzun olan təhsilalanların 38%-i müvafiq peşə bacarıqları üzrə sertifikatlaşaraq əmək bazarına daxil olmuşlar.

**3.6.10. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Universitetdə tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi Universitetin Elmi Şurasının müvafiq qərarları ilə təsdiq edilmiş «Bakalavriat və magistratura səviyyələrində tələbələrin fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsinə dair Qaydalar»da və «İmtahanların təşkili və keçirilməsi haqqında Qaydalar»da öz əksini tapmışdır. Qiymətləndirmə sistemi maraqlı tərəflərin əsaslandırılmış təklifləri əsasında Universitetin Elmi Şurasında müzakirə olunur və təkmilləşdirilir.

**3.6.11. Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın, başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

Universitet tərəfindən tərtib olunmuş «Yaddaş kitabçası» (müəllimlər və tələbələr üçün) hər il təkmilləşdirilir. «Yaddaş kitabçası» akademik məsləhətçilər tərəfindən tələbələrə çap edilmiş və elektron formada təqdim edilir. Həmçinin, ixtisasların Proqram komissiya rəhbərləri

müvafiq ixtisaslar üzrə akademik qruplarla görüşlər təşkil edir, onlara təhsil səviyyələrini bitirmə qaydaları və şərtlərini sadə, aydın və başa düşülən formada izah edirlər.

**3.6.12.Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu**

Universitetdə təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsi prosesi müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş «Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları» və 21.01.2010-cu il tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş «Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası»nın tələblərinə uyğun olaraq həyata keçirilir.

**3.7. Professor-müəllim heyəti**

**3.7.1. Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti**

Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatı Bakı Biznes Universitetinin «Akademik və inzibati-texniki heyətin işə qəbulu Qaydaları»nın tələblərinə uyğun olaraq həyata keçirilir. Fakültə dekanları və müavinləri, həmçinin kafedra müdirləri Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 nömrəli – «Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları»nın tətbiqi barədə əmrinin tələblərinə uyğun olaraq seçki əsasında aparılır və Universitetin Elmi Şurasında təsdiq edilir. Bakı Biznes Universitetinin rəsmi internet və sosial şəbəkə səhifələrində akademik heyətin işə qəbulu və vakansiya şərtləri haqqında məlumatlar yerləşdirilir.

**3.7.2. Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarların mövcudluğu vəziyyəti**

Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsi məqsədilə Universitetdə müxtəlif mövzularda təlimlər keçirilir və eyni zamanda Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş «Professor-müəllim heyətinin peşə fəaliyyətinin qiymətləndirilməsi Qaydaları», «Elmi-pedaqoji və inzibati-texniki heyətin mükafatlandırılmasına dair Əsasnamə», «Proqram rəhbəri – kafedra müdirinin və pedaqoji heyətin əmək haqqının diferensiallaşdırılmasına dair Əsasnamə» mövcuddur. Müəllimlərin pedaqoji və texnoloji səriştələri Qayda və Əsasnamələrdə əks olunan meyarlar üzərindən hazırlanmış formaya uyğun qiymətləndirilir.

**3.7.3. Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti**

Universitetdə interaktiv, aktiv tədris metodları və distant tədris prosesləri ilə əlaqədar

akademik heyətin səriştələrinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikasının Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu tərəfindən müxtəlif mövzularda «Fəal-interaktiv təlim metodlarından istifadə» – 30 saat, «Müasir təlim üsulları» – 36 saat, «Tədrisin planlaşdırılması və auditoriyaların idarə olunması» – 24 saat, «Fəal təlim və layihə metodikası» – 42 saat, «İnformasiya kommunikasiya texnologiyalarının tədrisdə tətbiqi» – 36 saat və s. təlimlər keçirilmişdir. Universitetdə intellektual tədris sisteminin tətbiqinə dair müəllimlərə «SİNAM MMC» tərəfindən müvafiq təlimlər keçirilmişdir. Distant tədris prosesi xüsusilə Covid-19 pandemiyası dövründə daha da aktuallaşmışdır. Bununla əlaqədar «Xüsusi karantin rejimi dövründə Bakı Biznes Universitetində tədris-təlim və tərbiyə prosesinin təşkilinə dair qaydalar» (Elmi Şuranın 2020-ci il 14 sentyabr tarixli Qərarı ilə) təsdiq olunmuşdur. Akademik heyət həmin qaydalarla tanış olmuş və onlara bu Qaydaların icrasına dair təlimlər keçirilmişdir (ZOOM və s. proqramların tətbiqinə dair).

**3.7.4. Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və s. kimi təlim kurslarında iştirakı vəziyyəti.**

Universitetdə akademik heyətin ixtisasartırma və digər təlim kurslarında iştirakı səviyyəsinin illər üzrə davamlı artım dinamikası mövcuddur. Belə ki, bu göstərici orta hesabla aşağıdakı kimidir:

- 2017-2018-ci tədris ilində 98,5%;
- 2018-2019-cu tədris ilində 18,3%;
- 2019-2020-ci tədris ilində 23,0%;
- 2020-2021-ci tədris ilində 26,8%;
- 2021-2022-ci tədris ilində 40,8%;
- 2022-2023-cü tədris ilində 62,9%;
- 2023-2024-cü tədris ilində 66,2%.

**3.7.5. Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti**

Universitetdə akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakında illər üzrə artım dinamikası orta hesabla aşağıdakı kimidir:

- 2017-2018-ci tədris ilində 18,8%;
- 2018-2019-cu tədris ilində 31,8%;
- 2019-2020-ci tədris ilində 100,0%;
- 2020-2021-ci tədris ilində 29,0%;
- 2021-2022-ci tədris ilində 49,1%;
- 2022-2023-cü tədris ilində 62,0%;
- 2023-2024-cü tədris ilində 28,0%.

**3.7.6. Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti**

Akademik heyət tərəfindən fənnin spesifik xüsusiyyəti nəzərə alınmaqla «Tədris prosesinin təşkili ilə əlaqədar texnoloji xəritə» hazırlanmışdır. Monitorinq qrupu tərəfindən akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi texnoloji xəritədə qeyd olunan meyarlar üzrə aparılır. Dərslərin texnoloji xəritəyə uyğunluğunun yoxlanılması məqsədilə aparılan monitorinqlərin nəticələri əmək haqqının diferensiallaşdırılmasında nəzərə alınır.

**3.7.7. Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti**

Universitet üzrə akademik heyət arasında dərs yükünün bölgüsü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli 215 nömrəli – «Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında» Qərarının tələblərinə uyğun həyata keçirilir. Universitet üzrə 2023/2024-ci tədris ili üçün ümumi aktiv dərs yükü (82822 saat) müvafiq kafedralar üzrə bölünmüş və təsdiq edilmişdir. Akademik heyət arasında dərs yükü bir müəllimə 1-3 fəndən çox olmamaqla (magistr pilləsi istisna olmaqla), müəllimin ixtisaslaşma və peşəkarlıq səviyyəsi nəzərə alınaraq bölüşdürülmüşdür. Aktiv dərs yükünün 97,1%-i (80452 saat) professor-müəllim heyəti arasında bölüşdürülmüş, 2,9%-i (2370 saat) isə bölünməmiş (vakant) dərs yükünü təşkil edir. Passiv yük magistr dissertasiya işlərinə rəhbərlik üzrə formalaşır və magistr dissertasiya işini müvəffəqiyyətlə bitirdiyi halda müvafiq elmi rəhbərin passiv yükü reallaşdırılır və ödənilir. 2023/2024-cü tədris ili üçün akademik dərs yükünün kafedralar üzrə bölgüsü aşağıdakı cədvəldə verilmişdir:

**2023/2024-cü tədris ili üçün akademik dərs yükünün kafedralar üzrə bölgüsü**

| | **Kafedralar** | **Universitet üzrə ümumi dərs yükü** |
|---|---|---|
| 1. | Mühasibat uçotu və audit | 6386 |
| 2. | Maliyyə | 4314 |
| 3. | İqtisadi nəzəriyyə | 8882 |
| 4. | Ali riyaziyyat | 5675 |
| 5. | İnformasiya texnologiyaları | 6553 |
| 6. | Dillər | 23475 |
| 7. | Menecment və marketinq | 6364 |
| 8. | Biznesin təşkili və bələdiyyə idarəetməsi | 5558 |
| 9. | Humanitar elmlər | 15615 |
| **Cəmi:** | | **82822** |

**3.7.8. Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15).**

Universitet və fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti tədris illəri üzrə aşağıdakı kimidir:

| Tədris illəri | «Biznes və menecment» fakültəsi | | | «İqtisadiyyat və idarəetmə» fakültəsi | | | Universitet üzrə | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Akade-mik heyətin sayı | Tələbə sayı | Akademik heyətin tələbə sayına nisbəti | Akade-mik heyətin sayı | Tələbə sayı | Akademik heyətin tələbə sayına nisbəti | Akade-mik heyətin sayı | Tələbə sayı | Akademik heyətin tələbə sayına nisbəti |
| 2017/2018 | 53 | 664 | 12 | 57 | 641 | 11 | 110 | 1305 | 12 |
| 2018/2019 | 51 | 558 | 11 | 55 | 565 | 10 | 106 | 1123 | 11 |
| 2019/2020 | 47 | 736 | 16 | 57 | 628 | 11 | 104 | 1364 | 13 |
| 2020/2021 | 57 | 917 | 16 | 63 | 862 | 14 | 120 | 1779 | 15 |
| 2021/2022 | 64 | 1147 | 18 | 70 | 1065 | 15 | 134 | 2212 | 16 |
| 2022/2023 | 76 | 1372 | 18 | 80 | 1286 | 16 | 156 | 2658 | 17 |
| 2023/2024 | 92 | 1658 | 18 | 96 | 1534 | 16 | 188 | 3192 | 17 |

**3.7.9. Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun müvafiq ATM olması vəziyyəti**

Universitetdə tədris prosesində cəmi 188 professor-müəllim heyəti fəaliyyət göstərir. Professor-müəllim heyətinin 63%-nin (118 nəfər) əsas iş yeri Bakı Biznes Universitetidir.

**3.7.10. Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi**

Universitetdə tədrisin təşkilinin praktiki cəhətdən zənginləşdirilməsi məqsədilə bakalavriat və magistratura səviyyələrində bəzi fənlərin tədrisində kənardan mütəxəssislər (70 nəfər- 37% olmaqla) cəlb edilir. Bu da tədrisin təşkilində keyfiyyətin artırılmasına stimul yaradır.

**3.7.11. Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əmək haqqı sisteminin tətbiqi vəziyyəti**

Universitetdə professor-müəllim heyətinə qiymətləndirmə meyarlarına əsasən diferensiallaşdırılmış əmək haqqı sisteminin tətbiqi əvvəlki tədris ilində əldə etdiyi nailiyyətlər (tədris, elm və özünüinkişaf istiqamətində) nəzərə alınaraq hər semestrin başlanmasından əvvəl həyata keçirilir.

**3.7.12. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və /və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti**

Universitetdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun

olmuş professor-müəllim heyətinin sayı 10 nəfər təşkil edir. Bununla yanaşı Universitetin professor-müəllim heyəti 6 ay və 12 ay müddətində Avropanın müxtəlif ali məktəblərində mübadilə proqramlarında iştirak edirlər.

**3.8. Tələbəyönümlü tədris**

**3.8.1. Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi**

Bakı Biznes Universitetində təhsilalanların fərdi tədris planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»nın təsdiq edilməsi haqqında Qərarının 3.3-cü – «Tələbənin fərdi tədris planının tərtibi» bəndinə uyğun tərtib edilir. Yeni qəbul olunmuş tələbələrə dekanlıq tərəfindən fərdi tədris planları hazırlanır və təsdiqlənmiş formada bir nüsxəsi tələbəyə verilir. Növbəti tədris illəri üçün isə təhsilalanlar tədris planlarını akademik məsləhətçilərin dəstəyi ilə tərtib edirlər. Təsdiqləndikdən sonra fərdi tədris planının bir nüsxəsi tələbədə, digər nüsxəsi isə dekanlıqda saxlanılır. Akademik borcu olduğu halda təhsilalan növbəti semestr başlayanadək fərdi tədris planında müvafiq dəyişikliklər edir.

**3.8.2. Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi**

Müvafiq ixtisasların tədris planına uyğun olaraq seçmə fənn bloku tələbələrə akademik məsləhətçilər tərəfindən təqdim olunur və izah edilir. Seçmə fənlər üzrə tədrisin təşkili fənlər üzrə qruplarda müvafiq tələbə sayının formalaşdığı halda həyata keçirilir.

**3.8.3. Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Boloniya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi**

Təhsilverənlər ixtisaslaşma səviyyəsi nəzərə alınaraq kafedralar tərəfindən müəyyən olunur. Lakin professor-müəllim heyəti tələbələrin müraciəti əsasında əsaslı zərurət yarandığı təqdirdə dəyişdirilir. Akademik məsləhətçilər isə dekanlıqların təyinatına (müxtəlif kvalifikasiyalı magistr və doktorantlar) uyğun təyin olunur.

**3.8.4. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliyinin inkişaf dinamikası**

Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğuları aşağıda göstərilən bir sıra istiqamətlərdə keçirilir:

• ixtisasların tədris planlarında seçmə fənn bloklarının müəyyənləşdirilməsində;

• tədrisin təşkilinin keyfiyyətinə dair tələbə məmnunluğu səviyyəsini müəyyənləşdirmək məqsədilə;

• professor-müəllim heyətinin fəaliyyətindən məmnunluq səviyyəsini müəyyənləşdirmək

məqsədilə;

• tələbə dəstək xidmətləri və resurslardan məmnunluğa dair sorğular;

• tələbələrin asudə vaxtının səmərəli təşkilinə dair sorğular;

• Universitetin və fakültələrin Elmi Şuralarında müvafiq qərarların qəbul edilməsi prosesində və s.

Tələbə və məzunlar arasında rəy sorğuları mütəmadi olaraq həm ənənəvi, həm də rəqəmsal platformalardan istifadə edilərək təşkil edilir. Fəaliyyətin səmərəliliyi Universitetdə müxtəlif istiqamətlər üzrə maraqlı tərəf kimi tələbələrin yanaşmalarının müəyyənləşdirilməsi, qiymətləndirilməsi və müvafiq qərarların qəbul edilməsində nəzərə alınmasıdır.

### 3.8.5. ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

Universitetdə tələbə və məzunların təklifləri müxtəlif istiqamatlərdə keçirilmiş sorğular əsasında müəyyənləşdirilir. Misal üçün qeyd edə bilərik ki, yaranmış zərurətə uyğun olaraq fakültə dekanlıqları müvafiq tələbə heyətinə EMPRO elektron sistemindən istifadə qaydalarına dair təlimlər keçirmişdir. Həmçinin, imtahanların təşkili ilə əlaqədar tələbə təklifləri əsasında imtahan prosesinin gedişatı haqqında videoçarx hazırlanmış və nümayiş etdirilmişdir.

Eyni zamanda əmək bazarının tələblərinə uyğun ixtisas üzrə bacarıqların formalaşması ilə əlaqədar ixtisas kafedraları tərəfindən mütəmadi olaraq peşə bacarıqları üzrə tələbələrin və məzunların sertifikatlaşdırılması aparılır. Tələbə təhsil kreditindən istifadə imkanları və tələbələri bu sahə üzrə düşündürən məsələlər Azərbaycan Respublikası Tələbə Təhsil Krediti Fonduna bildirilir.

### 3.8.6. Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi vəziyyəti

Tələbələrin rəyləri sorğu keçirən struktur tərəfindən texnoloji tendensiyalar (google form) və qabaqcıl sorğu metodologiylarından istifadə edilərək toplanılır, təhlil edilir, müvafiq qərarlar qəbul edilir və lazımi zəruri tədbirlər görülür. Eyni zamanda xidmətlərin keyfiyyəti və məmnunluq səviyyəsini müəyyən etmək üçün müxtəlif rəhbərlik səviyyələri üzrə auditoriyalarda tələbələrlə müvafiq mövzularda (təhsilin keyfiyyəti, maddi-texniki bazanın imkanları, professor-müəllim heyətinin tədris metodlarından istifadə və biliyin qiymətləndirilməsi vəziyyəti, xidmətlərin – kitabxana, yeməkxana, idman, tibb, psixoloji və s.) görüşlər keçirilir. Tələbələrin anonim formada şikayət və təkliflərini bildirmələri üçün universitet daxilində qutular yerləşdirilmişdir. Aparılan reydlərin nəticələri müzakirə olunur və müvafiq qərarların verilməsində istifadə edilir.

**3.8.7. Təhsilalanların şikayət və/ və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti**

Tələbələr öz şikayət və təkliflərini Universitetin elektron poçtuna, fakültə və müvafiq struktur bölmələrə birbaşa müraciət etməklə, müraciətlər və şikayətlər qutusu vasitəsilə, rektor və prorektorların qəbuluna yazılmaqla bildirirlər. Təhsilalanlardan daxil olan müraciətlər xarakterindən asılı olaraq operativ şəkildə cavablandırılır.

**3.8.8. Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorların) mövcudluğu vəziyyəti**

Hazırda Universitetdə müvafiq kvalifikasiyalara sahib 9 akademik məsləhətçi (tyutor) fəaliyyət göstərir. Onlardan - 2 nəfəri bakalavr, 7 nəfəri isə magistr kvalifikasiyalıdır. Universitetdə hər tyutora orta hesabla 382 tələbə düşür.

| **2023-2024-cü tədris ilində fakültələr üzrə akademik məsləhətçilərin (tyutorlar) sayı və tələbə sayına nisbəti vəziyyəti** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Kurslar** | **«Biznes və menecment» fakültəsi** | | **«İqtisadiyyat və idarəetmə» fakültəsi** | | **Doktorantura və magistratura şöbəsi** | | **Universitet üzrə** | |
| | **Tyutorlar sayı** | **Tələbə sayı** | **Tyutorlar sayı** | **Tələbə sayı** | **Tyutorlar sayı** | **Tələbə sayı** | **Tyutorlar sayı** | **Tələbə sayı** |
| I | 1 | 536 | 1 | 537 | 1 | 247 | 3 | 1073 |
| II | 1 | 421 | 1 | 370 | | | 2 | 791 |
| III | 1 | 313 | 1 | 314 | | | 2 | 624 |
| IV | 1 | 388 | 1 | 313 | | | 2 | 701 |
| **Cəmi:** | **4** | **1658** | **4** | **1534** | **1** | **247** | **9** | **3439** |

**3.8.9. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti**

Tələbələrlə təhsilverənlər və akademik məsləhətçilər arasında əlaqələr təhsilin elektron idarəetmə sistemi olan – EMPRO, həmçinin mobil telefon, WhatsApp proqramı, ZOOM və elektron poçt ünvanı vasitəsilə həyata keçirilir.

**3.8.10. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti**

Universitetin pedaqoji heyətinə «İnklüziv təhsil» mövzusunda təlimlər təşkil edilir. Əlilliyin növləri və spesifik xüsusiyyətlərinin maksimum nəzərə alınması nəticəsində tələbələr tədris prosesinə və sosial mühitə cəlb edilirlər. Belə ki, hazırda BBU-da təhsil alan tələbələrə fənlərin tədrisi ilə əlaqədar materiallar öncədən e-mail və digər rəqəmsal platformalar vasitəsilə göndərilir. Nəticədə tədris prosesində onların da aktiv iştirakı təmin edilir.

**3.8.11. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti**

Universitetdə sosial həssas qrupa aid olan tələbələrə müəyyən güzəştlər tətbiq edilir. Müvafiq güzəştlərə dair məlumatlar Universitet tərəfindən tərtib olunmuş «Yaddaş kitabçası»nın 4-cü bölməsində (Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi) öz əksini tapmışdır. Belə ki, aşağıdakı istiqamətlərə uyğun olan təhsilalanların təhsil haqları dövlət hesabına ödənilir:

• Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatlarla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları və tələbələr;

• Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə «Müharibə veteranı» adı almış tələbələr (2023-2024-cü tədris ilindən etibarən);

• əyani təhsil alan valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 23 yaşadək tələbələr;

• I və II dərəcə əlilliyi olan, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək tələbələr.

Eyni zamanda Universitet tərəfindən tələbələrə (Vətən müharibəsində iştirak edən, şəhid bacı və qardaşları olan, ailə vəziyyəti ilə əlaqədar ödəmə imkanları məhdud olan və s.) müraciətləri əsasında Universitetin Elmi Şurasının müvafiq qərarları ilə güzəştlər edilir.

**3.8.12. Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 05 fevral tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş «Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası»na, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin ali təhsil müəssisələrində əlavə təqaüd yerlərinin bölgüsü barədə müvafiq illər üzrə əmrlərə əsasən Universitetdə təhsilalanlara təqaüd imkanları yaradılmışdır. Eyni zamanda Universitetə yüksək balla qəbul olan tələbələrə təhsil haqqından güzəştlər, akademik göstəriciləri yüksək olan təhsilalanlara isə Universitet tərəfindən əlavə təqaüd imkanları yaradılmışdır.

**3.9.Təhsil proqramlarının monitorinqi və yenilənməsi**

**3.9.1. Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu**

Təhsil proqramlarının monitorinqi Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş (13.09.2019) «Təhsil proqramlarının dövri qiymətləndirilməsi strategiyası»nın tələblərinə əsasən həyata keçirilir.

**3.9.2. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu**

2020-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bakalavriat səviyyəsi üzrə təsdiq edilmiş təhsil proqramlarına əsasən ixtisasların və fənlərin təlim nəticələri müəyyən edilmiş, Universitet tərəfindən yeni Təhsil Proqramları hazırlanmış və təsdiq olunmuşdur. Edilmiş dəyişikliklər əsasında 2021-ci ildə 4, 2022-ci ildə 26, 2023-cü ildə 59 fənn proqramı (cəmi-89 fənn proqramı) yenilənərək Azərbaycan Respublikasının Təhsil Nazirliyinin qrifini almışdır. Bakı Biznes Universitetinin qrifi ilə cəmi 179 fənn proqramı təkmilləşdirilərək yenidən hazırlanmışdır. Fənn proqramlarında fənn kompetensiyası, təlim nəticələri və təlim nəticələrinin mövzularla əlaqəsi öz əksini tapmışdır. Müəllimlər fənn sillabuslarını fənn proqramı əsasında tərtib etmişdir. Təhsil proqramları üzrə kompetensiyaların və onların əsasında formalaşan təlim nəticələrinin əldə edilməsi səviyyəsi kollokviumlar və aralıq imtahanın nəticələri ilə müəyyən edilir. Belə ki, kollokviumlar və yekun imtahan sualları təlim nəticələri və kompetensiya yönümlü tərtib edilir. Prosesə nəzarət semestr ərzində və semestrin sonunda monitorinq qrupları tərəfindən həyata keçirilir.

**3.9.3. Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti**

Təhsil proqramının monitorinqinin faydalarını:

• proqramların müasir çağırışlara cavab verməsinin qiymətləndirilməsi;

• proqramlara əsasən seçmə fənlərin müəyyənləşdirilməsində səmərəliliyin əldə edilməsi;

• təlim nəticələrinin təkmilləşməsi;

• fənlərin tədrisində risklərin və üstünlüklərin müəyyənləşdirilməsi;

• təhsilalanların bacarıqlarının əldə edilməsi səviyyəsi və s. təşkil edir.

**3.9.4. Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti**

Universitetdə Təhsil proqramlarının illik özünüqiymətləndirilməsi hər tədris ilinin sonunda ixtisaslar üzrə proqram rəhbərləri tərəfindən həyata keçirilir və özünüqiymətləndirmə hesabatı Universitetin Elmi Şurasının müzakirəsinə təqdim edilir.

**3.9.5. Təhsil müəssisələrində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti**

Əmək bazarının nümayəndələri maraqlı tərəf olması səbəbindən onlar Universitetdə tədris olunan müvafiq təhsil proqramlarında seçmə fənlərin müəyyənləşdirilməsində aktiv iştirak edirlər. Belə ki, Universitetdə tədris olunan müvafiq təhsil proqramlarında seçmə fənlərin müəyyənləşdirilməsi prosesində əmək bazarının nümayəndələri proqram komissiyasının iştirakçısı qismində çıxış edirlər.

### 3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

#### 3.10.1. Karyera mərkəzinin mövcudluğu vəziyyəti

Bakı Biznes Universitetində Karyera və Məzunlarla İş Mərkəzi Rektorun 16.09.2013-cü il tarixli 171 saylı əmri ilə:

- əmək bazarının tələblərinin öyrənilməsi;
- tədrisin keyfiyyətinin daha da yüksəldilməsi;
- tələbə və məzunlara karyera planlaması istiqamətində məsləhətlərin göstərilməsi;
- iş və təcrübə proqramları axtarmağa dəstək olmaq;
- məzunlarla əlaqələrin yüksəldilməsi məqsədi ilə yaradılmışdır.

Mərkəz öz fəaliyyətini Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş (12.11.2021) «Karyera və məzunlarla iş mərkəzinin Əsasnaməsi» əsasında hazırlanmış illik iş planı ilə təşkil edir və hər tədris ilinin sonunda iş planı üzrə hesabatları müvafiq struktur bölmələrə təqdim edir. Mərkəzin Əsasnaməsi bu sahədə olan normativ-hüquqi sənədlər, dövlət proqramları, Universitetin Əsasnaməsi, Strateji inkişaf proqramı və bu sahədə qəbul edilmiş beynəlxalq sənəd və normaların tələblərinə uyğun olaraq hazırlanmışdır. Mərkəz öz fəaliyyətini işə götürənlərin ehtiyacları, əmək bazarında baş verən dəyişikliklər, beynəlxalq çağırışlar və müasir bacarıqların tələbə və məzunlarda formalaşdırılması istiqamətində qurmuşdur. Mərkəz öz fəaliyyətində maraqlı tərəflərin iştirakını təmin edir. Mərkəzin fəaliyyəti Universitet-Tələbə-Məzun-Sənaye dialoqunun təmin edilməsi əsasında aparılır.

#### 3.10.2. Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Mərkəz əsas fəaliyyətlərini təhsilalanların və məzunların ehtiyaclarını nəzərə alaraq 5 istiqamətdə həyata keçirir:

1. Təhsilalanlarla iş;
2. Məzunlarla iş;
3. Əmək bazarının nümayəndələri ilə iş;
4. Təcrübənin təşkili;
5. Əmək yarmarkalarının təşkili.

Bakı Biznes Universitetində Karyera və Məzunlarla İş Mərkəzi mütəmadi olaraq mövcud tələbələr, məzunlar və müəssisələr ilə sorğular keçirir, onların ehtiyaclarını öyrənir və bu istiqamətdə zəruri tədbirlər həyata keçirir. Mərkəz tərəfindən müəyyən edilmiş karyera konsultasiya saatlarında tələbə və məzunlara müxtəlif istiqamətlərdə məsləhətlər verilir, müxtəlif mövzularda təlimlər, konfranslar, seminarlar keçirilir və karyera sərgiləri təşkil edilir. Məzunların poçt ünvanlarına ümumi karyera məlumatı və vakansiyalar göndərilir, həmçinin, müvafiq məlumatlar mütəmadi olaraq Mərkəzin sosial şəbəkə hesablarında paylaşılır. Ümumilikdə Mərkəz tərəfindən 100-dən çox müxtəlif tədbir təşkil edilmişdir. Təşkil olunan tədbirlərdə ümumilikdə 5000-ə qədər tələbə və məzun xidmətlərdən yararlanmışdır.

**3.10.3. Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

Bakı Biznes Universitetində Karyera və Məzunlarla İş Mərkəzi tərəfindən məzunların siyahıları dəqiqləşdirilmiş, onlarla müxtəlif vasitələrdən (sorğu linkləri, e-mail, zəng, Linkedin və digər sosial şəbəkələr, işəgötürənlər və s.) istifadə edərək əlaqələr yaradılmışdır. Məzunlar üçün müvafiq sorğular təşkil edilmiş və keçirilmiş sorğuların nəticələri təhlil olunmuşdur. Məzunlar üzrə müvafiq məlumatlar Access proqram təminatında toplanılır və mütəmadi olaraq yenilənir. Həmçinin, mütəmadi olaraq məzunlarla görüşlər təşkil edilir və onlar Universitetə, təlimlərə və əmək yarmarkalarına dəvət edilirlər. Universitetin Məzunlar Assosiasiyasının yaradılması layihəsi hazırlanmışdır. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən daxil olmuş (28.03.2023-cü il 3-17-2/2-21801/2023 nömrəli məktubu) ilkin məlumatlara əsasən 2017-2022-ci illər ərzində məzunların məşğulluq səviyyəsi 51,5%, o cümlədən, «Menecment» ixtisasında 60%, «Dünya iqtisadiyyatı» ixtisasında bu göstərici 59,38%-dir ki, məşğul məzunların isə ixtisasa uyğunluq səviyyəsi 54,9%, o cümlədən, «Mühasibat uçotu və audit» ixtisasında 63%, «Maliyyə» ixtisasında 63,8%, «Dünya iqtisadiyyatı» ixtisasında isə 59,4% təşkil edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin «Əmək və Məşğulluq» alt sistemində 2018-2022-ci illər əsasında Məzunların məşğulluq reytinqi üzrə universitetlərin sıralamasında Bakı Biznes Universiteti 11 universitet arasında 58,5%-lə 4-cü yerdə qərarlaşmışdır (arayış əlavə olunur). Məlumatların təhlili zamanı məlum olmuşdur ki, 2018-ci ildə məşğulluq göstəricisi «Sənayenin təşkili və idarə olunması» ixtisasında 61,5%, «Biznesin idarə edilməsi» ixtisasında 61,8%, 2019-cu ildə məşğulluq göstəricisi «Menecment» ixtisasında 76,9%, «Dövlət və bələdiyyə idarəetməsi» ixtisasında 88,9%, 2020-ci ildə «Marketinq» ixtisasında 70,6%, «Menecment» ixtisasında 69,6%, 2021-ci il üzrə məşğulluq göstəricisi «Sənayenin təşkili və idarə olunması» ixtisası üzrə 75%, «Biznesin idarə edilməsi» ixtisasında 100% təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, Bakı Biznes Universiteti Karyera və Məzunlarla İş Mərkəzinin apardığı sorğular və tədqiqatların nəticəsi göstərir ki, 2017-2023-ci il məzunları əsasında bu göstərici ümumilikdə 64,5% təşkil edir. Ən yüksək göstərici 2022-ci il üzrə 80,3% təşkil etmişdir. Magistratura səviyyəsi üzrə isə 2017-2023-cü illər üzrə məşğulluq göstəricisi 78,4%, ixtisasa uyğunluq 70,5% təşkil etmişdir.

**3.10.4. Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrin və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi**

Bakı Biznes Universitetinin «Karyera və Məzunlarla İş Mərkəzi» tərəfindən Google Docs vasitəsilə 11 sorğu keçirilmişdir. Onlardan 2-si universitetdənkənar əhəmiyyətli konfranslar, 1-i mövcud tələbələrin təlim maraqlarının öyrənilməsi, 1-i sonuncu kurslara təcrübə müəssisəsini seçmək imkanı, 1-i əməkdaşlıq edilmiş müəssisələrin tələbədən məmnunluq sorğusu, 7-si

müxtəlif illər üzrə bakalavriat və magistratura məzunlarının məşğulluğu və təhsil proqramlarından məmnunluq sorğusu olmuşdur. Ümumilikdə bu sorğularda 1743 nəfər iştirak etmişdir. Online sorğularda iştirak etməyən məzunlarla telefon zəngləri vasitəsilə əlaqə saxlanılmışdır. Ümumilikdə, 1998-2023-cü illər üzrə 1700-dən çox məzunla əlaqə yaradılmışdır. Keçirilən sorğuların nəticəsi aşağıdakı kimi olmuşdur:

1. 21.09.2022-ci il tarixində ümumi məzunlar üzrə məşğulluq sorğusu keçirilmişdir. Sorğuda 312 məzun iştirak etmişdir. Bu məzunlara ümumilikdə 20 sual ünvanlanmışdır. Sualların cavablarında 82 məzun işsiz olduğunu bəyan etmiş, yerdə qalan 230 məzun isə müxtəlif sahələrdə çalışdıqlarını qeyd etmişlər. Məzun olduqdan sonra təhsilini davam etdirən 27 məzun təhsil aldığını, 57 məzun müxtəlif kurs və təlimlərdə iştirak etdiyini, yerdə qalanlar isə əlavə fəaliyyətlə məşğul olmadıqlarını qeyd etmişlər. «İşə qəbul zamanı əsasən hansı faktorlar üstünlük təşkil etdi» - sualımıza 34 məzun - «Universitetin nüfuzu və verilən keyfiyyətli təhsil», 88 məzun - «Şəxsi keyfiyyət və bacarıqlar», 65 məzun - «İş təcrübəsi və peşəkar bacarıqlar», 23 məzun - «Şəxsi əlaqələr», 8 məzun - «Magistratura/ doktorantura təhsili», 18 məzun - «Xarici dil bilikləri» cavablarını seçmişlər. «Universitetdən qazandığınız bilik və bacarıqlar işə qəbulda sizə kömək etdimi?» sualımıza nəzər salsaq, 98 məzun - «Bəli», 41 məzun - «Xeyr» cavabını ünvanlamışdır. Digər suallar fərdi şəkildə cavablandırılmışdır. Ümumilikdə, keçirilmiş sorğunun nəticələrinə nəzər salsaq, məzunların təcrübədən əldə etdikləri biliklər, şəxsi keyfiyyət və bacarıqları, peşəkar səriştələri və universitetdən aldıqları təhsil indikatorlarının hər biri onlara universitet zamanı aşılandığından məmnunluq səviyyəsini yüksək qiymətləndirmək olar. https://forms.gle/Gep4hcy3GUqvCrJU9

2. 31.01.2023-cü il tarixində 2022-ci ilin məzunları ilə sorğu keçirilmişdir. Sorğuda 57 məzun iştirak etmişdir. Ümumilikdə 18 sual ünvanlanmışdır. Məşğulluq vəziyyətləri 9-u ixtisası üzrə, 20-si qeyri-ixtisas üzrə işlədiklərini, 28-i isə işsiz olduqlarını bəyan etmişlər. 14 məzun təhsilini davam etdirdiyini, 13 məzun kurs təlimlərində iştirak etdiyini qeyd etmişlər. «Təcrübə keçdiyiniz müəssisədə fəaliyyəti davam etdirməklə əlaqədar hər hansı bir təklif oldumu?» - sualına 16 məzun - «Bəli» cavabını, 41 məzun - «Xeyr» cavabını vermişdir. «İşə qəbul zamanı əsasən hansı faktorlar üstünlük təşkil etdi?» - sualımıza 12 məzun - «Universitetin nüfuzu və verilən təhsil», 35 məzun - «Şəxsi keyfiyyət və bacarıqlar», 22 məzun - «İş təcrübəsi və peşəkar bacarıqlar», 8 məzun - «Şəxsi əlaqələr», 3 məzun - «Magistratura/ Doktorantura təhsili», 12 məzun - «Xarici dil bilikləri» cavablarını seçmişlər. «Universitetdən qazandığınız bilik və bacarıqlar işə qəbulda sizə kömək etdimi?» - sualımıza nəzər salsaq, 36 məzun - «Bəli», 21 məzun - «Xeyr» cavabını ünvanlamışdır. Digər suallar fərdi şəkildə cavablandırılmışdır. «İş tapmaq və karyera qurmaqla əlaqədar universitetimizin hansı dəstəklərinə ehtiyac duyursunuz?» - sualımıza 41 məzun - «Bəli» cavabını vermişdir. Ümumilikdə keçirilmiş sorğunun nəticələrinə nəzər salsaq məzunların təcrübədən əldə etdikləri biliklər,

şəxsi keyfiyyət və bacarıqları, peşəkar səriştələri və universitetdən aldıqları təhsil indikatorlarının hər biri onlara universitetdə biliklərlə aşılandığından məmnunluq səviyyəsini yüksək qiymətləndirmək olar. https://forms.gle/RDWwfy5Y9AXpX7Pe8

3. 17.10.2023-cü il tarixində 2023-cü ilin məzunları ilə sorğu keçirilmişdir. Sorğuda 51 məzun iştirak etmişdir. Ümumilikdə 11 sual ünvanlanmışdır. 4 məzun təhsilini davam etdirir, 4 məzun ixtisası üzrə çalışır, 14 məzun qeyri-ixtisas üzrə çalışır, 29 məzun isə işsiz olduğunu qeyd edib. «İşə qəbul zamanı əsasən hansı faktorlar üstünlük təşkil etdi?» - sualımıza 12 məzun - «Universitetin nüfuzu və verilən təhsil», 26 məzun - «Şəxsi keyfiyyət və bacarıqlar», 15 məzun - «İş təcrübəsi və peşəkar bacarıqlar», 6 məzun - «Şəxsi əlaqələr», 9 məzun - «Xarici dil bilikləri» cavablarını seçmişlər. «Universitetdən qazandığınız bilik və bacarıqlar işə qəbulda sizə kömək etdimi?» - sualımıza nəzər salsaq, 36 məzun - «Bəli», 15 məzun - «Xeyr» cavabını ünvanlamışdır. Təcrübə müəssisəsindən 34 məzun iş təklifi almayıb, 16 məzun isə iş təklifi aldığını bildirib. Təhsil aldıqları müddətdə 38 məzun karyera xidmətindən razı qaldığını, 7 məzun razı qalmadığını qeyd edib. Ümumilikdə keçirilmiş sorğunun nəticələrinə nəzər salsaq məzunların təcrübədən əldə etdikləri biliklər, şəxsi keyfiyyət və bacarıqları, peşəkar səriştələri və Universitetdən aldıqları təhsil indikatorlarının hər biri onlara Universitetdə biliklə aşılandığından məmnunluq səviyyəsini yüksək qiymətləndirmək olar.
https://forms.gle/ouh1QJLRLbAR5vct6

4. 20.10.2023-cü il tarixində 2017-2022-ci illər ərzində məzun olmuş magistrantlarla sorğu keçirilmişdir. Sorğuda 127 məzun iştirak etmişdir. Ümumilikdə 8 sual ünvanlanmışdır. Məzunlardan 62 məzun ixtisası üzrə, 51 məzun qeyri-ixtisas üzrə işlədiyini, 13 məzun işsiz və 1 məzun təhsil aldığını qeyd edib. «İşə qəbul zamanı əsasən hansı faktorlar üstünlük təşkil etdi?» - sualımıza 8 məzun - «Universitetin nüfuzu və verilən təhsil», 67 məzun - «Şəxsi keyfiyyət və bacarıqlar», 16 məzun - «İş təcrübəsi», 7 məzun - «Şəxsi əlaqələr», 2 məzun - «Xarici dil bilikləri», 15 məzun - «Magistratura elmi dərəcəsi», 7 məzun - «Əmək bazarının tələblərini qarşılayan kompüter proqramlarını istifadə etmək bacarıqları», 5 məzun - «İxtisasa uyğun beynəlxalq və yerli sertifikatlar» cavablarını qeyd etmişlər. «Universitetdən qazandığınız bilik və bacarıqlar işə qəbulda sizə kömək etdimi?» sualımıza nəzər salsaq, 88 məzun - «Bəli», 39 məzun - «Xeyr» cavabını ünvanlamışdır. Digər suallar fərdi şəkildə cavablandırılmışdır. Ümumilikdə keçirilmiş sorğunun nəticələrinə nəzər salsaq, məzunların təcrübədən əldə etdikləri biliklər, şəxsi keyfiyyət və bacarıqları, peşəkar səriştələri və universitetdən aldıqları təhsil indikatorlarının hər biri onlara universitet zamanı aşılandığından məmnunluq səviyyəsini yüksək qiymətləndirmək olar. https://forms.gle/8Fmf4v1YNafYMnya9

5. 07.11.2023-cü il tarixində 2023-cü ildə məzun olmuş magistrantlarla sorğu keçirilmişdir. Sorğuda 24 məzun iştirak etmişdir. Ümumilikdə 9 sual ünvanlanmışdır. Məzunlardan 8

məzun ixtisası üzrə, 13 məzun qeyri-ixtisas üzrə işlədiyini, 1 məzun işsiz və 1 məzun təhsil aldığını qeyd edib. Ümumilikdə keçirilmiş sorğunun nəticələrinə nəzər salsaq məzunların təcrübədən əldə etdikləri biliklər, şəxsi keyfiyyət və bacarıqları, peşəkar səriştələri və Universitetdən aldıqları təhsil indikatorlarının hər biri onlara Universitet zamanı aşılandığından məmnunluq səviyyəsini yüksək qiymətləndirmək olar. https://forms.gle/p8KXXop1ZBQKQEVYA

6. 27.10.2022-ci il tarixində cari tələbələrlə təlim maraqları sorğusu keçirilmişdir. Sorğuda müxtəlif ixtisas və kurslardan 402 tələbə iştirak etmişdir.
https://forms.gle/ELdnhCi9mG19gpZ17

7. 21.11.2023-cü il tarixində əməkdaşlıq etdiyimiz müəssisələrlə sorğu keçirilmişdir. Sorğuda müxtəlif müəssisələrdən 11 şəxs iştirak etmişdir. Ünvanlanan sualları təhlil etdikdə görürük ki, müəssisələr universitetlə əməkdaşlığı müsbət qiymətləndirir, universitet üçün öz təklif və tövsiyələrini verirlər. https://forms.gle/15zcpn6PshqJ3yqcA

8. 02.03.2022-ci il tarixində AMEA-nın İqtisadiyyat İnstitutunda təcrübə keçən magistrantlarla məmnunluq sorğusu keçirilmişdir. Sorğuda 13 magistrant iştirak edib. Ümumi sorğu üzrə geridönüşlər müsbətdir. Magistrantlar təlimdən məmnun qalıblar.
https://forms.gle/RFHAF3QzjkwNnWrS7

9. 04.05.2023-cü il tarixində Bakı Biznes Universiteti və Dövlət Məşğulluq Agentliyinin birgə təşkil etdiyi Ayın Mərkəzi layihəsi çərçivəsində JW Marriott Absheron Baku otelində keçirilmiş təlimə qatılmaq üçün qeydiyyat forumu yaradılmışdır. Qeydiyyatdan 286 tələbə keçərək qatılmışlar. https://forms.gle/PiJFLmf6MXNYrXj36

10. 25.12.2022-ci il tarixində 16 fevral - 25 may tarixlərində istehsalat təcrübəsi müəssisəsinin seçim sorğusu yaradılmışdır. Sorğuda 258 tələbə iştirak etmişdir. Sorğudakı cavablar nəzərə alınaraq əksər tələbələr seçdikləri müəssisələrdə təcrübə keçmişlər.
https://forms.gle/3FPCZ1KnBYPfKGVm6

11. 22.10.2023-cü il tarixində «TİPx15: Uğur üçün bacarıqlar» konfransının qeydiyyat forumu üçün sorğu keçirilmişdir. Sorğuya 202 tələbə qatılaraq konfransda iştirak etmişlər. https://forms.gle/8HZzbjYuaVF2X98n7

Keçirilmiş sorğular Mərkəz tərəfindən təhlil olunur və nəticələr müvafiq fakültə və kafedralara istiqamətləndirilir. Bunun əsasında da zəruri işlər görülür. Həmçinin, Mərkəz tərəfindən yeni məzunlarla sorğular keçirilir. Sorğularda:

• məzunların karyera inkişafı;
• onların hansı müddətdə və ixtisasına uyğun iş tapması vəziyyəti;
• məzun olduqdan sonrakı dövrlərdə ehtiyacları və həmin ehtiyacların istiqamətləri;
• iş tapa bilməmələri səbəbləri öyrənilir.

Bunlardan əlavə olaraq işəgötürənlərlə də sorğular keçirilərək məzunların bilik və bacarıqlarının səviyyəsi öyrənilir. Sorğular həm onlayn, həm də canlı intervülər formasında aparılır və onların təklifləri dinlənilir.

**3.10.5. Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti**

Bakı Biznes Universitetinin «Karyera və Məzunlarla iş Mərkəzi» məzunlarla davamlı əlaqənin təmin olunması məqsədi ilə müvafiq məlumatları mütəmadi olaraq elektron məlumatlar bazasında (Access proqram təminatında) toplayır. Universitet məzunlarla əlaqəni həm ənənəvi, həm də müxtəlif online platformalar (sosial şəbəkələr və s.) vasitəsi ilə yaradır.

## 4. Elmi-tədqiqat

### 4.1. Elmi-tədqiqat strategiyası

**4.1.1. ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti**

Bakı Biznes Universitetinin növbəti dövr üçün Elmi-tədqiqat Strategiyası Universitetin Elmi Şurasının 27.12.2018-ci il tarixli iclasının (Protokol № 04) qərarı ilə təsdiqlənmişdir. Elmi-tədqiqat Strategiyası 2019-2023-cü illəri əhatə edir (https://bbu.edu.az/az/news/23/360 ).

Strategiyanın qəbul edilməsindən öncə Universitetin elmi fəaliyyəti Elmi-tədqiqat fəaliyyəti üzrə Strateji inkişaf planı əsasında həyata keçirilmişdir ki, həmin inkişaf planı Universitetin 2014-2018-ci illər üzrə ümumi Strategiyasının elmi sahənin inkişafına yönəldilən müddəalarına əsasən hazırlanmışdır. 2014-2018-ci illər üzrə Elmi-tədqiqat fəaliyyətinin inkişaf planı Elmi Şuranın 06 dekabr 2013-cü il tarixli qərarına əsasən (Protokol №04) qəbul edilmişdir. 2014-2018-ci illərin Elmi-tədqiqat fəaliyyətinin inkişaf planına əsasən Respublikanın direktiv orqanlarının tapşırığı, ölkəmizin sosial-iqtisadi inkişafının təmin edilməsi, iqtisad elminin tələblərindən irəli gələn problemlərin, mövzuların işlənilməsinin zəruriliyi nəzərə alınmaqla rəhbərlik tərəfindən müəyyən edilmiş «Azərbaycan Respublikasında azad bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan milli iqtisadiyyatın inkişafı istiqamətləri» mövzusunda elmi-tədqiqat istiqaməti təsdiq edilmişdir. Həmin istiqamətin icraçıları kafedraların istiqamətləri əsas götürülməklə professor-müəllim heyəti olmuşdur.

**4.1.2. Elmi-tədqiqat Strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti.**

Elmi-tədqiqat Strategiyası Bakı Biznes Universitetinin 2019-2023-cü illər üçün qəbul edilmiş 5 illik Strateji İnkişaf planında əks olunan missiyaya, vizyona uyğun hazırlanmış və məzmunu elmi sahədə mövcud olan qanunvericiliyə söykənir.

**4.1.3. ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti.**

Bakı Biznes Universitetinin elmi-tədqiqat siyasətinin, onun məqsədləri, prioritet tədqiqat sahələri və istiqamətləri, təşviq mexanizmləri və tədqiqat fəaliyyətinin idarə olunması elmi-tədqiqat strategiyasında tam nəzərə alınmışdır. Belə ki, həmin göstəricilər Elmi-tədqiqat Strategiyasının məqsədlərində öz əksini tapmışdır:

1. Universitetdə davamlı tədqiqat mühitinin yaradılması, tədqiqat fəaliyyətinin stimullaşdırılması, elmi-tədqiqat işlərinin səmərəlliyinin yüksəldilməsi;
2. Doktorantura və magistratura səviyyələrində təhsil alan gənc tədqiqatçıların tədqiqat bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi;
3. Elmi-tədqiqat fəaliyyəti sahəsində yerli və beynəlxalq əlaqələrin genişləndirilməsi;
4. Elmi-tədqiqat fəaliyyətinin nəticələrinin tədris prosesinə və əmək bazarına inteqrasiyasının təmin edilməsi;
5. Universitetin elmi nəşri olan «Audit» jurnalının beynəlxalq xülasələndirmə bazalarına daxil edilməsi prosesinin həyata keçirilməsi.

Strategiyanın 1-ci məqsədinin 1.1 müddəasına əsasən Universitetdə yerinə yetirilən elmi-tədqiqatın prioritet tədqiqat sahələri və istiqamətləri cəmiyyətin və milli iqtisadiyyatın müxtəlif sahələrinin tələblərini nəzərə almaqla formalaşdırılır, təsdiq edilir və 3 illik dövrü əhatə edərək yerinə yetirilir. Belə ki, 2019-2021-ci illər üzrə elmi-tədqiqat istiqaməti «Azərbaycanın iqtisadi inkişaf strategiyası: davamlı və dayanıqlı inkişafın təmin edilməsi istiqamətləri» olmuşdur. İstiqamətə uyğun illik mövzular müəyyən edilmiş, professor-müəllim heyəti tərəfindən yerinə yetirilmişdir. Növbəti 3 illik istiqamət 2022-2025-ci illər üçün «Müasir investisiyalar məkanı: postkonflikt dövründə işğaldan azad edilmiş ərazilərin bərpası kontekstində» mövzusunda müəyyən edilmiş, hal-hazırda yerinə yetirilməkdədir. Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamını əsas tutaraq, 2023-cü il üçün Universitetin tədqiqat mövzusu «Azərbaycanın sosial-iqtisadi inkişafının Heydər Əliyev modeli: reallıqlar və perspektivlər» kimi təsdiq edilmişdir.

**4.1.4. Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu.**

Elmi-tədqiqat Strategiyasının məzmunu və müəyyən edilmiş hədəfləri Universitetin 2019-2023-cü illər üçün Strateji inkişaf planının elmi-tədqiqat sahəsinin inkişafına yönəlmiş «Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması tədbirləri və beynəlxalq standartlara uyğunlaşdırılması» məqsədinə tam uyğun hazırlanaraq, təsdiq edilmişdir.

**4.1.5. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti.**

Elmi-tədqiqat Strategiyasında elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası tamamilə nəzərə alınmışdır. Belə ki, Strategiyanın 4.1. və 4.2.-ci vəzifələri məhz elmi-tədqiqat fəaliyyətinin nəticələrinin tədrisə inteqrasiyasını aşağıda göstərilən qaydada əhatə edir:

4.1. – «Elmi-tədqiqat fəaliyyətinin tədris prosesinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilməsi və tədrisə inteqrasiyasının təmin edilməsi (elmi-tədqiqat fəaliyyətinin nəticəsi kimi professor-müəllim heyəti tərəfindən tədris-metodiki vəsaitlərin hazırlanması və tədrisdə istifadə edilməsi)»; 4.2. - «Tədrisin keyfiyyətinin artırılması məqsədilə elmi-tədqiqat nəticələrinin nəzərə alınaraq mövcud olmayan fənn proqramlarının hazırlamasını, mövcud olan fənn proqramlarının təkmilləşdirilərək yenidən çap edilməsini və mühazirə mətnlərinin daimi təkmilləşdirilməsini təmin etmək».

**4.1.6. Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti.**

Strategiyada professor-müəllim heyətinin performansı nəzərə alınmışdır. Belə ki, bu proses aşağıdakı müddəalar əsasında təmin edilmişdir:

- professor-müəllim heyətinin akademik elektron bazalarında şəxsi səhifələrinin yaradılması;
- tədqiqatçıların beynəlxalq elmi jurnallara əlçatalığının təmin edilməsi üçün beynəlxalq elektron resurslara çıxışların genişləndirilməsi və beynəlxalq indeksli jurnallarda professor-müəllim heyətinin elmi məqalələrinin dərc olunmasının təşviq edilməsi;
- magistrant və doktorantların elmi-tədqiqat bacarıqlarını inkişaf etdirmək məqsədilə xarici partnyor universitetlərə göndərilməsi;
- elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması məqsədilə əmək haqqının differensiallaşdırması mexanizminin hazırlanması;
- tədqiqatla məşğul olan akademik heyətin ehtiyaclarına uyğun davamlı peşəkar təlimlərin təşkil olunması və digər müəssisələr tərəfindən təşkil edilən təlimlərdə iştiraklarının təmin edilməsi;
- professor-müəllim heyətinin, doktorant və dissertantların məqalələrinin «Audit» jurnalında dərc edilməsinin əlçatanlılığının təmin edilməsi.

**4.1.7. Elmi-tədqiqat Strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti.**

Elmi-tədqiqat Strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı Universitetin rəsmi saytında Azərbaycan və ingilis dillərində yerləşdirilməsi ilə təmin edilir. Beləliklə, Strategiyanın məzmunu hər kəs üçün açıq və əlçatandır.

**4.1.8. Elmi-tədqiqat Strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti.**

Elmi-tədqiqat Strategiyasının hazırlanmasında Universitetin professor-müəllim heyəti Strategiya ilə bağlı kafedra iclaslarında keçirilən müzakirələrdə iştirak etmişlər. Həmçinin, Strategiyanın hazırlanmasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun əməkdaşları müxtəlif görüşlər zamanı aparılan müzakirələrdə öz təkliflərini irəli sürmüşlər.

### 4.2. Tədqiqat resursları

#### 4.2.1. ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və Strategiyasına uyğunluğu vəziyyəti.

Bakı Biznes Universitetinin infrastrukturu, maddi və texnoloji, büdcədən ayrılan maliyyə resursları onun elmi-tədqiqat məqsədlərinə və Strategiyasına uyğundur. Belə ki, elmi-tədqiqat fəaliyyətini yerinə yetirmək üçün tədqiqatçılara maddi və texnoloji resursların mövcudluğu baxımından Universitetdə münbit şərait yaradılmışdır. Professor-müəllim heyətinin elmi-tədqiqat fəaliyyətilə səmərəli məşğul olması üçün informasiya tələbatına uyğun kitabxana fondu ənənəvi çap məhsulu ilə yanaşı, elektron resurslarla da formalaşdırılmışdır. Elmi-tədqiqat fəaliyyəti ilə sərbəst şəkildə məşğul olmaq üçün kitabxanada maddi və texnoloji cəhətdən şərait yaradılmış və daim təkmilləşdirilməkdədir.

Həmçinin, Universitetin kitabxanası 2022-ci ildən etibarən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) və beynəlxalq EIFL.net Konsorsiumunun üzvüdür (https://www.eifl.net/country/azerbaijan). Sözügedən əməkdaşlıq çərçivəsində, professor-müəllim heyəti və doktorantlar üçün EBSCO Host bazasından istifadə etmək imkanı yaradılmışdır.

Tədqiqatın və tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə kitabxana fondunun zənginləşdirilməsi müntəzəm olaraq həyata keçirilir, 2017-2023-cü illər ərzində kitabxanaya 179 adda 948 sayda tədris vəsaitləri alınmışdır. Onlardan, 49 adda 308 sayda dərslik, 59 adda 376 sayda dərs vəsaitləri, 5 adda 55 sayda monoqrafiyalar, 5 adda 30 sayda metodik vəsaitlər, 55 adda 111 sayda kütləvi və 7 adda 70 sayda elmi-kütləvi ədəbiyyat alınmışdır.

Bundan əlavə, Universitetdə fəaliyyət göstərən kafedraların nəzdində laboratoriyalar yaradılmışdır ki, həmin laboratoriyalarda ixtisaslar üzrə tədrisin keçirilməsi ilə yanaşı, Universitetin professor-müəllim heyəti və tələbə kontingenti sərbəst şəkildə elmi-tədqiqat fəaliyyəti ilə məşğul ola bilirlər. Laboratoriyalar son texnoloji resurslarla təmin edilmiş vəziyyətdədir. Laboratoriyalardan elmi seminarların təşkili, müəllim-tələbə qrupu şəklində tədqiqatlar üzərində işlərin aparılması, müstəqil elmi-tədqiqatla məşğul olmaq üçün istifadə edilir. Elmi tədbirlərin keçirilməsi üçün konfrans zalı da fəaliyyət göstərir.

Həmçinin, Universitetdə «Tədqiqat və innovasiya» mərkəzi yaradılmışdır və istifadəyə verilmişdir.

#### 4.2.2. Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti.

Universitetin professor-müəllim heyəti tədris fəaliyyəti ilə yanaşı, aktiv elmi tədqiqatla da məşğul olur. Professor-müəllim heyəti həmçinin davamlı olaraq ölkədaxili və xarici jurnallarda

elmi məqalələr nəşr etdirir, müxtəlif ölkədaxili və xarici konfranslarda, elmi tədbirlərdə iştirak edirlər. Eyni zamanda, müəllimlər magistrant və doktorantlara elmi rəhbərlik edir, Universitetin elmi-tədqiqat istiqaməti və illik mövzusuna uyğun araşdırmalar aparır və tədris-metodiki vəsaitlər hazırlayırlar. 2001-2022-ci illər ərzində Universitetin professor-müəllim heyəti tərəfindən 8938,19 çap vərəqi həcmində elmi işlər hazırlanmışdır. 2017-2022-ci illər ərzində isə Universitetdə yerinə yetirilən elmi işlərin həcmi 2705,69 çap vərəqi təşkil etmişdir.

**4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti.**

Universitetdə aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması magistratura pilləsində və fəlsəfə doktoru proqramı üzrə doktorantura səviyyəsində həyata keçirilir. Belə ki, magistrantların sayı 2017/2018-ci tədris ilində 55, 2018/2019-cu tədris ilində 84, 2019/2020-ci tədris ilində 78, 2020/2021-ci tədris ilində - 129, 2021/2022-ci tədris ilində – 157, 2022/2023-cü tədris ilində - 112, 2023/2024-cü tədris ilində - 148 nəfər təşkil etmişdir. Doktoranturaya qəbul 2017-ci ildən başlayaraq 5308.01 – «Ümumi iqtisadiyyat», 5303.01 – «Mühasibat uçotu», 5312.01 – «Sahə iqtisadiyyatı» ixtisasları üzrə həyata keçirilir. Doktoranturaya qəbul 2017-ci ildə 6 nəfər, 2018-ci ildə 7 nəfər, 2019-cu ildə 3 nəfər, 2020-ci ildə 5 nəfər, 2021-ci ildə 2 nəfər, 2022-ci ildə 9 nəfər, 2023-cü ildə 7 nəfər təşkil etmişdir. Hal-hazırda doktoranturada təhsil alanların sayı 25 nəfər təşkil edir.

Həmçinin, bakalavriat və magistratura pillələrində gənc tədqiqatçıların təşkilatlanması müvafiq kafedralar və Universitetdə Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti (TEC) əsasında həyata keçirilir. TEC elmi-tədqiqat və elmi-təşkilati işlərdə fəal iştirak edən ali təhsilin bakalavriat və magistratura pillələrində tələbələrin könüllü ictimai təşkilatı kimi 1994-cü ildən fəaliyyət göstərir. TEC-in əsas məqsədi ali təhsilli mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması və təhsilalanların elmi-tədqiqat fəaliyyətinin ölkədə mövcud olan sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında Universitetin işinə köməklik etməkdən ibarətdir. Hesabat dövründə bakalavr pilləsi üzrə TEC-in tələbə sayı 3000, magistrantların sayı 242 nəfər təşkil etmişdir. TEC-in təşkilati strukturu sədrdən (dos. Axundova N.R.), fakültələr üzrə sədr müavinlərindən (müavinlər hər 4 ildən bir hesabat konfransında səsvermə nəticəsində seçilirlər) ibarətdir. TEC-in fəaliyyəti Əsasnamə və elmi işlər üzrə prorektor tərəfindən hər tədris ilinin əvvəlində təsdiq edilən iş planı üzrə həyata keçirilir. TEC-in işi kafedralarda illik plan üzrə qurulur və tələbələrin elmi-tədqiqat fəaliyyətinə rəhbərliyi Universitetin professor-müəllim heyəti həyata keçirir. Tədqiqatların nəticələri kafedralarda keçirilən TEC-in elmi seminarlarında, TEC tərəfindən təşkil edilən konfranslar, dəyirmi masalar və sair elmi tədbir-

lərdə müzakirə edilir. Bununla yanaşı, mütəmadi olaraq professor-müəllim heyəti tərəfindən TEC iştirakçıları müxtəlif elmi olimpiadalarda, konfranslarda, bilik yarışmalarında iştirak üçün hazırlanır. Həmçinin, mütəmadi olaraq, təsdiqlənmiş plan üzrə kafedralarda müxtəlif mövzulara dair il ərzində TEC-in dəyirmi masaları təşkil edilir.

**4.2.4. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti.**

Bakı Biznes Universitetində tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışı tam təmin edilmişdir. Bu məqsədlə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə «Clarivate analytics» şirkəti arasında bağlanmış 28.12.2015-ci il tarixli müqaviləyə əsasən Təhsil Nazirliyinə 2017, 2018, 2019, 2021-ci illərdə xidmət haqqı ödənişləri edilməklə elmi baza üzrə elektron resurslar və kontent xidmətlərindən istifadə hüququ əldə edilmişdir. 2022-ci ildən etibarən EİFL.net Konsorsiumu ilə əməkdaşlıq çərçivəsində professor-müəllim heyəti üçün beynəlxalq elmi məlumat bazası olan EBSCO-nun onlayn mənbələrindən istifadə imkanı yaradılmışdır. Bununla yanaşı, 2023-cü ildə Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə «Elsevier» şirkəti arasında bağlanmış müqaviləyə əsasən «Scopus» elmi bazasının informasiya resurslarından istifadə imkanlarının yaradılması nəticəsində Universitetin akademik heyəti elmi-tədqiqat fəaliyyətində həmin resurslara giriş imkanından yararlana bilirlər.

**4.2.5. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərinin olması vəziyyəti.**

Bakı Biznes Universitetinin Elmi Şurasının 13 sentyabr 2022-ci il tarixli iclasının qərarı ilə «Bakı Biznes Universitetində proqram rəhbəri-kafedra müdirinin və pedaqoji heyətin əmək haqqının differensiallaşdırılmasına dair Əsasnamə» təsdiq edilmişdir. Həmin sənəddə professor-müəllim heyətinin elmi fəaliyyətinin qiymətləndirilməsi nəzərdə tutulmuşdur. Elmi sahədə əmək haqqının differensiallaşması aşağıda göstərilən 5 meyar (12 indikator) üzrə həyata keçirilir: elmi dərəcə və elmi adların alınması, tədris-metodiki vəsaitlərin hazırlanması, elmi nəşrlərin mövcudluğu, tədqiqat layihələrində iştirakın vəziyyəti, tədqiqat bacarıqlarını formalaşdıran və inkişaf etdirən təlimlərdə iştirakın vəziyyəti. Həmçinin, hesabat dövründə professor-müəllim heyətinin peşəkar bacarıqlarının inkişaf etdirilməsi məqsədilə kafedralar üzrə müəllimlərin yerli və beynəlxalq səviyyədə sertifikatlaşması həyata keçirilmişdir.

**4.2.6. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası.**

Universitetdə həyata keçirilən elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikasını aşağıdakı cədvəldə izləmək mümkündür.

**Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası (%-lə)**

| Tədris ili | 2016-2017-ci tədris ilinə nəzərən | 2017-2018-ci tədris ilinə nəzərən | 2018-2019-cu tədris ilinə nəzərən | 2019-2020-ci tədris ilinə nəzərən | 2020-2021-ci tədris ilinə nəzərən | 2021-2022-ci tədris ilinə nəzərən |
|---|---|---|---|---|---|---|
| Dinamika | 41,45% | 29,89% | 22,33% | 18,99% | 15,34% | 13,57% |

**4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti.**

Hesabat dövrü ərzində Universitetin müxtəlif yerli və xarici elmi müəssisə və təşkilatlarla bağlanmış əməkdaşlıq müqavilələrinin istiqamətlərindən biri də elmi-tədqiqat sahəsi olmuşdur. Elmi-tədqiqat sahəsində əməkdaşlıq çərçivəsində birgə elmi konfranslar və digər elmi tədbirlər təşkil edilmişdir. Həmçinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutu, «Naxçıvan» Universiteti, Azərbaycan Dillər Universiteti, İtaliyanın Rome Tor Vergata Universiteti, Rumıniyanın Babeş-Bolyai Universiteti, Mərkəzi Ukrayna Milli Texniki Universiteti, Ukraynanın Milli Çernihiv Texnologiya Universiteti, Macarıstanın Szent İstvan Universiteti, Polşanın Krakov İqtisadi Universiteti, Serbiya Novi Sad Biznes Akademiyası, İstanbul Essenyurt Universiteti, Vadim Hetman adına Kiyev Milli İqtisad Universiteti, Çexiyanın Tomas Bata Universiteti, Paris Nanterre Universiteti, Polşa Calisia Universiteti, Litvanın Vitautas Magnus Universiteti, Türkiyə Alanya Alaaddin Keykubat Universtiteti, Sloveniyanın «Akademiya» Kolleci, İspaniyanın Jaen Universtiteti, Budapeşt Kornivus Universiteti, Moldova Elmlər Akademiyasının İqtisadi Tədqiqatlar Milli İnstitutu ilə birgə tədqiqatların aparılması, elmi məqalələrin hazırlanması və nəşri, elmi-tədqiqat təcrübələrinin keçirilməsi və sair bu kimi birgə işlərin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

**4.3. Elmi-tədqiqat fəaliyyəti**

**4.3.1. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti.**

Bakı Biznes Universitetində həyata keçirilən elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi birbaşa elmi işlər üzrə prorektorun rəhbərliyi altında illik iş planı əsasında həyata keçirilir. Elmi-tədqiqat fəaliyyətinin təşkili və idarə edilməsi elmi işlər üzrə prorektorun tabeçiliyində olan aşağıdakı struktur bölmələrin fəaliyyəti əsasında həyata keçirilir: «Doktorantura və magistratura» şöbəsi, Elmi-metodiki Şura, mətbəə, kitabxana, Tələbə Elmi Cəmiyyəti, «Audit»

jurnalı. Struktur bölmələr öz fəaliyyətlərini Əsasnamələri və illik iş planları əsasında təşkil edir və həyata keçirir.

**4.3.2. Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti.**

Bakı Biznes Universiteti tərəfindən hesabat dövrü ərzində (2017-2023-cü illər) 48 elmi-tədqiqat xarakterli tədbirlər həyata keçirilmişdir. Belə ki, ümumilikdə qeyd edilən illər ərzində 8 beynəlxalq səviyyəli, 22 respublika səviyyəli elmi-praktiki konfrans, 8 digər elmi xarakterli tədbir, 3 birgə təşkil edilmiş simpozium və konfranslar, 7 TEC konfransı keçirilmişdir. Bundan əlavə, professor-müəllim heyəti tərəfindən Universitetdə yerinə yetirilən elmi-tədqiqat istiqamətinə və illik mövzulara uyğun kafedralarda ümumilikdə 471 elmi seminar keçirilmişdir.

**Kafedralarda illik tədqiqat mövzusuna uyğun elmi seminarların sayı**

| № | Tədris illəri | Elmi seminarların sayı |
|---|---|---|
| 1 | 2017/2018 | 62 |
| 2 | 2018/2019 | 68 |
| 3 | 2019/2020 | 66 |
| 4 | 2020/2021 | 62 |
| 5 | 2021/2022 | 72 |
| 6 | 2022/2023 | 91 |
| 7 | 2023/2024 | 50 |
| **Cəmi:** | **2017-2023-ci illər ərzində** | **471** |

**Beynəlxalq elmi-praktiki konfransların keçirilməsi vəziyyəti:**

2017-ci il (4-5 may):

1. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş «Səmərəli islahatların uğurlu nəticələri: reallıqlar və perspektivlər» (https://bbu.edu.az/az/news/23/160, konfrans materialı çap edilmişdir).

2018-ci il (3-4 may):

1. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş «Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri» (https://bbu.edu.az/az/news/23/204; https://bbu.edu.az/uploads/files/Konfrans/HAZIR%20-%20KONFRANS%20-%202018.pdf).

2019-cu il (2-3 may):

1. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş «Azərbaycanda ali təhsilin beynəlmilləşdirilməsi və rəqabətliliyinin yüksəldilməsi istiqamətləri» (https://www.facebook.com/story.php?story_fbid=1974650852658264&id=1434164 99-115051&mibextid=aubDjK: https://bbu.edu.az/uploads/files/Konfrans/konfrans2019.pdf).

2020-ci il (25 noyabr):

1. «Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində» (https://bbu.edu.az/az/news/23/285; https://bbu.edu.az/uploads/files/Konfrans/BBU%20Konfrans%202020.pdf).

2021-ci il (6 may):

1. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş «Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri» (https://bbu.edu.az/az/news/23/291; https://bbu.edu.az/uploads/files/Konfrans/SON-konfrans-16_07_2021.pdf).

2022-ci il (5 may):

1. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş «Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi» (https://bbu.edu.az/az/news/23/315; https://bbu.edu.az/uploads/files/Konfrans/BBU%20KONFRANS%202022.pdf).

2023-cü il:

1. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş «Ali təhsildə dayanıqlı inkişaf məqsədləri» - 11 aprel (https://bbu.edu.az/az/news/23/343).

2. «Sosial-iqtisadi inkişafda qlobal meyllər, çağırışlar və imkanlar» - 24 may (https://bbu.edu.az/az/news/23/344).

Respublika elmi-praktiki konfransların keçirilməsi vəziyyəti:

1. 2017-ci ildə «İqtisadi nəzəriyyə» kafedrası tərəfindən təşkil edilmiş «Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin edilməsində səmərəli islahatların reallaşdırılması mexanizmləri» mövzusunda respublika elmi-praktiki konfransı (https://bbu.edu.az/az/news/23/155).

2. 2017-ci ildə «Menecment və marketinq» kafedrası tərəfindən təşkil edilmiş «Əlverişli biznes mühiti qeyri-neft sektorunun inkişafının əsasıdır: prioritet istiqamətlər və qarşıda duran vəzifələr» mövzusunda respublika elmi-praktiki konfransı.

3. 2017-ci ildə «Dillər» kafedrası tərəfindən təşkil edilmiş «İnformasiyalaşdırılmış cəmiyyətdə xarici dilin tədrisinin səmərəli yolları» mövzusunda respublika elmi-praktiki konfransı.

4. 2018-ci ildə «Dillər» kafedrası tərəfindən təşkil edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş «Müasir təhsil sistemində xarici dilin inkişaf perspektivləri» mövzusunda respublika elmi-praktiki konfransı (https://bbu.edu.az/az/photo/112).

5. 2018-ci ildə «Ali riyaziyyat və texniki fənlər kafedrası» tərəfindən təşkil edilmiş

«Müasir riyazi üsulların iqtisadi məsələlərin həllərində bəzi tətbiqləri» mövzusunda respublika elmi-praktiki konfransı.

6. 2018-ci ildə «Humanitar elmlər» kafedrası tərəfindən təşkil edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş «Azərbaycan Respublikasında mədəni-mənəvi dəyər-lərin inkişaf strategiyası» mövzusunda respublika elmi-praktiki konfransı (https://bbu.edu.az/az/photo/113).

7. 2018-ci ildə «Biznesin təşkili və bələdiyyə idarəetməsi» kafedrası tərəfindən təşkil edilmiş «Milli iqtisadiyyatın perspektiv inkişaf üzrə Strateji Yol Xəritəsi: insan kapitalının formalaşmasının prioritet istiqamətləri» mövzusunda respublika elmi-praktiki konfransı (https://bbu.edu.az/az/photo/110).

8. 2019-cu ildə «Biznesin təşkili və bələdiyyə idarəetməsi» kafedrası tərəfindən təşkil edilmiş «İnsan kapitalının formalaşması və təhsilin keyfiyyətinə təminat» mövzusunda respublika elmi-praktiki konfransı (https://bbu.edu.az/az/news/23/234).

9. 2019-cu ildə «Humanitar elmlər» kafedrası tərəfindən təşkil edilmiş «Təhsil proqramlarının təkmilləşdirilməsi təhsilin beynəlxalq rəqabətliliyinin yüksəldilməsi vasitələrindən biridir» mövzusunda respublika elmi-praktiki konfransı.

10. 2019-cu ildə «Dillər» kafedrası tərəfindən təşkil edilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş «Azərbaycanda təhsilin beynəlxalq rəqabətliliyinin təmin edilməsində xarici dillərin rolu» mövzusunda respublika elmi-praktiki konfransı.

11. 2020-ci il ildə «Humanitar elmlər» kafedrası tərəfindən təşkil edilmiş «Sosial işin rəqəmsallaşdırılması perspektivləri» mövzusunda respublika elmi-praktiki konfransı.

12. 2020-ci il ildə «Ali riyaziyyat və texniki fənlər kafedrası» tərəfindən təşkil edilmiş «Rəqəmsal iqtisadiyyatda müasir riyazi üsulların tətbiqləri» mövzusunda respublika elmi-praktiki konfransı.

13. 2020-ci ildə «Dillər» kafedrası tərəfindən təşkil edilmiş «Xarici dil tədrisində müasir texnoloji vasitələrdən istifadənin əhəmiyyəti» mövzusunda respublika elmi-praktiki konfransı.

14. 2021-ci ildə «Humanitar elmlər» kafedrası tərəfindən təşkil edilmiş «Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial proqramlar və xidmətlərin keyfiyyət hədəfləri» mövzusunda respublika elmi-praktiki konfransı.

15. 2021-ci ildə «İqtisadi nəzəriyyə» kafedrası tərəfindən təşkil edilmiş «Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səmərəli investisiya qoyuluşları» mövzusunda respublika elmi-praktiki konfransı.

16. 2021-ci ildə «Menecment və marketinq» kafedrası tərəfindən təşkil edilmiş «Azərbaycanın işğaldan azad olunmuş ərazilərində biznes mühitinin formalaşdırılması və kiçik

sahibkarlığın inkişaf etdirilməsi problemləri» mövzusunda respublika elmi-praktiki konfransı.

17. 2021-ci ildə «Ali riyaziyyat və texniki fənlər» kafedrası tərəfindən təşkil edilmiş «Respublikanın sosial-iqtisadi inkişafında keyfiyyət hədəflərinə doğru fəaliyyətində İKT-dən səmərəli istifadə» mövzusunda respublika elmi-praktiki konfransı.

18. 2022-ci ildə «Humanitar elmlər» kafedrası tərəfindən təşkil edilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş «İşğaldan azad edilmiş ərazilərdə sosial işin təşkilində keyfiyyət istiqamətləri» mövzusunda respublika elmi-praktiki konfransı (https://bbu.edu.az/az/news/23/314).

19. 2022-ci ildə «Ali riyaziyyat və texniki fənlər» kafedrası tərəfindən təşkil edilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş «Riyaziyyat elminin və riyazi fənlərin tədrisinin bəzi aktual məsələləri» mövzusunda respublika elmi-praktiki konfransı (https://bbu.edu.az/az/news/23/319).

20. 2023-cü ildə «Humanitar elmlər» kafedrası tərəfindən təşkil edilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının möhtəşəm 100 illik yubileyinə həsr olunmuş «Azərbaycanda sosial işin inkişaf mərhələləri» adlı respublika elmi-praktiki konfransı.

21. 2023-cü ildə «Ali riyaziyyat və texniki fənlər» kafedrası tərəfindən təşkil edilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının möhtəşəm 100 illik yubileyinə həsr olunmuş «Riyaziyyatın və informasiya texnologiyalarının bəzi aktual məsələləri» adlı respublika elmi-praktiki konfransı.

22. 2023-cü ildə «Dillər» kafedrası tərəfindən təşkil edilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının möhtəşəm 100 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev nitqinin linqvistik xüsusiyyətləri» adlı respublika elmi-praktiki konfransı.

Digər elmi tədbirlərin keçirilməsi vəziyyəti:

1. 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşəbbüsü ilə keçirilmiş «Xalq Cümhuriyyəti dövründə Azərbaycanda təhsil» mövzusunda elmi mühazirə (https://bbu.edu.az/az/news/23/205).

2. 2018-ci ildə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin «Əmək müqaviləsinin bağlanması, şərtlərinin dəyişdirilməsi və xitam verilməsinin əsasları və qaydaları» mövzusunda elmi seminar. (https://bbu.edu.az/az/news/23/193).

3. 2019-cu ildə (28 fevral) professor-müəllim heyəti, magistrant və doktorantların iştirakı ilə «Elm günü»nə həsr edilmiş dəyirmi masa.

4. 2019-cu ildə professor-müəllim heyəti, tələbə, magistrant, doktorantların iştirakı ilə AMEA-nın müxbir üzvü i.e.d., prof. Akif Musayev və i.e.d., prof. Nazim Müzəfərli tərəfindən keçirilmiş «İqtisad elmində müasir dövrün çağırışları» mövzusunda elmi seminar. (https://bbu.edu.az/az/news/23/227).

5. 2019-cu ildə «Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası» İctimai Birliyi, «İnvest -AZ İnvestisiya Şirkəti» QSC və Bakı Biznes Universitetinin birgə təşkilatçılığı ilə keçirilmiş «Maliyyə bazarlarında praktik fəaliyyət» mövzusunda təlim-seminar (https://www.facebook.com/share/p/QY8d45q2PSWFanPD/?mibextid=aubDjK).

6. 2021-ci ildə «Elm günü»nə həsr edilmiş «Post-konflikt ərazilərinin bərpası və yenidən qurulmasında sosial-iqtisadi problemlər» mövzusunda AMEA-nın müxbir üzvü, i.e.d.prof. Akif Musayev tərəfindən keçirilmiş elmi seminar.

7. 2023-cü ildə «Elm günü»nə həsr edilmiş «Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında rolu» mövzusunda dəyirmi masa və s.

**4.3.3. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və sair tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçıların iştirakı vəziyyəti.**

Hesabat müddətində elmi-tədqiqat xarakterli tədbirlərdə digər müəssisə və xarici ölkələrdən, ümumilikdə 986 nəfər tədqiqatçılar iştirak etmişdir, onlardan 68 nəfəri xarici ölkədən olmuşdur.

**4.3.4. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və sair tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti.**

Hesabat dövründə gənc tələbə-tədqiqatçılar müxtəlif ölkədaxili və xarici elmi tədbirlərdə iştirak etmiş, sertifikatlarla mükafatlandırılmış, onların elmi məqalə və tezisləri dərc edilmişdir. Magistrantlar tərəfindən tədris illəri ərzində nəşr edilmiş məqalələrin sayı: 2017/2018 -20, 2018/2019-50, 2019/2020-86, 2020/2021-100, 2021/2022-126, 2022/2023-206, 2023/2024-210.

Gənc tələbə-tədqiqatçıların müxtəlif elmi tədbirlərdə iştirakı vəziyyətinin ümumi say göstəriciləri aşağıdakı cədvəldə təqdim edilmişdir:

**Gənc tələbə-tədqiqatçıların müxtəlif elmi tədbirlərdə iştirakı vəziyyəti**

| İllər | Ümumi say | Bakalavriat | Magistratura |
|---|---|---|---|
| **2017** | 467 | 424 | 43 |
| **2018** | 305 | 270 | 35 |
| **2019** | 352 | 290 | 62 |
| **2020** | 202 | 150 | 52 |
| **2021** | 328 | 200 | 128 |
| **2022** | 451 | 330 | 121 |
| **2023** | 472 | 326 | 146 |

Hesabat dövrü ərzində Universitetin Tələbə Elmi Cəmiyyəti tərəfindən 7 konfrans təşkil edilmiş və həyata keçirilmişdir. Bunu aşağıdakı cədvəldən görmək olar:

**TEC tərəfindən təşkil edilmiş elmi konfranslar**

| İllər | Konfransın adı | Tələbələrin sayı |
|---|---|---|
| 2017 | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş «Səmərəli islahatların uğurlu nəticələri: reallıqlar və perspektivlər» | 397 nəfər |
| 2018 | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş «Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri» | 238 nəfər |
| 2019 | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş «Azərbaycanda ali təhsilin beynəlmilləşdirilməsi və rəqabətliliyinin yüksəldilməsi istiqamətləri» | 269 nəfər |
| 2020 | «Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində» | 50 nəfər |
| 2021 | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş «Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri» | 120 nəfər |
| 2022 | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş «Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi» | 97 nəfər |
| 2023 | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş «Ali təhsildə dayanıqlı inkişaf məqsədləri» | 166 nəfər |

Universitetin gənc tədqiqatçılarının iştirak etdiyi elmi tədbirlər aşağıdakı kimi olmuşdur:

1. 2017-ci ildə Azərbaycan Universiteti tərəfindən təşkil edilmiş «Gender və müasir Azərbaycan» mövzusunda respublika elmi-praktiki konfransı.

2. 2018-ci ildə Azərbaycan Kooperasiya Universitetinin TEC və TGT-nin təşkil etdiyi «Azərbaycan iqtisadiyyatı: dünəni, bu günü və sabahı» mövzusunda respublika elmi-praktiki konfransı.

3. 2018-ci ildə Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən təşkil edilmiş «Azərbaycan Respublikasında turizm-rekreasiya zonalarının yaradılması perspektivləri» mövzusunda respublika elmi-praktiki konfransı.

4. 2019-cu ildə Bakı Slavyan Universiteti tərəfindən təşkil edilmiş «Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində» mövzusunda beynəlxalq elmi-praktiki konfransı.

5. 2019-cu ildə Azərbaycan Respublikasının Dövlət və Turizm Agentliyi və Bakı Mühəndislik Universitetinin birgə təşkil etdiyi «Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər» mövzusunda beynəlxalq elmi-praktiki konfransı.

6. 2020-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi tərəfindən təşkil edilmiş II İqtisadiyyat və idarəetmə sahəsində magistr və doktorantların beynəlxalq elmi-praktiki konfransı.

7. 2021-ci ildə Qərbi Kaspi Universiteti tərəfindən təşkil edilmiş «Ortaçağ Azərbaycan

tarixinin aktual problemləri» mövzusunda respublika elmi-praktiki konfransı.

8. 2021-ci ildə AMEA-nın A.A.Bakıxanov adına Tarix və etnologiya İnstitutu tərəfindən təşkil edilmiş «II Qarabağ müharibəsi-Zəfər günü» mövzusunda respublika elmi-praktiki konfransı.

9. 2021-ci ildə Moldova Milli İqtisadi Tədqiqatlar İnstitutunda «Qloballaşma şəraitində iqtisadi artım» mövzusunda beynəlxalq elmi-praktiki konfransı.

10. 2022-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi tərəfindən təşkil edilmiş «Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycan tərəqqisinin yeni zirvəsidir» mövzusunda ümumrespublika elmi məqalə müsabiqəsi.

11. 2022-ci ildə Gənclərin XII Avrasiya İqtisadi Forumu.

12. 2022-ci ildə Ural Dövlət İqtisad Universiteti tərəfindən təşkil edilmiş «Gənc tədqiqatçıların və tələbələrin Makroiqtisadiyyat üzrə elmi işləri» mövzusunda beynəlxalq müsabiqəsi.

13. 2022-ci ildə xaricdə keçirilən bir sıra elmi-praktiki konfranslar (Bolqarıstan-Sofiya, Ruminiya – Buxarest, Ukrayna – Kiyev, Xarkov, Çerkassı, Rusiya- Kirov).

14. 2023-cü ildə AMEA-nın A.A.Bakıxanov adına Tarix və etnologiya İnstitutu tərəfindən təşkil edilmiş «Şuşada bərpa və quruculuq işləri: nailiyyətlər və perspektivlər» mövzusunda respublika elmi-praktiki konfransı.

15. Hər il Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə keçirilən «Heydər Əliyev və Azərbaycan tarixi» ümumrespublika bilik yarışları.

16. 2021, 2022, 2023-cü illərdə AMEA-nın A.A.Bakıxanov adına Tarix və etnologiya İnstitutu tərəfindən təşkil edilən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş «Heydər Əliyev irsi» adlı elmi-praktiki konfransları.

Bundan əlavə, hesabat dövrü ərzində Universitetdə TEC-in 21 dəyirmi masası keçirilmişdir.

**4.3.5. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti.**

Hesabat dövrü ərzində Bakı Biznes Universitetində həyata keçirilən elmi-tədqiqat fəaliyyətinin nəticəsi olaraq bir sıra beynəlxalq qrant qazanmış layihələr hazırlanıb həyata keçirilmişdir. Beynəlxalq qrant layihələrində iştirakın vəziyyəti aşağıdakı kimi olmuşdur:

- 2017-ci ildə Universitetdə hazırlanmış «Azərbaycan universitetlərində Keyfiyyətə Nəzarət Mərkəzlərinin yaradılması» adlı layihə Avropa Komissiyası tərəfindən qrant qazanmışdır.

- 2020-ci ildə Universitetdə hazırlanmış «Azərbaycanda Rektorlar Konfransının yaradılması» adlı layihə Avropa Komissiyası tərəfindən qrant əldə etmişdir.

- 2020-ci ildə İsveç Kral Texnologiya Universiteti tərəfindən hazırlanmış «Sİ (İsveç İnstitutu)» layihəsində Bakı Biznes Universiteti tərəfdaş olaraq iştirak etmişdir. Layihə İsveç Dövləti tərəfindən maliyyələşmişdir.

- Bakı Biznes Universiteti Spinaker proqramı çərçivəsində 2022 və 2023-cü illərdə Polşanın Krakov İqtisadiyyat Universiteti ilə birgə «İncəsənət və Biznes» adlı ortaq layihə hazırlamış, Polşa Milli Akademik Mübadilə Agentliyinə təqdim etmişdir. Layihə Agentlik tərəfindən qəbul edilmiş və layihənin həyata keçirilməsi üçün Agentlik tərəfindən qrant ayrılmışdır.

- 2023-cü ildə «Azərbaycan Ali Təhsil Müəssisələrində Sahibkarlıq Ekosisteminin Gücləndirilməsi» adlı layihə Bakı Biznes Universitetinin doktorantı Gülşən Bayramovanın «Regional iqtisadi inkişafda sahibkar universitetlər» mövzusunda doktorantura dissertasiyasının nəticəsi olaraq hazırlanaraq Avropa Komissiyasına təqdim edilmiş və qrant qazanmışdır. Layihə Gülşən Bayramova tərəfindən yazılmış, regional Universitet olaraq Mingəçevir Dövlət Universiteti ilə ikitərəfli müqavilə əsasında, rəsmi razılaşma yolu ilə MDU-nun koordinatorluğu ilə Avropa Komissiyasına təqdim edilmiş və qrant əldə etmişdir.

**4.3.6. Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiyalaşdırılması vəziyyəti.**

Elmi-tədqiqat fəaliyyəti üzrə hesabat dövründə patentlər əldə edilməmişdir, lakin Universitetdə aparılan elmi-tədqiqatın nəticəsi olaraq 2023-cü ildə qrant qazanmış «Azərbaycan Ali Təhsil Müəssisələrində Sahibkarlıq Ekosisteminin Gücləndirilməsi» adlı layihənin yerinə yetirilməsi çərçivəsində patentlərin əldə edilməsi və kommersiyalaşdırılması nəzərdə tutulmuşdur.

**4.3.7. İnstitusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlər mövcudluğu vəziyyəti.**

Bakı Biznes Universitetində institusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlər mövcuddur. Belə ki, Universitet tərəfindən hesabat dövründə institusional əməkdaşlıq və birgə təşəbbüs istiqamətində bir sıra addımlar atılmışdır:

- Universitetin xarici partnyoru olan Ruminiyanın Babeş-Bolyai Universitetinin EBSCO-da indekslənən dövrü nəşri olan «Studia Europaea» jurnalının 2017-ci il 4-cü nömrəsində redaksiya həyəti tərəfindən daxil olan təşəbbüs nəticəsində Bakı Biznes Universitetinin professor-müəllim heyətinin 12 məqaləsi yer almışdır (http://www.studia.ubbcluj.ro/download/pdf/1147.pdf);

- 2022-ci ildə Ruminiya, Moldova, Rusiya, İtaliya, Polşa kimi ölkələrin universitetləri ilə Bakı Biznes Universitetinin birgə təşkilatçılığı ilə onlayn formatda «Qloballaşma kontekstində rəqəmsallaşmanın iqtisadi və hüquqi aspektləri» mövzusunda beynəlxalq simpozium həyata keçirilmişdir (https://usem.md/en/events/economic-and-legal-aspects-of-digitalization-in-the-context-of-glo-balization-2022/). Universitetin 6 müəllimi konfransda çıxışlar və tezislərlə iştirak

etmiş, sertifikatlar qazanmışlar. Konfransın materialları toplu şəklində dərc edilmişdir (https://usem.md/uploads/files/News/Conferințe/2022/4-5%20Martie%202022/Mate-ria-lele%20 conferinței%20-%20Volumul%201.pdf; https://usem.md/uploads/ files/News/ Con-fe-rințe/2022/4-5%20Martie%202022/Materialele%20conferinței%20-%20Volumul%202.pdf);

- 2022-ci ildə Bolqarıstanın Veliko Turnovo Universiteti və Bolqar Milli Elmlər Akademiyasının Geofizika, Geodeziya və Coğrafiya İnstitutundan daxil olan təşəbbüsün nəticəsi olaraq, Bakı Biznes Universitetinin rəsmi razılıq məktubu əsasında 12 may 2022-ci il tarixində sözügedən elmi müəssisələr ilə birgə «Turizmdə müasir problemlər» mövzusunda keçirilmiş beynəlxalq elmi konfransda Bakı Biznes Universiteti həmtəşkilatçı-partnyor qismində çıxış etmişdir;

- Bakı Biznes Universiteti və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu ilə əməkdaşlıq çərçivəsində birgə təşəbbüsün nəticəsi olaraq Universitetin sonuncu kurs magistrantlarının elmi-tədqiqat sahəsində bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə İqtisadiyyat İnstitutunda hər il təlim təşkil edilir. Bu məqsədlə birgə təlim proqramı hazırlanmışdır və tətbiq edilir. (https://bbu.edu.az/az/news/23/345).

- Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutu ilə əməkdaşlıq çərçivəsində Universitetin müəllimləri ilə birgə «C= proqramlaşdırma dili», «Veb dizayn (HTML/CSS, JavaScript)», «Kompüter qrafikası», «MS Office proqramları» fənn proqramlarının hazırlanması nəzərdə tutulmuşdur. Proqramlardan «MS Office proqramları» və «Veb dizayn (HTML/CSS, JavaScript)» artıq hazırlanmışdır (https://bbu.edu.az/az/news/23/346).

- 2021-ci ildə birgə təşəbbüs nəticəsində Bakı Biznes Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti və Bakı Mühəndislik Universitetinin təşkilatçılığı ilə «Elmi-tədqiqat fəaliyyətinin universitetlərin rəqabətqabiliyyətliliyinə təsiri» mövzusunda onlayn təlim-seminar keçirilmişdir. Təlimdə respublikanın bir sıra ali təhsil müəssisələrindən tədqiqatçılar iştirak etmişlər.(https://azertag.az/xeber/elmi_tedqiqat_fealiyyetinin_universitetlerin_reqabetqabiliyyetliliyine_tesiri-1796689;
https://www.facebook.com/photo/?fbid=4201558033198937&set=a.38230 7991790646).

- 2022-ci ildə Polşanın Katowice İqtisadiyyat Universitetinin təşəbbüsünə və dəvətinə əsasən Bakı Biznes Universitetinin müəllimi və doktorantı Bayramova Gülşən «Sərhədsiz iqtisadiyyat» mövzusunda beynəlxalq elmi konfransda Asiya qitəsi bölməsi üzrə spiker qismində çıxış etmişdir.
(https://www.ue.katowice.pl/en/projects/economics-without-borders/second-edition-north-ameri-ca-and-asia.html).

**4.3.8. Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti.**

Bakı Biznes Universiteti tərəfindən hesabat dövrü ərzində birgə tədqiqat proqramları, həmçinin ölkədə fəaliyyət göstərən elmi müəssisələrlə, əmək bazarı və sənayedə fəaliyyət

göstərən dövlət, özəl şirkət və qurumlarla əməkdaşlıq çərçivəsində elmi-tədqiqat fəaliyyəti üzrə müəyyən işlər həyata keçirilmişdir:

1. 2022-ci ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutu ilə əməkdaşlıq çərçivəsində «C= proqramlaşdırma dili», «Veb dizayn (HTML/CSS, JavaScript)», «Kompüter qrafikası», «MS Office proqramları» fənn proqramlarının birgə hazırlanması.

2. 2022 və 2023-cü illərdə Bakı Biznes Universiteti və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu ilə gənc-tədqiqatçılara tədqiqat bacarıqlarını aşılamaq məqsədilə birgə təlim proqramı hazırlanmaşdır.

3. 2022-ci ildə Bakı Biznes Universitetinin müəllifi olan və koordinatorluğu ilə həyata keçirilən «Azərbaycanda Rektorlar Konfransının yaradılması» layihəsinin 1-ci iş paketinin icrası çərçivəsində Litvanın Mykolas Romeris Universitetinin rəhbərliyi ilə tərəfdaş yerli və xarici universitetlərlə birgə «Şəbəkələşmə və kommunikasiya strategiyaları üzrə Azərbaycanda mövcud vəziyyətin müqayisəli təhlili» mövzusunda tədqiqat işi yerinə yetirilmişdir (https://docs.google.com/document/d/1xjRURKDLBO3lGd9BOk4A3Hy-JK4F7b0P/edit?usp=drive_ link&ouid=109463642022990106472&rtpof=true&sd=true).

4. 2022-ci ildə Universitetin müəllimi və doktorantı Qəfər Bağırovun «Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aqrar sahibkarlığın formalaşdırılması istiqamətləri» mövzusunda dissertasiya işinin nəticələri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin «Aqrar Tədqiqatlar Mərkəzi»ndə aparılan tədqiqatlarda istifadə edilməsi məqsədilə Mərkəzə təqdim edilmişdir. Bununla əlaqədar, dissertasiyada irəli sürülmüş təklif və tövsiyələrin Mərkəzdə aparılan tədqiqatlarda istifadə edilməsi nəzərdə tutulmuşdur (MİHO/1.2.7-2-2022-130 nömrəli məktub).

5. 2022-ci ildə Universitetin digər müəllimi və doktorantı Cavidan Heydarovun «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birgə fəaliyyət sistemində uçot və maliyyə hesabatlarının təkmilləşdirilməsi istiqamətləri» mövzusunda hazırladığı dissertasiya işində irəli sürülən təklif və tövsiyələrin tətbiq edilməsi məqsədilə dissertasiya işi Azfen Birgə Müəssəsinə göndərilmiş, müəssisənin uçot və maliyyə hesabatlarına aid fəaliyyətində tətbiq və istifadə edilməsi nəzərdə tutlmuşdur (AZF-2022/538L nömrəli 02.12.2022-ci il tarixli məktub).

6. 2022-ci ildə Universitetin müəllimi və doktorantı İlknur Rəcəbli «Azərbaycanda rəqəmsal nəqliyyat xidmətinin inkişaf istiqamətləri» mövzusunda yazdığı dissertasiya işi üzrə «Azərbaycan Dəmir Yolları» QSC-də iki ay müddətində respublika üzrə yük daşıma xidmətinin elektronlaşdırılmasının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsinə dair tədqiqat aparmışdır. Həmçinin, 2023-cü ildə doktorantın tədqiqat işində irəli sürülən elmi təklif və tövsiyələr «EFİR-AZ» taksi xidməti şirkəti tərəfindən qəbul edilmiş və şirkətin fəaliyyətində

tətbiq edilmişdir (04.05.2023-cü il tarixli məktub).

7. 2023-cü ildə Universitetin müəllimi və doktorantı Ceyhun Musayevin «Qazax-Tovuz iqtisadi rayonunda aqroturizmin inkişaf istiqamətləri» mövzusunda hazırladığı dissertasiya işi tədqiqatda irəli sürülən təklif və tövsiyələrin tətbiq edilməsi məqsədilə Azərbaycan Respublikası Qazax Rayon İcra Hakimiyyətinə göndərilmiş, Ərazi Dairəsi üzrə nümayəndəliklərdə və bələdiyyələrdə müvafiq ərazi inkişaf proqramlarında istifadə edilməsi üçün qəbul edilmişdir (03 mart 2023-cü il tarixli 5-58-1-5/2-79/2023 nömrəli məktub).

8. 2023-cü ildə Universitetin müəllimi və doktorantı Məmmədova Nigar «Qiymətli kağızlar üzrə əməliyyatların uçotu və auditinin təkmilləşdirilməsi istiqamətləri» mövzusunda hazırladığı dissertasiya işində irəli sürülən təklif və tövsiyələrin tətbiq edilməsi məqsədilə elmi-tədqiqat işi «Rabitəbank» ASC-yə göndərilmiş, bank tərəfindən aidiyyəti problemlərin həllində və nəzərdə tutulan uyğun tədbirlərin yerinə yetirilməsində istifadə edilməsi nəzərdə tutulmuşdur (RB-02/3407 nömrəli 05.10.2023-cü il tarixli məktub).

9. Hesabat dövründə əmək bazarı və sənaye ilə tərəfdaşlığı çərçivəsində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (https://bbu.edu.az/az/news/23/348), ASC Standard Insurance (https://bbu.edu.az/az/news/23/191), «EL Babatürk» MMC, «Herba-Flora» MMC müəssisəsi və digərləri ilə Bakı Biznes Universiteti arasında tədqiqat sahəsi də əhatə edilməklə əməkdaşlıq müqavilələri bağlanmışdır.

**4.3.9. Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti.**

Universitetin professor-müəllim heyətinin müxtəlif beynəlxalq elmi məlumat bazalarda şəxsi profilləri mövcuddur. Bu məsələ ilə bağlı göstəricilər aşağıdakı qrafikdə təqdim edilmişdir:



Həmçinin, elmi işlər üzrə prorektor Məleykə Abbasova İndoneziyanın Lampung Universitetinin elmi jurnalı olan «Cepalo»nun redaksiya heyətinin üzvüdür.
(https://jurnal.fh.unila.ac.id/index.php/cepalo/about/editorialTeam).

Bundan əlavə, Universitetin «İnformasiya texnologiyaları» kafedrasının müdiri Rahib İmamquliyev Q3 kvartilli «Journal of Information and Knowledge (ABŞ)» jurnalında rəyçi qismində (peer-reviewer) fəaliyyət göstərir
(https://www.scimagojr.com/journalsearch.php?q=21100237436&tip=sid&clean=0).
Həmçinin, 2024-cü il 28-29 iyun tarixlərində R.İmamquliyevin Reva Universiteti (Hindistan) tərəfindən təşkil ediləcək «IoT Control Networks and Intelligent Systems» mövzusunda beynəlxalq elmi konfransda Bakı Biznes Universitetini təmsil etməklə spiker qismində (https://icicnis.com/keynote.html) çıxışı nəzərə tutulmuşdur. Sözügedən konfransın nəticələrinə dair materiallar hər il «Springer» nəşriyyatı tərəfindən dərc edilərək «Scopus» beynəlxalq informasiya bazasında indekslənir.

**4.3.10. Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti.**

Hesabat dövrü ərzində Universitetdə həyata keçirilən elmi-tədqiqat fəaliyyətinin nəticəsi olaraq professor-müəllim heyəti tərəfindən 2017-2023-cü illər ərzində ümumilikdə 47 adda 19200 sayda tədris-metodiki vəsaitləri hazırlanmışdır. Onlardan: 14 adda 5000 sayda dərslik, 20 adda 9000 sayda dərs vəsaiti, 5 adda 1500 sayda metodik vəsait, 7 adda 3500 sayda konfrans materialı, 1 adda 200 sayda monoqrafiyanı qeyd etmək olar.

Onu da qeyd etmək lazımdır ki, akademik heyət tərəfindən hazırlanan tədris-metodiki vəsaitlərin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə müqavilə əsasında ISBN kodları alınır və nəşrlərin dərcində istifadə edilir. Bundan əlavə fənlər üzrə mühazirə mətnlərinin təkmilləşdirilməsi prosesi davamlı olaraq yerinə yetirilir. Mühazirə mətnlərinin çap versiyası kitabxanada, elektron versiyası isə kitabxananın elektron fondunda mövcuddur.

Tədris edilən fənlər üzrə professor-müəllim heyəti tərəfindən təkmilləşdirilmiş və yeni hazırlanmış fənn proqramlarının (məcburi fənlər bloku üzrə proqramlar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, seçmə fənlər bloku üzrə isə proqramlar Bakı Biznes Universitetinin qrifi ilə təsdiqlənir) sayı 2017-2023-cü illər ərzində 364 ədəd təşkil etmişdir (proses davam etməkdədir).

**4.3.11. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti.**

Bakı Biznes Universitetində hazırlanan elmi-tədqiqat materiallarının dərc etdirilməsi prosesi Universitetin özünün nəşriyyatı tərəfindən həyata keçirilir. Professor-müəllim heyətinin hazırladığı bütün dərslik, dərs vəsaiti, elmi monoqrafiya, metodik göstərici, fənn proqramları, digər dillərdən Azərbaycan dilinə tərcümə edilmiş vəsaitlər, konfrans, simpozium materialları

Universitetin mətbəəsində BBU-nun hesabına çap edilir. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılmasında əsas resurs kimi Universitetin dövri elmi nəşri olan «Audit» jurnalını qəbul etmək olar. Professor-müəllim heyətinin, doktorantların məqalələrinin nəşrinə jurnalda daimi şərait yaradılır, akademik heyət üçün jurnalda nəşr imkanı Universitetin mətbəəsi tərəfindən pulsuz həyata keçirilir.

Jurnal (1999-cu ildən nəşr edilir) hər il 4 nömrə olmaqla, ümumilikdə hesabat dövrü ərzində (2017-2023-cü illər) 27 nömrəsi (2023-cü ilin 4-cü nömrəsi cari ilin dekabr ayının sonunda çap ediləcəkdir) nəşr edilərək həm jurnalın «open-access» xüsusiyyətli rəsmi saytının arxiv bölməsinə yerləşdirilmişdir (https://audit-journal.az/az), həm də Respublikanın bir sıra dövlət kitabxanalarına poçt vasitəsilə göndərilmişdir. Jurnalın 2013-cü ildən bu günə qədərki bütün nömrələri sayta yüklənmişdir. Jurnalın dövri elmi nəşrlər üçün nəzərdə tutulan həm çap, həm də elektron ISSN beynəlxalq standart nömrələri mövcuddur: çap versiyasının ISSN nömrəsi - 2616-4310, elektron ISSN nömrəsi – 2707-2037. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxildir.
(https://aak.gov.az/single/421). Onu da qeyd etmək lazımdır ki, 2023-cü ildən başlayaraq jurnalda yer alan hər məqalənin rəqəmsal obyektin identifikator (DOI) nömrəsi mövcuddur (10.59610). «Audit» jurnalı II Milli Mühasiblər Forumu çərçivəsində 2018-ci ilin Mühasibat uçotu sahəsində jurnal müsabiqəsində III yerlə təltif edilmişdir. Hal-hazırda jurnal Google Scholar, Crossref, e-library, ResearchBib, Rootindexing, Advanced Science Index kimi informasiya bazalarında qeydiyyatdan keçmişdir. Həmçinin açıq girişli jurnalların indeksləmə bazası olan DOAJ-a daxil olması ilə bağlı cari ilin noyabr ayında müraciət edilmişdir. Həmçinin, 2020-ci ildə jurnalın xarici tədqiqatçıların elmi məqalələrinə həsr edilmiş «Xüsusi buraxılış»ı hazırlanaraq, dünyanın 50 ölkəsi üzrə 250 ən tanınmış universitetlərinə, o cümlədən bizimlə elm və təhsil sahəsində əməkdaşlıq edən 20 ölkənin 30 ali təhsil müəssisəsinə poçt rabitəsi vasitəsilə göndərilmişdir.

Bundan əlavə, hər il Universitetdə keçirilən beynəlxalq elmi-praktiki konfransın nəticələri toplu şəklində nəşr edilir. Konfrans materiallarında professor-müəllim heyətinin, doktorant və magistrantların tezisləri nəşr edilir. Həmçinin, respublikada və xaricdə keçirilən konfranslar barədə məlumatlar daimi akademik heyətə çatdırılır, tezislərin dərci üçün imkanlar yaradılır. Ölkədaxili və xarici elmi jurnallarda elmi-tədqiqat fəaliyyətinin nəticələrinin dərc etdirilməsi üçün şərait yaradılır.

**4.3.12. Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin («citation index») artım dinamikası.**

BBU tədqiqatçılarının nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş məqalələrinə isti-

nadetmə indeksi («citation index») Google Scholar platformasında 2017-ci ildə 24, 2023-cü ildə isə 9 dəfə artaraq 221, Scopus platformasında 2017-ci ildə 2, 2023-cü ildə isə 53 dəfə artaraq 106 olmuşdur. Bunları aşağıdakı cədvəldə görmək olar:

**Beynəlxalq platformalarda elmi məqalələrə istinadetmə indeksi**

| İllər | Google Scholar | Scopus |
|---|---|---|
| 2017 | 24 | 2 |
| 2018 | 28 | 4 |
| 2019 | 7 | - |
| 2020 | 13 | 1 |
| 2021 | 61 | 12 |
| 2022 | 195 | 61 |
| 2023 | 221 | 106 |

Ümumilikdə, 2017-ci ilə nisbətən BBU alimlərinin beynəlxalq elmmetrik bazalarında (Google Scholar / Scopusda olan istinadlar əsas kimi götürülmüşdür) indekslənmiş jurnallarda dərc olunmuş elmi məqalələrinə istinadetmə indeksi xeyli artmışdır ki, bu da ATM-in elmi-tədqiqat fəaliyyətinin gücləndiyini sübut edir.

**Elmi məqalələrə istinadetmə indeksinin dinamikası**




**4.3.13.Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti.**

Bakı Biznes Universitetində tədris planlarında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlər nəzərə alınmışdır. Magistratura pilləsinin ixtisaslarında «Tədqiqat metodları», «Sosial-iqtisadi göstəricilərin elmi-statistik təhlili», doktorantura səviyyəsində «Tədqiqat metodları və akademik yazı», «Statistik təhlil (STATA proqramı təminatının

tətbiqi ilə)», «Sosial-iqtisadi göstəricilərin elmi-statistik təhlili» tədqiqat yönümlü fənlər tədris planlarına daxil edilmişdir.

**4.3.14. Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti.**

Hesabat dövrü ərzində akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün Bakı Biznes Universiteti tərəfindən təşkil edilən təlimlərlə yanaşı, Universitet nümayəndələri üçün digər təşkilat və elmi müəssisələrdə keçirilən müxtəlif təlimlərdə iştirak imkanı mütəmadi yaradılmışdır:

- 2020-ci il tarixində Bakı Biznes Universiteti və «Easymark» şirkətinin təşkilatçılığı ilə «Marketingguide in BBU» mövzusunda təlim həyata keçirilmişdir. (https://bbu.edu.az/az/news/23/267).

- 2021-ci ildə ADA Universiteti və ABŞ-ın Azərbaycandakı Səfirliyinin birgə təşkil etdiyi «Azərbaycanda tədqiqat potensialı şəbəkəsinin qurulması və gücləndirilməsi» adlı 5 aylıq təlim kursunda Bakı Biznes Universitetinin 2 nümayəndəsi iştirak edərək, sertifikatlar əldə etmişlər. Təlim 90 saat həcmində 3 istiqamət üzrə keçirilmişdir: sosial tədqiqat metodları (40 saat), akademik yazı (25 saat), statistik analiz (25 saat).

- 2022-ci ildə Bakı Dövlət Universitetinin kitabxanası tərəfindən Bakı Biznes Universitetinin professor-müəllim heyəti üçün «Akademik bazalardan istifadə və nəşr imkanları» mövzusunda təlim-seminar (https://bbu.edu.az/az/news/23/330) keçirilmişdir.

- 2022-ci ildə «Azərbaycan Rektorlar Konfransının yaradılması» adlı Erasmus+ layihəsi çərçivəsində Azərbaycan HR İnstitutunun dəstəyi ilə rəhbər şəxslərin idarəetmə bacarıqlarının inkişaf etdirilməsinə yönələn Bakı Biznes Universiteti tərəfindən təşkil edilmiş «Strateji planlaşdırma və idarəetmə» mövzusunda təlim proqramı təşkil edilmiş, sertifikatlar təqdim olunmuşdur.

- 2023-cü il dekabr ayında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə tədqiqat bacarıqlarının formalaşmasına yönəlmiş «Sosial sahibkarlıqda biznes araşdırma metodları» mövzusunda keçiriləcək təlimdə Universitetin 3 doktorantının iştirakı nəzərdə tutlmuşdur.

- 2023-cü ildə akademik heyətin tədqiqat bacarıqlarını inkişaf etdirmək məqsədilə STATA proqram təminatını tətbiq etməklə data analizini həyata keçirmək bacarıqlarını formalaşdırmaq üçün təlim kursu təşkil edilmiş, kursun sonunda sertifikatların təqdim edilməsi nəzərdə tutulmuşdur. Proqram təminatı Universitetin kompüterlərinə yüklənmiş, akademik heyətin istifadəsinə təqdim edilmişdir. Kursun növbəti illərdə də təşkil edilməsi nəzərdə tutulmuşdur.

Tədqiqat sahəsində xarici ölkələr tərəfindən təşkil edilən müxtəlif mövzularda onlayn vebinarlar barədə mütəmadi olaraq professor-müəllim heyətinə məlumat verilir, həmin vebinarlarda akademik heyət iştirak edir.

**4.3.15. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu.**

Doktorantura proqramlarının təşviq edilməsi məqsədilə hesabat dövründə Universitetdə hər il doktoranturaya qəbul prosesi ilə bağlı olaraq kafedralar üzrə, magistratura pilləsində təhsil alan tələbələr və məzunlar arasında doktorantura təhsili barədə məlumatlar paylaşılmış, kütləvi informasiya vasitələrində (qəzet elanı) və Universitetin rəsmi sosial şəbəkələrində elanlar verilmişdir.

Doktoranturada təhsil alanların və məzunların işə cəlb edilməsi siyasəti Universitetdə hər il davamlı olaraq həyata keçirilir. Doktorantlar Universitetdə həm inzibati heyət, həm də professor-müəllim heyəti qismində işə cəlb edilirlər. Belə ki, illər üzrə doktorantların işlə təmin edilməsi siyasətinin göstəriciləri aşağıdakı kimi olmuşdur: 2017/2018-ci tədris ili üzrə - 5, 2018/2019-cu tədris ili üzrə - 4, 2019/2020-ci tədris ili üzrə - 2, 2020/2021-ci tədris ili üzrə - 4, 2021/2022-ci tədris ili üzrə - 0, 2022/2023-cü tədris ili üzrə - 6, 2023/2024-cü tədris ili üzrə - 5 nəfər təşkil etmişdir.

**4.3.16. Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi vəziyyəti.**

Hesabat dövründə ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dinamikasında artım mövcuddur və dinamika aşağıda təqdim edilmiş qrafikdə öz əksini tapmışdır:

**Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi dinamikası**



**4.3.17. Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti.**

Bakı Biznes Universitetində elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti aşağıdakı qrafikdə təqdim edilmişdir:

**Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti**




**4.3.18. Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu.**

Universitetdə fəlsəfə doktoru hazırlığı üzrə doktorantura proqramları 5308.01-«Ümumi iqtisadiyyat», 5303.01-«Mühasibat uçotu», 5312.01-«Sahə iqtisadiyyatı» ixtisasları üzrə həyata keçirilir. Qeyd edilən ixtisasların kvalifikasiyası Universitetin elmi-tədqiqat hədəflərinə tam uyğundur.

**4.3.19. Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti.**

Universitetdə elmi-tədqiqat fəaliyyətinin monitorinqi bir neçə istiqamətdə aparılır. İlk növbədə, hər təqvim ilinin sonunda elmi-tədqiqat fəaliyyətinə dair hesabatların təhlili nəticəsində Universitetin illik elmi-tədqiqat hesabatının hazırlanması və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilməsi yolu ilə həyata keçirilir. Həmçinin, Universitet Elmi Şurasının iclasının qərarları ilə təsdiq edilən illik elmi-tədqiqat mövzusu üzrə əldə edilən mühüm nəticələr ayrıca təhlil edilərək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilir. Bundan əlavə, elmi-tədqiqat fəaliyyətinin nəticələri ilboyu Universitetin elmi-tədqiqat istiqamətinin və illik mövzusunun yerinə yetirilməsi müddətində kafedralarda keçirilən elmi seminarlarda müzakirə olunur və təhlil edilir. Həmçinin, elmi-tədqiqat fəaliyyətinin nəti-

cələri digər elm və ali təhsil müəssisələrindən dəvət edilən tədqiqatçıların iştirakı ilə kafedralar tərəfindən təşkil olunan respublika konfranslarında və Universitet tərəfindən keçirilən beynəlxalq konfransda müzakirə edilir, konfransların nəticələri toplu şəklində dərc olunur. Həmçinin, elmi-tədqiqat fəaliyyətinin səmərəlliliyinin artırılması məqsədilə bu istiqamətə dair professor-müəllim heyəti arasında illik sorğular təşkil edilir.

**4.3.20. Doktorantura səviyyəsində dissertasiyaların hazırlanması və müdafiəsinin təşkili.**

Doktorantura səviyyəsində dissertasiyaların hazırlanması və müdafiəsinin təşkili Universitetin «Doktorantura və magistratura» şöbəsinin rəhbərliyi altında ixtisaslara uyğun doktorantların təhkim olunduğu kafedralarda həyata keçirilir. Universitetdə doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş «Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları»na, dissertasiyaların hazırlanması və müdafiəsi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə»yə, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş qaydalar və təlimatlara, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin göstərişlərinə əsasən həyata keçirilir.

Həmçinin, 07 aprel 2023-cü il tarixindən etibarən 5304.01 – «İqtisadi fəaliyyət növləri», 5308.01 – «Ümumi iqtisadiyyat», 5312.01 – «Sahə iqtisadiyyatı» ixtisasları üzrə iqtisad elmləri sahəsində fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi ED 2.46 olan Bakı Biznes Universiteti və Azərbaycan Kooperasiya Universitetinin Birgə Dissertasiya Şurası fəaliyyət göstərir.

Bundan əlavə, fəlsəfə doktoru proqramı üzrə hazırlığın hər üç ixtisası üzrə təhsil proqramları hazırlanmış, ixtisaslar üzrə minimum imtahanlarının keçirilməsi üçün Elmi-metodiki Şuranın iclasının müvafiq qərarı ilə  minimum imtahanlarının proqramları qəbul edilmişdir.

**4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti.**

**4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu.**

Universitetdə həyata keçirilən tədris və elmi-tədqiqat fəaliyyəti Elmi Şuranın 27 dekabr 2018-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmiş (Protokol №04) «Akademik dürüstlük siyasəti» əsasında həyata keçirilir. Həmin sənəddə Universitetdə yürüdülən akademik dürüstlüyün əsas prinsipləri, məqsədləri, tərəflərin hüquq və vəzifələri, akademik dürüstlüyün pozulması hallarının əsasları, məsuliyyət və cəza istiqamətləri öz əksini tapmışdır. Bundan əlavə, Elmi Şuranın müvafiq qərarı ilə Universitetin antiplagiat siyasəti üzrə «Antiplagiata dair daxili

Qaydalar» qəbul edilmişdir. Hər iki siyasət Universitetin rəsmi saytında yerləşdirilmiş və Universitetin bütün struktur bölmələri və kafedralarına təqdim edilmişdir.

**4.4.2. Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu.**

Universitet 19 oktyabr 2022-ci il tarixində Polşa «Plagiat.pl» Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikasındakı filialı ilə bağlanmış müqaviləyə əsasən, şirkətin Bakı Biznes Universitetinə təqdim etdiyi «Strikeplagiarizm» antiplagiat sistemi vasitəsilə Universitetdə yerinə yetirilən elmi işlər və hazırlanan tədris vəsaitlərinin orijinallığı yoxlanılır. İmtahan sessiyası müddətində köçürmə hallarının qarşısının alınması məqsədilə ilə bağlı prosedurlar Elmi Şuranın 17.11.2017-ci il tarixli qərarı ilə təsdiqlənmiş «İmtahanlar haqqında Qaydalar»da və «Müəllimlər və tələbələr üçün Yaddaş Kitabçası»nda öz əksini tapmışdır. Eyni zamanda imtahan prosesinin keçirilməsi qaydalarını əks etdirən videoçarx Universitet tərəfindən hazırlanmış, tələbə və müəllim kontingentinə təqdim edilmişdir. Həmçinin, Universitetdə bütün auditoriyaların kameralarla təchiz edilməsi və mərkəzləşdirilmiş nəzarət sisteminin mövcudluğu imtahanların tam şəffaf keçirilməsinə şərait yaradır.

**4.4.3. ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi.**

Bakı Biznes Universitetində «Strikeplagiarizm» antiplagiat sisteminin tələbə və professor-müəllim heyəti tərəfindən istifadəsi aşağıdakı əsas struktur bölmələrin həmin sistemdə «İstifadəçi» qismində qeydiyyatdan keçirilməsi ilə təmin edilmişdir:

- Elmi işlər üzrə prorektor (baş administrator);
- Tədris işləri üzrə prorektor;
- Beynəlxalq əlaqələr üzrə prorektor;
- Təlim-tərbiyə işləri üzrə prorektor;
- Mətbəə;
- «Doktorantura və magistratura» şöbəsi;
- Tədris şöbəsi;
- Kitabxana;
- «Karyera və məzunlarla iş» Mərkəzi;
- «Biznes və menecment» fakültəsinin dekanlığı;
- «İqtisadiyyat və idarəetmə» fakültəsinin dekanlığı;
- «Humanitar elmlər» kafedrası;
- «Menecment və marketinq» kafedrası;
- «Mühasibat uçotu və audit» kafedrası;
- «Dillər» kafedrası;

- «Ali riyaziyyat» kafedrası;
- «Maliyyə» kafedrası;
- «Biznesin təşkili və bələdiyyə idarəetməsi» kafedrası;
- «İqtisadi nəzəriyyə» kafedrası.
- «İnformasiya texnologiyaları» kafedrası.

Universitetdə tətbiq edilən antiplagiat sistemi vasitəsilə təhsil və elmi-tədqiqat prosesində iştirak edən bütün tələbə və professor-müəllim heyəti tərəfindən təqdim edilən yazılı elmi işlərin yoxlanılması həyata keçirilir.

## 5. İdarəetmə sistemi

### 5.1. İdarəetmə orqanları

#### 5.1.1. ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti.

Bakı Biznes Universitetinin idarəetmə fəaliyyəti Universitetin Nizamnaməsi ilə tənzimlənir. Baki Biznes Universitetinin Nizamnaməsinə əsasən ali idarəetmə orqanı Universitetin Elmi Şurasıdır. Bakı Biznes Universitetinin Elmi Şurasının yaradılması və fəaliyyəti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli 792 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin Elmi Şura haqqında Əsasnamə", BBU-nun Elmi Şurası haqqında Əsasnamə və Universitetin Nizamnaməsi ilə tənzimlənir. Hazırda Bakı Biznes Universiteti Elmi Şurasının tərkibi 21 nəfərdən ibarətdir.

Universitetdə fəaliyyət göstərən digər idarəetmə orqanları Fakültə Elmi Şuraları, Elmi-Metodiki Şura, Tələbə Gənclər Təşkilatıdır. Fakültələrin idarəetmə orqanı Fakültə Elmi Şuralarıdır. Fakültə Elmi Şuralarının əsasnamələri Universitet Elmi Şurası tərəfindən təsdiq olunur. Elmi-Metodik Şura isə elmi və metodiki sahədə, habelə tədris-metodiki vəsaitlərin müzakirə olunaraq nəşr olunması və ya nəşrə tövsiyə olunması ilə əlaqədar qərarlar qəbul edir. Tələbə Gənclər Təşkilatı tələbə-gənclər arasında ideya-tərbiyəvi işlər aparır.

Universitetin Nizamnaməsinə əsasən BBU-nun fəaliyyətinə rektor rəhbərlik edir. BBU-da Nizamnaməyə əsasən tədris işləri üzrə, elmi işlər üzrə, təlim-tərbiyə işləri üzrə və beynəlxalq əlaqələr üzrə prorektorlar fəaliyyət göstərir.

Universitetin Elmi Şurası tərəfindən 17.11.2017-ci il tarixində təsdiq edilmiş Bakı Biznes Universitetinin "Professor-müəllim və inzibati heyətinin vəzifə öhdəliklərinə dair Əsasnaməsi"ndə rektor, 4 prorektor və Universitetin digər rəhbər strukturları; dekanlar, kafedra müdirləri, şöbələr, professor, dosent, baş müəllim, müəllim, laboratoriya müdiri, tyutor, baş

mühasib, mühasib, xəzinədar, inspektorlar, təhlükəsizlik xidməti, yeməkxana, tibb məntəqəsinin işçilərinin vəzifə öhdəlikləri göstərilmişdir.

Universitetin idarəetmə strukturlarının aşağıdakı əsasnamələri mövcuddur:

- Bakı Biznes Universitetinin Elmi Şurası haqqında Əsasnamə;
- Bakı Biznes Universitetinin Elmi-Metodik Şurasının Əsasnaməsi;
- Fakültə Elmi Şurası haqqında Əsasnamə;
- Fakültənin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin "Tədris" şöbəsinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin "İctimaiyyətlə əlaqələr və tələbə qəbulu" mərkəzinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin kafedralar haqqında Əsasnaməsi;
- Bakı Biznes Universitetinin Keyfiyyət Təminatı Mərkəzinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin kitabxana fəaliyyətinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin Kompüter Mərkəzinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin "Doktorantura və magistratura" şöbəsi haqqında Əsasnamə;
- Bakı Biznes Universitetinin Mədəniyyət Mərkəzinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin Mətbuat xidmətinin fəaliyyəti haqqında Əsasnamə;
- Bakı Biznes Universitetinin mühasibatliq şöbəsinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin Tələbə Elmi Cəmiyyətinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin Tələbə Gənclər Təşkilatının Əsasnaməsi;
- Bakı Biznes Universitetinin Təsərrüfat şöbəsinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin Tibb Məntəqəsinin Əsasnaməsi;
- Bakı Biznes Universitetinin Yeməkxanasının Əsasnaməsi.

Hər bir İdarəetmə orqanı və təşkilati struktur vahidinin tədris ilinin əvvəlində illik iş planları tərtib olunur və rəhbərlik tərəfindən təsdiq edilir. İdarəetmə strukturları illik iş planlarına əsasən fəaliyyət göstərir və tədris ilinin sonunda Universitetin Elmi Şurası qarşısında hesabat verir.

**5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti**

Bakı Biznes Universitetinin İdarəetmə orqanlarında demokratikliyi və şəffaflığı təmin etmək üçün maraqlı tərəflərin iştirakı təmin olunur. Universitetin Elmi Şurasında, eləcə də Fakültə Elmi Şuralarında tələbələr iştirak edir. Qərar qəbulunda tələbələrin Fakültə Elmi Şurasının üzvü kimi səsvermə hüquqları vardır.

İxtisas proqram komissiyalarının tərkibində əmək bazarının nümayəndələri (işəgötürənlər), ictimaiyyət nümayəndələri və tələbələr də yer alırlar. Onlar İxtisasın Təhsil Proqramlarının

tərtib olunmasında, monitorinqində və dəyişikliklərin edilməsində iştirak edirlər. İclasın qərarlarının qəbul olunmasında onlar səsvermə hüquqlarına malikdirlər.

**5.1.3. İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti**

Universitetin Elmi Şurası və Fakültə Elmi Şuralarının iclasları həmin qurumun iş planı əsasında keçirilir. Elmi Şuranın iş planı ilin əvvəlində Elmi Şura tərəfindən təsdiq olunur. Elmi Şuranın gündəliyi onun iş planı əsasında tərtib olunur.

Kafedraların iclasları da onların iş planları əsasında keçirilir. İş planı tədrisin təşkili və idarə edilməsi, elmi-tədqiqat, beynəlxalq əlaqələrin inkişafı istiqamətində hazırlanır, tədrisdə yeni metodikaların tətbiqi, onların üzərində nəzarətin həyata keçirilməsi və monitorinq məsələlərinə, fəaliyyətin nəticələrinin təhlili və qiymətləndirilməsinə həsr olunur.

Universitetdə fəaliyyətin strateji və cari planlara, keyfiyyət siyasətinə, qanunvericilik sisteminə uyğun keçirilməsinə nəzarət məqsədilə müvafiq yığıncaqlar və tədbirlər keçirilir. Yığıncaqlar tədris, elmi fəaliyyət, beynəlxalq əlaqələrin inkişafı, bu sahədə qərar qəbulu, fəaliyyətin icrası vəziyyətində nəzarət, hesabatların alınması baxımından həyata keçirilir. Qərarların qəbulu və onlara nəzarət olunması rəhbər şəxslərə həvalə edilir.

**5.1.4. İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti**

Universitetin Elmi Şurasında və Fakültə Elmi Şuralarında, kafedra iclaslarında gündəlikdə duran məsələlər müzakirə olunur, məsələlərin həlli ilə əlaqədar idarəçilik qərarları qəbul olunur. Qərarlar açıq səsvermə və sadə səs çoxluğu ilə qəbul olunur.

Dekan, kafedra müdirləri, professor və dosentlərin işə qəbulu seçkili qaydada həyata keçirilir. Dekanların, kafedra müdirlərinin, professor və dosentlərin seçkisi əvvəlcə Fakültə Elmi Şuralarında aparılır, sonra isə Universitetin Elmi Şurasında təsdiq edilir.

Dekanların, kafedra müdirlərinin, professor və dosentlərin seçkisi qapalı səsvermə formasında aparılır. Bu məqsədlə həmin iclasda seçki komissiyası yaradılır, seçkilər komissiyanın rəhbərliyi ilə aparılır, nəticələr müəyyən edilir, bəyan olunur və protokollaşdırılır.

**5.1.5. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti**

Universitetin İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarlar Azərbaycan Respublikası Prezidentinin fərman və sərancamlarına, Nazirlər Kabinetinin qərarlarına, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq əsasnamələrinə, Universitetin Elmi Şurasının, habelə Fakültə Elmi Şurasının qərarlarına, Universitetin daxili əsasnamələrinə, əmrlərinə və qaydalarına uyğundur.

Qərarların əlçatanlığı onların lazımi səviyyədə icrası üçün əhəmiyyət kəsb edir. Qərarların əlçatanlığı, təyinatı üzrə icrası həvalə edilmiş şəxs və strukturların işinin səmərəliliyinin artırılması üçün şərtdir.

Qərarlar icra olunmaq üçün müvafiq struktur vahidlərinə göndərilir. Qərarların icrası vəziyyəti rəhbərlik tərəfindən mütəmadi monitorinq olunur. Qərarların icrası vəziyyəti ilə əlaqədar müəyyən dövrdən sonra rektora məruzə olunur, Elmi Şuraların iclaslarında müzakirə edilir.

**5.1.6. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

İdarəetmə orqanlarının təşkilati strukturu mövcuddur. Təşkilati struktur özünütəhlil arayışına əlavə edilir. Təşkilati strukturda struktur vahidlərinin tabeçilik sxemi və onların arasında əlaqəlilik öz əksini tapmışdır.

Təşkilati strukturlar arasında informasiya texnologiyaları, elektron vasitələr və telefon rabitəsi ilə kommunikasiya yaradılır.

Qarşılıqlı əlaqənin olması müxtəlif struktur vahidləri arasında əlaqələlərin formalaşdırılması və inkişafına təkan verir. İdarəetmə orqanları arasında əlaqənin olması işin keyfiyyətinin artmasına müsbət təsir göstərir.

Bakı Biznes Universitetində bu cür əlaqəlilik Universitetin idarəçilik prinsiplərindən biri kimi tətbiq olunur. Universitetin tədris fəaliyyətinin inkişafına elmi fəaliyyətlə əlaqəli formada nail olunur.

**5.1.7. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü Universitetin təşkilati struktur vahidləri üzrə aparılmışdır. Universitetin təşkilati strukturu idarəçilik sistemini əks etdirməklə, struktur vahidlərinin tabeçilik sxemini özündə birləşdirir.

İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü Bakı Biznes Universiteti üzrə professor-müəllim və inzibati heyətin vəzifə öhdəliklərinə dair əsasnaməsində öz əksini tapmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, 17.11.2017-ci ildə Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş həmin əsasnamədə bütün vəzifələr üzrə, Rektor və Universitetin digər rəhbər strukturları, o cümlədən, prorektor və dekanlar, kafedra müdirləri, şöbə müdirləri, professor, dosent, baş müəllim, müəllim, metodistlər, laboratoriya müdirləri, tyutor, baş mühasib, mühasib, xəzinədar, inspektorlar, təhlükəsizlik xidməti, tibb məntəqəsinin və sair işçilərin vəzifə öhdəlikləri və səlahiyyətləri göstərilmişdir.

**5.1.8. İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövri hesabatların hazırlanması vəziyyəti**

Bakı Biznes Universitetində idarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi Universitetin rəhbərliyi tərəfindən həyata keçirilir. Monitorinqlər müvafiq dekanlıqlar üzrə, ixtisas kafedralarının fəaliyyətinin lazımi səviyyədə icrasını yoxlamaq və baxış keçirmək məqsədini daşıyır.

Universitetin rektorunun əmri ilə hər semestrdə nəzarət komissiyaları yaradılır və həmin komissiyalar tədrisin təşkili və müasir metodlarla keçirilməsi, Universitetin daxili əsasnamələrinin, müəllimlərin texnoloji xəritələrinin və iş planlarının icrası vəziyyətinin düzgünlüyünü yoxlayırlar.

Hər il tədris ilinin sonunda Universitetin bütün struktur vahidləri ilin yekununa dair gördükləri işin hesabatını hazırlayırlar. Universitetin rəhbərliyi həmin hesabatı Elmi Şurada dinləyir və bir sıra məqamlar müzakirə olunur. Elmi Şuranın yekun protokolunda hesabatlar öz əksini tapmaqla, strukturların fəaliyyətinə qiymət verilir.

**5.1.9. İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

İdarəetmə orqanları fəaliyyətini təşkilati struktura uyğun olaraq şəffaf formada həyata keçirir. İdarəetmə orqanlarının tabeçilik sxemi təşkilati strukturda öz əksini tapır. İdarəetmə orqanlarının fəaliyyəti “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Respublika Elm və Təhsil Nazirliyinin müvafiq əsasnamələrinə, Universitetin Nizamnaməsinə, həmin orqanların əsasnamələrinə, strateji planlara, icra planlarına uyğun olaraq həyata keçirilir. Həmin normativ aktların icra vəziyyəti mütəmadi olaraq yoxlanılır və monitorinq olunur. Bu məqsədlə idarəetmə orqanlarının fəaliyyətinin nəticəyönümlüyü Universitetin rəhbərliyinin əsas prinsipidir.

İdarəetmə fəaliyyəti strateji planlarda daim gələcək perspektivlər üzrə təkmilləşdirilir. Strateji planlarda idarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məsələsi sahələr üzrə əks etdirilir və həyata keçirilir.

**5.2. İnsan resurslarının idarə edilməsi**

**5.2.1. ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

Universitetin işə qəbul və işdən azad olunma qaydaları mövcuddur. Bu qaydalar Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ-hüquqi aktlarına, Bakı

Biznes Universitetinin Nizamnaməsinə və bu sahədə mövcud olan yerli və dünya təcrübəsinə uyğun olaraq hazırlanmışdır. İşə qəbul qaydalarında müvafiq vəzifələrin tutulması üçün tələb olunan sənədlərin siyahısı, müvafiq vakant yerlər və vəzifələr üçün sənəd təqdim edəcək namizədin bilik, bacarıq və kompetensiyalarına qoyulan tələblər öz əksini tapır. İşə qəbul qaydalarında namizədin işə götürülməsi mexanizmi, anket, müsabiqə, müsahibə üsullarının tətbiqi mexanizmi öz əksini tapır.

Bakı Biznes Universitetində seçkili vəzifələrin tutulması Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Kollegiyasının 15.11.2017-ci il tarixli, 5\5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali Təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na və digər müvafiq normativ-hüquqi aktların tələbləri əsasında seçkili formada keçirilir.

**5.2.2. ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması**

Bakı Biznes Universitetində akademik və inzibati heyətin tərkibi, onların inkişaf məsələləri Universitetin strateji inkişaf proqramına uyğun həyata keçirilir. Universitetin inkişaf planında akademik heyətin metodik, peşəkarlıq, bacarıq baxımından inkişaf məsələləri öz əksini tapır, onların sertifikatlaşması texnologiyası yer alır. Akademik və inzibati heyətin maliyyələşməsi məsələsi maliyyə smetalarında əks olunur, onların stimullaşdırılması tədbirləri qabaqcadan müəyyən olunur. Hazırda BBU-da akademik heyət və tədris-köməkçi heyətin rəhbərlik və inzibati heyətə nisbəti 3:1-ə təşkil edir.

**5.2.3. ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması**

Bakı Biznes Universitetində idarəetmə və inzibati heyətin, akademik heyətin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən, pedaqoji taktikaların icrası, elmi-tədqiqat fəaliyyətinin yerinə yetirilməsi baxımından və sair keyfiyyət göstəricilərinin mövcudluğu nöqteyi-nəzərindən əmək haqqının differensiallaşdırılması sistemi mövcuddur.

**5.2.4. ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması**

Əmək haqqının differensiallaşdırılması sistemi işçilərin motivləşdirilməsi və mükafatlandırılması baxımından tətbiq oluna bilən bir sistemdir. Bu sistem işçilərin fəaliyyətinin müqayisəli formada araşdırılması və qiymətləndirilməsini tələb edir. Universitetin "Bakı Biznes Universitetində elmi-pedaqoji və inzibati-texniki heyətin mükafatlandırılmasına dair Əsasnamə"si mövcuddur.

**5.2.5. ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti**

Universitetdə akademik və inzibati heyətin işinin vaxtaşırı qiymətləndirilməsi tədbirləri həyata keçirilir. Akademik heyətin vaxtaşırı yoxlanılması üçün hər il müvafiq komissiyalar yaradılır. Həmin komissiyalar kafedralarda akademik heyətin fəaliyyətinə nəzarət məqsədilə müvafiq kafedralara təhkim olunurlar. Komissiyalar kafedraların fəaliyyətinə nəzarət edir, akademik heyətin dərslərində monitorinqlər aparır, nəticəni protokollaşdırır və kafedra iclaslarında problemləri müzakirə edirlər.

İnzibati heyətin fəaliyyətinə nəzarəti təsərrüfat şöbəsi yerinə yetirir. İnzibati heyətin fəaliyyəti mütəmadi olaraq təsərrüfat şöbəsi tərəfindən monitorinq olunur və işinin öhdəsindən layiqincə gələn işçilər mükafatlandırılırlar.

**5.2.6. ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti**

Universitetdə işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlər mütəmadi olaraq təşkil olunur və keçirilir. Akademik heyət tədris etdikləri fənlər üzrə təlimlər keçərək sertifikatlaşırlar. Sertifikatlaşmış müəllimlər tədris etdikləri fənlər üzrə tələbələrin də sertifikatlaşmasına nail olurlar.

Bundan başqa müəllimlər pedaqoji metodikaların inkişafına dair təlimlərdə master klaslarda iştirak etmiş və müvafiq sertifikatlar almışlar.

**5.2.7. ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti**

Universitetdə sosial-mədəni tədbirlər keçirilir ki, bu, müəllim və tələbələrdə ideya-siyasi tərbiyənin, onlarda vətənpərvərlik ruhunun inkişafında rol oynayır. Universitetimizin özfəaliyyət dərnəkləri milli bayramlarımızla bağlı, tariximizin qan yaddaşı, torpaqlarımızın düşmənlərdən azad olması ilə əlaqədar tədbirlər keçirirlər. Bu tədbirlər kollektivdə sağlam sosial-psixoloji mühitin və atmosferin formalaşmasına və daim şəffaflaşmasına təsir göstərir.

**5.2.8. Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti**

Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi Universitetin strateji idarəçilik prinsiplərinin əsas elementlərindən biridir. Universitetdə işə qəbul prosesi müvafiq bölmələrin rəyi və təklifi nəzərə alınmaqla həyata keçirilir. Şəffaflığın təmin olunması üçün seçim prosesi, müsahibələr və müsabiqələrdə bütün namizədlərin açıq formada iştirakının təmin edilməsi ilə təşkil olunur.

**5.2.9. Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti**

Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirməsini rəhbərlik və təsərrüfat şöbəsi həyata keçirir. Təsərrüfat şöbəsi tərəfindən monitorinqlər aparılır, şöbənin rəyi və təqdimatı əsasında qeyri-akademik heyətin fəaliyyəti qiymətləndirilir və işinin öhdəsindən layiqincə gələn işçilər mükafatlandırılırlar.

**5.2.10. Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

Əmək və mülki münasibətlərin bağlanması müqavilələrin tərtib olunması ilə rəsmiləşdirilir. Əmək münasibətlərinin bağlanması məqsədilə müqavilələr rəsmi formada kağızdaşıyıcıda tərtib edilir və imzalanır. Həmin anda elektron müqavilə tərtib edilir və elektron bildiriş çap olunur. Əmək münasibətlərinin pozulması ilə əlaqədar elektron sistemdə pozulma halı səbəbləri göstərilməklə qeydə alınır.

Mülki münasibətlərin bağlanması, yəni malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericiliyin müvafiq maddələri ilə uçota alınır. Universitet malların alınması, işlərin görülməsi, satınalma prosedurlarını uçota alır, bununla əlaqədar olaraq aşağıdakı sənədlər tətbiq edilir:

- satınalma və ya görüləcək işlərlə bağlı müqavilələr bağlayır;
- qiymətlərin razılaşdırma protokolunu tərtib edir;
- hesab-faktura sənədi təqdim olunur;
- elektron qaimələr təqdim olunur;
- təhvil-təslim aktları tərtib olunur.

**5.3. Maliyyə resurslarının idarə edilməsi**

**5.3.1.ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**

Bakı Biznes Universitetində maliyyə resurslarının idarə edilməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, Mühasibat uçotu haqqında Qanuna, Universitetin Nizamnaməsinin tələblərinə əsasən həyata keçirilir.

Universitet üzrə maliyyə resurslarının mənbəyi dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr və qrantlar hesab edilir. Maliyyə resurslarının mənbələri Universitetin Nizamnaməsinin 4.8, 7.2, 7.3 maddələrinə uyğundur.

**5.3.2. Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi**

Universitetin maliyyə resurslarının planlaşdırılması Universitetin Strateji inkişaf planlarında nəzərdə tutulmuşdur. Strateji inkişaf planlarının icrasına dair qısa və uzunmüddətli icra planlarında da maliyyə resurslarının planlaması həyata keçirilmişdir. Bundan başqa maliyyə

resurslarının cari planlaması illər üzrə tərtib edilmiş plan-smetasında əks olunur. Plan-smetası Universitetin müvafiq ixtisasları üzrə müəyyən olunur. İxtisaslar üzrə təhsil alan tələbələrin təhsil haqları illik müəyyən olunduğu üçün plan-smetası da illik tərtib edilir.

**5.3.3. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti.**

Universitetin maliyyə resusrlarının planlaması Strateji inkişaf planı və onun icrasına dair dövri icra planlarında nəzərdə tutulmuşdur. Planın icrasının vəziyyətinə dövri olaraq monitorinqlər keçirilməklə nəzarət olunur və hər ilin sonunda hesabat verilir.

**5.3.4. Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti**.

Universitet əlavə maliyyə resursları əldə etmək hüququna malikdir. Universitetin əldə etdiyi əlavə maliyyə resursları beynəlxalq layihələrdən, Universitetin mətbəəsinin fəaliyyətindən və digər mənbələrdən cəlb olunur. Bu cür fəaliyyətlərin həyata keçirilməsi və gəlirlərin əldə edilməsi Universitetin Nizamnaməsinin 7.3.3, 7.3.5, 7.3.6-cı maddələrinə uyğundur.

**5.3.5. Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi.**

Əldə olunan maliyyə resurslarının uçotu aparılır. Əldə olunmuş vəsaitlərin daxil olması haqqında Universitetin təsisçisinə dövri olaraq hesabatlar verilir. Universitetin əldə etdiyi maliyyə resursları ilə əlaqədar tərtib edilmiş hesabat sənədləri müəyyən olunmuş formalarda müvafiq icra hakimiyyəti orqanlarına təqdim olunur.

**5.3.6. Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu.**

Maliyyə resurslarından istifadə olunması Universitetin Nizamnaməsinə uyğun formada həyata keçirilir. Belə ki, maliyyə resurslarının istifadəsi aşağıdakı istiqamətlərdə istifadə olunur və xərclənir:

- Əmək haqqı.
- Ezamiyyə xərcləri.
- Enerji xərcləri.
- Yanacaq xərcləri.
- Rabitə xərcləri.
- Bank xidmətləri.
- Büdcə və büdcədənkənar fondlara ödəmələr.
- Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması.
- Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı.
- Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi.
- Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi.

• Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri).

• Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət.

• Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq.

• Sair xərclər.

Universitet Nizamnamənin 7.5-ci maddəsinə uyğun olaraq özünün xərc smetasını müəyyən edir. Xərc smetası illik tərtib olunmaqla xərclərin müvafiq dövrlər üzrə tərkibini müəyyənləşdirir.

**5.3.7. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu**

Bakı Biznes Universitetinin Nizamnaməsinin 7.5-ci maddəsində Universitetin büdcə smetasının tərtib edilməsi məsələsi nəzərdə tutulur. Universitet büdcə smetasını gəlir mənbələrini qabaqcadan müəyyən etməklə tərtib edir. Büdcə smetası Universitetin müvafiq ixtisasları üzrə onların tədris illəri nəzərə alınmaqla tərtib edilir, büdcə smetasının hazırlanması və təsdiqi prosedurları Universitetin Nizamnaməsinə tam uyğundur.

**5.3.8. Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi**

Maliyyə resurslarının təyinatı üzrə istifadəsinə nəzarət Universitetin mühasibatlığı tərəfindən həyata keçirilir. Maliyyə resurslarının təyinatı üzrə istifadəsi ilə əlaqədar Universitetin təsisçisinə dövri olaraq hesabatlar verilir. Maliyyə resurslarının təyinatı üzrə istifadə məsələləri ilə əlaqədar Universitetin mühasibatlığı üzərində cari nəzarət Rektor tərəfindən həyata keçirilir. Maliyyə resurslarından istifadənin vəziyyəti ilə əlaqədar Universitet tərəfindən hazırlanmış "Müəssisənin maliyyə vəziyyəti haqqında" hesabat elektron formada Vergi Xidmətinə təqdim olunur ki, nəticədə sözügedən Xidmət tərəfindən həmin hesabatlara elektron kameral nəzarəti həyata keçirilir.

Universitet tərəfindən hazırlanmış qrant layihəsinin auditi Universitetin mühasibatlığı tərəfindən aparılır. Nəticədə audit rəyi tərtib olunaraq layihənin koordinatoruna təqdim olunur.

**5.3.9. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti.**

Universitet malların alınması, işlərin görülməsi, satınalma prosedurlarını Vergi Məcəlləsinin 16-cı, 139-cu maddələrinin tələblərinə əsasən uçota alır, bununla əlaqədar olaraq aşağıdakı sənədlər tətbiq edilir:

• Satınalma və ya görüləcək işlərlə bağlı müqavilələr bağılayır.

• Qiymətlərin razılaşdırma protokolunu tərtib edir.

• Hesab-faktura sənədi təqdim olunur.

• Elektron qaimələr təqdim olunur.

• Təhvil-təslim aktları tərtib olunur.

**5.3.10. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının Vergi qanunvericiliyinin 16, 71-1., 135, 158.1 maddələri və sair müddəaların tətbiqi ilə uçota alınır.

**5.3.11. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti**

Maliyyə və mühasibat hesabatları ilkin uçot sənədləri üzrə məlumatlara uyğun olaraq tərtib olunur və təyinatı üzrə təqdim edilir. Maliyyə və mühasibat hesabatlarının hazırlanması Vergi məcəlləsinin "Vergi hesabatının tərtib edilməsi və verilməsi qaydası"na dair 72-ci maddəsinə uyğun olaraq aparılır və təqdim olunur. Universitet üzrə maliyyə vəziyyəti haqqında hesabatı, muzdlu və qeyri-muzdlu işlə əlaqədar vahid bəyannamə, dövlət sosial sığorta, tibbi icbari sığorta, işsizlikdən sığorta bəyannamələri elektron qaydada müvafiq olaraq təqdim olunur.

Statistika Komitəsinə aylıq və illik hesabatlar elektron qaydada təqdim olunur. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqaüdlərlə, güzəştli təhsillə əlaqədar və digər hesabatlar təqdim olunur.

**5.3.12. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti.**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə görə maliyyə hesabatlarının auditinin aparılması və maliyyə hesabatlarının dərc olunması kommersiya təşkilatı kimi yalnız Açıq və Qapalı Səhmdar Cəmiyyətləri üçün nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli, 97 nömrəli qərarı ilə "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi qaydaları"nın 5-ci maddəsinin tələblərində Bakı Biznes Universiteti üçün belə tələb nəzərdə tutulmadığından Bakı Biznes Universiteti tərəfindən maliyyə və mühasibat hesabatlarının dərc olunması könüllülük prinsipi əsasında yerinə yetirilə bilər.

**5.3.13. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu**

Universitetin daxili audit fəaliyyətini rəhbərlik həyata keçirir. Rəhbərlik maliyyə resurslarının əldə olunması və istifadəsi ilə əlaqədar aşağıdakı nəzarət tədbirlərini icra edir:

• Universitet üzrə mühasibat uçotunun aparılmasının və maliyyə hesabatlarının düzgünlüyünü və etibarlılığını yoxlayır.

• Maliyyə resursları ilə əlaqədar əməliyyatların düzgünlüyünü yoxlayır.

• Ehtiyatlardan istifadənin səmərəliliyinə, düzgünlüyünə nəzarət edir.

• Universitetin illik və cari maliyyə hesabatlarının hazırlanması prosesinə və onun nəticələrinə nəzarət edir.

**5.3.14. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar auditin nəzarət tədbirlərinin mövcudluğu**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə görə maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar auditin aparılması kommersiya təşkilatları kimi yalnız Açıq və Qapalı Səhmdar Cəmiyyətləri üçün nəzərdə tutulmuşdur. Həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli, 97 nömrəli qərarı ilə “Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi qaydaları”nın 5-ci maddəsinə əsasən konsolidə olunmuş maliyyə hesabatı verən kommersiya təşkilatları kənar audit olunmalıdır.

Deməli, qanunvericiliyə əsasən Bakı Biznes Universitetində maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar auditin aparılması könüllülük prinsipinə əsaslanır.

**5.3.15. Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti**

Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi məsələləri Universitetin strateji inkişaf planında nəzərdə tutulur. Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsinin təkmilləşdirilməsi ilə əlaqədar rəhbərlik və mühasibat arasında müzakirələr aparılır.

**5.4. İnformasiya idarəetmə sistemi**

**5.4.1. ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu**

Bakı Biznes Universitetində informasiya idarəetmə sistemi proqram təminatı, informasiya texnologiya vasitələri sistemi kimi istifadə olunur. Universitetin informasiya idarəetmə sistemi 2016-cı ildən etibarən Bakı Biznes Universitetinin Kompüter Mərkəzi tərəfindən yazılmış və quraşdırılmış “Elektron Universitet” proqramı ilə həyata keçirilmişdir. Proqram universitetdə tədris və elmi fəaliyyətin həyata keçirilməsinin bütün tərəflərini əhatə etmişdir. Sözügedən proqram 2022-ci ilə qədər istismar olunmuş, lakin həmin ildən etibarən informasiya idarəetmə sistemi kimi EMPRO proqram təminatından istifadə edilir.

EMPRO proqram təminatı Universitetin akademik fəaliyyətinin bütün tərəflərinin idarə edilməsinin daha da təkmilləşdirilmiş funksional proqramıdır. EMPRO proqram təminatında

şəxsi kabinetlər mövcuddur. Şəxsi kabinetlər Rektor, prorektorlar, kafedra müdirləri, tədris şöbəsi, tələbə şöbəsi, kadrlar şöbəsi, magistratura və doktorantura şöbəsi, müəllimlər, kitabxana, tələbələr və sair strukturlara və şəxslərə məxsusdur. Kənar şəxslər EMPRO sisteminə daxil ola bilməz və müdaxilə etmələri məhduddur.

EMPRO informasiya idarəetmə sistemində funksiyalar və giriş imkanları təyinatı üzrə müvafiq uyğun strukturlara məxsusdur. Yəni hər bir struktur vahidi və ya istifadəçi imtiyazlar üzrə proqramın funksiyalarından yararlana bilər.

### 5.4.2. İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

Universitetin informasiya sistemi tədris, elmi-tədqiqat fəaliyyətinin, beynəlxalq əlaqələrin informasiya menecmentini həyata keçirir. Universitetin informasiya idarəetmə sistemini əks etdirən proqramlar fəaliyyətin müxtəlif sahələrini əks etdirməklə, subyektlər tərəfindən əlçatandır. Yəni Rektor, prorektorlar, dekanlıq, kafedra müdirləri, müəllimlər, laborantlar, tyutorlar, tələbələr və sair subyektlər öz səhifələrində onlarla əlaqədar məlumatları alır və məlumatlar daxil edə bilirlər.

İstər “Elektron Universitet” proqramı, istərsə də “EMPRO” proqramında bir sıra funksiyalar mövcuddur ki, onlardan bəzilərini qeyd edirik:

- Auditoriya ballarının müəyyən edilməsi.
- İmtahan nəticələrinin emalı.
- Tələbələrin transkriptinin emalı.
- Müvafiq statistik hesabatların hazırlanması.
- Elektron kitabxana məhsullarının əlçatanlığı və sair.

Lakin “EMPRO” proqramı daha təkmil proqram olmaqla aşağıdakı funksiyaların tətbiqinə imkan verdi:

- Dərs cədvəllərinin tərtibatı.
- Elektron jurnalların emalı.
- Tələbənin fənn seçimi və sair.

### 5.4.3. İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

İnformasiya idarəetmə sisteminin tətbiqi və istifadəsi ilə əlaqədar əsas səlahiyyətverici funksiyaların icrasını proqramın admini tərəfindən həyata keçirilir. Bundan başqa yuxarıda qeyd etdiyimiz kimi rektor, prorektorlar, dekanlıq, kafedra müdirləri, müəllimlər, laborantlar, tyutorlar, tələbələr öz səhifələrində informasiya almaq, ötürmək və emal etmək səlahiyyətlərinə malikdirlər.

Dekanlıqlar idarə etdiyi ixtisas kafedraları üzrə, habelə tələbələr üzrə, kafedralar professor-müəllim heyəti üzrə müvafiq məlumatları almaq hüququna malikdirlər. Proqram zəruri statistik məlumatları emal etməklə, həmin göstəricilərin təyinatı üzrə müvafiq strukturlara əlçatanlığını təmin edir.

İnformasiya idarəetmə sistemində funksiyalar və giriş imkanları təyinatı üzrə müvafiq uyğun strukturlara məxsusdur. Yəni, hər bir struktur vahidi və ya istifadəçi imtiyazlar üzrə proqramın funksiyalarından yararlana bilər.

**5.4.4. Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti**

Universitet üzrə tədrisin rəqəmsallığını təmin etmək məqsədilə elektron informasiya sistemləri formalaşdırılmış, onlardan informasiya texnologiyaları vasitəsilə istifadə olunması imkanları təmin edilmişdir.

Tədris fəaliyyətinin rəqəmsallaşdırılması məqsədilə aşağıdakı işlər görülmüşdür:

- Bütün fəaliyyət strukturları kompüterləşdirilmişdir.
- Tədris auditoriyaları elektron lövhələrlə təchiz olunmuşdur.
- Kitabxana elektron-texniki vasitələrlə təchiz olunmuşdur.
- Elektron kitab resursları fondu yaradılmışdır.
- Mühazirə materialları elektronlaşdırılmışdır.
- Slayd bankı yaradılmışdır.

**5.4.5. İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi**

İnformasiya idarəetmə sistemi Admin, Rektor, dekanlıq, kafedralar, müəllimlər, tələbələr üçün əlçatandır. Admin imtiyazların təmin olunmasına və sistemin ümumi fəaliyyətinə nəzarət edir.

Prorektorların idarə etdiyi sahələrdən asılı olmayaraq imtiyazları eynidir. Yəni hər bir prorektor hesabatlar, inzibatçılıq, tədris planları, tədris illərinin qrafikləri, dərs cədvəlləri səhifəsinə daxil ola bilirlər.

Tədris şöbəsi tədris planlarını yaradır, tədris planlarına fənləri bağlayır, dərs yüklərini müəyyənləşdirir, fənn qrupları yarada bilir, fənn qruplarına müəllim və tələbələri bağlaya bilir, semestr dərs cədvəlini yaradır, cədvələ müvafiq dəyişikliklər edə bilir.

Dekanlıqlar fənn qrupları yarada bilir, tələbələrin davamiyyəti vəziyyətinə nəzarət edə bilir, onların akademik göstəriciləri ilə əlaqədar məlumatlar əldə edə bilir, dekanlıq üçün lazım olan statistik hesabatlardan yararlana bilirlər.

Kafedra müdirləri müəllimlərin elektron jurnalla bağlı funksiyalarına və elektron resurslardan istifadənin vəziyyətinə nəzarət edirlər.

Tələbə şöbəsi sistemə tələbələr haqqında məlumatlar daxil edə bilir. Akademik qruplar yarada bilir, həmin qruplara tələbələr daxil edə bilir, tələbələrin hərəkətinə dair əmrləri sistemə daxil edə bilir.

Kitabxana elektron kitabları yaradır və elektron fonda daxil edir, bunun əsasında elektron kataloqu formalaşdırır.

Tələbələr informasiya sistemlərindən elektron kitab, mühazirə materialları, slaydlar, ev tapşırıqları, kollokvium sualları, imtahan sualları, sillabuslar əldə etmək imkanına malikdirlər. Tələbələr həmçinin, dərsə davamiyyətləri, auditoriya balları, aralıq imtahanları barədə məlumatlar, orta müvəffəqiyyət göstəricisi, transkript əldə etmək imkanına malikdirlər.

**5.4.6. İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi**

İnformasiya idarəetmə sistemi universitetdə tədrisin rəqəmsallaşdırılmasına böyük töhfədir. Bu sistemin elektron jurnal bölməsi tələbələrin davamiyyət və auditoriya göstəricilərinin çevik qeydə alınması və onlara çatdırılması üçün əhəmiyyət kəsb edir. İnformasiya idarəetmə sistemi müəllimlərin tədris resurslarının saxlanılması və ötürülməsinin operativ icrasını təmin edir.

**5.4.7. İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi.**

Bakı Biznes Universitetinin informasiya idarəetmə sistemi qapalı sistemdir. Universitetin informasiya sisteminin digər qurumların informasiya sistemləri ilə birbaşa əlaqəsi yoxdur. İnformasiya idarəetmə sistemi digər aidiyyəti qurumlarla informasiya mübadiləsi üçün əhəmiyyətlidir. Bu sistem vasitəsilə məlumatları qruplaşdırıla, istənilən məqsədlər və təyinatlar üçün emal olunmaqla müvafiq qurumlara daha çevik formada ötürülə bilir.

Bakı Biznes Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dts.edu.az, Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi ilə informasiya mübadiləsi çərçivəsində birgə fəaliyyət göstərir. Universitetin informasiya idarəetmə sistemi həmin platformalar üçün informasiya emal edir.

**5.4.8. İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti**

İnformasiya idarəetmə sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün elektron təhlükəsizlik sistemlərindən istifadə olunur. Universitetin proqram təminatı İnformasiya idarəetmə sisteminə daxildir. Musayev Şahin Tofiq oğlu BBU-da sistemə məsul şəxs təyin edilmiş, sistemin təhlükəsizliyi isə Mahmudov Cahid Rəfail oğluna həvalə olunmuşdur.

## 5.5. İctimaiyyətlə əlaqələr

### 5.5.1. ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti.

Bakı Biznes Universitetinin https://bbu.edu.az elektron saytı mövcuddur. Həmin sayt universitet, tədris, elmi-tədqiqat, kitabxana, ictimai işlər, idman, beynəlxalq əlaqələr, elektron qeydiyyat menyusundan ibarətdir. Həmin menyular müvafiq olaraq alt menyulardan ibarət olaraq yuxarıda sadalanan istiqamətlər üzrə ictimaiyyətlə geniş və əhatəli informasiya mübadiləsinin həyata keçirilməsinə imkan verir. Bundan başqa saytın ana səhifəsində xəbərlər və fotoqalereya bölməsi mövcuddur.

### 5.5.2. ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

Universitetin saytında məlumatların şəffaflığı və aktuallığı təmin olunur. Saytda Universitet haqqında ictimaiyyəti maraqlandıran, tələbələri, valideynləri, əmək bazarının nümayəndələri üçün əhəmiyyət kəsb edən məlumatlar yerləşdirilir. Yuxarıda qeyd etdiyimiz kimi, saytın ana səhifəsində xəbərlər və fotoqalereya bölməsi mövcuddur. Saytın menyusu üzrə, xəbər və fotoqalereya məlumatları və təsvirləri admin tərəfindən daim yenilənir. Akademik hadisələr, innovasiyalar, tələbə qəbulu ilə əlaqədar informasiyalar dövri olaraq yenilənir və ictimaiyyətə təqdim olunur.

### 5.5.3. ATM-in ictimaiyyəti məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

İctimaiyyəti məlumatlandırmanın digər vasitələri kimi istifadə olunan informasiya vasitələrindən Universitetin mətbu orqanı olan “Audit” jurnalı və onun saytıdır. “Audit” jurnalında Universitetin professor-müəllim heyətinin, doktorantların elmi məqalələri dərc olunur. Bu jurnal Universitetin elmi potensialını əks etdirən bir mətbu orqanıdır.

“Audit” jurnalının rəsmi saytı jurnal haqqında, redaksiya heyəti, nəşr etikası, resenziya, müəlliflər üçün məlumat, “məqaləni təqdim et”, arxiv, əlaqə menyusundan ibarətdir. Jurnalın rəsmi saytı jurnal haqqında, habelə məqalələrin təqdim olunması və nəşr edilməsi qaydaları haqqında məlumatlar verir. “Audit” jurnalının rəsmi saytının arxiv bölməsində jurnalın indiyədək olan buraxılışları cəmləşdirilməklə, onların oxucular tərəfindən əlçatanlığı təmin olunur.

Bakı Biznes Universitetində tələbə qəbulu ilə əlaqədar təbliğat kompaniyası fəaliyyət göstərir ki, həmin kompaniya Universitet haqqında ictimaiyyətdə, xüsusən də abituriyent və valideynlərdə ətraflı bilgi yaradır.

**5.5.4. ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti**

Universitetin ictimaiyyəti məlumatlandırma fəaliyyətinin planlaşdırılması strateji inkişaf planında nəzərdə tutulmuşdur.

**5.5.5. ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti**

Universitetin məlumatlandırma fəaliyyəti maraqlı tərəflər üçün də əhəmiyyət kəsb edir. Çünki, Universitetin və "Audit" jurnalının rəsmi saytlarının əlçatanlığı müvafiq məlumatların əldə edilməsində maraqlı tərəflərin informasiya təminatı üçün imkan yaradır.

Əmək bazarının nümayəndələri, partnyor universitetlər, partnyor təşkilatlar, valideynlər, təcrübə müəssisələri əməkdaşlığın istiqamətlərindən dolayı Universitet haqqında məlumat almaq imkanına malikdirlər. Bu məqsədlə Universitet öz saytında, mətbu orqanında, təbliğat kampaniyası prosesində həmin subyektlər üçün müvafiq məlumatların yayılmasını həyata keçirir.

Maraqlı tərəflər onları maraqlandıran məsələlər barədə Universitetin və "Audit" jurnalının rəsmi saytının "Əlaqə" bölməsi vasitəsilə müraciətlər edə bilir və şərhlər yazmaq imkanına malikdirlər.

**5.5.6. ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti.**

Universitetin "Audit" jurnalının, Universitetin saytının və tələbə qəbulu kompaniyasının ümumi idarə edilməsi Universitetin rəhbərliyi tərəfindən həyata keçirilir. Məlumatlandırma fəaliyyətinin monitorinqi də Universitetin rəhbərliyi tərəfindən aparılır. Bu məqsədlə məlumatlandırma fəaliyyətinə məsuliyyət mərkəzləri üzrə müvafiq şəxslər, o cümlədən Elmi işlər üzrə prorektor "Audit" jurnalının nəşrinə nəzarət edir. Həmin strukturlar məlumatlandırma fəaliyyətini müşahidə etməklə, mövcud vəziyyət haqqında rəhbərliyi daim məlumatlandırırlar. Bu sahədə səmərəliliyin artırılması məqsədilə məlumatlandırma sahəsində təkmilləşdirilmənin artırılması məqsədilə təkliflər irəli sürürlər.

## 6. İnfrastruktur

### 6.1. Tədris infrastrukturu

**6.1.1. Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti.**

Bakı Biznes Universiteti Bakı şəhəri, Yasamal rayonu, H.Zərdabi prospekti 88a ünvanında dövlət standartlarına və müasir tələblərə cavab verən ümumi sahəsi 9672,3 $m^2$ olan 4 tədris korpuslu binada yerləşir. Onun faydalı sahəsi 5677,6 $m^2$ təşkil edir. Burada 432 $m^2$ sahəsi

olan kitabxana, 785 $m^2$ sahəsi olan yeməkxana, 284,1 $m^2$ sahəsi olan akt zalı, 388 $m^2$ sahəsi olan idman zalı, 171,45 $m^2$ sahəsi olan iaşə xidməti mövcuddur. Universitetdə kifayət qədər nəşr avadanlıqları olan mətbəə fəaliyyət göstərir. Mühazirə, məşğələ, laboratoriya dərsləri üçün nəzərdə tutulmuş və xüsusi təyinatlı auditoriyaların sahəsi 3346 $m^2$ təşkil edir. Bu göstəricilər Bakı Biznes Universitetində ikinövbəli tədris prosesində ali təhsil müəssisəsinin fəaliyyətinin statusuna uyğunluğunu müəyyənləşdirən meyarlardan artıqdır və lazımi tələblərə tam cavab verir. BBU-da hər təhsilalana düşən faktiki sahə (bir növbədə 1369 tələbəyə) 7,1 $m^2$ təşkil edir ki, onun da faydalı sahəsi 4,1 $m^2$ olmaqla normativlərə tam uyğundur. Eyni zamanda, Universitetin həyətində 800 $m^2$-lik yaşıllıq olan istirahət sahəsi də əməkdaşların və tələbələrin istifadəsinə verilmişdir. Universitetin ərazisində müstəqil istilik sistemi, transformator, nasosxana, müstəqil su ehtiyat hovuzu, anbar binası, qaraj, 100 avtomobillik dayanacaq mövcuddur.

Bakı Biznes Universitetində inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 24 (ümumi sahəsi 883,7 $m^2$), akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 9 (ümumi sahəsi 337,4 $m^2$) otaq təşkil edir.

**6.1.2. Kitabxananın mövcudluğu vəziyyəti.**

Bakı Biznes Universitetinin aparıcı struktur bölmələrindən biri də kitabxanadır. Kitabxana – təlim-tərbiyə və elmi-tədqiqat prosesini tədris, elmi, metodiki ədəbiyyatla və informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən mənəvi və intellektual əlaqələrin yayılması mərkəzidir.

Kitabxananın faydalı sahəsi 432 $m^2$-dir. Oxucuların informasiya tələbatına uyğun kitabxana fondu ənənəvi çap məhsulu ilə yanaşı, elektron resurslarla formalaşdırılıb, elektron kataloqu təkmilləşdirilib. İnformasiya mədəniyyətini inkişaf etdirməklə bərabər, oxucu-istifadəçilərə kitabxananın elektron kitabxanasından, yeni texnologiyalardan istifadə etmək bacarığı aşılanıb. Eyni zamanda Universitetin I korpusunun mansardanda ümumi sahəsi 714 $m^2$ olan «Bookcafe» tipli kitabxananın yaradılması layihələndirilib və 2024-2028 illəri əhatə edən Strateji inkişaf planında icrası nəzərdə tutulub.

2022-ci ildən etibarən Bakı Biznes Universitetinin kitabxanası Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) üzvü olmuşdur, Az. KİK beynəlxalq Electronic Information for Libraries (EİFL.net) konsorsiumun üzvüdür. Bu əməkdaşlıq çərçivəsində Bakı Biznes Universitetinin professor-müəllim və tələbə heyəti EBSCO Host bazasına daxil olub 8516-ı resenziyalı olmaqla 11000 jurnalın, 2700-dən artıq kitab və broşürlər, 510 adda qəzet və s. mənbələrdən elektron formada istifadə imkanından yararlana bilirlər.

Kitabxanada hal-hazırda 4 nəfər ali təhsilli mütəxəssis çalışır.

Kitabxananın fəaliyyəti Universitetin kafedraları, elmi ictimaiyyət və ictimai təşkilatlarla əlaqələndirilir. Tələbələrin rahat istifadəsi üçün kitabxana müasir tələblərə uyğun 36 noutbuk,

yüksəksürətli skaner aparatı və surətçıxaran aparatla təchiz olunmuşdur.

Kitabxananın fondu Azərbaycan, rus, və ingilis dillərində olan ədəbiyyatlarla, dövri nəşrlərlə (qəzet və jurnal) komplektləşdirilmişdir. İl boyu kitabxanaya dərslik, dərs vəsaitləri, tədris-metodik vəsaitlər, monoqrafiyalar, ictimai-siyasi jurnallar və qəzet alınmışdır. Hal-hazırda 9 adda qəzet alınır. İxtisaslaşmış geniş fonda malik olan kitabxananın fondu 253526 nüsxə təşkil edir və açıq rəf üslubunda tərtib olunmuşdur. Azərbaycan dilində – 245180 nüsxə, ingilis dilində – 4778 nüsxə, rus dilində – 3568 nüsxə ədəbiyyat mövcuddur. Kitabxanada həmçinin tədris olunan bütün fənlər üzrə kafedraların professor-müəllim heyəti tərəfindən tərtib edilmiş mühazirə mətnləri çap edilmiş və cildlənmiş şəkildə toplanmışdır. Həmin materiallardan da tələbələr tərəfindən yetərincə istifadə olunur.

Son 7 ildə kitabxananın fonduna 31391 kitab daxil olmuşdur. Onlardan 10765 dərslik, 13209 dərs vəsaiti, 1875 monoqrafiya, 1616 bədii ədəbiyyat olmuşdur. Kitabxanada fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiyalarından yaradılan və 231 nüsxədən ibarət dissertasiya fondu professor-müəllim heyəti, doktorantların və magistrantların ixtiyarına verilmişdir.

Hal-hazırda kitabxananın oxucularının sayı 2348 nəfərdir ki, onlardan 178 nəfər akademik heyət, 2370 nəfəri isə tələbələrdir.

**6.1.3. Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti.**

Universitetdə mövcud ixtisaslar üçün uyğunlaşdırılmış auditoriyalar, laboratoriyalar, 11 linqafon kabinetləri, lazımi avadanlıqlarla təchiz olunmuş və tələbələrin istifadəsinə verilmişdir. Tədris prosesinin normal gedişatını təmin etmək məqsədilə İKT vasitələri ilə ixtisas fənlərinin tədrisi müasir tələblər səviyyəsində yerinə yetirilir və kompüter otaqları ən müasir texniki avadanlıqlarla təmin edilmişdir. 2022/2023-cü tədris ilindən başlayaraq auditoriyalarda mövcud kompüterlər və proyektorlar daha müasir tələblərə cavab verən ağıllı lövhələrlə (65” və 75” ölçüdə) əvəz edilmişdir. Tədris auditoriyalarının hamısında internet şəbəkəsinə kabelli çıxışı olan ağıllı lövhələr quraşdırılmış və tədrisin aparılması üçün yüksək şərait yaradılmışdır. Həmçinin hər birində 15 müasir tipli kompüterlər və ağıllı lövhələrlə təchiz olunmuş 6 kompüter otaqları mövcuddur.

**6.1.4. Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti.**

Universitetdə hər bir kafedranın spesifikliyinə uyğun və ixtisaslar üzrə təlim prosesinin həyata keçirilməsinə xidmət edən laboratoriyaları mövcuddur. Ümumilikdə laboratoriyaların sayı 8-dir, onların da ümumi sahəsi 319,8 $m^2$ təşkil edir. Həmçinin tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə hər birində 15 müasir tipli kompüterlər və ağıllı lövhə ilə təchiz olunmuş 6 kompüter laboratoriyası təşkil olunmuşdur.

**6.1.5. İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti.**

Hazırda ali təhsil müəssisələri tərəfindən hazırlanan kadrların nəzəri biliklərlə yanaşı praktiki bacarıqların da əldə edilməsi mühüm amil hesab edilir. Bu istiqamətdə tələbələrin əmək bazarının müasir tələblərinə uyğun hazırlanması və məzunların işlə təmin olunma səviyyəsinin yüksəldilməsi Bakı Biznes Universitetinin Strateji İnkişaf Planı və keyfiyyət siyasətinin əsas hədəflərindən biridir. Bunu nəzərə alaraq Bakı Biznes Universiteti tələbələrinin təcrübə və karyera istiqamətində fəaliyyətlərinin məqsədyönlü və faydalı təşkili üçün tərəf müqabillərin və təşkilatların düzgün seçiminə xüsusi önəm verir. Bu məqsədlə əmək bazarının aparıcı dövlət və özəl qurumları ilə əməkdaşlıq edilir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, həmçinin onun tabeli qurumları, Kənd Təsərrüfatı Nazirliyi, həmçinin onun tabeli qurumları, Yasamal rayon İcra Hakimiyyəti, Yasamal Bələdiyyəsi, Səbail Bələdiyyəsi, Azərbaycan Dəmir Yolları, Azərpoçt, Aztelekom, Rabitə Bank, Turan Bank, Access Bank, Bank Avrasiya, Muğan Bank, Yapı Kredi Bank Azərbaycan, Ziraat Bank Azərbaycan, Kapital Bank, Bank of Baku, Yelo Bank, Expressbank, UniBank, Avrora, Veysəloğlu, OBA Marketlər Şəbəkəsi, Embawood, Şəms Tərcümə Xidmətləri, Raise Telecom Consulting, Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi, Global Marketinq Agency, Psixi Sağlamlıq Mərkəzi, Atəşgah sığorta, SOS uşaq kəndi, EL-Babatürk MMC və s. kimi bütün ixtisaslarımızı əhatə edən müəssisələrlə ikitərəfli müqavilələr əsasında əməkdaşlıq edilir.

**6.1.6. ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti.**

Universitetin auditoriyaları tədrisin həm əyani, həm də distant təşkilinə imkan verən müasir texniki avadanlıqlarla təchiz edilmişdir. Bu otaqlar distant təhsilin təşkili üçün kompüter, ağıllı lövhə ilə təchiz olunmuşdur. Universitetdə distant təhsil xüsusilə Covid-19 pandemiyası dövründə daha aktual olmuşdur. Bu dövrdə «ZOOM» platformasından istifadə edilərək bütün dərslər tam dəqiqliklə tədris edilmiş və hər gün tədris prosesinin gedişatı monitorinq edilmişdir. Distant təhsilin aparılması üçün universitetin kompüter avadanlıqlarının müvafiq cihazlarla təmin edilməsinə xüsusi diqqət yetirilir (mikrofonlar, spikerlər, kameralar və s.). İstifadədə olunan bütün elektron cihazların yüksəksurətli kanalla (200 Mb/s) internetə çıxışı təmin edilmişdir. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

**6.1.7. Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti.**

BBU-nun yerləşdiyi ərazidə təhsil-alanların, professor-müəllim və inzibati heyətin, o cümlədən qonaqların Universitetə gəlməsi üçün ictimai nəqliyyat tam əlçatandır. Eyni zamanda, Universitetin balansında bir sıra tədbirlərdə istifadə olunması üçün professor-müəllim heyəti və digər əməkdaşların istifadəsində 6 ədəd minik avtomobil vardır. Həmçinin qonaqların qarşılanması və təsərrüfat-təchizat işlərinin görülməsi üçün 2 yük avtomobili və 1 mikroavtobus fəaliyyət göstərir. Balansda olan nəqliyyat vasitələri aşağıdakılardır:

1. Mercedes E350 – 10-AS-599 – minik avtomobili;
2. Mercedes ML350 – 90-AS-599 – minik avtomobili;
3. Mercedes Sprinter 513 – 99-JF-511 – yük avtomobili;
4. Mercedes C230 – 90-AR-406 – minik avtomobili;
5. Mercedes C300 – 90-AS-596 – minik avtomobili;
6. Toyota Camry – 90-AS-588 – minik avtomobili;
7. Opel Astra – 10-PD-633 – minik avtomobili;
8. Volkswagen Caravella – 99-AL-588 – mikroavtobus;
9. QAZ 33021 – 10-JH-929 – yük avtomobili.

**6.1.8. Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti.**

Universitetdə mövcud tədris infrastrukturundan istifadə professor-müəllim heyəti və təhsilalanlar üçün əlçatandır. Belə ki, müvafiq sayda auditoriyalar, kompüter otaqlar, linqafon otaqları, laboratoriyalar və tədris otaqları, kabinetlər, kafedra otaqları, eyni zamanda fasiləsiz fəaliyyət göstərən elektron kitabxana (lib.bbu.edu.az) daim istifadədədir. Bakı Biznes Universiteti və «SİNAM MMC» arasında elektron tədrisin idarəolunma sisteminin (bbu.empro.az) tətbiqi ilə bağlı 31.01.2022-ci il tarixli müqavilə imzalanmışdır. EMPRO elektron təhsil sistemində təhsilalanlar və akademik heyətin məlumatları, tədris-metodiki materiallar, qiymətləndirmə sistemi, müxtəlif hesabatlar mövcuddur. EMPRO proqram təminatı vasitəsilə hər bir istifadəçinin şəxsi kabinetləri fəaliyyət göstərir ki, bunlar «onlayn» giriş üçün daim əlçatandır. Elektron təhsil sistemində müəllimlərin qiymətləndirilməsi, tədris vəsaitlərinin yerləşdirilməsi, tələbələrin davamiyyəti, aldığı qiymətlər kimi proseslərə nəzarət edilir.

**6.1.9. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti.**

Universitetdə sağlamlıq imkanları məhdud tələbələr üçün «onlayn» formada təhsilalma imkanları mövcuddur. Bu kateqoriyaya aid tələbələr üçün dərs cədvəli qurulan zaman üstünlük Universitetin aşağı mərtəbələrində yerləşən auditoriyalara verilir. Eyni zamanda, sağlamlıq imkanları məhdud şəxslərin universitetin binasına daxil olması üçün xüsusi texnoloji avadanlıq quraşdırılmışdır. Təhsilin inklüzivliyinin təmin olunması məqsədilə tədris prosesi interaktiv üsullarla həyata keçirilir və bu da eşitmə və görmə zəifliyi olan tələbələr üçün məqsədəuyğundur.

**6.1.10. Yeməkxanaların mövcudluğu vəziyyəti.**

Universitetin əməkdaşları və təhsilalanlar üçün ümumi sahəsi 785 $m^2$ olan yeməkxanalar mövcuddur. Əməkdaşların və təhsilalanların sağlam qidalanması üçün yeməkxanada lazımi şərait yaradılmış və mütəmadi olaraq universitet rəhbərliyi tərəfindən yoxlamalar keçirilir. Yeməkxanada fəaliyyət göstərən işçilər hər 6 aydan bir tibbi yoxlamalardan keçirilir və sağlamlıq arayışı əsasında fəaliyyətlərini davam etdirirlər. Yeməkxanalarda mövcud olan qida qəbulu zalı, mətbəx, bufet yardımçı otaqlar sanitar normalara cavab verir. Müasir tələblərə

cavab verən yeməkxanada eyni vaxtda 400-dən çox tələbə və professor-müəllim heyətinə xidmət göstərən qidalanma üçün nəzərdə tutulan zallar istifadəyə verilib. Eyni zamanda Universitetin II korpusunun mansardanda ümumi sahəsi 679 $m^2$ olan yeməkxananın yaradılması layihələndirilib və 2024-2028 illəri əhatə edən Strateji inkişaf planında icrası nəzərdə tutulub.

**6.1.11. Yataqxanaların mövcudluğu vəziyyəti.**

Bakı Biznes Universitetinə Rahim FS firması tərəfindən balansında olan 2-ci Alatava-2 ünvanında yerləşən binada tələbələr tərəfindən yataqxana kimi istifadə olunması məqsədilə müvafiq yer ayrılmışdır. Yataqxana üçün sahə tələbələrin müraciətlərinə əsasən ayrılır.

**6.1.12. Tibbi xidmətin mövcudluğu vəziyyəti.**

Universitetdə ümumi sahəsi 48 $m^2$ olan tibb məntəqəsi mövcuddur. Burada 2 nəfər tibb personalı (həkim və tibb bacısı) zərurət yarandıqda əməkdaşlara və təhsilalanlara ödənişsiz ilkin tibbi yardım göstərirlər. Universitet tərəfindən tibbi xidmət üçün zəruri bütün dərman və ləvazimatlar mütəmadi olaraq təmin olunur. Eyni zamanda tibb personalı tərəfindən iaşə xidməti və sanitar qovşaqlarının mövcud standart və normalara uyğunluğu daim yoxlanılır. Təhsilalanlar arasında mütəmadi olaraq xəstəliklərdən qorunma və sağlam həyat tərzi mövzularında maarifləndirici işlər aparılır. Eyni zamanda təhsilalanlara psixoloji dəstək məqsədilə Universitetin psixoloq əməkdaşı tərəfindən müvafiq xidmət göstərilir.

**6.1.13. İT xidmətinin mövcudluğu vəziyyəti.**

Universitetdə Kompüter mərkəzinin nəzarətində olan kompüter otaqları mövcuddur, professor-müəllim, inzibati heyət və təhsilalanlar tərəfindən istifadəsində əlçatanlıq təmin olunur. Eyni zamanda 01.04.2022-ci il tarixli xidmət müqaviləsinə əsasən İT sahəsində dəstək xidmətləri göstərilir. İKT əməkdaşları tərəfindən ayda 2 dəfə universitetdə internet şəbəkəsinin monitorinqi keçirilir və texniki sazlıqla bağlı müvafiq sənəd təqdim edilir. Eyni zamanda, şəbəkə və avadanlıqların, serverlərin təhlükəsizliyi, proqram təminatının yenilənməsi, verilənlər bazasının surətlərinin saxlanılması və digər xidmətlər göstərilir. Bundan əlavə, EMPRO elektron tədris proqram təminatının Universitetdə tətbiqi ilə əlaqədar bağlanmış 31.01.2022-ci il tarixli müqaviləyə əsasən hər ay «SİNAM MMC»-nin əməkdaşları tərəfindən proqram təminatına texniki dəstək xidməti göstərilir.

Tədrisin səmərəli təşkili üçün ağıllı lövhələrlə təmin edilmiş auditoriyalar, elektron tədrisin idarəolunma sisteminin fasiləsiz işini və internet şəbəkəsinə çıxışını təmin edən lokal serverlər tələbə sayına uyğundur. Bütün mövcud kompüterlərin və ağıllı lövhələrin yüksəksürətli (200 Mb/s) internetə çıxışı təmin olunmuşdur. Lokal şəbəkə ilə yanaşı, Universitetdə simsiz (Wi-Fi) şəbəkə də quraşdırılmış və istifadəyə verilmişdir.

Bbu.edu.az domenində bir sıra şöbələr üçün korporativ elektron poçt ünvanları yaradılmışdır:

info@bbu.edu.az, cid@bbu.edu.az, rektor@bbu.edu.az, relation@bbu.edu.az, audit.journal@bbu.edu. az.

Eyni zamanda professor-müəllim heyəti üçün də korporativ elektron poçt ünvanları yaradılmış və istifadələrinə verilmişdir.

Rəqəmsallaşma və IV sənaye inqilabı dövründə məlumatların rahat şəkildə əldə edilməsi və aktual olması çox vacibdir. Təhsilalanların, abituriyentlərin və maraqlı tərəflərin Universitetin həyatında gedən proseslərdən xəbərdar olması üçün universitetin rəsmi internet səhifəsi (www.bbu.edu.az) yaradılmış və istifadədədir.

**6.1.14. Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti.**

Tədris infrastrukturunun istifadəsinin və istifadəyə yararlılığının monitorinqi müvafiq şöbələr tərəfindən aparılır («Tədris» şöbəsi, «Təsərrüfat» şöbəsi, Kompüter mərkəzi). Universitetin tədris binalarında aparılan təmir-tikinti işlərinin icra olunmasının keyfiyyətinə, auditoriyada işıqlandırma sisteminə, istilik sisteminə, sanitar qovşaqlarının normal işləməsinə, struktur bölmələrinin iş otaqlarının, auditoriyaların zəruri inventar və mebellə təchiz edilməsinə, onların mühafizəsinə və vaxtında təmir olunmasına daim nəzarət edilir. Eyni zamanda mühasibatlıq tərəfindən hər il inventarizasiya həyata keçirilir və müvafiq aktlarda öz əksini tapır (sonuncu inventarlaşma 28.11.2022-ci il tarixli 274 №-li əmr).

**6.2. Elmi-tədqiqat infrastrukturu**

**6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti.**

Bakı Biznes Universitetinin 93 $m^2$ sahəsi olan «Elmi-tədqiqat və innovasiya mərkəzi» fəaliyyət göstərir. Bu mərkəzdə Universitetin elmi-tədqiqat və innovasiyalar üzrə işlərin təşkili və koordinasiyası həyata keçirilir.

Mərkəzin fəaliyyətinin əsas istiqamətləri kimi aşağıdakıları qeyd etmək olar:

- Bakı Biznes Universitetinin Strateji inkişaf planına uyğun olaraq elmi-tədqiqat proqramlarının həyata keçirilməsi, professor-müəllim heyətinin elmi tədqiqatlarının, innovasiyaların səmərəliliyinin artırılması və kafedraların elmi-tədqiqat fəaliyyətinin təşviq edilməsi;
- «Doktorantura və magistratura şöbəsi» ilə birlikdə yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanması sahəsində fəaliyyəti həyata keçirmək;
- Azərbaycan iqtisadiyyatının aktual problemləri olan dayanıqlı inkişaf, sosial və regional inkişafın sürətləndirilməsi, ölkənin iqtisadi əlaqələrinin qiymətləndirilməsi, sosial tədqiqatlar və araşdırmalar, milli iqtisadi inkişafın proqnozlaşdırılması və s. bu kimi istiqamətlərdə fəaliyyətin həyata keçirilməsi.

Eyni zamanda «Elmi-tədqiqat və innovasiya mərkəzi»ndə Bakı Biznes Universitetinin Respublika və beynəlxalq səviyyədə elmi-praktiki konfransları təşkil olunur, doktorantura səviyyəsində gənc alimlərin və doktorantların elmi işlərinin müzakirəsi, seminarları və müdafiələri təşkil olunur.

Mərkəz ağıllı lövhə, noutbuklar, səsgücləndirmə və tərcümə avadanlıqları və digər müvafiq avadanlıqlarla təchiz edilmişdir.

**6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti.**

Universitetdə müvafiq ixtisaslar üzrə tədris standartlarında nəzərdə tutulan ixtisasyönümlü fənlərin laboratoriya dərslərinin aparılması üçün müasir standartlara cavab verən 8 tədris-metodiki laboratoriyalar fəaliyyət göstərir. Kafedralar tərəfindən aparılan elmi tədqiqatların müzakirəsi və tədqiqat nəticələrinin maraqlı tərəflər (akademik heyət, sənaye nümayəndələri və s.) üçün təqdim edilməsinə imkan verən, müvafiq texniki baza ilə (kompüter və ağıllı lövhələrlə) təchiz edilmiş laboratoriyalar vardır.

## 7. Beynəlmiləlləşmə

### 7.1 Beynəlmiləlləşmə siyasəti

#### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğunun vəziyyəti

Bakı Biznes Universitetinin Elmi Şurasının 27 dekabr 2018-ci il tarixli iclasının qərarına əsasən təsdiq olunmuş Strateji inkişaf planına uyğun olaraq Bakı Biznes Universitetinin Beynəlmiləlləşmə siyasəti də yenilənmişdir.

BBU-nun Beynəlmiləlləşmə siyasəti Universitetin Strateji İnkişaf Planının 6-cı istiqamətini özündə ehtiva edir.

Bakı Biznes Universitetinin beynəlmiləlləşmə siyasəti tələbələri, akademik və inzibati heyəti beynəlxalq mühitə hazırlamaq, akademik azadlığı, tolerantlığı, müxtəlifliyi, akademik və şəxsi inkişafı hər zaman ön planda tutaraq birlikdə öyrənmə, bilik istehsal etmə, əldə edilən bilikləri bölüşmək, cəmiyyətə dəyər qatmaq və ümumbəşəri dəyərləri özündə birləşdirmək məqsədi daşıyır.

#### 7.1.2. Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

BBU akademik və inzibati heyətin mübadiləsi, eyni zamanda tələbə mübadiləsi sahəsində Azərbaycan universitetləri arasında ən qabaqcıl universitetlərdən biridir və hər il bu sayın artırılmasına xüsusi diqqət yetirir. Mübadilə proqramlarında iştirak universitetin beynəlmiləlləşmə strategiyasının əsas hədəflərindəndir. Belə ki, bu strateji yanaşma, BBU-nun yerli və beynəlxalq səviyyədə əməkdaşlıq və birgə fəaliyyət imkanlarını genişləndirməyi, beynəlxalq təhsil və tədqiqat şəbəkəsində daha aktiv və rəqabətçi rol oynamağı hədəfləyir. Mübadilə proqramları Erasmus+ KA1, Mövlana, Spinaker və s. kimi müxtəlif beynəlxalq proqramlarda iştirak, eyni zamanda universitetlərarası imzalanmış ikitərəfli əməkdaşlıq müqavilələri əsasında

həyata keçirilir. Bu hədəf beynəlmiləlləşmə siyasətinin 3-cü bəndində öz əksini tapmışdır. Akademik heyətin mübadilə proqramlarında iştirakı xüsusilə qrant proqramlar çərçivəsində həyata keçirilir. Kafedralarla müzakirələr edilərək akademik heyətin mübadilə ehtiyacları müəyyənləşdirilir və sahə üzrə beynəlxalq tərəfdaşlarımızla mübadilə proqramlarında iştirak imkanları təhlil edilir. Hər il ehtiyaclara uyğun olaraq, xüsusilə Avropa mübadilə proqramlarında universitetin iştirakı təmin edilir. Beynəlxalq proqramlar vasitəsilə əldə edilən maliyyə dəstəyi, müəllimlərin iştirak sayını daha da artırır. Mübadilə proqramlarında iştirak və bunun kariyera inkişafına təsirləri haqqında məlumatlandırma sessiyaları və təlimlər təşkil edilir. Bu sessiyalar, mübadilə imkanları, müraciət prosesləri və proqramların faydaları haqqın-da ətraflı məlumatın əldə olunmasına imkan yaradır. Mübadilə proqramlarına qatılan akademik heyətin iş həcmi və dərs saatları uyğun şəkildə tənzimlənir. Bu, onların mübadilə proqramlarına qoşulmasını asanlaşdırır. Akademik heyətin fərdi və peşəkar inkişaf planlarına mübadilə proqramlarının daxil edilməsi və differensiallaşdırılmış məvacib sistemində mübadilənin xüsusi çəkisi bu imkanlardan faydalanmalarını təşviq edir.

Proqramların tələbə üçün əlçatanlığını təmin etmək məqsədilə universitetdə məlumatlandırma günləri təşkil olunur, tələbələrə proqramlar haqqında ətraflı məlumat verilir. Universitetimizin tələbələri üçün mübadilə proqramlarında iştirak etmiş tələbələrin iştirakı ilə məlumatlandırma görüşləri təşkil edilir. Görüşlərin məqsədi mübadilə proqramında təhsil almış tələbələrin bu müddətdə əldə etdikləri təcrübələri tələbələrlə bölüşməkdir. Bu görüşlərin keçirilməsi digər tələbələrin də mübadilə proqramlarına qoşulmasına, eyni zamanda xaricdə təhsil haqqında daha çox məlumat almasına kömək edir. Mübadiləyə qoşulmuş tələbələrin qarşılaşdıqları problemlərin tez bir zamanda aradan qaldırılması üçün mütəmadi görüşlər keçirilir.

### 7.1.3. Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti

Universitetimizdə əcnəbi tələbələrin qəbulu prosesinə əsasən 2019-cu ildən başlanılmışdır. Əcnəbilərin qəbulu prosesini daha da asanlaşdırmaq üçün müvafiq sənədlər Təhsil Nazirliyinə təqdim olunmuş və nazirliyi rəsmi razılığı əsasında Bakı Biznes Universitetində 24 dekabr 2019-cu il tarixdən əcnəbilər üçün hazırlıq kursu açılmışdır. Universitetimizdə Koreya, Türkiyə Respublikası, Gürcüstan, Yunanıstan, Türkmənistan, Iran, Banqladeş, Liviya, Nigeriya, Kot-d'İvuar Respublikası, Kamerun və Pakistan İslam Respublikasından olan tələbələr təhsil alırlar. Məqsədimiz gələcək illərdə keyfiyyəti saxlamaqla əcnəbi tələbələrin sayını artırmaqdır.

Əcnəbi tələbələrin BBU-da təhsil alması məqsədilə bir sıra təşviqat xarakterli fəaliyyətlər icra olunmuşdur. Belə ki, universitetin rəsmi web səhifəsi ingilis dilinə tərcümə olunaraq bütün məlumatların ingilis dilində tələbələrə əlçatanlığı təmin edilmişdir. Bu, onların universitet haqqında məlumat əldə etməsini və tələbə həyatı ilə bağlı məlumatlara rahatlıqla çatmasını

asanlaşdırır. Ehtiyacdan asılı olaraq ingilis dilində tədris olunan proqramlar açılmış və rəsmi səhifədə proqramlar haqqında məlumat yerləşdirilmişdir. Əcnəbi tələbələrin sayının artırılması məqsədi ilə beynəlxalq tələbə agentlikləri ilə müqavilələr imzalanmışdır. Əcnəbi tələbələrin dil ehtiyaclarını nəzərə alaraq hazırlıq kursları təşkil edilmişdir.

Əcnəbi tələbələrlə iş üzrə 2024-2025-ci tədris il üzrə qarşıya qoyulmuş hədəf əcnəbi tələbələrə dəstək sisteminin təkmilləşdirilməsi, universitetdaxili əcnəbi tələbə birliyinin yaradılması, əcnəbi tələbələrin tələbə təşkilatlarında və universitetin sosial-ictimai həyatında iştiraklarının artırılmasına yönəlmişdir. Əcnəbi tələbələrin universitetin sosial-ictimai həyatında daha aktiv iştirak etmələrinə şərait yaradılması, onların universitet cəmiyyətinə inteqrasiyasını gücləndirir və digər əcnəbi tələbələrin cəlb olunmasına müsbət təsir göstərir.




**7.1.4. Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti**

Universitetimizdə tələblərin mübadiləsi ilə birgə beynəlxalq proqramlar çərçivəsində akademik və inzibati heyətin mübadiləsi həyata keçirlimşdir. Mübadilədə iştirak edən heyətlə görüşlər keçirilir əldə etdikləri təcrübənin tələbə və müəllimlər arasında paylanılması məsələləri müzakirə olunur. Eyni zamanda akademik heyətin peşəkarlığının artırılması sahəsində yerli və xarici ekspertlər tərəfindən müxtəlif sahələri özündə ehtiva edən mütəmadi təlimlər təşkil olunur.

**7.1.5. Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti**

Bakı Biznes Universitetinin beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti, elmi potensialın gücləndirilməsi və beynəlxalq tədqiqat mühitinə inteqrasiya edilməsi istiqamətində strateji hədəfləri əhatə edir. Universitetin bu sahədə qarşıya qoyduğu hədəflər arasında beynəlxalq konfransların təşkil edilməsi, ortaq tədqiqat işlərinin həyata keçirilməsi və elmi məqalələrin beynəlxalq bazalarda dərc edilməsi yer alır.

Universitetin əsas məqsədi, beynəlxalq əməkdaşlıq etdiyi universitetlərdən əldə edilən təcrübələrin öyrənilməsi və bu təcrübənin BBU-nun elmi fəaliyyətlərində tətbiq edilməsidir. Bu amala nail olmaq üçün BBU, hər il müntəzəm olaraq beynəlxalq konfranslar, seminarlar və

forumlar təşkil edir, bu tədbirlər elmi əməkdaşlıqları inkişaf etdirmək və tədqiqatçılar arasında bilik və təcrübə mübadiləsini təşviq etmək məqsədi daşıyır.

Bununla yanaşı, Mingəçevir Dövlət Universiteti ilə əməkdaşlıqda həyata keçirilən «ENGAGE» layihəsi kimi təşəbbüslər, universitetlərdə elmin kommersiyalaşdırılması və ali təhsil müəssisələrində elmi və innovasiya mühitinin gücləndirilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. Layihə, elmi potensialın və sahibkarlıq ekosisteminin inkişafı üzərinə fokuslanır və beynəlxalq təcrübələrin öyrənilməsi ilə yerli universitetlərin gücləndirilməsini hədəfləyir. Avropa universitetlərinin bu sahədəki təcrübələri əsas sayılaraq, universitet nümayəndələri üçün təlimlər və işçi qruplarının təşkil edilməsi də bu strategiyanın bir parçasıdır.

Universitetin beynəlxalq tədqiqatçılara yönəlmiş siyasəti, BBU-nun beynəlxalq təhsil və tədqiqat aləmindəki rolunu və nüfuzunu artırmağa və universitetin elmi inkişafına töhfə verməyə hədəflənmişdir.

**7.1.6. Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

Bakı Biznes Universitetinin Beynəlmiləlləşmə Strategiyasının 3-cü məqsədinə uyğun olaraq Universitetin Beynəlxalq təhsil təşkilatları ilə əməkdaşlığına xüsusi əhəmiyyət verilməkdədir. Hesabat dövründə Bakı Biznes Universiteti EACEA – Avropa Təhsil və Mədəniyyət İcraçı Agentliyi, Sİ – İsveç İnstitutu, DAAD – Almaniya Akademik Mübadilə proqramı, Polşa Milli Akademik Agentliyi tərəfindən maliyyələşdirilən akademik layihələrdə iştirak etmişdir.

Bakı Biznes Universiteti 2017-ci ildən 2023-cü ilədək Ali Təhsilin inkişafı sahəsində ümumilikdə 4 milyon 810 min manat dəyərində büdcəsi olan 3 böyük Erasmus plus layihəsinin müəllifi olmuşdur. 3 layihə ümumilikdə 23 yerli universiteti əhatə etmişdir. Bakı Biznes Universiteti 2017-2022-ci illər arasında Avropa layihələrini koordinator olaraq idarə edən yeganə universitet olmuşdur.  Bir sıra universitetlərin ilk dəfə beynəlxalq layihələrdə iştirakını təmin etməklə yanaşı, Ali təhsil inkişafı sahəsində milli, insitusional və individual səviyyələrdə əsaslı töhfə vermişdir. 2017-ci ildə qrant əldə etmiş «Azərbaycan universitetlərində Keyfiyyət təminatı sisteminin yaradılması və inkişaf etdirilməsi» EQAC layihəsi,  2020-ci ildə qrant əldə etmiş «Azərbaycan Rektorlar Konfransının yaradılması layihəsi», 2022-ci ildə qrant əldə etmiş «Azərbaycan Ali Təhsilində sahibkarlıq ekosisteminin inkişaf etdirilməsi» ENGAGE layihələri təhsilin keyfiyyətinin yüksəldilməsi, tədqiqat və təkmilləşdirmə fəaliyyətinin gücləndirilməsi, universitetlərin sosial və iqtisadi inkişafa töhfələrinin artırılması kimi məsələlərin həllinə yönəlmişdir. Xüsusilə ECAR layihəsi milli kontekstdə universitetlərarası əməkdaşlığı və şəbəkələşməni inkişaf etdirməklə, ali təhsil müəssisələri arasında mühüm məsələlərin müzakirəsi, bilik və təcrübənin paylaşılması, sahələr üzrə fəaliyyətlərin təşkili və qarşılıqlı dəstək mədəniyyətinin inkişaf etdirilməsi yolu ilə ölkənin ali təhsil sektorunun keyfiyyət və effektivliyinin

artırılmasına töhfə verməkdədir.

2017-ci il tarixində Bakı Biznes Universiteti ilk dəfə olaraq Erasmus+ proqramı çərçivəsində Ali Təhsildə Potensialın Gücləndirilməsi profilinə (KA2) uyğun olaraq «Azərbaycan Universitetlərində Keyfiyyət Təminat Mərkəzlərinin Yaradılması və İnkişaf Etdirilməsi (EQAC)» adlı layihə işləyib Avropa Komissiyasına təqdim etmiş , müsabiqədə qalib gələrək təqribən 893137 avro büdcə əldə etmişdir. Qeyd edək ki, layihə 2017-ci ildə Avropa Komissiyası tərəfindən maliyyələşən Bakı Biznes Universitetinin koordinatorluğu ilə icra edilən EQAC layihəsi keyfiyyət təminatı sahəsində çatışmazlıqları nəzərə alaraq ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı sisteminin qurulmasını və inkişaf etdirilməsini, bu sahədə Avropa təcrübəsinin öyrənilməsini və daxili keyfiyyət təminatı sistemi üzrə vahid prinsiplər, prioritetlər, təlimatlar və prosedurların işlənib hazırlanmasını hədəfləmişdir.

Layihənin xüsusi məqsədləri aşağıdakılardan ibarət olmuşdur:

- tərəfdaş ali təhsil müəssisələrində mövcud keyfiyyət təminatı təcrübələrini müqayisəli təhlil etmək;

- Avropa Standartlarına və Təlimatlarına uyğun olaraq vahid daxili keyfiyyət təminatı sistemi işləyib hazırlamaq və ATM-lərdə keyfiyyət təminatı mərkəzləri yaratmaq;

- ATM-lərdə müvafiq metodlardan istifadə etməklə müasir keyfiyyət siyasəti və keyfiyyət təminatı vasitələri haqqında məlumatlılığı artırmaq;

- ATM-lərdə keyfiyyət təminatı mədəniyyəti haqqında məlumatlılığı artırmaq;

- ATM-lərdə keyfiyyət təminatı sisteminin inkişaf etdirilməsi məqsədilə daxili keyfiyyət təminatı üzrə metodik tövsiyə hazırlamaq.

Layihədə Azərbaycandan 11 ali təhsil müəssisəsi Avropadan isə 4 universitet və EKT konsultasiya şirkəti partnyor olaraq qoşulmuşdur. Layihə müddətində 4 Avropa universitetinə bir həftəlik 6 təlim təşkil olunmuşdur. Təlimlərdə 11 yerli universitetdən 206 tərəfdaş iştirak etmişdir. Layihə nəticəsində 11 ali təhsil müəssisəsində Keyfiyyət təminatı mərkəzləri yaradılmış və mövcud mərkəzlərin fəaliyyətləri inkişaf etdirilmişdir. Mərkəzlərdə işləyən əməkdaşlar xarici ekspert tərəfindən təlimlərdən keçərək peşəkarlıq səviyyələri artırılmışdır.

Layihənin yekununda Azərbaycan Ali təhsil müəssisələri üçün Keyfiyyət təminatı sahəsində metodik vəsait hazırlanıb təqdim olunmuşdur.

Layihə və layihə çərçivəsində görülən işlərə dair ətraflı məlumat www.eqac.az səhifəsindən əldə oluna bilər.

Bakı Biznes Universiteti tərəfindən «Azərbaycan Rektorlar Konfransının Yaradılması» (ECAR) adlı ikinci Erasmus plus layihəsi 2020-ci ildə Avropa Komissiyasına təqdim olunmuş və layihə həmin il üçün Avropa Komissiyası tərəfindən qrant alan yeganə milli layihə olmuşdur. Ümumilikdə təqribən 1 milyon avro büdcəsi olan layihənin məqsədi Azərbaycan ali təhsil sistemində maraqlı tərəflərin və milli inkişaf strategiyasının tələblərinə uyğun olaraq, Rektorlar konfransının təsis edilməsi ilə ölkə universitetləri arasında əlaqəni, eləcə də maraqlı

tərəflər arasında əməkdaşlığı təşviq etməkdir. Üç il müddətində icra olunması nəzərdə tutulan layihənin ilkin mərhələsində 15 yerli universitet, Avropadan isə Belçikanın EFMD – Akkreditasiya təşkilatı, İsveçin Kral Texnologiya Universiteti, Litvanın Mikolas Romeris Universiteti, Polşa Rektorlar Konfransı, Fransa Rektorlar Konfransı, Fransa Beynəlxalq Təhsil mərkəzi-FEİ layihənin əsas partnyorları eyni zamanda Litva Rektorlar Şurası, Portuqaliya Rektorlar Şurası, İspaniya Rektorlar Şurası, Finlandiya Rektorlar Şurası, Avropa Universitetlər Birliyi dəstəkverici partnyorlar olaraq fəaliyyətə başlamışdır. Daha sonra layihəyə artan maraq nəticəsində Azərbaycandan 6 universitet və Avropa universitetlər birliyi dəstəkverici tərəfdaş olaraq layihəyə qoşulmuşdur. 2023-cü ildə Azərbaycanın 3 ali təhsil müəssisəsinin assosiativ tərəfdaşlığı qəbul edilmişdir. Layihə müddətində Avropa tərəfdaşlarına 8 səfər təşkil olunmuş və 18 ali təhsil müəssisəsindən 272 əməkdaş iştirak etmişdir. Layihə üzrə müxtəlif istiqamətlərdə tərəfdaş ali təhsil müəssisələrinin prorektorlarından ibarət 5 komitə yaradılmışdır. Layihə müddətində Azərbaycan ali təhsil sahəsində ilk dəfə olaraq 21 universitet arasında əməkdaşlıq haqqında Çərçivə Sazişi imzalanmışdır. Layihə hal-hazırda uğurla davam edir.

Layihə və layihə çərçivəsində görülən fəaliyyətlərə dair ətraflı məlumat www.ecar.net.az saytından əldə edilə bilər.

2022-ci ildə Bakı Biznes Universitetinin əməkdaşı Gülşən Bayramovanın müəllifliyi ilə hazırlanmış Azərbaycan Ali Təhsil Müəssisələrində Sahibkarlıq Ekosisteminin Gücləndirilməsi – ENGAGE layihəsi Bakı Biznes Universiteti ilə Mingəçevir dövlət universitetinin birgə əməkdaşlığı nəticəsində Avropa Komissiyasına Mingəçevir dövlət universitetinin koordinatorluğu ilə təqdim olunmuşdur. Layihə Avropa Komissiyasının qiymətləndirmə prosesindən uğurla keçən layihələr sırasına daxil olmuşdur. Üç il (2023-2025) müddətinə yerinə yetirilməsi nəzərdə tutulan layihənin əsas məqsədi Azərbaycanın ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsi, akademik heyətin və tələbələrin sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi və İnnovativ yanaşmanın təkmilləşdirilməsidir. Layihədə Azərbaycandan 11 universitet və iki təşkilat - Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Azərbaycandan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası, Avropadan isə 5 universitet iştirak edir. Layihənin idarə edilməsində Bakı Biznes Universiteti ko-koordinator olaraq çıxış edir və layihənin bütün kontent məsələlərindən məsuldur.

Layihə və layihə fəaliyyətləri haqqında ətraflı məlumat – www.engage.edu.az saytından əldə oluna bilər.

2022-2023-cü tədris ilində BBU Spinaker proqramı çərçivəsində Polşanın Krakov İqtisadiyyat Universiteti ilə birgə ortaq layihə hazırlayıb Polşa Milli Akademik Mübadilə Agentliyinə təqdim etmişdir. Layihə Polşa Milli Akademik Mübadilə Agentliyi tərəfindən qəbul edilmiş və layihənin həyata keçirilməsi üçün qrant ayrılmışdır. Layihə «İncəsənət və

Biznes» adlanan proqram tələbələrin öz yaradıcılıqlarını bizneslə birləşdirməyə imkan verən sertifikat proqramıdır.

Bakı Biznes Universitetinin İsveç Institutu və Royal Texnologiya Institutu ilə həyata keçirdiyi Şərq tərəfdaşlığında Ali təhsilin və tədqiqatın beynəlmiləlləşməsi və modernləşdirilməsi layihəsi(2021-2023) çərçivəsində sahə üzrə görüşlər və konfranslar təşkil edilməkdədir. Layihənin ilk tədbiri Estoniyanın Tallin Texnologiya Universitetində Azərbaycan, Ukrayna və Gürcüstan nümayəndələrinin iştirakı ilə təşkil olunmuş, daha sonra Bakı Biznes Universitetində Ali təhsildə Dayanıqlı İnkişaf Məqsədləri adlı beynəlxalq Konfrans təşkil edilmişdir.

Qeyd olunanlardan əlavə 2023-cü il Noyabr ayında Bakı Biznes Universiteti Alman Akademik Mübadilə Xidməti DAAD yay məktəbinə müraciət üçün sahibkarlığın inkişafı modulu üzrə layihə təqdim etmişdir.

Beynəlxalq təhsil agentlikləri ilə yanaşı Beynəlxalq təhsil təşkilatları ilə də əməkdaşlıq universitetin siyasətinin əsas istiqamətlərindəndir. Lakin, Bakı Biznes Universitetinin beynəlxalq təşkilatlarla əməkdaşlığı yalnız üzvlük xidmətləri nəzərə alınmadan faydalılıq prinsipləri əsasında qurulmuşdur. Universitet xüsusilə son 5 ildə Beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığını mobil və dinamik formada inkişaf etdirmişdir.

Bakı Biznes Universitetinin (BBU) əməkdaşlıq etdiyi yüksək qlobal statusa malik təşkilatlardan biri də EFMD (European Foundation for Management Development) biznes məktəbləri, biznes məktəbi proqramları və korporativ universitetlər üçün qlobal səviyyədə tanınmış akkreditasiya orqanıdır. 1972-ci ildə yaradılmış və baş ofisi Brüsseldə, Belçikada yerləşən EFMD idarəetmə təhsilinə qlobal yanaşmanın formalaşdırılmasında təcrübə mübadiləsinin təmin edilməsində mühüm rol oynayır. Təşkilatın 90 ölkədən 977 üzvü var. 50 illik universitet birliyi təcrübəsini nəzərə alaraq EFMD Bakı Biznes Universitetinin koordinatoru olduğu **«Azərbaycanda Rektorlar Konfransının yaradılması»** adlı Erasmus plus layihəsinə tərəfdaş olaraq dəvət edilmiş və layihə müddətində Azərbaycanda bu təşkilatın yaradılması xüsusi dəstək göstərmişdir. Belə ki, layihə çərçivəsində 2022-ci ilin Dekabr ayında EFMD-nin təşkilatçılığı ilə Brüsseldə 16 Azərbaycan universitetinin 55 nümayəndəsinin iştirakı ilə təlim təşkil edilmişdir. Təlimin məqsədi, ali təhsildə beynəlmiləlləşmə ehtiyacları və tələbləri, beynəlxalq keyfiyyət təminatı sistemləri, beynəlmiləlləşmənin tədqiqat və tədris proqramlarına inteqrasiyası, beynəlxalq layihələrin maliyyələşmə mexanizmləri, beynəlmiləlləşmə strategiyasının hazırlanması və icrasına həsr olunmuşdu. Görüşlərlə bağlı təşkilat rəsmi səhifələrində xəbərlər dərc etmişdir. xəbər 1, xəbər 2, xəbər 3. EFMD təşkilatının Qlobal Jurnal təcrübəsindən faydalanmaq məqsədilə ECAR layihəsi çərçivəsində yaradılan **«Azərbaycan Ali Təhsili»** adlı jurnalın tərtibatı zamanı redaksiya heyəti Brüsselə səfər etmiş, jurnalın hazırlanma qaydası,

Jurnalların beynəlxalq nüfuzunun artırılması və s sahədə təcrübə əldə etmişdir. ECAR layihəsindən əlavə, adı çəkilən təşkılatının iştirakı ilə 2023-cü ildə Erasmus plus KA 2 «**Ölkə daxilində səmərəli beynəlmiləlləşmə və kadrların inkişafı vasitəsilə Azərbaycan Universitetlərinin beynəlxalq rəqabət qabiliyyətinin artırılması»** EDGE adlı layihə hazırlanıb Avropa Komissiyasına təqdim edilmişdir. Hal-hazırda EFMD-nin iştirakı ilə **«Fakültə idarəetmə sisteminin təkmilləşdirilməsi»nə** dair iri həcmli layihə hazırlanmaqdadır.

Universitetimizin əməkdaşlıq etdiyi digər bir təşkilat Avropa Universitetlər birliyidir. Qeyd olunan təşkilat rəsmi müraciəti əsasında ECAR layihəsinə assosiativ üzvlük üçün müraciət etmiş və layihə konsorsiumuna daxil edilmişdir. 16-22 may 2022-ci il tarixlərində 16 Azərbaycan universitetinin 42 nümayəndəsinin iştirakı ilə İsveçdə keçirilən təlimdə Avropa Universitetlər Birliyinin Baş Katibinin müavini Monika Steinelin «Sərhədsiz Universitetlər-2030 gələcəyə baxış» mövzusunda təlim təşkil edərək layihəyə öz töhfəsini verib. 2023-cü ilin iyun ayında 16 universitetin iştirakı ilə Avropa universitetlər birliyinin Brüssel ofisinə səfər təşkil edilmişdir. Səfər zamanı EUA Baş Katibi Amanda Crowfoot, Baş Katibin müavini Monika Steinel və Kommunikasiyalar Direktoru Laura Reynders tərəfindən EUA-nın fəaliyyətləri, Avropa milli rektorlar konfransları və kommunikasiya fəaliyyətləri haqqında ətraflı məlumat verilmişdir.

Hal-hazırda Avropa Universitetlər birliyi ilə Bakı Biznes Universiteti arasında Avropa Universitetlər birliyinin prezidentinin Bakıya səfərinin təşkili haqqında danışıqlar aparılır. Növbəti ildə AUB-nin prezidentinin Bakıda Azərbaycan Universitetlərinin iştirakı ilə böyük bir tədbirin keçirilməsi planlaşdırılır. Eyni zamanda **«Fakültə idarəetmə sisteminin təkmilləşdirilməsi» və «Ali təhsil müəssisələrində inteqrasiya edilmiş tədqiqat sistemlərinin yaradılması»** adlı iki iri həcmli layihələrə cəlb olunmaq məqsədilə danışıqlar aparılmaqdadır.

ECAR layihəsi çərçivəsində Avropa Tələbələr Birliyi ilə sıx əməkdaşlıq qurulmuşdur. Bakı Biznes Universitetinin əməkdaşlıq təklifinə cavab olaraq Avropa Tələbələr Birliyi ECAR layihəsi tərəfdaşları üçün Brüsseldə görüş təşkil etmişdir. Prezidenti Horia Onita tərəfindən 40 ölkədən 45 Milli Tələbə Birliklərini və Avropada 20 milyon tələbəni təmsil edən, təhsilin sosial, iqtisadi və mədəni maraqlarını Avropa Birliyi, Boloniya İzləmə Qrupu, Avropa Şurası və UNESCO qarşısında təmsil edən bu qurumun fəaliyyət istiqamətləri, iş prinsipləri, strateji siyasət prioritetləri, Avropa Ali təhsil sisteminin inkişafına göstərdikləri xidmət haqqında layihə iştirakçılarına təqdimat keçirilmişdir.

Bakı Biznes Universiteti sadalanan təşkilatlara üzv olmadan, heç bir üzvlük haqqı ödəmədən onlarla əməkdaşlıq əlaqələri qurur və yalnız özü deyil, eyni zamanda digər ali təhsil müəssisələrinin də bu təcrübələrdən faydalanması üçün ciddi səy göstərir.

**7.1.7. İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

İkili diplom proqramlarının icrası beynəlmiləlləşmə siyasətində öz əksini tapsa da, bu sahə hesabat dövrü müddətində pilot olaraq icra olunmuşdur. İlkin mərhələdə İkili diplom proqramlarının icrası zamanı qarşılaşılan çətinliklər fakültə rəhbərləri və kafedra müdirlərinin iştirakı ilə müəyyənləşdirilmişdir. İkili diplom proqramlarının icrasının maliyyə məsələləri, iki fərqli universitet arasında akademik standartların və ixtisas proqramlarının uyğunlaşdırılması çətinlikləri, ikili diplom proqramlarına qatılan tələbələr üçün dil baryerləri, iki fərqli təhsil müəssisəsi arasında effektiv idarəetmə və koordinasiya məsələləri, tədris aparacaq müəllimlərin dil və metodoloji inkişaf ehtiyacları nəzərə alınaraq hesabat dövründə Bakı Biznes Universiteti tərəfindən bir sıra təkmilləşdirmə fəaliyyətləri icra olunmuşdur. BBU rektorunun birbaşa göstərişi əsasında tədris proqramları beynəlxalq standartlara uyğunlaşdırılmış, ingilis dillində proqramlar açılmış, bir sıra müəllimlərin dil və İKT-dən istifadə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində  müxtəlif tədbirlər görülmüş və tələb olunan sahələrin inkişafına və bazanın təkmilləşdirilməsinə xüsusi diqqət göstərilmişdir.

Hesabat dövründə Bakı Biznes Universiteti ilə Çexiyanın Tomas Bata Universiteti arasında 27 iyun 2017-ci ildə ikili diplom proqramı üzrə müqavilə imzalanmışdır. Bu müqavilə, magistratura səviyyəsində üç ixtisası – Biznesin idarə edilməsi, Marketinq və Menecment, Maliyyə əhatə edir. Proqrama əsasən, BBU-da bu ixtisaslar üzrə təhsil alan tələbələr, ikili diploma proqramına qoşulmaq imkanına malikdirlər. Proqram çərçivəsində tələbələr bir il BBU-da və bir il Tomas Bata Universitetində təhsil alaraq, hər iki universitetdən müvafiq ixtisas üzrə diplomlarını əldə edə bilərlər. Bu proqram, tələbələrə iki fərqli ölkənin təhsil sistemindən yararlanma və beynəlxalq təcrübə qazanma imkanı yaradır. Hal-hazırda İtaliyanın Tuscia Universiteti və İspaniyanın Jaen Universiteti arasında ikili diplom müqaviləsi üzərində işlənilir. Maliyyə problemlərini nəzərə alaraq bu proqramlara fərqli maliyyələşmə mexanizmlərindən istifadə etmək nəzərdə tutulur. Hər iki universitetlə BBU Erasmus plus KA1 müqaviləsi imzalayaraq proqramda təhsil alacaq tələbələrin təhsil haqlarını qarşılamağı hədəfləyir.

**7.1.8. Beynəlmiləlləşmə siyasətinin dövr yenilənməsi vəziyyəti**

Bakı Biznes Universitetinin Beynəlmiləlləşmə siyasəti universitetin Strateji İnkişaf planı əsasında hazırlandığı üçün strateji inkişaf planına uyğun olaraq yenilənir. Siyasət strateji inkişaf planına əsasən 2018-ci ildə yenilənmiş yeni strateji inkişaf planına əsasən hazırlanmışdır. 2018-2023-ci illəri əhatə edən Beynəlmiləlləşmə siyasəti 2024-cü ildən yenidən növbəti 5 il üçün hazırlanmaqdadır. Ümumi sənədin rəsmi olaraq yenilənməsi 5 illik mərhələni əhatə etsə də hər il beynəlmiləlləşmə sahəsində aparılan təhlillər və hazırlanmış hesabatlar əsasında beynəlmiləlləşmə üzrə fəaliyyət planları tələbata uyğun olaraq yenilənir. Hər ilin sonunda təqdim olunan

hesabata əsasən universitetin beynəlmiləlləşmə sahəsində güclü və zəif tərəfləri təhlil edilir, universitetin profilinə uyğun bir sıra beynəlxalq universitetlərlə müqayisəli təhlili aparılır, tələbə mobilliyi, tədqiqat əməkdaşlığı və texnoloji irəliləyişlər daxil olmaqla, ali təhsildə qlobal tendensiyalar təhlil edilir, tələbələrin, müəllimlərin və digər maraqlı tərəflərin ehtiyac və gözləntiləri qiymətləndirilir və bunun əsasında illik fəaliyyət planları hazırlanır.

## 7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu

### 7.2.1. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti

Bakı Biznes Universitetində Beynəlmiləlləşmə siyasətinin əsası Beynəlxalq əlaqələr üzrə prorektorluq tərəfindən aparılır. Beynəlxalq əlaqələr üzrə prorektorluq, universitetin beynəlmiləlləşmə siyasətinin icrasında məsul, beynəlxalq əməkdaşlıq, beynəlxalq layihələr və mübadilə proqramlarını idarə edən mərkəzi struktur vahididir. Onun nəzdində Layihələrin idarə edilməsi və Beynəlxalq əlaqələr üzrə funksional şöbələr və mərkəzlər fəaliyyət göstərir. Bundan əlavə prorektorluq daxilində «Universitet-sənaye işbirliyi və ömürboyu təhsil mərkəzi», «Karyera və məzunlarla iş mərkəzi» fəaliyyət göstərir.

**Beynəlxalq əlaqələr üzrə prorektorluğun təşkilatı strukturu**




### 7.2.2. Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Universitetin Beynəlmiləlləşmə siyasəti prorektorluğa daxil olan şöbələr tərəfindən icra olunur.

Şöbələr aidiyyəti üzrə, beynəlxalq tərəfdaşlıqların və mübadilə proqramlarının qurulması və inkişaf etdirilməsi, beynəlxalq konfranslar, seminarlar və işçi görüşlərinin təşkili, beynəlxalq tələbə və akademik heyətin cəlb edilməsi və onların universitetə inteqrasiyasının təmin edilməsi, beynəlxalq qrant layihələrin idarə edilməsi və koordinasiyası, layihələrin planlaşdırılması, büdcələşdirilməsi və həyata keçirilməsi, layihələrin qiymətləndirilməsi və onlardan əldə edilən nəticələrin analizi kimi fəalliyyətlərdən məsuldurlar.

Universitet-sənaye işbirliyi və ömürboyu təhsil mərkəzi yeni yaradılan mərkəzdir, universitet – sənaye əlaqələrinin gücləndirilməsi və universitet tədqiqat nəticələrinin sənayeyə ötürülməsi sahəsində təhlillər apararaq 3-lü heliks (universitet-dövlət-sənaye) modelinin qurulmasına dəstək göstərir. Departament yarandığı ilk il yalnız Bakı Biznes Universitetinin deyil, eyni zamanda Azərbaycan ali təhsil müəssisələrinin sahə üzrə mövcud vəziyyətlərini təhlil edərək yuxarıda məlumat verilən «ENGAGE» adlı Erasmus plus layihəsini yazmış və qrant əldə etmişdir. Layihənin beynəlxalq tərəfdaşlarının iştirakı ilə departamentin fəaliyyət planı təkmilləşdirilməkdədir. Karyera və məzunlarla iş mərkəzi mütəmadi təhlillər apararaq məzunların işlə təmin olunması məqsədilə beynəlxalq bacarıqların əldə olunmasına səy göstərir.

**7.2.3. Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

Mübadilə proqramlarında iştirak Universitetin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən həyata keçirilir. Tələbələr arasında mübadilə proqramlarında iştirakın təşviq olunması və xüsusilə onların etimadının qazanılması məqsədilə, mübadilə proqramlarında iştirak edən tələbələrin kreditlərinin tanınması Beynəlxalq əlaqələr şöbəsinin ciddi nəzarət etdiyi sahələrdəndir. Kreditlərin tanınması mexanizmləri tələbələrin xaricdə təhsil aldıqları zaman akademik səylərinin lazımi şəkildə tanınmasını və qiymətləndirilməsini təmin etmək üçün çox vacibdir. Bu proses mübadilə proqramlarının keyfiyyətli icrasının əsasını təşkil edir. Məhz bu səbəbdən Erasmus+ proqramı, Mövlanə proqramı və müxtəlif xarici ölkələr və universitetlər tərəfindən həyata keçirilən mübadilə proqramlarında iştirak, seçim qaydaları və kreditlərin tanınması üzrə Bakı Biznes Universitetinin Elmi Şurasının 09.12.2022-ci il tarixli qərarı ilə də təsdiq olunmuş «Beynəlxalq Mübadilə proqramlarında İştiraka Dair» Qaydalarla tənzimlənir.

Kreditlərin tanınması mexanizmi aşağıdakı qaydadadır:

- Mübadilədə iştirak hüququ qazanan tələbələrin təhsil alacağı universitetin tədris planına uyğun olaraq tələb olunan kredit sayına əsasən fənlərin seçilməsi (məsul şəxs, tyutor, dekan, tədris işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə şöbənin əməkdaşı);
- Seçilmiş fənlərin qəbul edən universitet tərəfindən təsdiqlənməsi (hər bir tələbənin bir semestr üzrə minimum 20, maksimum 30 kredit seçmə imkanı var);
- Mübadilə proqramı bitdikdən sonra kreditlər mübadiləyə göndərən universitet tərəfindən tanınır və tələbənin transkripti və mübadiləyə dair sertifikatı rəsmi olaraq Bakı Biznes Universitetinə təqdim edilir.

2016-2023-cü illər ərzində Bakı Biznes Universitetinin 78 (bakalavr, magistr və PhD) tələbəsi mübadilə proqramlarında iştirak etmişdir. Qeyd olunan tələbələr təhsillərini 13 ölkənin 39 fərqli universitetlərində davam etdirmişlər.

**2016-2023-cü illər ərzində mübadilə proqramlarında iştirak edən tələbələrin sayı**




Qrafikdə əks olunan məlumatlar, pandemiya dövründə beynəlxalq mübadilə proqram-larının dinamikasında mühüm dəyişikliklərin olduğunu göstərir. Pandemiya səbəbilə təhsil fəaliyyətlərinin məhdudlaşdırılması mübadilə proqramlarında iştiraka ciddi şəkildə təsir etmiş, lakin pandemiyanın təsirinin azalması ilə əlaqədar iştirak yenidən artmışdır. 2022-2023-cü illərdə magistratura səviyyəsində iştirak daha yüksək olmuşdur.

2022-23-cü tədris ilində icra edilən Spinaker layihəsinə 5 tələbə cəlb olunmuşdur. Layihə müddətində müxtəlif professorlar tərəfindən bir semestr ərzində dərslər tədris olunmuş daha sonra tələbələr Krakov İqtisad Universitetində bir həftəlik yekun təlimlərə qoşularaq sertifikata layiq görülmüşlər. (https://bpz.uek.krakow.pl/-harmonogram-zajec-online.html)

**2022-2024-cü illər ərzində mübadilə proqramlarına müraciətə dair statistika**

| Proqramın adı | Tədris ili | Universitetin adı | Müraciət sayı | Seçilən tələbə sayı |
|---|---|---|---|---|
| ERASMUS+KA171 | 2022/2023 | Jaen Universiteti, İspaniya | 20 | 7 |
| | 2022/2023 | Nysa Tətbiqi elmlər Universiteti, Polşa | 3 | 1 |
| | 2022/2023 | Tuscia Universiteti, İtaliya | 5 | 1 |
| | 2022/2023 | Krakow Iqtisadiyyat Universiteti, Polşa | 41 | 8 |
| | 2022/2023 | Timişoara Universiteti, Rumıniya | 11 | 1 |
| | 2022/2023 | Alyatus kolleci/ Tətbiqi elmlər Universiteti, Litva | 17 | 1 |
| | 2023/2024 | Jaen Universiteti, İspaniya | 22 | 5 |
| | 2023/2024 | Aristotel Universiteti, Yunanıstan | 3 | 1 |

Mübadilə proqramında iştirak edən tələbələrə viza, səyahət və yaşayış kimi logistik dəstək təmin edilir. Mübadilə proqramı boyunca onların təcrübəsinin və inteqrasiyasının izlənməsi müvafiq qaydalarda nəzərdə tutulmuşdur. Qeyd edək ki, hesabat dövrü ərzində mübadilə proqramlarında kreditlərin tanınmasına dair heç bir çətinlik yaşanmamışdır.

**7.2.4. Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti**

Universitetimiz əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb olunmasında əsas üstünlüyü beynəlxalq layihələr çərçivəsində müəllimlərin mübadiləsinə verir. 2017-2023-cü illər ərzində 95 əcnəbi müəllim təlim tədris prosesinə qoşulmuşdur. Belə ki Erasmus+ KA1 proqramı çərçivəsində Universitetimizdə İspaniya, İtaliya, Sloveniya, Polşa, Ruminiya, Litva, Türkiyə və Bolqarıstanın müxtəlif universitetlərinin professor-müəllim heyəti Bakı Biznes Universitetində təlim-tədris prosesinə cəlb edilmişdir.

2017-2023-cü illər ərzində icra olunan Erasmus plus, KA2 layihələri üzrə Bakı Biznes Universitetinə səfər edən İngiltərə, İsveç, Litva, Polşa, İspaniya, Fransa və Belçikadan olan ekspertlər tədris proseslərinə cəlb olunmuş və açıq dərslər təşkil etmişlər. EQAC layihəsi çərçivəsində, 2019-cu il ərzində EKT konsultasiya təşkilatının nümayəndələri Alvydas Punis, Laura Senkeviciute, Darius Dulskis tədrisin səmərəli təşkilinə dair BBU akademik heyəti ilə dəyirmi masa təşkil etmişdir. Tələbə yönümlü təhsil sistemi və tədrisin təşkili ilə əlaqəli 6-9 yanvar 2020-ci il tarixlərində Inga Juknytė-Petreikienė tərəfindən təlim təşkil edilmiş və universitetin akademik heyəti bu təlimdə iştirak etmişdir. İngiltərənin Middlesex universitetin professoru Georgios Dafulas tədrisdə İKT-dən istifadə üzrə təlim keçmişdir.

2021-ci ildə Bakı Biznes Universitetin təşkilatçılığı ilə Daxili keyfiyyət təminatının inkişaf etdirilməsi istiqamətində TrainİQA proqramı ilə əməkdaşlıq çərçivəsində silsilə seminarlar keçirilmişdir. Potsdam Universitetinin Ali təhsil tədqiqatları və Keyfiyyətin İnkişafı Mərkəzi departamentinin direktoru Frank Niedermeier, Potsdam Universiteti TrainIQA Layihə Koordinatoru, Keyfiyyətin İnkişafı Mərkəzinin əməkdaşı Benjamin Jung, San Karlos Universitetinin (USC) Keyfiyyət Təminatı üzrə Prezidentin köməkçisi İrlandiyalı Tejero-Dakay Daxili keyfiyyət təminatı sisteminin inkişafı istiqamətlərini Azərbaycan Universitetləri ilə paylaşmışdır. Təlimlərdə 20 yerli ali təhsil müəssisəsindən 30-dan çox nümayəndə iştirak etmiş və 5 nəfər Bakı Biznes Universiteti əməkdaşı təlimlərdən faydalanmışdır.

Fransa səfirliyinin təşkilatçılığı sayəsində Bakı Biznes Universiteti ilə Nanterre Universitetin əməkdaşlığı nəticəsində Nanterre universitetinin bir əməkdaşı Universitetimizdə tədris prosesinə qoşulmuşdur.

2022-2023-cü tədris ilində Spinaker proqramı çərçivəsində Polşanın Krakov İqtisadiyyat Universitetin iki müəllimi Bakı Biznes Universitetində tələbələr üçün ustad dərsləri təşkil etmişdir.

2021-2022-cü tədris ilində Erasmus+ KA2 proqramı çərçivəsində Avropanın İspaniya,

Polşa, İsveç, Belçika, Portuqaliya və Estoniya ölkələrinin universitetlərinin professor-müəllim heyəti, eləcə də müxtəlif sahədə ekspertləri tədris təlim prosesinə cəlb olunmuşdur.

Azərbaycanda ilk dəfə olaraq Bakı Biznes Universiteti tərəfindən Erasmus+ proqramı çərçivəsində 2022-ci il 21-25 noyabr tarixlərini əhatə edən «Ali Təhsildə Keyfiyyət Təminatı» üzrə "Beynəlxalq Həftə" keçirilmişdir. Tədbirin məqsədi Bakı Biznes Universitetinin tərəfdaşı olan xarici ölkələrin ali təhsil müəssisələrinin, o cümlədən İngiltərə, İsveç, İspaniya, İtaliya, Türkiyə və Polşa universitetlərində keyfiyyət təminatında mövcud olan təcrübələrin Azərbaycanın ali təhsil müəssisələrinə ötürülməsi olmuşdur. Tədbirdə Avropanın 6 qabaqcıl ölkəsindən 7 universitetin – İngiltərənin Middlesex Universitetinin, İspaniyanın Jaen Universitetinin, İtaliyanın Tuscia Universitetinin, qardaş Türkiyə Respublikasından Dokuz Eylül Universitetinin, Polşanın WSG Universitetinin və Katowice İqtisadiyyat Universitetinin nümayəndələri, Azərbaycanın 33 ali təhsil müəssisəsindən 100-ə yaxın nümayəndə heyəti, o cümlədən rektorlar, prorektorlar və keyfiyyət təminatı üzrə məsul şəxslər iştirak etmişdir.

**2016-2023-cü illərdə tədris prosesinə cəlb olunmuş əcnəbi professorlara dair statistik göstərici**




**7.2.5. Beynəlmiləlləşmə siyasətinin idarə edilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti**

Beynəlmiləlləşmə siyasətinin sahə üzrə əlaqəli məqsədlərinin və bu məqsədlərə çatmağı ölçmək üçün keyfiyyət və kəmiyyət göstəriciləri müəyyənləşdirilir, Beynəlmiləlləşmə ilə bağlı əsas fəaliyyət göstəriciləri üzrə dövri olaraq məlumatlar toplanılır (məsələn, beynəlxalq tələbə və akademik heyətin sayı, beynəlxalq tədqiqat layihələrinin sayı, mübadilə proqramlarında iştirak, beynəlxalq tərəfdaşlıqlar və s.), toplanan məlumatlar təhlil edilir və səmərəliliyi qiymətləndirilir. Təhlillərlə əlaqəli məlumat universitetin Elmi Şurasının müzakirəsinə çıxarılır. Monitorinq və qiymətləndirmə nəticələrinə əsasən fəaliyyətlər təkmilləşdirilir.

**7.2.6. ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti**

Bakı Biznes Universiteti ilə Tomas Bata Universiteti arasında həyata keçirilən ikili diplom proqramı hər iki universitet tərəfindən təyin olunmuş nümayəndələr tərəfindən həmin universitetlərin təhsil proqramları müzakirə olunaraq ikili diplom proqramına uyğunlaşdırılmışdır. Nümayəndələr tərəfindən hər iki universitetdə tələbələrin əldə etdikləri kreditlərin sayı və kreditlərin tanınması razılaşdırılmışdır. Həyata keçirilən ikili diplom proqramı həm Çexiya Respublikasının, həm də Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə icra olunmaqdadır.

**7.2.7. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası**

**2016-2023-cü illər ərzində akademik heyətin mübadiləsi statistikası**




2016-2023-cü illər ərzində universitetimizin 86 əməkdaşı müxtəlif ölkələrdə mübadilə proqramına qoşulmuşdur.

2016-2023-cü illəri əhatə edən statistik göstəricilərə əsasən Akademik mübadilə proqramlarında iştirakçıların sayında 2016-2017-ci tədris ilindən başlayaraq zamanla müəyyən dalğalanmalar müşahidə olunmuşdur. 2018-2019-cu tədris ilində ən yüksək iştirak səviyyəsi qeydə alınmış, lakin sonrakı illərdə müəllim mübadiləsi sayında azalma baş vermişdir.

2019-2020 və 2020-2021-ci tədris illərində pandemiya səbəbindən səyahət məhdudiyyətləri və digər təhsil fəaliyyətlərinin məhdudlaşdırılması kimi amillər nəticəsində mübadilə proqramları üzrə iştirak sayında kəskin azalma müşahidə edilmişdir. Xüsusilə 2020-2021-ci tədris

ilində gələn müəllim sayı sıfıra düşmüşdür. Bu da pandemiyanın təhsil mübadiləsi üzərindəki məhdudlaşdırıcı təsirini aydın şəkildə göstərir.

Pandemiya məhdudiyyətlərinin azalması ilə 2021-2022 tədris ilindən etibarən yenidən müəllim mübadiləsinin sayında artım müşahidə olunmuşdur. Bu tendensiya, təhsil fəaliyyətlərinin normallaşması və beynəlxalq səfərlərin yenidən başlaması ilə əlaqəlidir. Lakin 2020-2021-ci illərdə olan məhdudiyyətlər, mübadilə proqramları üzrə müqavilələrin imzalanmasına ciddi təsir göstərmiş və mübadilə büdcəsinin azalması ilə nəticələnmişdir.

2022-2023-cü tədris ilində mübadilə proqramlarına gedən müəllimlərin sayı daha da artmış, pandemiya sonrası dövrün təhsil mübadiləsi fəaliyyətlərinin canlanmasına təsir göstərmişdir. Bununla birlikdə, 2023-2024 tədris ilinə dair göstəricilər proqnozlaşdırılmış say olaraq təqdim olunmuşdur və bu sayın real göstəricilərlə artması gözlənilir. Akademik mübadilə dinamikası illər üzrə mütəmadi olaraq təhlil olunur və sahə üzrə təkmilləşmə fəaliyyətləri planlaşdırılır.

**7.2.8. Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hər kəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti**

Akademik və inzibati heyətin mübadilə proqramlarında iştirak və seçim qaydaları Bakı Biznes Universitetinin Elmi Şurasının 09.12.2022-ci il tarixli qərarı ilə də təsdiq olunmuş «Beynəlxalq Mübadilə proqramlarında İştiraka Dair» qaydalarla tənzimlənir. Qaydaların 4-cü bəndinə uyğun olaraq, seçim prosesi şəffaf və obyektiv meyarlar əsasında həyata keçirilir. Seçim prosesi, namizədlərin akademik və peşəkar uyğunluğunu qiymətləndirmək üçün nəzərdə tutulmuş meyarlara əsaslanır. Seçim meyarları arasında namizədlərin akademik performansı, dil bilikləri, elmi-tədqiqat fəaliyyətləri və beynəlxalq təcrübəsi kimi amillər daxildir. Həmçinin, namizədlərin mübadilə proqramının tələblərinə və universitetin strateji hədəflərinə uyğunluğu da nəzərə alınır. İştirakçılar, mübadilə proqramı və tələb olunan sənədlərə dair məlumat universitetin rəsmi veb səhifəsi və kafedralar vasitəsi ilə çatdırılır. Müraciətlər, müvafiq şöbələr tərəfindən dəyərləndirilir və uyğun namizədlər seçilərək rektora təqdim olunur. Seçilmiş namizədlər uyğun olaraq, qiymətləndirmə prosesindən keçirilir. Bu proses, namizədlərin proqrama uyğunluğunu və universitetin beynəlxalq profilinə töhfəsini təmin etmək məqsədi daşıyır. Yekun namizəd siyahısı və sənədlər tərəfdaş universitetə təqdim olunur və tərəfdaş universitet tərəfindən yekun qərar verilir. Seçilən namizədlərə, mübadilə proqramının davamında lazım olacaq viza, səyahət və yaşayış kimi logistik dəstək təmin edilir. Mübadilə proqramı boyunca onların təcrübəsinin və inteqrasiyasının izlənməsi qaydalarda nəzərdə tutulmuşdur. Mübadilə proqramında iştirak edən akademik və inzibati heyətin təcrübələrini paylaşmaq məqsədilə kafedra daxili və ya geniş miqyasda görüşlər təşkil edilir.

**7.2.9. ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti**

Mübadilə proqramında iştirak edən tələbələr üçün təlim və tədris prosesinin təşkili AKTTS-in tələblərinə uyğun təşkil edilir. Ətraflı məlumat 7.2.3-də təqdim olunmuşdur.

**7.2.10. Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti**

Bakı Biznes Universiteti, beynəlxalq akademik aləmdə tanınma və reputasiyasını artırmaq məqsədi ilə üç beynəlxalq reytinq sistemi çərçivəsində yer alır. BBU, Round University Ranking (RoundRanking), Multirank və Unirank kimi platformalarda qiymətləndirilməyə və sıralanmaya daxil edilmişdir. Bu reytinqlər, universitetin akademik və tədqiqat performansını, həmçinin beynəlxalq əlaqələrini və tələbə mübadilələrini əks etdirir.

Universitetin strateji hədəflərindən biri də QS və The Times Higher Education kimi dünya miqyasında tanınmış reytinq təşkilatlarının reytinq sıralamalarına daxil olmaqdır. Bu məqsədlə BBU tərəfindən artıq konkret fəaliyyətlərə start verilmişdir. Bu fəaliyyətlər, akademik mükəmməlliyin və tədqiqatın keyfiyyətini artırmağa, beynəlxalq tərəfdaşlıqları genişləndirməyə və tələbə həyatının zənginləşdirilməsinə yönəlmişdir. Bütün bu addımlar, universitetin qlobal reytinqlərdə daha yüksək səviyyələrə çatmasına kömək edəcək və beynəlxalq təhsil məkanında BBU-nun nüfuzunu gücləndirəcəkdir.

**7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar**

**7.3.1. Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti**

Bakı Biznes Universiteti beynəlmilləlşmə siyasətinin həyata keçirilməsinin əsas büdcəsi Beynəlxalq qrant layihələrindən ayrılan büdcə vasitəsilə aparılır.

1. Erasmus+ proqramı çərçivəsində Ali Təhsildə Potensialın Gücləndirilməsi profilinə (KA2) uyğun olaraq «Azərbaycan Universitetlərində Keyfiyyət Təminat Mərkəzlərinin Yaradılması və İnkişaf Etdirilməsi (EQAC)» layihəsi 2017-2021-ci illəri əhatə edir.

Layihənin büdcəsi 893137avro təşkil edir.

2. Erasmus+ proqramı çərçivəsində Ali Təhsildə Potensialın Gücləndirilməsi profilinə (KA2) uyğun olaraq «Azərbaycanda Rektorlar Konfransının Yaradılması (ECAR)» layihəsi 2020-2024-cü illəri əhatə edir. Layihənin büdcəsi 937797 avro təşkil edir.

3. Erasmus+ proqramı çərçivəsində Ali Təhsildə Potensialın Gücləndirilməsi profilinə (KA2) uyğun olaraq Azərbaycan «Ali Təhsil Müəssisələrində Sahibkarlıq Ekosisteminin Gücləndirilməsi (ENGAGE) layihəsi 2022-2025-ci illəri əhatə edir. Layihənin büdcəsi 799999 avro təşkil edir.

4. Polşa Milli Akademik Mübadilə Agentliyi tərəfindən həyata keçirilən Spinaker layihəsi. Layihənin büdcəsi 21200 manat təşkil edir.

5. Bakı Biznes Universitetinin İsveç Institutu və Royal Texnologiya İnstitutu ilə həyata

keçirdiyi Şərq tərəfdaşlığında ali təhsilin və tədqiqatın beynəlmiləlləşməsi və modernləşdirilməsi layihəsi. Layihənin büdcəsi 50000 avro təşkil edir.

6. 2017-2023-cü il tarixlərində Eramsus+KA1 mübadilə proqramında iştirak edən tələbələr üçün ayrılmış büdcə 175410 avro təşkil edir.

Bununla yanaşı, universitetin təşkil etdiyi beynəlxalq konfranslar və forumlar universitetin daxili büdcəsi hesabına maliyyələşdirilir. Həmçinin beynəlxalq əlaqələr sahəsində işləyən əməkdaşların maaşları da daxili büdcədən ödənilir. Beynəlmiləlləşməyə dair büdcənin artırılması məqsədi ilə qarşıda duran hədəf universitet-sənaye əməkdaşlığını inkişaf etdirmək və bu sahədən müvafiq qrantlar əldə etməkdir.

**7.3.2. Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti**

Universitetin beynəlxalq fəaliyyətlərini daha effektiv idarə etmək və beynəlxalq təhsil sahəsindəki hədəflərinə çatmaq üçün yaradılmış təşkilati struktur mövcuddur. Bu təşkilati struktur Beynəlxalq əlaqələr üzrə prorektorluq, Layihələrin idarə edilməsi şöbəsi, Universitet-sənaye işbirliyi və ömür boyu təhsil mərkəzi və Karyera və məzunlarla iş mərkəzindən ibarətdir.

**7.3.3. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti**

Sahə üzrə fəaliyyətlərin icrası məqsədilə universitetin əsas binasında 3 otaq ayrılıb, otaqlar maddi-texniki baza ilə tam təmin edilmişdir.

**7.3.4. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti**

**İnsan resurslarının qiymətləndirilməsi** – mütəmadi olaraq təlim ehtiyaclarını müəyyənləşdirir və əməkdaşlar ehtiyacları üzrə inkişaf proqramlarında iştirak edir

**Maddi-texniki bazanın qiymətləndirilməsi** – maddi-texniki baza hər il inventarlaşdırılır, ehtiyac olduğu təqdirdə yeni ləvazimatlar alınır.

**7.4. Beynəlmiləlləşmə performansı**

**7.4.1. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti**

Bakı Biznes Universitetinin strateji inkişaf planına və Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq uzunmüddətli (5 illik) və qısamüddətli (illik) fəaliyyət planları hazırlanaraq Elmi Şura tərəfindən təsdiq edilir.

Beynəlmiləlləşmə strategiyasının məqsədlərinə uyğun olaraq hər bir hədəf və fəaliyyət üzrə xüsusi, ölçüləbilən Əsas fəaliyyət göstəriciləri müəyyənləşdirilir. Bunlar arasında beynəlxalq tərəfdaşlıqların sayı, beynəlxalq tələbələrin sayı, müəllim mübadiləsi sayı, tədqiqat əməkdaşlığı nəticələri və s. daxil edilir (ətraflı məlumat illik Beynəlmiləlləşməyə dair fəaliyyət planı adlı sənəddən əldə edilə bilər).

Prorektorluğun fəaliyyətinə dair məlumatlar müəyyən bölmələr üzrə qruplaşdırılaraq elektron formada (Google Sheet) saxlanılır. Beynəlmiləlləşmə göstəricilərini davamlı izləmək üçün həmin göstəricilər mütəmadi olaraq izlənilir və ehtiyac olduqda təkmilləşdirmə tədbirləri görülür.

Keyfiyyət təminatı mərkəzi universitetin Beynəlxalq prorektorluğana aid olan struktur bölmələrinin fəaliyyətlərinə dair illik monitorinq həyata keçirir və monitorinq zamanı müəyyənləşdirilmiş ƏFG-nin icrası vəziyyəti təhlil edilir. İcra zamanı müəyyənləşdirilmiş hədəfə nail olmadığı halda müvafiq şöbələr tərəfindən izahatlar yazılır və təkmilləşdirmə planları təqdim edilir.

**7.4.2. Beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyac əsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti**

Davamlı qiymətləndirmə yolu ilə tələbə və heyət mobilliyi, beynəlxalq tədqiqat əməkdaşlığı, tədris proqramlarının beynəlmiləlləşdirilməsi, beynəlxalq tərəfdaşlıq və layihələrə dair ehtiyaclar müvafiq sorğuların keçirilməsi və xüsusilə dəyirmi masaların təşkili ilə müəyyənləşdirilir. Universitetin idarəetmə sisteminə əsasən ayda bir dəfə rektorun rəhbərliyi altında kafedra müdirləri və fakültə dekanlarının iştirakı ilə institusional ehtiyaclar müəyyənləşdirilir. Bundan əlavə, illik aparılan sorğular nəticəsində ehtiyaclar müəyyənləşdirilir. Ehtiyaclar institusional və individual səviyyələrdə müəyyənləşdirilir. Hətta milli səviyyədə digər ali təhsil müəssisələri arasında sistemli sorğular təşkil olunaraq beynəlmiləlləşmə sahəsində ehtiyaclar müəyyənləşdirilir, fəaliyyət planları təkmilləşdirilir, institusional və beynəlxalq layihələr hazırlanır. İnstitusional layihələr əsasən təlim-konsultasiya məqsədi daşıyır. Beynəlxalq əlaqələr üzrə məsul şəxslər təlimlər təşkil edir. Beynəlxalq layihələr isə ehtiyaclara uyğun mobilliyin təmin olunması, tədris proqramlarının inkişafına dəstək layihələrinin hazırlanması, strateji idarəetmənin inkişafına dəstək, tədqiqat işlərinin inkişafına dəstək istiqamətində müxtəlif fəaliyyətləri əhatə edir. Bununla yanaşı “Dillər” kafedrasının birbaşa iştirakı ilə dil dəstək xidmətlərinin gücləndirilməsi məsələlərinə diqqət yetirilir.

## 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 42 | | | | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 15 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **57** | | | | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 33 | | | | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 12 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **57** | | | | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 12 | | | | |
| 3.2 Təhsil proqramları | 30 | | | | |
| 3.3 Tədrisin təşkili | 66 | | | | |
| 3.4 Tədris metodları və üsulları | 24 | | | | |
| 3.5 Təlim və tədris resursları | 51 | | | | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 36 | | | | |
| 3.7 Professor-müəllim heyəti | 36 | | | | |
| 3.8 Tələbəyönümlü tədris | 36 | | | | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 15 | | | | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 15 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **321** | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 24 | | | | |
| 4.2 Tədqiqat resursları | 21 | | | | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 57 | | | | |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **111** | | | | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 27 | | | | |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 30 | | | | |
| 5.3 Maliyyə resurslarının idarə ediləsi | 45 | | | | |
| 5.4 İnformasiya idarəetmə sistemi | 24 | | | | |
| 5.5 İctimaiyyətlə əlaqələr | 18 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **144** | | | | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 41 | | | | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 6 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **47** | | | | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 24 | | | | |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 30 | | | | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 12 | | | | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 6 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **72** | | | | |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **809** | | | | |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticələr və qeydlər

Bakı Biznes Universitetində akkreditasiya üzrə aparılan özünütəhlil işlərinin nəticəsində Təşkilat Komissiyası aşağıdakı əsas nəticələrə gəlmişdir:

**1. Strateji inkişaf istiqaməti üzrə**

Bakı Biznes Universiteti özünün uzunmüddətli fəaliyyət perspektivlərini strateji inkişaf planları üzrə müəyyən etmişdir. Universitet 2009-cu ildən başlayaraq, öz fəaliyyətinin bütün istiqamətləri üzrə davamlı, sistemli və kompleks-dinamik inkişafa nail olmaq üçün 4 Strateji İnkişaf Planı qəbul etmişdir. Onlar müvafiq olaraq 2009-2013, 2014-2018, 2019-2023, 2024-2028-ci illəri əhatə edir. Sözügedən strateji planların ümumi mahiyyəti Universitetin fəaliyyətinin müxtəlif dövrlər üzrə davamlı inkişafını aşağıdakı istiqamətlərdə təmin edilməsi olmuşdur:

Bakı Biznes Universitetinin qəbul etdiyi bütün strateji inkişaf planları Universitetdə təhsili Avropa standartlarına uyğunlaşmaqla, Avropanın təhsil sisteminə inteqrasiya edilərək tədrisin məzmun və keyfiyyət dəyişikliklərini özündə ehtiva etmişdir. Strateji planların ana xəttini təhsil proqramlarını beynəlxalq standartlara uyğunlaşdırmaqla, fənn proqramlarını təkmilləşdirmək, müasir təlim texnologiya və təlim metodlarını tətbiq etməklə, əmək bazarlarının tələblərinə uyğun müasir təfəkkürlü yaradıcı mütəxəssislərin yetişdirilməsi təşkil etmişdir.

Bu məqsədlə Universitet Strateji Planlara uyğun olaraq ötən dövr ərzində professor-müəllim heyətinin potensialının yüksəldilməsi üçün xarici ölkələrin aparıcı və tanınmış universitetlərində ardıcıl və davamlı təlim kursları, Universitetlər arası beynəlxalq təcrübə mübadilələri həyata keçirməklə onların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur. Son nəticə olaraq professor-müəllim heyətinin peşə kompetensiyalarının sertifikatlaşması prosesi başa çatmaq üzrədir. Digər tərəfdən 2013-cu ildən başlayaraq pedaqoji kadr potensialının cavanlaşdırılması siyasəti yürüdülmüşdür. 2017-ci ildən başlayaraq bu sahəni daha da inkişaf etdirmək üçün Universitetdə doktorantura hazırlığına icazə alınmışdır. Hazırda Bakı Biznes Universitetinin doktorantura səviyyəsində təhsil alan 26 nəfərdən 9 nəfəri müdafiə ərəfəsindədir. Bu doktorantların böyük əksəriyyətini Universitetin beynəlxalq mübadilə proqramı əsasında 6 ay, 1 il xarici ölkələrdə təhsil alan məzunlar təşkil edir.

Təhsildə müasir təlim-texnoloji mühitin yaradılması Strateji inkişaf planlarının əsas hədəflərindən biri hesab edilmişdir.

2009-cu ildən etibarən bu istiqamətdə Universitetdə xeyli işlər görülmüşdür. Belə ki, müxtəlif dövrlərdə bütün auditoriyalar proyektorlarla, MİMİO sistemlərlə, kompüter avadanlıqları ilə, son olaraq elektron (ağıllı) lövhələrlə təchiz olunmuşdur. Kitabxana elektronlaşdırılmış, informasiyanın idarə edilməsi sahəsində əvvəl “Elektron Universitet”, sonra isə “EMPRO” proqram təminatı tətbiq edilmişdir.

Strateji İnkişaf Planlarında beynəlxalq əlaqələr sahəsində qarşıya qoyulmuş strateji məqsədlərə layiqincə nail olunmuşdur. Bu sahədə müəyyən edilmiş strateji inkişaf perspektivləri Universiteti baynəlxalq əlaqələrin gücləndirilməsindən başlayaraq, bir neçə layihələrin koordinatoru kimi uğurlu nəticələrə gətirib çıxarmışdır. Beynəlmiləlləşmə istiqamətində uğurlu nəticələrdən biri də tələbə gənclərin böyük sayda mübadilə proqramlarında, habelə Professor-müəllim heyətinin xarici ölkələrdə təcrübə mübadilə proqramlarında iştirakının təmin edilməsidir.

Strateji inkişaf planının hədəflərindən biri də elmi tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi və beynəlxalq xülasələndirmə bazalarında nəşrlərin indeksləşdirilməsidir. Bu sahədə də Akkreditasiya ilə bağlı hesabatlarda qeyd edildiyi kimi xeyli uğurlar əldə edilmişdir.

Universitetin ötən fəaliyyəti dövründə atdığı uğurlu strateji fəaliyyət istiqamətlərdən biri də kadr hazırlığında əmək bazarının tələblərini nəzərə almaqla, peşə bacarıqlarının formalaşmasının ön plana çəkilməsidir. Bakı Biznes Universiteti davamlı və fasiləsiz təhsil siyasətini yürütməklə, bakalavrlar136arasında arzu edənlərin magistratura səviyyəsində və sonra isə doktorantura səviyyəsində təhsilinin davam etdirilməsinə zəmin yaradaraq özü üçün pedaqoji-kadr hazırlığı siyasətini yürütmüşdür.

Bütün sadaladıqlarımız onu deməyə əsas verir ki, Bakı Biznes Universitetinin Strateji İnkişaf Planları fəaliyyətinin bütün tərəflərini sistemli formada hədəfə almaqla, Universitetin rəqabət qəbiliyyətinin, habelə Respublikamızın ali təhsil məkanında mövqeyinin gücləndirilməsinə, Avropa təhsil sisteminə inteqrasiyasına nail olmuşdur.

**2. Keyfiyyət təminatı istiqaməti üzrə**

Bakı Biznes Universitetinin 2018-ci ildən etibarən dayanıqlı keyfiyyət təminatı siyasəti mövcuddur. Keyfiyyət siyasəti Universitetdə yaradılmış xüsusi komissiya tərəfindən hazırlanmış və Elmi Şura tərəfindən təsdiq edilmişdir. Siyasət sənədinin hazırlanması proseslərində universitet rəhbərliyi, akademik heyət, tələbə, məzun, eləcə də əmək bazarı nümayəndələri iştirak etmiş, bununla da maraqlı tərəflərin keyfiyyət proseslərində iştirakına nail olunmuşdur. Keyfiyyət təminatı siyasəti dəqiq əsaslandırılmış, keyfiyyət məqsədləri aydın, icrası mümkün şəkildə müəyyən edilmiş və ümumilikdə sənəd anlaşılan üslubda yazılmışdır. Keyfiyyət siyasəti sənədi çap formatında Keyfiyyət Təminatı Mərkəzi tərəfindən universitetin bütün struktur vahidlərinin hər birinə təqdim edilmiş və məlumatlandırma sessiyaları keçirilmişdir. Siyasət sənədi kafedralarda, dekanlıqlarda və digər iş kabinetlərində müvafiq məlumat lövhələrində də yerləşdirilmişdir. Eyni zamanda, siyasət sənədinin bütün maraqlı tərəflər, o cümlədən professor-müəllim heyəti üçün əlçatanlıq səviyyəsinin yüksəldilməsi məqsədilə sənədin elektron versiyası Universitetin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Beləliklə, Universitetin akademik və inzibati heyətinin daxili keyfiyyət təminatı siyasəti barədə məlumatlılıq səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur. Bakı Biznes Universitetinin

keyfiyyət təminatı siyasətinin yekun məqsədi sənəddə qeyd ediliyi kimi dövlətin təhsil siyasəti, cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyinin artırılması ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, müasir düşüncəli, rəqəmsal səriştələrə malik yüksək ixtisaslı kadr-mütəxəssislərin hazırlanmasından ibarətdir. Keyfiyyət təminatı siyasəti müasir dövrün tələb  və çağırışları nəzərə alınmaqla yenilənmiş; təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri kimi mühüm istiqamətlər daxil edilməklə əhatəliliyi yüksək səviyyədə təmin edilmişdir.

Bakı Biznes Universitetinin daxili keyfiyyət təminatı sistemi mövcuddur. Belə ki, 2017-ci ildən etibarən Keyfiyyət Təminatı Mərkəzinin yaradılması ilə Universitetdə daxili keyfiyyət təminatı sisteminin səmərəli təşkili və idarə edilməsinə nail olunmuşdur. Mərkəzin fəaliyyətini tənzimləyən əsasnamə, onun struktur tərkibi, iş bölgüsü, eləcə də fəaliyyət planları vardır. Universitetdə daxili keyfiyyət təminatı sistemi üzrə 2020-ci ildən müvafiq Komissiyalar fəaliyyət göstərməkdədir. Bu komissiyalara ixtisasın təhsil proqramına uyğun olaraq proqram rəhbərlərinin, akademik heyətin, təhsilalanların, işəgötürənlərin cəlb olunması təmin edilmişdir. Həm Keyfiyyət Təminatı Mərkəzinin, həm də ixtisaslar üzrə fəaliyyət göstərən komissiyaların fəaliyyət planları Universitetin strateji inkişaf planının hədəfləri ilə uyğunluq təşkil edir. Daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planlarının icra mexanizmi işlək vəziyyətdə olmaqla “planlaşdır, icra et, nəzarət et, düzəlişlər et” prinsiplərinə əsaslanmışdır.

Keyfiyyət siyasətinin, eləcə də 2009-cu ildən bu günə qədər Universitetin Strateji İnkişaf Planlarının uzunmüddətli icrası və daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi nəticəsində inkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınmaqla ixtisaslar üzrə təhsil proqramları yenilənmiş, təlimin yeni texnoloji xəritəsi müəyyən edilmiş, müasir bacarıqları formalaşdıran tələbəyönümlü tədris sisteminin qurulmasına, təhsilalanların və professor-müəllim heyətinin peşə bacarıqları üzrə sertifikatlaşmasına və məzunların məşğulluq səviyyələrinin yüksəldilməsinə nail olunmuşdur.

Universitetin daxili keyfiyyət təminatı sistemində proseslər, tədbirlər üzrə məsul şəxslər Mərkəzin əsasnaməsi, eləcə də daxili keyfiyyət təminatı üzrə hazırlanmış təlimat və qaydalarla müəyyən edilmiş, səlahiyyət bölgüləri aparılmışdır. Bakı Biznes Universitetinin daxili keyfiyyət təminatı sistemi üzrə fəaliyyət planı təhsil proqramlarının keyfiyyəti, fakültələrdə tələbələrlə iş, akademik heyətin dəstəklənməsi, inzibati heyətin məmnunluğu, işəgötürənlərlə əməkdaşlıq, təhsilalanların məmnunluğu və onlara dəstək xidmətlərini özündə ehtiva etməklə keyfiyyət fəaliyyətlərində kompleks yanaşmanın tətbiqinə gətirib çıxarmışdır.

Bakı Biznes Universitetinin koordinatorluğu ilə icra edilən «Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi» adlı Erasmus+  layihəsininin nəticəsi olaraq Universitet rəhbərliyinin, layihə konsorsiumunun üzvü olan Avropa universitetlərinin ekspertlərinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və bir sıra yerli ali təhsil

müəssisələrinin nümayəndələrinin iştirakı ilə 2022-ci ildə “Ali təhsildə daxili keyfiyyət təminatı” adlı metodik tövsiyə hazırlanmış, nəşr edilmiş və əlçatanlığını təmin etmək məqsədilə sənədin elektron variantı layihənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Bakı Biznes Universitetdə keyfiyyətin təmin edilməsi məqsədilə təhsil proqramlarının keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, tələbələrin məmnunluq sorğusunun aparılması, professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi, elmi-tədqiqata dair akademik heyət arasında sorğular, karyera xidmətlərinin keyfiyyəti barəsində sorğular, əmək bazarı nümayəndələrinin məmnunluğuna dair təhlil, elmi tədqiqat fəaliyyətinin təhlili və illər üzrə hazırlanmış hesabatlar, Universitetin SWOT analizi, maraqlı tərəflərin xəritəsinin müəyyən edilməsi, tələbə qəbulunun səmərəli təşkili üzrə geniş təhlillər və qiymətləndirmələr həyata keçirilmişdir. Həmçinin daxili keyfiyyət təminatı üzrə Bakı Biznes Universitetində müvafiq illər üzrə illik Özünütəhlil Hesabatları hazırlanmış və Elmi Şurada müzakirəyə təqdim edilmişdir. Hazırda da davam etdirilməkdə olan bütün bu fəaliyyətlər nəticəsində Universitetdə keyfiyyət mədəniyyəti formalaşdırılmışdır.

Eyni zamanda universitetin Keyfiyyət Təminatı Mərkəzi bilavasitə rektora tabe olmaqla Elmi Şura qarşısında hesabatlıdır. Mərkəzə rəhbərlik prorektor tərəfindən həyata keçirilir, əməkdaş qismində isə şöbə müdirləri təmsil olunurlar. Universitetdə akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə kommunikasiya və strukturları arasında fəaliyyətin koordinasiyası məhz Keyfiyyət Təminatı Mərkəzi və Rektorluq tərəfindən həyata keçirilir. Həmçinin Universitetdə fəaliyyət göstərən əksər komissiyaların və işçi qruplarının tərkibində rektor, prorektorlar, dekanlar, kafedra və şöbə müdirləri fəaliyyət göstərirlər. Bununla da Universitet rəhbərliyinin keyfiyyət məsələləri üzrə nəzarət və proseslərdə iştirakçılığı yüksək səviyyədə təmin edilmişdir.

Bakı Biznes Universiteti keyfiyyət təminatı sisteminin səmərəliliyinin və keyfiyyət mədəniyyətinin daha da yüksəldilməsi məqsədilə 2024-2028-ci illər ərzində ali təhsildə dəyişən ehtiyacları, qlobal çağırışları, tələbləri və qabaqcıl təcrübələri nəzərə alaraq keyfiyyət siyasətini dövri olaraq yeniləməyi, təhsilin təşkili və idarə edilməsi üzrə yüksək keyfiyyət standartına nail olmağı hədəfləyir.

### 3. Təlim və tədris istiqaməti üzrə nəticələr

Bakı Biznes Universitetinə təhsilalanların qəbulu 3 (üç) səviyyə (bakalavriat, magistratura və doktorantura) üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarları ilə təsdiq edilmiş təsnifatlara uyğun, əmək bazarının ehtiyacları, əvvəlki illərin faktiki qəbulu nəzərə alınmaqla planlaşdırılır və Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi plan üzrə həyata keçirilir.

Universitetdə müvafiq ixtisaslar (ixtisaslaşmalar) üzrə Təhsil proqramları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş Təhsil proqramları, Azərbaycan Res-

publikası Nazirlər Kabinetinin 2019-cu il tarixli 12 dekabr 474 nömrəli "Peşə və kvalifikasiya standartıının hazırlanması, yenidən hazırlanması, təsdiq edilməsi, qeydiyyatın aparılması və müddətin uzadılması Qaydaları"nda qeyd olunan təsnifat və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2018-ci il tarixli 311 nömrəli "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi", "Avropa kredit transfer və Toplanması Sistemi"nə uyğun hazırlanmış və təsdiq edilmişdir. Belə ki, Bakı Biznes Universiteti tərəfindən tərtib edilən Təhsil proqramlarında ixtisasın və fənlərin təlim nəticələri qeyd olunmuş, əlaqələndirilmiş və matrislər qurulmuşdur. Bu da tələbələrdə kompetensiya əsaslı bilik və bacarıqların formalaşmasında mühüm rol oynayır.

Bakı Biznes Universitetində tədrisin təşkili Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələbləri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.06.2010-cu il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları", magistratura səviyyəsi üzrə isə 12.05.2010-cu il tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş müvafiq ixtisaslar (ixtisaslaşmalar) üzrə Təhsil proqramları və müvafiq ixtisaslar (ixtisaslaşmalar) üzrə Bakı Biznes Universiteti tərəfindən hazırlanmış Təhsil proqramlarına uyğun tədris planları əsasında həyata keçirilir. Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilir.

Universitetdə tədris prosesi normativ-hüquqi aktlarla (Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş "Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirməyə dair təlimat", "Tədris metodu və üsullarının tətbiqinə dair metodiki tövsiyələr" və s.) dəstəklənən tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmaları əsasında təşkil edilir. Tədris prosesində tətbiq olunan tədris metod və üsulları bakalavriat səviyyəsində tələbələrə bilik və bacarıqların, magistratura səviyyəsində isə tədqiqat bacarıqlarının formalaşmasına imkan verir.

Universitetdə təlim və tədris prosesi fəaliyyətin bütün mərhələlərini əhatə edən EMPRO elektron idarəetmə sistemi vasitəsilə həyata keçirilir ki, bu da öyrənmə və tədris ehtiyaclarının tam ödənilməsinə əlverişli şərait yaradır.

Universitetdə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi, həmçinin təhsil sənədinin verilməsi prosesi həm dövlət, həm də daxili normativ aktların tələblərinə uyğun olaraq aparılır. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi (cari və aralıq) zamanı ədalətlilik, obyektivlilik və şəffaflılıq tam təmin edilir. Belə ki, tələbələrin bilik və bacarıqlarının cari qiymət-

ləndirməsində professor–müəllim heyəti fənnin spesifik xüsusiyyətini nəzərə almaqla müxtəlif qiymətləndirmə formalarını (yazılı, üz-üzə, məsafədən, qarışıq, açıq) tətbiq edir. Aralıq imtahanlar isə fənnin spesifik xüsusiyyəti nəzərə alınmaqla yazılı və şifahi formada təşkil edilir. Təhsilalanların aralıq imtahanlarının qiymətləndirilməsi imtahan yazı işlərinin yoxlanılması məqsədilə yaradılan müvafiq komissiyaların tərkibində olan professor-müəllim heyəti tərəfindən aparılır.

Universitetdə akademik heyətə interaktiv, aktiv tədris metodları və distant tədris prosesləri ilə əlaqədar akademik heyətin səriştələrinin yüksəldilməsi məqsədilə fəal-interaktiv təlim metodlarından istifadə, tədrisin planlaşdırılması və auditoriyaların idarə olunması, fəal təlim və layihə metodikası, informasiya-kommunikasiya texnologiyalarının tədrisdə tətbiqi və s. təlimlər keçirilmişdir. Eyni zamanda tədrisin tamamilə elektron idarəetmə sistemi- EMPRO vasitəsilə təşkili ilə əlaqədar bütün akademik heyət intellektual tədris sistemini tam mənimsəmişdir. Universitetdə əmək haqqının differensiallaşdırılması professor-müəllim heyətinin pedaqoji, texnoloji və öz ixtisas sahələri üzrə səriştələri nəzərə alınaraq tətbiq edilir.

Universitetində təhsilalanların fərdi tədris planı Azərbaycan Respublikası Nazirlər kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.3-cü- "Tələbənin fərdi tədris planının tərtibi" bəndinə uyğun təhsilalanın və akademik məsləhətçilərin iştirakı ilə hazırlanır və dekanlıq tərəfindən təsdiq olunur. Müvafiq tədris planlarına uyğun olaraq seçmə fənn blokunda fənlərin seçilməsi üçün təhsilalanlara tam sərbəstlik verilir.

Universitetdə Təhsil proqramlarının monitorinqi "Təhsil proqramlarının dövri qiymətləndirilməsi strategiyası"nın tələblərinə əsasən həyata keçirilir. 2020-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bakalavriat səviyyəsi üzrə təsdiq edilmiş təhsil proqramlarına əsasən ixtisasların və fənlərin təlim nəticələri müəyyən edilmiş, yeni Təhsil Proqramları hazırlanmış və təsdiq edilmişdir. İxtisaslar üzrə müvafiq Təhsil proqramı rəhbərləri tərəfindən aparılmış monitorinqlərin nəticələrinə (hər tədris ilinin sonunda İxtisaslar üzrə proqram rəhbərləri tərəfindən hazırlanan Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatı əsasında) uyğun olaraq təkmilləşdirilmişdir. Hesabat dövrü ərzində ümumilikdə 364 fənn proqramı təkmilləşdirilərək yenidən nəşr olunmuşdur.

Universitetdə "Karyera və Məzunlarla İş Mərkəzi" Rektorun 16.09.2013-cü il tarixli 171 saylı əmri ilə yaradılmışdır. Mərkəz öz fəaliyyətini "Karyera və məzunlarla iş mərkəzinin Əsasnaməsi" əsasında hazırlanmış illik iş planı ilə təşkil edir və hər tədris ilinin sonunda iş planı üzrə hesabatları hazırlayır. Mərkəz öz fəaliyyətini işə götürənlərin ehtiyacları, əmək bazarında baş verən dəyişikliklər, beynəlxalq çağırışlar və müasir bacarıqların tələbə və məzunlarda formalaşdırılması istiqamətində qurmuşdur. Mərkəz öz fəaliyyətində maraqlı tərəflərin iştirakını təmin edir. Mərkəzin

fəaliyyəti Universitet-Tələbə-Məzun-Sənaye dialoqunun təmin edilməsi əsasında aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və məşğulluq" alt sistemində 2018-2022-ci illər əsasında məzunların məşğulluq reytinqi üzrə universitetlərin sıralamasında Bakı Biznes Universiteti ilk 11 universitet arasında 58,5%-lə 4-cü yerdə qərarlaşmışdır.

Universitetdə təlim-tədris prosesinin təşkilində müxtəlif yanaşmalarından istifadənin əsas hədəfi bilikli, bacarıqlı və səriştəli intellektual mütəxəssis – kadr formalaşdırmaqdır. Bu sahədə məqsədyönlü və davamlı işlər həyata keçirilməkdədir. Bunun nəticəsidir ki, Respublikamızda ilk dəfə olaraq 2022-2023-cü tədris ilində müvafiq kvalifikisya üzrə məzunların 38%-i Universiteti bitirmələri ilə əlaqədar dövlət təhsil sənədini almaqla bərabər eyni zamanda peşə bacarıqları üzrə sertifikatlaşaraq əmək bazarına daxil olmuşlar. Universitet qeyd edilən fəaliyyətləri uğurla davam etdirərək növbəti illərdə də əmək bazarının müasir tələblərinə cavab verən, rəqəmsal səriştələrə və sertifikatlaşmış yüksək peşə bacarıqlarına malik olan mütəxəssis-kadrların hazırlanmasını hədəfləyir.

**4. Elmi-tədqiqat istiqaməti üzrə**

Bakı Biznes Universitetinin elmi-tədqiqat fəaliyyəti Elmi-tədqiqat Strategiyasına əsaslanır. Elmi-tədqiqat Strategiyası Universitetin 2019-2023-cü illər üzrə Ümumi Strateji inkişaf planına əsasən hazırlanmışdır. Həm yerli həm xarici tərəfdaşlar üçün Strategiyanın əlçatanlığı BBU-nun rəsmi saytında Azərbaycan və ingilis dillərində yerləşdirilməsi ilə təmin edilmişdir. Strategiyaya uyğun olaraq Universitetin elmi fəaliyyətinin istiqaməti 3 illik müddəti əhatə etməklə, 2019-2021-ci illərdə «Azərbaycanın iqtisadi inkişaf strategiyası: davamlı və dayanıqlı inkişafın təmin edilməsi istiqamətləri» mövzusunda qəbul edilmiş, professor-müəllim heyəti tərəfindən yerinə yetirilmişdir, 2022-2025-ci illər üçün isə «Müasir investisiyalar məkanı: post-konflikt dövründə işğaldan azad edilmiş ərazilərin bərpası kontekstində» mövzusunda müəyyən edilmiş, hal-hazırda yerinə yetirilməkdədir. 2014-2018-ci illərdə Universitetin elmi fəaliyyəti «2014-2018-ci illər üzrə Elmi-tədqiqat fəaliyyətinin inkişaf planı»na əsasən «Azərbaycan Respublikasında azad bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan milli iqtisadiyyatın inkişafı istiqamətləri» mövzusunda 5 illik müddət üzrə təsdiqlənmiş elmi-tədqiqat istiqaməti üzrə həyata keçirilmişdir.

Elmi-tədqiqat fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün tədqiqatçılara maddi və texnoloji resursların mövcudluğu baxımından Universitetdə münbit şərait yaradılmışdır. Belə ki, informasiya tələbatına uyğun kitabxana fondu ənənəvi çap məhsulu ilə yanaşı, elektron resurslarla da təchiz edilmişdir. Həmçinin, Universitetin kitabxanası 2022-ci ildən etibarən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) və beynəlxalq EİFL.net Konsorsiumunun üzvüdür. Elmi-tədqiqatın aparılması üçün «Tədqiqat və innovasiya mərkəzi», hər kafedranın nəzdində laboratoriyalar yaradılmış, elmi tədbirlərin keçirilməsi üçün konfrans zalı mövcuddur. Bundan əlavə,

tədqiqatçıların beynəlxalq informasiya məlumat bazalarına da çıxışı imkanı yaradılmışdır.

Gənc tədqiqatçıların təşkilatlanması magistratura pilləsində və fəlsəfə doktoru proqramı üzrə doktorantura səviyyəsində həyata keçirilir. Gənc tədqiqatçıların təşkilatlanması magistratura pilləsində 9 ixtisas üzrə, doktorantura səviyyəsində isə 3 ixtisas üzrə aparılır. Bundan əlavə, bakalavriat və magistratura pillələrində gənc tədqiqatçıların təşkilatlanması müvafiq kafedralar üzrə Universitetdə Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti (TEC) əsasında həyata keçirilir. Əlavə olaraq, 5304.01 – «İqtisadi fəaliyyət növləri», 5308.01 – «Ümumi iqtisadiyyat», 5312.01 – «Sahə iqtisadiyyatı» ixtisasları üzrə iqtisad elmləri sahəsində fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi ED 2.46 olan Bakı Biznes Universiteti və Azərbaycan Kooperasiya Universitetinin Birgə Dissertasiya Şurası fəaliyyət göstərir.

Hesabat illəri ərzində «Audit» jurnalının beynəlxalq elmi aləmə inteqrasiyası istiqamətində müəyyən işlər görülmüşdür. Belə ki, jurnalda nəşr edilən məqalələrin texniki strukturu beynəlxalq tələblərə uyğun hazırlanmış, jurnal Google Scholar, Crossref, e-library, ResearchBib, Rootindexing, Advanced Science Index kimi informasiya bazalarında qeydiyyatdan keçmiş, jurnalın beynəlxalq standartlara uyğun rəsmi veb səhifəsi yaradılmış və rəqəmsal obyektin identifikatoru (DOI) əldə edilmişdir.

Universitetdə akademik dürüstlüyün və antiplagiat siyasətinin səmərəli həyata keçirilməsi üçün, plagiat yoxlanışı üzrə proqram təminatı tətbiq edilir. İmtahan müddətində köçürmə hallarının qarşısının alınması üzrə mexanizmlər mövcuddur.

Akademik heyətin elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması məqsədilə «Bakı Biznes Universitetində proqram rəhbəri-kafedra müdirinin və pedaqoji heyətin əmək haqqının diferensiallaşdırılmasına dair Əsasnamə» təsdiq edilmişdir.

Hesabat illəri ərzində Universitetdə 8 beynəlxalq səviyyəli, 22 respublika səviyyəli elmi konfranslar, 8 digər elmi tədbir, 7 Tələbə Elmi Cəmiyyəti tərəfindən təşkil edilmiş elmi konfranslar, 3 birgə təşkil edilmiş simpozium və konfranslar, ümumilikdə isə 48 elmi xarakterli tədbir keçirilmiş, həmin tədbirlərdə digər müəssisə və ölkələrdən iştirakçıların sayı 986 nəfər olmuşdur, onlardan 68 nəfəri xarici ölkələrdən olmuşdur. Bundan əlavə, Universitetin kafedralarında illik tədqiqat mövzularına uyğun 471 elmi seminar keçirilmişdir.

Elmi-tədqiqat fəaliyyətinin tədrisə inteqrasiyası yerinə yetirilən elmi fəaliyyətin nəticələrinin akademik heyət tərəfindən hazırlanan tədris-metodiki vəsaitlərində öz əksini tapmışdır. Qeyd edək ki, Bakı Biznes Universitetinin özünün nəşriyyatı, nəşr sistemi və mətbəəsi mövcuddur. Akademik heyət tərəfindən hazırlanan tədris-metodiki vəsaitlər bu mətbəədə nəşr edilir. Belə ki, hesabat illəri ərzində professor-müəllim heyəti tərəfindən ümumilikdə 47 adda 19200 sayda tədris-metodiki vəsaitləri hazırlanmışdır. Onlardan: 14 adda 5000 sayda dərslik, 20 adda 9000 sayda dərs vəsaiti, 5

adda 1500 sayda metodik vəsait, 7 adda 3500 sayda konfrans materialı, 1 adda 200 sayda monoqrafiya, 364 sayda fənn proqramları hazırlanmışdır. Bundan əlavə, 2017-2023-cü illəri əhatə edən müddətdə akademik heyət tərəfindən ölkədə və xaricdə nəşr edilən məqalə və tezislərin sayı 1053 ədəd olmuşdur. Ümumilikdə hesabat dövrü ərzində professor-müəllim heyəti tərəfindən 2705,69 çap vərəqi həcmində elmi işlər yerinə yetirilmişdir.

Hesabat dövründə Universitet bir sıra yerli və xarici müəssisələrlə elm sahəsi daxil olmaqla digər sahələri də əhatə edən əməkdaşlıq müqavilələri bağlamışdır.

Universitetdə aparılan tədqiqat fəaliyyətin nəticəsi olaraq hazırlanmış 3 layihə beynəlxalq qrant qazanmış, əlavə olaraq 2 beynəlxalq layihədə Universitet tərəfdaş olaraq iştirak edir.

Akademik heyət tədqiqat bacarıqlarının inkişafı üzrə müxtəlif sertifikatlar əldə etmişdir. Cari ildə tədqiqat bacarıqlarının inkişafı məqsədilə professor-müəllim heyəti üçün STATA proqram təminatı ilə işləmək bacarıqlarını formalaşdırılması üzrə təlim təşkil edilmiş, sertifikatlaşma ilə nəticələnməsi nəzərdə tutulmuşdur.

Özünütəhlil hesabatının nəticəsi olaraq, qeyd etmək olar ki, 2019-2023-cü illər üzrə Elmi-tədqiqat strategiyasının əsas istiqamətlərinin həyata keçirilməsinə dair aşağıdakı işlər yerinə yetirilmişdir:

- Universitetdə davamlı tədqiqat mühitinin yaradılması və elmi-tədqiqat işlərinin səmərəlliyinin yüksəldilməsi;
- akademik heyətin tədqiqat bacarıqlarının inkişafına yönəlmiş tədbirlərin həyata keçirilməsi;
- akademik dürüstlük və antiplagiat siyasətinin təmin edilməsi məqsədilə antiplagiat sisteminin qurulması;
- elmi-tədqiqat fəaliyyəti sahəsində yerli və beynəlxalq əlaqələrin genişləndirilməsi;
- bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil alan gənc tədqiqatçıların tədqiqat bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi;
- elmi tədqiqat fəaliyyətinin nəticələrinin tədris prosesinə və əmək bazarına inteqrasiyasının təmin edilməsi;
- Universitetin elmi nəşri olan "Audit" jurnalının beynəlxalq xülasələndirmə bazalarına daxil edilməsi prosesi üzrə müvafiq işlər yerinə yerilmişdir.

Düşünürük ki, 2024-2028-ci illər üzrə Universitetin ümumi Strateji inkişaf planının elmi-tədqiqat sahəsi istiqamətində yerinə yetirilən fəaliyyətin nəticələrinin əmək bazarına inteqrasiyasının genişləndirilməsi, patentlərin əldə edilməsi və kommersiyalaşdırılması, akademik heyətin tədqiqat bacarıqlarının daha da inkişaf etdirilməsi və beynəlxalq xülasələndirmə bazalarında elmi nəşrlərin sayının artırılması əsas hədəflərdən olacaqdır.

**5. İdarəetmə sistemi istiqaməti üzrə**

Bakı Biznes Universitetinin ali idarəetmə orqanı onun Elmi Şurasıdır. Elmi Şura Universitetin nizamnaməsinə uyğun olaraq müvafiq qərarlar qəbul edir və onun icrasına nəzarəti təmin edir. Universitetdə ictimai əsaslarla fəaliyyət göstərən digər idarəetmə orqanları Fakültə Elmi Şuraları, Elmi-Metodiki Şuradır. Fakültələrin idarəetmə orqanı Fakültə Elmi Şuralarıdır. Elmi-metodik şura isə elmi və metodiki sahədə, habelə tədris metodiki vəsaitlərin müzakirə olunaraq nəşr olunması və ya nəşrə tövsiyə olunması ilə əlaqədar qərarlar qəbul edir.

Bakı Biznes Universitetinin professor-müəllim və inzibati heyətinin vəzifə öhdəliklərinə dair Əsasnaməsinə uyğun olaraq rektor, 4 prorektor  və digər rəhbər strukturları olan; dekan, kafedra müdiri, şöbələr, professor, dosent, baş müəllim, müəllim, laboratoriya müdiri, tyutor, baş mühasib, mühasib, xəzinədar, inspektorlar, təhlükəsizlik xidməti, yeməkxana, tibb məntəqəsinin işçilərinin vəzifə öhdəlikləri göstərilmişdir.

Hər bir İdarəetmə orqanı və təşkilati struktur vahidinin tədris ilinin əvvəlində illik iş planları tərtib olunur və rəhbərlik tərəfindən təsdiq edilir. İdarəetmə strukturları illik iş planlarına əsasən fəaliyyət göstərir və tədris ilinin sonunda Universitetin Elmi Şurası qarşısında hesabat verir.

Bakı Biznes Universitetində insan resurslarının idarə edilməsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinin, Azərbaycan Elm və Təhsil Nazirliyinin müvafiq əsasnamələrinin, Universitetin nizamnaməsinin və Universitetin Elmi Şurasının qərarlarının tələblərinə əsasən həyata keçirilir.

Bakı Biznes Universitetində professor-müəllim heyətinin potensialının və peşəkarlığının artırılması Universitetin strateji inkişaf planlarına əsasən həyata keçirilir.

Akademik və inzibati heyətin mükafatlandırılması Universitetin pedaqoji-elmi və inzibati-texniki heyətin mükafatlandırılmansına dair Əsasnaməsinə uyğun aparılır. İşçilərin əmək fəaliyyətində motivləşdirilməsi əmək haqqının diferensiallaşdırılması sisteminə əsasən aparılır. Bu sistem işçilərin fəaliyyətini müqayisəli formada araşdırılması və qiymətləndirilməsini tələb edir.

Bakı Biznes Universitetində maliyyə resurslarının idarə edilməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, Mühasibat uçotu haqqında  qanuna, Universitetin nizamnaməsinin tələblərinə əsasən həyata keçirilir.

Universitetin maliyyə resurslarının planlaması Strateji inkişaf planı və onun icrasına dair dövrü icra planlarında nəzərdə tutulmuşdur.

Universitet üzrə maliyyə resurslarının mənbəyi dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr və qrantlar hesab edilir. Maliyyə resurslarının mənbələri Universitetin  nizamnamənin 4.8, 7.2, 7.3 maddələrinə uyğundur.  Büdcə smetasının tərtibi Universitetin Nizamnaməsinin 7.5-ci maddəsinə uyğun aparılır. Büdcə smetası Universitetin müvafiq ixtisasları üzrə onların tədris illəri nəzərə alınmaqla tərtib edilir.

Maliyyə resurslarının təyinatı üzrə istifadəsinə nəzarət Universitetin mühasibatlığı tərəfindən həyata keçirilir. Maliyyə resurslarının təyinatı üzrə istifadəsi ilə əlaqədar Universitetin təsisçisinə dövrü olaraq hesabatlar verilir. Maliyyə resurslarının təyinatı üzrə istifadə məsələləri ilə əlaqədar Universitetin mühasibatlığı üzərində cari nəzarət Rektor tərəfindən həyata keçirilir.

Maliyyə və mühasibat hesabatlarının hazırlanması Vergi məcəlləsinin Vergi hesabatının tərtib edilməsi və verilməsi qaydasına dair 72-ci Maddəsinə uyğun olaraq aparılır və təqdim olunur. Universitet üzrə Maliyyə vəziyyəti haqqında hesabatı, Muzdlu və qeyri muzdlu işlə əlaqədar vahid bəyannamə, dövlət sosial sığorta haqqına dair, tibbi icbari sığorta, işsizlikdən sığorta bəyannamələri elektron qaydada müvafiq olaraq təqdim olunur. Statistika Komitəsinə aylıq və illik hesabatlar elektron qaydada təqdim olunur. Azərbaycan Təhsil Nazirliyinə təqaüdlərlə, güzəştli təhsillə əlaqədar hesabatlar təqdim olunur.

Bakı Biznes Universitetində informasiya idarəetmə sistemi proqram təminatı, informasiya texnologiya vasitələri sistemi kimi istifadə olunur. Universitetin informasiya idarıetmə sistemi 2016-cı ildən etibarən Bakı Biznes Universitetinin Kompüter Mərkəzi tərəfindən yazılmış və quraşdırılmış "Elektron Universitet" proqramı ilə həyata keçirilmişdir. Proqram universitetdə tədris və elmi fəaliyyətin həyata keçirilməsinin bütün tərəflərini əhatə etmişdir. Sözügedən proqram 2022-ci ilə qədər istismar olunmuş, lakin həmin ildən etibarən informasiya idarəetmə sistemi kimi EMPRO proqram təminatından istifadə edilir.

EMPRO informasiya idarəetmə sistemində funksiyalar və giriş imkanları təyinatı üzrə müvafiq uyğun strukturlara məxsusdur. Yəni hər bir struktur vahidi və ya istifadəçi imtiyazlar üzrə proqramın funksiyalarından yararlana bilərlər.

Universitet üzrə tədrisin rəqəmsallığını təmin etmək məqsədilə elektron informasiya sistemləri formalaşdırılmış, onlardan informasiya texnologiyaları vasitəsilə istifadə olunması imkanları təmin edilmişdir. Tədris fəaliyyətinin rəqəmsallaşdırılması məqsədilə aşağıdakı işlər görülmüşdür.

- Bütün fəaliyyət strukturları kompüterləşdirilmişdir.
- Tədris auditoriyaları elektron lövhələrlə təchiz olunmuşdur.
- Kitabxana elektron və texniki vasitələrlə təchiz olunmuşdur.
- Elektron kitab resursları fondu yaradılmışdır.
- Mühazirə materialları elektronlaşdırılmışdır.
- Slayd bankı yaradılmışdır.

Bakı Biznes Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dts.edu.az, Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi ilə informasiya mübadiləsi çərçivəsində birgə fəaliyyət göstərir.

Bakı Biznes Universitetində ictimaiyyətlə əlaqələrin təmin olunması vasitəsi kimi https://bbu.edu.az elektron saytı fəaliyyət göstərir. Həmin sayt Universitet, Tədris, Elmi-Tədqiqat,

Kitabxana, İctimai İşlər, İdman, Beynəlxalq Əlaqələr, Elektron qeydiyyat menyusundan ibarətdir. Həmin menyular müvafiq olaraq alt menyulardan ibarət olaraq yuxarıda sadalanan istiqamətlər üzrə ictimaiyyətlə geniş və əhatəli informasiya mübadiləsinin həyata keçirilməsinə imkan verir. Universitetin saytında məlumatlar şəffaf formada əks olunmaqla, aktuallığı təmin olunur. Saytda Universitet haqqında ictimaiyyəti maraqlandıran, tələbələri, valideynləri, əmək bazarının nümayəndələri üçün əhəmiyyət kəsb edən məlumatlar yerləşdirilir. Saytın ana səhifəsində xəbərlər və fotoqalereya bölməsi mövcuddur.

İctimaiyyəti məlumatlandırmanın digər vasitələri kimi istifadə olunan informasiya vasitələrindən Universitetin mətbuu orqanı olan Audit jurnalı və onun saytıdır. Audit jurnalında Universitetin professor-müəllim heyətinin, doktorantların elmi məqalələri dərc olunur. Bu jurnal Universitetinin elmi potensialını əks etdirən bir mətbu orqanıdır.

Audit jurnalının rəsmi saytı Jurnal haqqında, Redaksiya heyəti, Nəşr etikası, Resenziya, müəlliflər üçün məlumat, məqaləni təqdim et, arxiv, əlaqə menyusundan ibarətdir. Jurnalın rəsmi saytı jurnal haqqında, habelə məqalələrin təqdim olunması və nəşr edilməsi qaydaları haqqında məlumatlar verir. Audit Jurnalının rəsmi saytının Arxiv bölməsində jurnalın indiyədək olan buraxılışlarını cəmləşdirməklə, həmin buraxılışların oxucular tərəfindən əlçatanlığını təmin edir.

Bakı biznes Universitetində tələbə qəbulu ilə əlaqədar təbliğat kompaniyası fəaliyyət göstərir ki, həmin kompaniya Universitet haqqında ictimaiyyətdə, xüsusən də abituriyent və valideynlərdə ətraflı bilgi yaradır.

Audit jurnalının, Universitetin saytının və tələbə qəbulu kompaniyasının ümumi idarə edilməsini və monitorinqini universitetin rəhbərliyi həyata keçirir.

Bakı Biznes Universitetinin idarəetmə sisteminin müasir vəziyyətinin təhlilindən belə qənaətə gəlmək olar ki, Universitetin idarəetmə sistemi struktur baxımından tam təkmil olmaqla, mövcud qanunverici-normativ hüquqi aktların tələblərinə uyğundur. Lakin dünyada gedən qlobal proseslər rəqəmsal texnologiyaların tətbiqi ilə, idarəetmədə səmərəliliyin daha da yüksəldilməsi üçün sənəd dövriyyəsinin yaxın zamanlarda tam elektronlaşdırılmasını tələb edir. Bu məqsədlə Universitet növbəti strateji inkişaf planında (2024-2028-ci illər) sənəd dövriyyəsinin tam elektronlaşdırılmasını strateji hədəflərdən biri kimi qarşıya qoymuşdur.

**6. İnfrastruktur istiqaməti üzrə**

Bakı Biznes Universiteti Bakı şəhəri, Yasamal rayonu, H.Zərdabi prospekti 88a ünvanında dövlət standartlarına və müasir tələblərə cavab verən ümumi sahəsi 9672,3 $m^2$ olan 4 tədris korpuslu binada yerləşir. Onun faydalı sahəsi 5677,6 $m^2$ təşkil edir. Bakı Biznes Universitetində inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 24 (ümumi sahəsi 883,7 $m^2$), akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 9 (ümumi sahəsi 337,4 $m^2$) otaq təşkil edir.

Kitabxananın faydalı sahəsi 432 $m^2$-dir. Kitabxana fondu ənənəvi çap məhsulu ilə yanaşı, elektron resurslarla formalaşdırılıb, elektron kataloqu təkmilləşdirilib. 2022-ci ildən etibarən kitabxana Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) üzvü olmuşdur, Az.KİK beynəlxalq Electronic Information for Libraries (EİFL.net) konsorsiumun üzvüdür.

İxtisaslaşmış geniş fonda malik olan kitabxananın fondu 253526 nüsxə təşkil edir və açıq rəf üslubunda tərtib olunmuşdur. Azərbaycan dilində – 245180 nüsxə, ingilis dilində – 4778 nüsxə, rus dilində – 3568 nüsxə ədəbiyyat mövcuddur. Kitabxanada fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiyalarından yaradılan və 231 nüsxədən ibarət dissertasiya fondu professor-müəllim heyəti, doktorantların və magistrantların ixtiyarına verilmişdir.

Universitetdə mövcud ixtisaslara uyğun auditoriyalar, laboratoriyalar, 11 linqafon kabinetləri, lazımi avadanlıqlarla təchiz olunmuş və tələbələrin istifadəsinə verilmişdir. Tədris auditoriyalarının hamısında internet şəbəkəsinə kabelli çıxışı olan ağıllı lövhələr quraşdırılmış və tədrisin aparılması üçün yüksək şərait yaradılmışdır.

Universitetdə hər bir kafedranın spesifikliyinə uyğun və ixtisaslar üzrə təlim prosesinin həyata keçirilməsinə xidmət edən laboratoriyaları mövcuddur. Ümumilikdə laboratoriyaların sayı 8-dir, onların ümumi sahəsi 319,8 $m^2$ təşkil edir. Həmçinin tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə hər birində 15 müasir tipli kompüterlər və ağıllı lövhə ilə təchiz olunmuş 6 kompüter laboratoriyası təşkil olunmuşdur.

Bakı Biznes Universiteti tələbələrinin təcrübə və karyera istiqamətində fəaliyyətlərinin məqsədyönlü və faydalı təşkili üçün tərəf müqabillərin və təşkilatların düzgün seçiminə xüsusi önəm verir. Bu məqsədlə əmək bazarının aparıcı dövlət və özəl qurumları ilə əməkdaşlıq edilir.

Universitetin auditoriyaları tədrisin həm əyani həm də distant təşkilinə imkan verən müasir texniki avadanlıqlarla təchiz edilmişdir. Bu otaqlar distant təhsilin təşkili üçün kompüter, ağıllı lövhə ilə təchiz olunmuşdur. Distant təhsilin aparılması üçün universitetin kompüter avadanlıqlarının müvafiq cihazlarla təmin edilməsinə xüsusi diqqət yetirilir (mikrofonlar, spikerlər, kameralar və s.). İstifadədə olunan bütün elektron cihazların yüksəksürətli kanalla (200 Mb/s) internetə çıxışı təmin edilmişdir. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

Universitetin balansında bir sıra tədbirlərdə istifadə olunması üçün professor-müəllim heyəti və digər əməkdaşların istifadəsində 6 ədəd minik avtomobil vardır. Həmçinin qonaqların qarşılanması və təsərrüfat-təchizat işlərinin görülməsi üçün 2 yük avtomobili və 1 mikroavtobus istifadə edilir.

Universitetdə müvafiq sayda auditoriyalar, kompüter otaqları, linqafon otaqları, laboratoriyalar və tədris otaqları, kabinetlər, kafedra otaqları, eyni zamanda fasiləsiz fəaliyyət göstərən elektron kitabxana (lib.bbu.edu.az) daim istifadədədir. Bakı Biznes Universiteti və "SİNAM MMC" arasında elektron tədrisin idarəolunma sisteminin (bbu.empro.az) tətbiqi ilə bağlı 31.01.2022-ci il

tarixli müqavilə imzalanmışdır. EMPRO proqram təminatı vasitəsilə hər bir istifadəçinin şəxsi kabinetləri fəaliyyət göstərir ki, bunlar "onlayn" giriş üçün daim əlçatandır. Elektron təhsil sistemində müəllimlərin qiymətləndirilməsi, tədris vəsaitlərinin yerləşdirilməsi, tələbələrin davamiyyəti, aldığı qiymətlər kimi proseslərə nəzarət edilir.

Universitetdə sağlamlıq imkanları məhdud tələbələr üçün "onlayn" formada təhsilalma imkanları mövcuddur. Bu kateqoriyaya aid tələbələr üçün dərs cədvəli qurulan zaman üstünlük Universitetin aşağı mərtəbələrində yerləşən auditoriyalara verilir. Eyni zamanda, sağlamlıq imkanları məhdud şəxslərin universitetin binasına daxil olması üçün xüsusi texnoloji avadanlıq quraşdırılmışdır. Təhsilin inklüzivliyinin təmin olunması məqsədilə tədris prosesi interaktiv üsullarla həyata keçirilir və bu da eşitmə və görmə zəifliyi olan tələbələr üçün məqsədəuyğundur.

Universitetin əməkdaşları və təhsilalanlar üçün ümumi sahəsi 785 $m^2$ olan yeməkxanalar mövcuddur. Müasir tələblərə cavab verən yeməkxanada eyni vaxtda 400-dən çox tələbə və professor-müəllim heyətinə xidmət göstərən qidalanma üçün nəzərdə tutulan zallar istifadəyə verilib.

Bakı Biznes Universitetinə Rahim FS firması tərəfindən balansında olan 2-ci Alatava-2 ünvanında yerləşən binada tələbələr tərəfindən yataqxana kimi istifadə olunması məqsədilə müvafiq yer ayrılmışdır. Yataqxana üçün sahə tələbələrin müraciətlərinə əsasən ayrılır.

Universitetdə ümumi sahəsi 48 $m^2$ olan tibb məntəqəsi mövcuddur. Burada 2 nəfər tibb personalı (həkim və tibb bacısı) zərurət yarandıqda əməkdaşlara və təhsilalanlara ödənişsiz ilkin tibbi yardım göstərirlər. Universitet tərəfindən tibbi xidmət üçün zəruri bütün dərman və ləvazimatlar mütəmadi olaraq təmin olunur. Eyni zamanda tibb personalı tərəfindən iaşə xidməti və sanitar qovşaqlarının mövcud standart və normalara uyğunluğu daim yoxlanılır.

Universitetdə Kompüter mərkəzinin əməkdaşları tərəfindən şəbəkə və avadanlıqların, serverlərin təhlükəsizliyi, proqram təminatının yenilənməsi, verilənlər bazasının surətlərinin saxlanılması və digər xidmətlər göstərilir. Bundan əlavə, EMPRO elektron tədris proqram təminatının Universitetdə tətbiqi ilə əlaqədar bağlanmış 31.01.2022-ci il tarixli müqaviləyə əsasən hər ay "SİNAM MMC"-nin əməkdaşları tərəfindən proqram təminatına texniki dəstək xidməti göstərilir.

Tədrisin səmərəli təşkili üçün ağıllı lövhələrlə təmin edilmiş auditoriyalar, elektron tədrisin idarəolunma sisteminin fasiləsiz işini və internet şəbəkəsinə çıxışını təmin edən lokal serverlər tələbə sayına uyğundur. Bütün mövcud kompüterlərin və ağıllı lövhələrin yüksəksürətli (200 Mb/s) internetə çıxışı təmin olunmuşdur. Lokal şəbəkə ilə yanaşı, Universitetdə simsiz (Wi-Fi) şəbəkə də quraşdırılmış və istifadəyə verilmişdir.

Universitetin tədris binalarında aparılan təmir-tikinti işlərinin icra olunmasının keyfiyyətinə, auditoriyada işıqlandırma sisteminə, istilik sisteminə, sanitar qovşaqlarının normal işləməsinə, struktur bölmələrinin iş otaqlarının, auditoriyaların zəruri inventar və mebellə təchiz edilməsinə, onların mühafizəsinə və vaxtında təmir olunmasına daim nəzarət edilir. Eyni zamanda mühasibatlıq

tərəfindən hər il inventarizasiya həyata keçirilir və müvafiq aktlarda öz əksini tapır (sonuncu inventarlaşma 28.11.2022-ci il tarixli 274 №-li əmr).

Biznes Universitetinin 93 $m^2$ sahəsi olan "Elmi-tədqiqat və innovasiya mərkəzi" fəaliyyət göstərir. Bu mərkəzdə Universitetin elmi-tədqiqat və innovasiyalar üzrə işlərin təşkili və koordinasiyası həyata keçirilir. Mərkəz ağıllı lövhə, noutbuklar, səsgücləndirmə və tərcümə avadanlıqları və digər müvafiq avadanlıqlarla təchiz edilmişdir.

Universitetdə müvafiq ixtisaslar üzrə tədris standartlarında nəzərdə tutulan ixtisasyönümlü fənlərin laboratoriya dərslərinin aparılması üçün müasir standartlara cavab verən 8 tədris-metodiki laboratoriyalar fəaliyyət göstərir. Kafedralar tərəfindən aparılan elmi tədqiqatların müzakirəsi və tədqiqat nəticələrinin maraqlı tərəflər (akademik heyət, sənaye nümayəndələri və s.) üçün təqdim edilməsinə imkan verən, müvafiq texniki baza ilə (kompüter və ağıllı lövhələrlə) təchiz edilmiş laboratoriyalar vardır.

**7. Beynəlmiləlləşmə istiqaməti üzrə**

Bakı Biznes Universitetinin Beynəlmiləlləşmə siyasəti Universitetin Elmi Şurasının 27 dekabr 2018-ci ildə təsdiq olunmuş Strateji İnkişaf planına əsasən hazırlanmışdır. Beynəlmiləlləşmə siyasətində əcnəbi tələbələrin qəbulu, tələbə və müəllim mübadiləsi, akademik heyət və beynəlxalq tədqiqatçılara münasibət, universitetin beynəlxalq təhsil sahəsində fəaliyyət göstərən təşkilatlarla əməkdaşlığı və ikili diplom proqramlarında iştirakı öz əksini tapmışdır.

Universitetdə Beynəlmiləlləşmə siyasətinin əsası Beynəlxalq Əlaqələr üzrə prorektorluq tərəfindən aparılır. Prorektorluğa daxil olan struktur bölmələr universitetin ümumi strukturuna və Beynəlmiləlləşmə siyasətinə uyğun fəaliyyət göstərir. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq prorektorluğa daxil olan müvafiq bölmələr tərəfindən tələbə və müəllim (akademik və inzibati heyət) mübadiləsi, əcnəbi professor müəllim heyətinin təlim tədris prosesinə cəlbi və ikili diplom proqramları həyata keçirilir. Bakı Biznes Universitetinin Elmi Şurasının 09.12.2022-ci il tarixli qərarı ilə də təsdiq olunmuş "Beynəlxalq Mübadilə proqramlarında İştiraka Dair" qadalarda tələbə mübadiləsi, akademik və inzibati heyətin mübadiləsi və kreditlərin tanınması AKTTS-in tələblərinə uyğun olaraq tənzimlənir. Hesabat dövründə universitetimiz, beynəlxalq reytinqlərdə fəal iştirak edərək müvafiq yer tutmuşdur. BBU növbəti illərdə nüfuzlu reytinq sıralamalarında öz mövqeyini daha da gücləndirməyi hədəfləyir.

Bakı Biznes Universiteti, beynəlxalq təhsil sahəsində ən çox qrant layihələrini icra edən universitetlərdən biridir. Universitetimiz, beynəlmiləlləşmə sahəsində fəaliyyətləri üçün maliyyə resurslarını əsasən beynəlxalq qrant layihələrindən ayrılan vəsaitlərlə təmin edir. Maddi-texniki baza ilə yaxşı təchiz olunmuş struktur bölmələrimiz, dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almış mütəxəssislərlə yanaşı, yerli təhsil müəssisələrindən təhsil almış peşəkarları da əhatə

edir. Beynəlmiləlləşmə üzrə araşdırma və təhlillərin aparılması və yeni layihələrin hazırlanması üçün ehtiyac duyulan bacarıqları dəstəkləmək məqsədilə mütəmadi olaraq əməkdaşlarımızın davamlı təlim ehtiyacları müəyyən edilir.

Beynəlxalq Əlaqələr üzrə prorektorluq və struktur bölmələri tərəfindən illik hesabatlara və əsas fəaliyyət göstəricilərinə əsasən illik dinamikanın eyni zamanda ehtiyacəsaslı təkmilləşdirmə proseslərinin aparılması həyata keçirilir

Bakı Biznes Universitetinin Beynəlmiləlləşmə siyasətinin icrası dövründə - 2017-ci ildən 2023-cü ilədək Ali Təhsilin inkişafı sahəsində ümumilikdə 4 milyon 810 min manat dəyərində büdcəsi olan 3 böyük Erasmus plus layihəsinin müəllifi olmuşdur. Üç layihədə ümumilikdə 23 yerli universiteti əhatə etmişdir. Qeyd olunan layihələr Bakı Biznes Universitetinin inkişafına təkan verməklə yanaşı respublikamızda fəaliyyət göstərən 23 ali təhsil müəssisənin də inkişafında mühüm rol oynamışdır. "Azərbaycan Universitetlərində Keyfiyyət Təminat Mərkəzlərinin Yaradılması və İnkişaf Etdirilməsi (EQAC)" (2017-2021) layihəsi çərçivəsində təşkil olunmuş təlimlərdə 11 yerli universitetdən 206 nəfər tərəfdaş mütəmadi təlimlərdə iştirak etmişdir. Layihə nəticəsində 11 ali təhsil müəssisəsində Keyfiyyət təminatı mərkəzləri yaradılmış və mövcud mərkəzlərin fəaliyyətləri inkişaf etdirilmişdir. Mərkəzlərdə işləyən əməkdaşlar xarici ekspert tərəfindən təlimlərdən keçərək peşəkarlıq səviyyələri artırılmışdır. Layihənin yekununda Azərbaycan Ali təhsil müəssisələri üçün Keyfiyyət təminatı sahəsində metodik vəsait hazırlanıb təqdim olunmuşdur.

"Azərbaycan Rektorlar Konfransının Yaradılması" (ECAR) layihəsi (2020-2024) müddətində Avropa tərəfdaşlarına 8 səfər təşkil olunmuş və 18 ali təhsil müəssisəsindən 272 nəfər əməkdaş təşkil olunmuş təlimlərdə iştirak etmişdir. Layihə müddətində Azərbaycan ali təhsil sahəsində ilk dəfə olaraq 21 universitet arasında əməkdaşlıq haqqında Çərçivə Sazişi imzalanmışdır. Layihə hal-hazırda uğurla davam edir.

2022-ci ildə Bakı Biznes Universiteti tərəfindən hazırlanmış Azərbaycan Ali Təhsil Müəssisələrində Sahibkarlıq Ekosisteminin Gücləndirilməsi – ENGAGE (2022-2025) layihəsində Azərbaycandan 11 universitet və iki təşkilat, Avropadan isə 5 universitet iştirak edir. Avropa Universitetlərinin mövcud təcrübəsinin öyrənilməsi məqsədi ilə 5 Avropa universitetində təşkil edilmiş təlimlərdə 11 universitetin 130 nəfər tərəfdaş təlimlərdə iştirak etmişdir.

Eyni zamanda universitetimiz Erasmus+ və Mövlanə proqramlarında iştirak edərək tələbə (78 tələbə), müəllim (86 akademik və inzibati heyət) və əcnəbi professorların (92 nəfər) mübadiləsini həyata keçirmişdir.

Qeyd olunan layihələrdən əlavə universitetimiz İsveç Institutu və Polşa Milli Akademik Mübadilə Agentliyi tərəfində maliyyələşən layihələrdə iştirak edərək qrant əldə etmişdir.

Göründüyü kimi apardığımız təhlil nəticələrinə əsasən Bakı Biznes Universitetində Beynəlmiləlləşmə siyasəti uğurla inkişaf edir. Qarşıda təhsildə beynəlmiləlləşmə ilə bağlı olan iri həcmli qrant layihələrin işlənilməsinə ehtiyac vardır. BBU bu qrant layihələrin işlənilməsində liderlik mövqeyini qoruyub saxlamağı Strateji İnkişaf Planında bir hədəf kimi müəyyənləşdirmişdir.

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

1. Təhsil müəssisəsinin Nizamnaməsi;

2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;

3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;

4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;

5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);

6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;

7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;

8. Elmi-tədqiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;

9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;

10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;

11. Təhsil müəssisəsinin maddi-texniki bazası;

12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;

13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;

14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;

15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;

16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;

17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;

18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərsdənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;

19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;

20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;

21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;

22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;

23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;

24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);

25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;

26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.

**Təşkilat komissiyası**

| № | Ad, soyad, ata adı | İMZA |
|---|---|---|
| 1. | p.e.n., prof. Əmirxanov Sabir Abuzər oğlu – sədr | |
| 2. | i.e.d., prof. Abbasov İbad Musa oğlu - üzv | |
| 3. | Heydarov Cavidan Rəsul oğlu – sədr müavini | |
| 4. | i.e.n., dos. Əzizova Xatirə Cinayiddin qızı – üzv | |
| 5. | h.ü.f.d. Abbasova Məleykə Nazim qızı – üzv | |
| 6. | i.ü.f.d. Bayramov Eşqin Əli oğlu – üzv | |
| 7. | i.e.n., dos. Sadıqov Rahim Fərahim oğlu – üzv | |
| 8. | i.ü.f.d. Musayev Şahin Tofiq oğlu – üzv | |